Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

“R.I.S.K.” Elmi İstehsalat Şirkəti

ŞƏMKİR ŞƏHƏRİNİN BAŞ PLANI

İZAHAT YAZISI

“R.I.S.K” EİŞ-nin baş müdiri C.S.Cümşüdov

Layihənin rəhbəri V.T.Səfixanlı

Bakı, 2016-cı il

LAYIHƏNİN TƏRKIBI

Sıra №-si	Adı
I.	**Layihənin qrafik hissəsi:**
A.	***Cizgilər:***
1.	Şəhərətrafı ərazinin planı, M 1:25 000- 1:50 000
2.	Şəhərin Torpaq fondu, M 1:5 000
3.	Ərazinin mövcud istifadə planı *(İstinad Planı)*, M 1:5 000
4.	Ərazinin kompleks qiymətləndirməsi sxemi *(planlaşdırma məhdudiyyətləri)*, M 1:5 000
5.	Baş plan *(Əsas Cizgi)*, M 1:5 000
6.	Şəhərin mərkəzi hissəsinin tikinti – planlaşdırma həlli, M 1:2 000
7.	Ərazinin mühəndis hazırlığı sxemi *(ərazinin relyefinin təşkili ilə)*, M 1:5 000
8.	Şəhərin nəqliyyat sxemi, M 1:5 000
9.	Su təchizatı sxemi, M 1:5 000
10.	Kanalizasiya sxemi, M 1:5 000
11.	Qaz və istilik təchizatı sxemi, M 1:5 000
12.	Elektrik *(rabitə və zəif cərəyan qurğuları ilə)* təchizat, M 1:5 000
II.	**Layihənin mətn hissəsi:**
1.	İzahat Yazısı

ABBREVİATURA VƏ QISALTMALAR

ad – adam	l - litr
“AzH və M” EİB – Azərbaycan Hidrotexnika və Meliorasiya Elm-İstehsalat Birliyi	m – metr
AR RSİİ DP - Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı	m^2 – kvadrat metr
ASSR – Azərbaycan Sovet Sosialist Respublikası	m^3 – kub metr
ASC – açıq səhmdar cəmiyyəti	mb - millibar
ATS – avtomatlaşdırılmış telefon stansiyası	MHA – Müəllif Hüquqları Agentliyi
AzDTN – Azərbaycan Dövlət Texniki Normaları	mərt. – mərtəbə
AzETSPİ - Azərbaycan Elmi-Tədqiqat Su Problemləri Institutu	MİS – mənzil istismar sahəsi
BMT – bərk məişət tullantıları	mkR – mikrorentqen
ºC – Selsi dərəcəsi	mkR/st – mikrorentqen saat
CİS – coğrafi informasiya sistemi	mln. – milyon
DANX - Dövlət Avtomobil Nəqliyyatı Xidməti	mm – millimetr
dBA – desibel akustik	MMC – məhdud məsuliyyətli cəmiyyəti
DBM – dəmir-beton məmulatı	MPM – mərkəzi paylayıcı məntəqə
DLİ – dövlət layihələndirmə institutu	MPL – müfəssəl planlaşdırma layihəsi
EİŞ – elmi istehsalat şirkəti	m/y – məlumat yoxdur
ELİ – elmi layihə institutu	MVA – meqavolt-amper
ES – elektrik yarımstansiyası	MVt - meqavat
ETİ – elmi-tədqiqat institutu	mq/l – milliqram/litr
EVX – elektrik verilişi xətti	m/san. – metr/saniyə
əd - ədəd	NTSÜDQ - natamam tipli sistematik üfüqi drenaj qurğuları
FH – fövqəladə hal	nüs. – nüsxə
FHN – Fövqəladə Hallar Nazirliyi	ÖİN – özünüdaşıyan izolyasiyalı naqillərlər
ha – hektar	pr. – prospekt
HTQ – hidrotexniki qurğu	RRS – radio rale stansiyası
HX – hava xətti	san – saniyə
İƏD – inzibati ərazi dairəsi	SÇİ – suyun çirklənmə indeksi
km – kilometr	SES – su elektrik stansiyası
km^2 – kvadrat kilometr	SMZ – sanitar-mühafizə zonası
kV- kilovolt	SSR – Sovet Sosialist Respublikası
küç. – küçə	SSRİ – Sovet İttifaqı Sosialist Respublikaları
kVt – kilovat	s. - sutka
q/l – qram/litr	st. - stansiya
QPS – qazpaylayıcı stansiyası	ş. – şəhər
QSS – qrunt sularının səviyyəsi	ŞTS – şəhər telefon stansiyası
QTM – qaztənzimləyici məntəqəsi	TY – transformator yarımstansiyası

UGİM – uşaq-gənclər idman məktəbi	y.e. – yeni era
və s. – və sairə	YKÇVNS – yağış kanalizasiyasının çəkib vurma nasos stansiyası
YDM – yanacaqdoldurma məntəqəsi	YKTQ – yağış kanalizasiyanın təmizləyici qurğuları
YDS – yanacaqdoldurma stansiyası	YSM – yanacaq sürtkü materialları
YHQ – yanacaq hava qatışığı	СНиП – строительные нормы и правила

MÜNDƏRİCAT

GİRİŞ **7**

FƏSİL 1. ƏRAZİNİN TƏBİİ VƏ MÜHƏNDİS-GEOLOJİ ŞƏRAİTİ. **10**

1.1. Ümumi məlumat 10
1.2. Ərazinin iqlim şəraiti 10
1.3. Ərazinin hidroqrafiyası və hidroloji şəraiti 12
1.4. Ərazinin torpaq və bitki örtüyü 13
1.5. Ərazinin geoloji quruluşu, geomorfoloji və hidrogeoloji şəraiti 13
1.6. Yerli inşaat materialları 14
1.7. Təbii sərvətlərin vəziyyətinin təhlili. Nəticələr 15

FƏSİL 2. QISA TARİXİ MƏLUMAT **17**

FƏSİL 3. ŞƏHƏRİN ƏVVƏLKİ BAŞ PLANIN HƏYATA KEÇİRİLMƏSİNİN TƏHLİLİ **19**

FƏSİL 4. ŞƏHƏRİN MÖVCUD VƏZİYYƏTİ **21**

4.1. Mövcud tikililər, abadlaşdırma, nəqliyyat və mühəndis təminatı 21
4.2. Şəhərin sanitar-gigiyena vəziyyəti 24
4.3. Şəhərin torpaq fondu və onun istifadə olunması 25

FƏSİL 5. ŞƏHƏRİN MƏSKUNLAŞMA SİSTEMİNDƏ YERİ VƏ ROLU **32**

FƏSİL 6. ŞƏHƏRİN İQTİSADİ BAZASI **33**

6.1. Ümumi məlumat 33
6.2. Sənaye 36
6.3. Tikinti-quraşdırma təşkilatları 38
6.4. Kənd təsərrüfatı 38
6.5. Biznesin inkişafı 41
6.6. Tədarük, anbar və təchizat təşkilatları 43
6.7. Elm və kadr hazırlığı 43
6.8. Turizm və rekreasiya 43
6.9. Rabitə, telekommunikasiyalar və KİV 45

FƏSİL 7. ƏHALİ VƏ ƏMƏK EHTİYATLARI **46**

7.1. Ümumi məlumat 46
7.2. Əhalinin sayı və artım dinamikası 47
7.3. Əhalinin cins-yaş tərkibi 48
7.4. Əmək ehtiyatları və məşğulluq 49
7.5. Məcburi köçkünlər 50
7.6. Əhalinin layihədə qəbul olunmuş sayı 51

FƏSIL 8. ƏRAZİNİN KOMPLEKS QİYMƏTLƏNDİRİLMƏSİ **54**

FƏSIL 9. ŞƏHƏRİN İNKİŞAFI ÜÇÜN ƏRAZİLƏRİN SEÇİLMƏSİ **57**

FƏSIL 10. ƏRAZİNİN PLANLAŞDIRMA TƏŞKİLİ **58**

10.1. Şəhərin ümumi memarlıq-planlaşdırma həlli 58
10.2. Mənzil fondu 61
10.3. Sosial və mədəni-məişət xidmət müəssisələri və idarələri 69
10.4. Yaşıllaşdırma 95
10.5. Əhalinin kütləvi istirahətinin təşkili 96
10.6. Ərazilərinin xüsusi istifadə şərtləri olan zonalar. Planlaşdırma məhdudiyyətləri 97

FƏSİL 11. ƏRAZİLƏRİN ZONALAŞDIRILMASI 111

11.1. Ümumi məlumat 111
11.2. Zonalaşdırılma növləri 111
11.3. Ərazi zonalarının tərkibi, tikinti növü və miqyası 111

FƏSIL 12. TARİXİ VƏ MƏDƏNİ İRS OBYEKTLƏRİNİN MÜHAFIZƏSI 115

FƏSIL 13. XARİCİ VƏ ŞƏHƏRDAXİLİ NƏQLİYYAT 118

13.1. Ümumi məlumat 118
13.2. Dəmiryol nəqliyyatı 118
13.3. Avtomobil nəqliyyatı və xarici avtomobil yolları 119
13.4. Şəhərin küçə - yol şəbəkəsi 123
13.5. Şəhərdaxili ictimai nəqliyyat 125
13.6. Avtomobil nəqliyyatının xidmət obyektləri 127
13.7. Avtomobil nəqliyyat vasitələrinin saxlanma obyektləri 128

FƏSİL 14. ƏRAZİNİN MÜHƏNDİS HAZIRLIĞI 129

14.1. Ümumi məlumat 129
14.2. Səth suları axınının təşkili 129
14.3. Cəyirçay çayının məcrəsinin abadlaşdırılması və gücləndirilməsi 131
14.4. Ərazinin mühəndis hazırlığı üzrə tədbirlər 131

FƏSİL 15. ŞƏHƏRİN MÜHƏNDİS TƏMİNATI 132

15.1. Su təchizatı 132
15.3. Yağış kanalizasiyası 140
15.4. İstilik təchizatı 141
15.5. Qaz təchizatı 145
15.6. Elektrik təchizatı 148
15.7. Rabitə və telefonlaşdırma 151

FƏSIL 16. ŞƏHƏR ƏRAZİNİN SANİTAR TƏMİZLƏNMƏSİ 155

FƏSİL 17. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ 156

17.1. Ətraf mühitin müasir vəziyyəti 156
17.2. Atmosfer hövzəsinin ekoloji vəziyyətinin təhlili 156
17.3. Su hövzəsinin vəziyyətinin təhlili 157
17.4. Torpaq örtüyü vəziyyətinin analizi və qiymətləndirilməsi 158
17.6. Xüsusi təyinatlı yaşıllaşdırma 158
17.7. Ətraf mühitin mühafizəsi ilə bağlı Baş planda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər 159

FƏSIL 18. BİRİNCİ NÖVBƏDƏ HƏYATA KEÇİRİLMƏLİ TƏDBİRLƏR 161

18.1 Birinci növbə üçün nəzərdə tutulan mənzil tikintisi. 161
18.2. Birinci növbə üçün nəzərdə tutulan mədəni-məişət xidməti obyektlərinin tikintisi 161
18.3. Birinci növbə üçün nəzərdə tutulan kənd təsərrüfatı, sənaye və anbar təsərrüfatı tikintisi 163
18.4. Birinci növbə üçün nəzərdə tutulan nəqliyyat və mühəndis təminatı obyektlərinin tikintisi 163

FƏSİL 19. ƏSAS TEXNİKİ-İQTİSADİ GÖSTƏRİCİLƏR 166

GİRİŞ

Şəmkir şəhəri Baş planı (növbəti olaraq – Baş plan), DŞAK/AZ/Şəmkir/Layihə/1 saylı, 10 dekabr 2014-cü il tarixli müqaviləyə əsasən "R.I.S.K." Elmi İstehsalat Şirkəti ("R.I.S.K." EİŞ QSC, Bakı ş., Azərbaycan Respublikası) və "ENKO" Elmi Layihə İnstitutu ("ENKO" ELİ MMC, Sankt-Peterburq ş., Rusiya Federasiyası) tərəfindən birgə hazırlanıb.

Baş planın hazırlanması şəhərin davamlı tərəqqisinin, mühəndis, nəqliyyat və sosial infrastrukturları inkişafının, vətəndaşlar və onların birlikləri mənafeyinin nəzərə alınmasının təmin edilməsi məqsədilə, sosial, iqtisadi, ekoloji və digər amillər məcmusuna əsaslanaraq ərazilərin təyinatının müəyyənləşdirilməsinə yönəlib.

Baş plan aşağıdakı layihələrin həllərini nəzərə alınmaqla işlənib hazırlanmışdır:

1. "Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrinin ərazi təşkilinin regional planlaşdırma sxemi", ANA-KENT Planlama Yapı Yatırım Teknoloji Danışmanlık Turizm Enerji Sanayi və Ticaret Anonim Şirkəti, 2011-2013 .

   "Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrinin ərazi təşkilinin regional planlaşdırma sxemi" layihəsində hesablama müddəti 2030-cu il, birinci növbə isə 2018-ci il qismində qəbul edilmişdir.
2. 1982-ci ildə "Azdövlətlayihə" DLİ tərəfindən hazırlanan, ASSR-in Tikinti Komitəsi ilə razılaşdıran və Şamxor (Şəmkir) rayonu icra komitəsi tərəfindən təsdiqlənən Şamxor (Şəmkir) şəhərinin Baş planı.

   Hazırkı Şəmkir şəhəri Baş planı aşağıdakı layihə mərhələlərinə uyğun olaraq hazırlanmışdır

   - İstinad ili – 2015 il
   - I mərhələ (birinci növbə) – 2025 il
   - II mərhələ (hesablama dövrü) – 2035 il
3. Layihə Azərbaycan Respublikasının qüvvədə olan normativ-hüquqi sənədlərini nəzərə alınmaqla həyata keçirilib. Baş planın layihəsində istifadə olunmuş və Şəmkir şəhərinin sosial-iqtisadi inkişafına yönəlmiş əsas dövlət proqramları və digər sənədlər bunlardır:

   - "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf konsepsiyası;
   - "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı";
   - "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı";
   - "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı";
   - "Azərbaycan Respublikasının şəhərsalma və tikinti məcəlləsi". Məcəllə Azərbaycan Respublikasının 29 iyun 2012-ci il tarixli 392-IVQ nömrəli Qanunu ilə təsdiq edilmişdir
   - Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 51№-li Qərarı:"Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar" Bakı şəhəri, 21 fevral 2014-cü;
   - AzDTN 2.6-1 «Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması». Dövlət Şəhərsalma Norma və Qaydaları. 01 yanvar 2002-ci ildən qüvvədədir.
4. Baş plan aşağıdakı materiallarından istifadə olunaraq hazırlanmışdır:

   - 1:2 000 miqyaslı topoqrafik xəritələr *(yeniləşmə 2001-2003-cü illərdə, DŞAK tərəfindən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsindən alınıb və RİSK EİŞ təqdim olunub)*. Rəqəmsal xəritə əsası 1:2000 miqyaslı xəritələrinin bazisində qurulub, «YerAz.» Coğrafi Məlumat

Bazasından *(AR MHA, rəsmi qeydiyyat üzrə Şəhadətnamə №4)* əlavə olunub və aktuallaşdırılıb;

- 1:10 000 miqyaslı topoqrafik xəritələr *(DŞAK-ın arxivindən alınıb)*;
- Azərbaycan Respublikası Ekoloji Atlası. Bakı, 2009 il;
- Azərbaycan Respublikası. Milli Atlas. Bakı, 2014 il;
- 0,5 m. çözümlü rəqəmsal peyk şəkilləri *(GeoEye, 2013-cü il)*.

5. Layihə Şəmkir şəhəri Inzibati Ərazi Dairəsinin (IƏD) mövcud sərhədləri daxilində tam həcmdə yerinə yetirilib. Layihənin tərkibində Şəmkir rayon İH tərəfindən şəhər sərhədlərinin dəyişdirilməsi xüsusunda edilmiş təklif sxematik variant qismində təqdim olunur.
6. Layihə kompüter coğrafi informasiya sistemi (CİS) şəklində tərtib edilib və texniki nöqteyi-nəzərdən açıq növlü kompüter sistemini təşkil edərək, müxtəlif tematik istiqamətlərdə məlumat massivini genişləndirməyə, şəhərin ərazi monitorinqini keçirməsində istifadə etməyə və şəhərdə yerli icra strukturlarının müxtəlif praktiki işlərin aparılmasına imkan verir.
7. Müəllif heyəti göstərdikləri yardıma və dəyərli tövsiyələrinə görə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Şəmkir Rayonu İcra Hakimiyyəti işçilərinə öz dərin təşəkkürünü bildirir.

“ENKO” ELMİ LAYİHƏ İNSTİTUTUNUN MÜƏLLİF HEYƏTİ

“ENKO” ELI tərəfindən layihə rəhbəri	“ENKO” ELİ-nin c.e.n, institutun baş direktoru S.V. Skaterşikov
Layihənin baş memarı	baş direktorun müavini, MBMA-nın professoru O.V.Krasovskaya
Arxitektura-planlaşdırılma bölmələri	baş direktorun müavini, MBMA-nın professoru O.V.Krasovskaya, layihənin şəhərsalma üzrə baş mütəxəssisi memar Y.Y. Soldatenkov
Şəhərsalma iqtisadiyyatı	şəhərsalma üzrə iqtisadçılar A.V.Kosarev, O.V.Petina
Təbii şərait və ehtiyatlar, ətraf mühitin vəziyyəti. Ərazinin xüsusi istifadə şəraiti olan zonaları. Planlaşdırılma məhdudiyyətləri	şəhərsalma üzrə ekoloqlar A.V.Yanovskaya, Y.V.Popova
Mədəni irs obyektləri , turizm və rekreasiya	şəhərsalma üzrə iqtisadçı A.V.Kosarev
Torpaq ehtiyatları	yerquruluşu üzrə mütəxəssis A.A.Kalantarova
Nəqliyyat infrastrukturu	nəqliyyat üzrə mütəxəssis V.V.Frolkina
Mühəndis infrastrukturu	layihənin baş mühəndisi A.Q.Petrov, baş mütəxəssislər İ.N.Maksimova, N.A.Maslennikova, mühəndis Y.S. Friş
Ərazinin mühəndis hazırlığı	mühəndis hazırlığı üzrə baş mütəxəssis O.B.Arsentyeva
Təbii və texnogen xarakterli fövqəladə hallar	layihənin baş mühəndisi A.Q.Petrov, baş mütəxəssis Y.A.Zavarzina
CİS texnologiyaları	baş mütəxəssislər A.M.Savinkov, D.Krasnoperov

“R.İ.S.K.” ELMİ İSTEHSALAT ŞİRKƏTİNİN MÜƏLLİF HEYƏTİ

Layihənin rəhbəri	“R.İ.S.K.”EİŞ-nin CİS Mərkəzinin rəhbəri, V.T.Səfixanlı
Araşdırmalar; CİS texnologiyaları;	E.Z.Abdullayev, M.M.Ataşov, Z.Ş.Əsədova U.T.Kərimli, A.Y.Qəmbərov, A.A.Qənbərova, L.P.Milovanova, A.Z.Müslümova, İ.V.Slepova, M.M.Şükür. .

FƏSİL 1. ƏRAZİNİN TƏBİİ VƏ MÜHƏNDİS-GEOLOJİ ŞƏRAİTİ.

1.1. Ümumi məlumat

Şəmkir şəhəri Kür çayının vadisində, şəhərin cənub-qərbindən 50 km məsafədə keçən Şahdağ silsiləsinin dağətəyi zonasında yerləşir. Dağətəyi ot və az kolluqlarla örtülmüş maili təpəliklərlə sona çatır.

Oroqrafik cəhətdən nəzərdən keçirilən ərazi Gəncə-Qazax massivinin mərkəzi hissəsini tutur və Kiçik Qafqaz dağlarının şimal-şərq və şimal dağətəyindən Kür çayına doğru az meyilli düzənlikdən ibarətdir. Düzənliyin səthi Kiçik Qafqazın dağətəklərindən axan çayların konuslarının relyefdə yaratdığı dəyişikliklərlə mürəkkəbləşir.

Şəhər mövsümi olaraq quruyan Cəyirçayın sahillərində yerləşir. Kür çayı şimal-şərqə doğru 15 km məsafədə keçir. Şəhərdən 6-10 km qərbə doğru cənubdan şimala Şəmkirçay axır.

Nəzərdən keçirilən ərazinin relyefi kəsintilidir, cənubdan şimala doğru ümumi mayilliliyi var. Hündürlük göstəriciləri dəniz səviyyəsindən orta hesabla 300-550 m hündürlükdə tərəddüd edir. Ən hündür göstərici şimal dağətəyi hissədə - dəniz səviyyəsindən 1230 m hündürlükdə, ən aşağı hündürlük isə cənub hissədə - dəniz səviyyəsindən 250 m hündürlükdə qeydə alınır.

Şəhər ərazisi və onun ətrafları 8 ballıq seysmik zonaya aid edilir.

Şəmkir yarımsəhra və quru çöllər iqlim zonasında yerləşir. Şəhər üçün mülayim qışı və quru isti yayı olan quraq iqlim xarakterikdir. Davamlı qar örtüyü formalaşmır.

1.2. Ərazinin iqlim şəraiti

İqlim cəhətdən nəzərdən keçirilən ərazi zəif rütubətlilik, isti az qarlı qış və isti küləkləri olan quru isti yayla fərqlənən yarımsəhra və quru çöl zonasında və isti quru yayı, mülayim qışı və davamlı qar örtüyü olmayan mülayim isti çöl iqlimi zonasında yerləşir.

Şəmkir şəhərinin termik rejimi isti yay və mülayim isti qışla xarakterizə olunur. Havanın orta aylıq temperaturu 14,4 ºC təşkil edir.

Cədvəl 1.1

Havanın orta aylıq temperaturu (ºC)

I	II	III	IV	V	VI	VII	VII	IX	X	XI	XII	il
3,3	4,3	8,0	13,5	18,5	22,9	26,0	26,2	21,2	15,5	8,9	4,5	14,4

Mənbə: Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.

Nisbətən soyuq ay orta aylıq temperatur 3,3 ºC olan yanvar ayıdır. Havanın mütləq minimum temperaturu 17 ºC şaxta təşkil edir.

Ən soyuq beşgünlüyün hesablanmış temperaturu -7 ºC təşkil edir. Hesablanmış qış ventilyasiya temperaturu -1 ºC təşkil edir. İsitmə dövründə orta temperatur +3,8 ºC təşkil edir. İsitmə dövrünün müddəti 180 gündür.

Havanın mütləq maksimum temperaturu +39 ºC təşkil edir.

Atmosfer yağıntıları və qar örtüyü.

Yağıntıların orta illik miqdarı yaz-yay dövründə aprel ayından iyun ayına qədər düşür. Sonra yay-payız minimumu dövrü gəlir. Payız az miqdarda yağıntılarla xarakterizə olunur. Ən az yağıntı qış dövründə düşür.

Yağıntılı günlərin illik miqdarı 96 gün təşkil edir. Yağıntılar əsas etibarilə sutkada 1 mm miqdarında düşür.

Cədvəl 1.2.

Yağıntıların orta illik miqdarı (mm)

Adı	I	II	III	IV	V	VI	VII	VII	IX	X	XI	XII	il
Yağıntılar (mm)	16	19	30	37	48	48	29	22	23	30	28	16	348
Gündəlik maksimum (mm)	31	23	22	29	30	44	40	40	30	39	51	23	80

Mənbə: Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.

İqlimin mülayimliyi hesabına yağıntılar əsas etibarilə maye formasında düşür və yalnız mənfi temperaturlu havalarda qar və mürəkkəb birləşməli yağıntılar qeydə alınır.

Davamlı qar örtüyü formalaşmır. Qar örtüyü olan günlərin sayı 13 gün təşkil edir. Qar örtüyünün hündürlüyü 1-2 sm olur.

Havanın rütubəti.

Orta hesabla Şəmkir şəhərində illik mütləq rütubət 10,7 mb təşkil edir. Ən aşağı göstərici qışda, 5,1 mb minimumla qeydə alınır. Şəmkir şəhərində orta illik nisbi rütubətlilik 67% təşkil edir. İlin soyuq aylarında (70-75%), yayda ən az (55-60%).

Cədvəl 1.3

Havanın orta aylıq mütləq və nisbi rütubəti

Adı	I	II	III	IV	V	VI	VII	VII	IX	X	XI	XII	il
Mütləq rütubət (mb)	5,1	5,8	6,3	9,3	13,1	15,1	17	16,9	14,6	11,2	8,3	5,8	10,7
Nisbi rütubət (%)	72	70	71	67	66	60	55	56	64	70	76	74	67

Mənbə: Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.

İl ərzində 90 quraq gün qeydə alınır. Onların əsas hissəsi bitkilərin yarpaqlarının sıxlığının azalmasına və gecə ərzində bərpa olunmasına səbəb olan zəif quraq dövrə (təxminən 60 gün) təsadüf edir.

Orta intensivlikli quraq günlər daha az təkrarlanır və dövr üçün 30 gün təşkil edir. Bu günlərdə yağıntılar olmadığı hallarda və əlavə suvarma olmadıqda bitkilərin yarpaqları solur. İntensiv və çox intensiv quraqlıqlar nadir hallarda qeydə alınır və dövr üçün 8-10 gün təşkil edir.

Buxarlanmanın illik həcmi yağıntıların illik miqdarını 3 dəfə üstələyir ki, bu da sözü gedən rayonun yetərli miqdarda nəmləndirilməməsinə dəlalət edir.

İlin soyuq aylarında buxarlanma həcmi yağıntıların həcmindən 1,5-2 dəfə çox olur. İlin isti vaxtlarında, xüsusilə iyul-avqust aylarında buxarlanma düşən yağıntıların miqdarından 6-8 dəfə yüksək olur. Bu cür rütubət çatışmamazlığı şərtləri altında kənd təsərrüfatının inkişafı ancaq süni suvarılma mövcud olduqda mümkündür.

Külək

Şəmkir şəhərinin külək rejimi dağ-vadi xarakteri daşıyır.

Külək əsas etibarilə şərq və qərb istiqamətində əsir. Küləyin sürəti elə də güclü olmur, əsasən zəif və yüngül küləklər üstünlük təşkil edir. Küləyin orta illik sürəti 2,2 m/san təşkil edir.

Cədvəl 1.4

Küləyin təkrarlığı və sürəti

Adı	Şimal	Şimal-Şərq	Şərq	Cənub-Şərq	Cənub	Cənub-Qərb	Qərb	Şimal-Qərb	Sakit hava (ştil)
Küləyin təkrarlığı, %	4	8	48	4	2	11	43	10	28
Küləyin orta sürəti, m/san.	1,7	2,4	2,3	1,8	1,5	2,4	3,8	3	

Mənbə: Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.

Şəmkir şəhəri üçün güclü küləklər xarakterik deyildir. Güclü küləkli günlərin sayı orta hesabla 12 gün, güclü külək rejimli illərdə isə 20-27 təşkil edir. Küləyin maksimum sürəti 20 m/san təşkil edir.

Buludluq

Buludluluğun orta illik həcmi 5-7 bal təşkil edir, yəni səmanın yarı-aydın olduğu vəziyyəti üstünlük təşkil edir. Aydın günlərin orta illik miqdarı 62 gün, tutqun günlərin sayı isə 110 gündür.

Torpağın temperaturu

Araşdırılan ərazidə torpaq qatı açıq şabalıdı, gilli torpaqdır, torpaq səthində orta illik temperatur 16 ºC təşkil edir.

Nisbətən soyuq ay dekabr-fevral aylarıdır, orta illik temperatur 1-3ºC dərəcədir, nisbətən isti aylar isə iyul-avqust aylarıdır, orta temperatur 30-31ºC təşkil edir. Torpağın səthində mütləq maksimum temperatur 68 ºC qeydə alınır.

Dərinlik artdıqca soyuq aylarda torpağın temperaturu artır, isti aylarda isə əksinə azalır.

Atmosfer hadisələri

Sözü gedən ərazidə duman yaranması prosesi tez-tez baş verir. Yay aylarında duman yaranması nadir olur – orta hesabla 10 ildə 1-6 dəfə. Bu cür günlər mart ayından may ayına qədər çox müşahidə olunur, ayda 5-8 gün təşkil edirlər.

Buz bağlaması nadir müşahidə olunur. Orta hesabla ildə 2 dəfə, əsasən yanvar ayında baş verir.

1.3. Ərazinin hidroqrafıyası və hidroloji şəraiti

Şəmkir şəhəri Cəyirçayın sahillərində yerləşir. Cəyirçay – Kür çayının sağ sahil qoludur və hal-hazırda Şəmkir su anbarına tökülür.

Cəyirçay öz əsasını Kiçik Qafqazın Şahdağ silsiləsinin qolundan götürür, çayın ümumi axma istiqaməti cənub-qərbdən şimal-şərqə doğrudur (şəhər sərhədlərində cənubdan şimala doğru).

Çay üçün susuz dövrlər xarakterikdir. Çayda suyun ən çox həcminin müşahidə olunduğu dövr yaz-yay daşqınları mövsümündədir (aprel-iyun).

Soyuq aylarda Dağ Cəyir kəndi yaxınlığında çay suları demək olar ki, şəffaf olur. Daşqınlar vaxtı gətirilən çöküntünün hesablanmış miqdarı 0,40-1,2 kq/san təşkil edir. İl üzrə suyun orta bulanıqlılığı 266 və 469 q/m^3, isti aylarda isə artaraq 1000 q/m^3 təşkil edir.

Suyun minerallaşma səviyyəsi ortadır. Yaz-yay bol sululuq dövründə suyun minerallaşma səviyyəsi aşağı olur, qışda isə yüksəlir. Suyun kimyəvi tərkibinə görə çay suları hidrokarbonat sinfinə aiddir.

2012-2013-cü illərdə Cəyirçayın hövzəsində şəhərdən 5 km aralıda yeni drenaj sistemi tikilmişdir, burada şəhəri su ilə təchiz etmək üçün su toplanır.

1.4. Ərazinin torpaq və bitki örtüyü

Torpaq-bitki örtüyü, heyvanlar aləmi

Şəmkir şəhərinin ərazisi yarımsəhra və quru çöl zonasına aiddir.

Torpaq xəritəsinə əsasən (Azərbaycan Respublikasının Ekoloji atlası, Bakı, 2009-cu il) sözü gedən ərazi tünd şabalıdı, şabalıdı və çəmən-şabalıdı torpaqların yayılma zonasında yerləşmişdir.

Bitki örtüyü dağ-çəmən, yarımsəhra və səhra zolaqları ilə təmsil olunmuşdur. Bitki örtüyü xəritəsinə əsasən (Azərbaycan Respublikasının Ekoloji Atlası, Bakı, 2009) sözü gedən ərazi yarımsəhranin yerində əmələ gələn ikincili bitkilər zonasında yerləşir.

Şəhərdə əsas ərazilər meyvə bağları və üzümlüklər də daxil olmaqla kənd təsərrüfatında istifadə olunur.

Alçaq dağlıq ərazilərin yarımsəhra landşaftı və vadilərin quru çöl landşaftı üçün növbəti heyvanların yayılması xarakterikdir: ceyran, qaban, çöl siçanları, qırmızıquyruq qumluca, qafqaz gürzəsi, kərtənkələ növləri, Aralıq dənizi tısbağası, bəzgək, ördək, qaz.

1.5. Ərazinin geoloji quruluşu, geomorfoloji və hidrogeoloji şəraiti

Sözü gedən ərazinin relyefinin formalaşması allüvial proseslərin təsiri altında və prolüvial-delüvial proseslərin nəticəsində baş vermişdir.

Ərazinin relyefi güclü, orta və zəif parçalanmış, çala çuxur-qobuludur.

Relyefin əmələ gəlməsində Kiçik Qafqazın dağlarından axan çayların konuslarının çöküntüləri mühüm rol oynayır.

Şəmkirçay iki çay çıxıntı konusuna malikdir: qədim və müasir. Hər iki konus prolüvial və allüvial-prolüvial çöküntülərlə örtülmüşdür.

Səthdə bu çöküntülər bir qayda olaraq gilli torpaqla örtülü olurlar. Gil torpağın qatının qalınlığı hündürlüklərdən (1-3 m) və konusların periferiyalarından artır (10 m qədər). Qədim konusların səthində qalınlığı 1-1,6 m olan gəc qatı müşahidə olunur.

Stratiqrafiya və litologiya

Geoloji quruluşda allüvial, allüvial-prolüvial, allüvial-prolüvial-delüvial və delüvial-prolüvial çöküntülərlə örtülmüş mezozoy, paleogen və dördüncü dövr çöküntüləri iştirak edir.

Dağətəklərindən Kür çayı istiqamətində çöküntülərin qalınlığı tədricən bir neçə on metrdən 400 m qədər artır.

Litoloji kəsik çınqıl-çağıl daş təbəqələrinin qarışması, bəzi hallarda daş parçaları, gilli torpaq və gillər əlavələri ilə təmsil olunur. Dağ yamaclarına yaxın ərazilərdə litoloji kəsik daha kobud parçalı materialla təmsil olunur. Bütün süxur qatları sıra pozuntusu ilə xarakterizə olunur.

Şəmkir şəhərinin araşdırılan əraziləri daxilində 5 m dərinliyə qədər dördüncü dövr delüvial-allüvial çöküntülərə rast gəlinir. Çöküntülər makro-məsaməli gilli torpaqlar və qaya parçaları da daxil olmaqla caqıl daşları ilə təmsil olunmuşdur.

Aşağıda ümumi litoloji kəsmə verilmişdir:

1. Tökülən qat qalınlığı 0,30-0,60 m;

2. Yarımöhkəm gilli torpaq, qəhvəyi, makro-məsaməli çınqıllı, qalınlığı 0,30-1,40 m;

3. Çaqıl qruntu (40-65%) qumlu dolğu (20-35%) qaya parçaları (10-20%) orta sıxlıqlı, qalınlığı 3,30-5,0 m.

Tektonika

Tektonik mənada sözü gedən ərazi iki rayonun sərhədləri daxilində yerləşir: hər biri özünəməxsus tektonik quruluş ilə xarakterizə olunan hissələrə bölünən Kiçik Qafqaz və Orta Kür depressiyası.

Dağətəyi zona Göygöl-Şəmkir antiklinoriyasına daxildir. Bu antiklinoriya köndələn çökəklərlə mürəkkəbləşmişdir. İki sərbəst yüksəklik seçilir: Şəmkir və Göygöl.

Şəmkir yüksəkliyi sözü gedən ərazinin əsas struktur elementidir. Şəmkir yüksəkliyinin mərkəzi hissəsində ümümqafqaz istiqamətli bir neçə büküş görünür.

Ərazinin vadi hissəsi Orta Kür çökəkliyinə daxildir. Bu çökəkliyin kontinental qalınlığı yalnız burada yerləşməyib və üfüqi istiqamətdə azcıq şimala doğru meyllilikl uzanır.

Ərazinin hidrogeoloji şəraiti

Sözü gedən ərazinin şəhərətrafı zonasında yura və tabaşir, qum və tuf süxurlarına aid edilən çat və təbəqə halında sular yerləşir. Bu süxurların su ötürmə qabiliyyəti üzə çıxan bulaqlarla təsdiqlənir. Bunlar içməli sulardır.

Maili düzənlik qrunt sularının səth üzrə yayılması ilə xarakterizə olunur. Suyu özündə saxlayan süxurlar qaya parçaları-çınqıl, çınqıl-çaqal, qum, gil torpaq və qumluca torpaqlardır.

Yeraltı suların yerləşmə dərinliyi 10 m-dən 60 m-ə qədər dəyişir. Səthə yaxın ancaq çayların çaybasarına aid edilən məcra altı axınların suları yerləşir. Qrunt sularının səviyyəsinin dəyişməsi orta hesabla 0,5-1,0 m arasında tərəddüd edir.

Qrunt suları hər yerdə şirin suludur. Kimyəvi tərkibinə görə sular içməli, hidrokarbonatlı, natriumlu, natrium-kalsiumlu, kalsiumlu, kalsium-maqneziumludur. Suyun tərkibinin codluğu 2,8-10,78 mq-ekv/l.

1.6. Yerli inşaat materialları

Şəmkir şəhəri ərazisində bir sıra faydalı qazıntılar vardir ki, bunlar da tikinti materiallarının istehsalında istifadə olunur (əhəngdaşı, tikinti daşı) və fəal surətdə şəhərin cənub və qərb hissələrində çıxarılırlar. Dəllər stansiyası ərazisində kərpic və kirəmit istehsalında istifadə olunan gil yataqları vardır, amma yataqlar istifadə olunmur.

"Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi"nə müvafiq olaraq Şəmkir şəhəri ərazisində 3 faydalı qazıntı yatağı yerləşir.

Cədvəl 1.5

Şəmkir şəhəri ərazisində faydalı qazıntılar yataqları

Sıra sayı	Yatağın adı, yerləşdiyi ərazi	Koordinatları və sahəsi	Əsas faydalı qazıntılar	Faydalı qazıntının təsdiq edilmiş ehtiyatı (m3)	Kəşfiyyat (+) və istismar (-) nəticəsində ehtiyatın dəyişməsi (2011ci ilə olan məlumat, (m3)	Sənaye mənimsənilməsinin səviyyəsi	Sənaye əhəmiyyətli faydalı qazıntı cisimləri, mütləq yüksəklik	Hansı sənaye məhsullarının emalı və istehsalında yararlıdır
1	Ağdağ, Şəmkir rayon mərkəzindən 4-4,5m	Şm. en d. $40^0$49' Ş.uz.d. $46^0$02'	Əhəng daşı - mişar daşı	A+B+C1 5682	A+B+C1 1 044	1965-ci ildən istismar olunur	Mütləq yüksəklik 400-500m	Tikinti işləri üçün yararlıdır

	CQ-də							
2	Şəmkir ş. mərkə-zindən 1 km CŞ-də yerləşir	Şm. en.d. $40^0$49' Ş.uz.d $46^0$00'	Əhəng daşı - mişar daşı	A+B+C1 12 310	A+B+C1 12 310	1991-ci ildən istismar olunur	Mütləq yüksək-lik 705-850m	Əhəng-daşları II növ əhəng istehsalın-da yararlıdır
3	Şəmkir ş., Cəyir-çayın sol sahilin-də.	Şm. en d. $40^0$46'` Ş.uz.d - $45^0$58` 1,5km^2	Qrano-diorit - tikinti daşı	A+B+C1 31 771	A+B+C1 26 356	1969-cu ildən istismar olunur	Mütləq yüksək-lik 310-610m	Çınqıl istehsalın-da istifadə oluna bilər

Mənbə: Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatları.

Şəhər ərazisində daş karxanaları yerləşir. 2016-cı ilin sonuna tikinti daşının sənaye hasilatı aparılmır. Burada 4 areal fərqləndirirlir:

Şəhərin mərkəzi hissəsinə yaxın, Çinarlı və Abbaslıya gedən yolun sağ tərəfində yerləşmiş, "Ağdağ" yatağı adlanan, sahəsi təxminən 38 ha olan ərazi. Mürəkkəb relyefi ilə fərqlənir, sənaye hasilatının aparılması çətindir.

Şiştəpə kəndinə gedən yolun sağ tərəfində yerləşmiş daş karxanası. Sahəsi, keçmiş Torpaq Komitəsinin məlumatlarına əsasən, 5,5 ha təşkil edir. Dövlət mülkiyyətindədir. Karxana ərazisinin bir hissəsi xüsusunda "Azərbaycan" Dövlət Kiçik Müəssisəsi tərəfindən daş hasilatı üçün icarə müqaviləsi rəsmiləşdirilib. 2016-cı ilin ikinci yarısında müəssisə fəaliyyətini dayandırıb.

Şiştəpə kəndinə gedən yolun sol tərəfində yerləşmiş daş karxanası. Sahəsi, keçmiş Torpaq Komitəsinin rəsmi məlumatlarına əsasən, 25,9 ha təşkil edir. Kosmik şəkillərdən görünür ki, hazırda karxananın sahəsi bundan çoxdur. Karxana dövlət mülkiyyətindədir. Uzun illər ərzində işlənmişdir. 2016-cı ilədək karxana ərazisində onun bir hissəsinin daş çıxarılması üçün icarəsi üzrə müqavilə imzalamış "Anar" Birgə Müəssisəsi (tam ortaqli) fəaliyyət göstərirdi. 2016-cı ildə müəssisə fəaliyyətini dayandırıb.

Şəhər ərazisinin yuxarı hissəsində, Ceyircay çayının sol sahilində, 35 kv-luq yarımstansiya ilə yanaşı, daş karxanası. Ərazisi, keçmiş Torpaq Komitəsinin məlumatına görə, 13,1 ha təşkil edir. Tikinti daşının sənaye hasilatı aparılmır, tikinti daşı hasilatı üçün icarə müqavilələri rəsmiləşdirilməyib.

Şəmkirkin qərb hissəsində, Şiştəpə kəndinə gedən yolun sol və sağ tərəfindəki karxanalarda tikinti daşının sənaye hasilatının bərpası və inkişaf etdirilməsi daha perspektivlidir.

Tükəndirillmiş karxanaların ərazisi, həmçinin tikinti daşının sənaye hasilatı üçün yararsız sayılan ərazilər rekultivasiya edilməlidir. Hazırda Şəmkirdə pozulmuş torpaqların rekultivasiyası keçirilmir.

1.7. Təbii sərvətlərin vəziyyətinin təhlili. Nəticələr

- İqlimin texniki məmulatlara və tikinti zamanı materiallara göstərdiyi təsirinə əsasən şəhər isti quru iqlim zonasına aid edilir. Ümumilikdə isə şəhərin iqlimi mülayim qışı və quru isti yayı olan yarımsəhra və quru çöl iqlimi kimi xarakterizə olunur və mülki və sənaye tikintisinin aparılması üçün olduqca əlverişli şəraitə malikdir.
- Sözü gedən ərazi olduqca məhsuldar torpaqların yayılma zonasında yerləşmişdir: tünd şabalıdı, şabalıdı və çəmən-şabalıdı, bu da kənd təsərrüfatının inkişaf etdirilməsinə əlverişli

şərait yaradır. İqlimin quraqlığı suvarma əkinçiliyini şərtləndirir. Bağçılıq və üzümçülük geniş yayılmışdır.

- Şəmkirin əlverişli aqroiqlim ehtiyatları suvarma üçün su verilmə sisteminin inkişaf etdirilməsi ilə paralel burada kənd təsərrüfatının inkişaf etdirilməsi üçün gözəl imkanlar açır, xüsusilə də bağçılıq, istilik təsərrüfatı, meyvə bağlarının salınması üçün.
- Səth su ehtiyatlarının çox olmaması Şəmkirçay su anbarından kanal sistemi vasitəsilə suyun verilməsi ilə kompensasiya olunur.
- Qrunt suları olduqca dərin yerləşirlər *(5 m-dən dərin)*, ona görə də tikinti üçün məhdudlaşdırıcı amil rolunu oynamırlar.
- Sözü gedən ərazi mühəndis-tikinti şəraitinin az öyrənilməsi ilə xarakterizə olunur. Tikinti işləri görməzdən əvvəl həmin ərazidə mühəndis-geoloji və mühəndis-geodeziya araşdırma işləri aparılmalıdır.
- 2016-cı il üçün Şəmkirin karxanalarında tikinti daşının sənaye hasilatı aparılmır.
- Faydalı qazıntıların hasilatı sahəsində ən perspektivli istiqamət Şəmkirin qərb hissəsində, Şiştəpə kəndinə gedən yolun sol və sağ tərəfindəki daş karxanalarında tikinti daşının sənaye hasilatının bərpası və inkişaf etdirilməsidir.
- Faydalı qazıntılardan şəhər ərazisində yerli tələbləri ödəmək üçün istifadə olunan ümumyayılmış tikinti materialları yataqları vardır.

Tikinti üçün ayrılmış ərazilərin mikro-iqlim şəraitinin yaxşılaşdırılması üçün planlama strukturunda küləklərin surəti və istiqamətlərini nəzərə alınma imkanlarından istifadə etmək olar, belə ki, Şəmkirdə şərqdən-qərbə istiqamətdə küləklərin mövsumi təkrarlanması mövcuddur.

FƏSİL 2. QISA TARİXİ MƏLUMAT

"Şəmkir" toponimi orta əsr mənbələrində "Şəmkir" *(türk mənbələri)*, "Şamkur" (ərəb, fars mənbələri), "Şankori" *(gürcü mənbələri)*, "Şünkür" *(rus mənbələri)* kimi qeydə alınır. Toponim yaranması ətrafında müxtəlif versiyalar irəli sürülmüşdür, "günəşə sitayiş edənlər", "Kür qalası", "Kür məşəli" və s. Kimi izah olunmuşdur. Bununla belə, mütəxəssislər etiraf edirlər ki, toponimin dəqiq izahı hələ də mövcud deyildir.

Ərazinin erkən məskunlaşmasını təsdiq edən arxeoloji irs obyektləri, qədim dövr mədəniyyətinin inkişafını göstərən abidələr vardır. Şəhərin kənarlarında tapılan neolit dövrünə aid artefaktlar sübut edir ki, insanlar bu ərazidə qədimdən yerləşmişlər.

Müasir şəhərin sələfi eyni adlı orta əsr Şəmkir şəhəri olmuşdur, şəhər Şəmkirçayın sol sahilində yerləşmişdir *(Bakı-Tbilisi dəmiryol xətti ilə kəsişməsindən cənub-qərbə doğru)*. Qazıntılar nəticəsində bu ərazidə şəhərin abadlığına xidmət edən çoxlu tikili qalıqları, o cümlədən, müdafiə tikililəri, ictimai və yaşayış tikililərinin qalıqları, mühəndis tikililəri aşkar olunmuşdur.

Ümumi tarixi faktlara və son qazıntılara əsaslanaraq demək olar ki, Şəmkir şəhərinin formalaşması erkən orta əsrlərə təsadüf edir, daha dəqiq desək V əsrə və bəlkə də daha erkən dövrə. Azərbaycanın şimal torpaqlarının Ərəb xəlifəti tərəfindən işğal olunması prosesində olduqca mühüm yer Şəmkirin işğalına ayrılmışdı, belə ki, şəhəri gələcəkdə strateji məqsədlərlə istifadə etmək planlanmışdı. Ərəb xilafətinin mövcudluğu dövründə qədim Şəmkir həm siyasi proseslərdə, həm də dövlətin sosial-iqtisadi həyatında mühüm rol oynayırdı. Şəhər beynəlxalq ticarətdə fəal iştirak edirdi. Belə fərz olunur ki, Aran zərbxanası məhz Şəmkirdə yerləşmişdir.

Bütün Azərbaycanın olduğu kimi, Şəmkirin də tarixində dönüş tarixi şəhərin monqollar tərəfindən işğalından sonra başladı. Marağa və Təbrizi tutduqdan sonra monqollar Gəncəyə hücum edir və güclü müqavimətlə rastlaşırlar. Buna baxmayaraq 1235-ci ildə şəhər işğal olunur. Gəncədə olduğu kimi, Şəmkirdə də monqollara güclü müqavimət göstərilir. Bütün cəhdlərə baxmayaraq qədim Şəmkir yandırılır, əhalisi isə qırılır.

Qeyd etmək lazımdır ki, Şəmkir Aran memarlıq məktəbinin mərkəzlərindən biri olmuşdur, bura üçün polixrom, kombinasiya edilmiş divar hörgüsü xarakterik idi. Şəmkir istehkamının dövrümüzə qədər gələn qalıqları Aran memarlıq məktəbinin parlaq nümunələrindən biridir. Orta əsr memar və inşaatçıları həqiqi memarlıq əsəri yaratmışlar. Tikinti zamanı bir çox tikinti materiallarından istifadə olunmuşdur: çay daşı, yandırılmış kərpic və ağ daş. Bu həm divarları bərkitməyə imkan verirdi, həm də sırf estetik cəhətdən divarlara bəzək verirdi. İstehkamın divarları arxeoloji məlumatlara görə 11-ci əsrdə tikilmiş və bir neçə dəfə təmir olunmuşdur.

Yerli əhali sənətkarlıq, kənd təsərrüfatı, atçılıq və digər sahələrlə məşğul olmuşlar. Əhalinin suya olan tələbatını ödəmək üçün Şəmkirdə kəhrizlər tikilir, keramik borulardan su boruları çəkirdilər. Şəhərin yüksək abadlıq səviyyəsi əhalinin o dövr üçün yüksək mədəni səviyyəsi ilə və islam dininin ciddi gigiyena tələbləri ilə əlaqədar idi. Qazıntıların yerində arxeoloji park yaratmaq və ən qədim nümunəsi dəmir dövrünə təsadüf edən bütün qiymətli eksponatları burada toplamaq planlaşdırılır.

Cəyirçayın sahilində müasir Şəmkirin tarixi sonrakı dövrlərdən, Azərbaycan Rusiya İmperiyasının tərkibində odluğu zaman alman koloniyalarının cənubi Qafqaz ərazisinə Gürcüstan və Azərbaycana köçdüyü dövr, XIX-cu əsrin əvvəllərindən başlayır. Köçkünlərin bir hissəsi Şəmkir rayonunda yerləşdirilmiş və burada Annenfeld koloniyasını yaratmışlar.

Almanların Qafqaza köçürülməsi 1816-1818-ci illərdə Napoleon müharibələrindən sonrakı dövrdə baş vermişdir. Əvvəl köçkünlər Gürcüstana gəlmiş, sonra isə 1819-cu ilin yazında Azərbaycana köçmüşlər və burada Vürtemberq torpaqlarının sakinləri ilk iki koloniyanı: Yelenendorf və Annenfeldin əsasını qoymuşlar *(indiki Göygöl və Şəmkir şəhərləri)*. Daha sonralar isə daha 4 koloniyanın əsası qoyulmuşdur – Alekseyevka, Qrünfeld, Traubenfeld, Yelizavetinka. 1888-ci ildə Şəmkir şəhərində Şəmkirçayın sahilində daha bir alman yaşayış məntəqəsi – Georqsfeld salınmışdır *(indiki Çinarlı qəsəbəsi)*. 1906-cı ildə isə Gürcüstanda olan almanlar da

Azərbaycana köçərək, Şəmkir yaxınlığında Eygenfeld *(və ya Engelskənd)*, indiki İrmaşlı kəndinin əsasını qoymuşlar. Almanlar öz yaşayış məntəqələrini Romanovlar çar dinastiyasının nümayəndələrinin şərəfinə adlandırmışlar.

Şəmkirdə almanların əsas məşğuliyyəti üzümçülük və şərabçılıq idi və bu işi onlar o dövr üçün proqressiv sayılan metodlarla edirdilər. 1906-cı ildə "Hummel qardaşları" şirkəti " 45 min rubla Şəmkir stansiyasında (indiki Təzəkənd) 450 desyatin torpaq almış və bunlardan 60 desyatinini üzümlük kimi istifadə etmiş, buradaca tutumu 150 şərab vedrəsi olan şərab anbarı tikmişdir". 1923-24-cü illərdə Azərbaycandakı bir çox alman koloniyalarında, o cümlədən, Annenfelddə konyak zavodları tikilmişdir. Bu minvalla Azərbaycanda sənaye şərabçılığı sahəsinin əsası qoyulmuşdur.

Nasist Almaniyasının kommunist SSRİ ilə müharibəsinin başlanğıcından sonra 1941-ci ilin oktyabrında alman kolonistlərin varisləri *(20 min nəfərdən çox)* Mərkəzi Asiyaya sürgün edilmiş və bununla da alman koloniyaların Azərbaycandakı 122 illik tarixlərinə son qoyulmuşdur.

Hal hazırda Şəmkir şəhəri Azərbaycan Respublikasının əhalisinə görə 13-cü şəhəridir və iri kənd təsərrüfatı rayonun mərkəzidir.

FƏSİL 3. ŞƏHƏRİN ƏVVƏLKİ BAŞ PLANIN HƏYATA KEÇİRİLMƏSİNİN TƏHLİLİ

Şəmkir şəhərinin Baş planı 1979-1982-ci illərdə *"Azərdövlətlayihə"* Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanmış, layihənin baş memarı Y.O.Yaqubzadə olmuşdur. Baş plan Azərbaycan SSR-in Dövlət Tikinti Komitəsinin tapşırığı ilə və o dövr üçün qüvvədə olan yaşayış məntəqələrinin salınmasına qoyulan normativ tələb sənədlərinə müvafiq olaraq hazırlanmışdır. Əvvəlki Baş planın hesablama dövrü 2010-cu ilə qədər *(28 il müddətinə)* təyin edilmiş, tikintinin birinci növbəsi 1990-cu il müəyyənləşdirilmişdir. Baş plan Şamxor Rayon İcra Komitəsinin 1982-ci il qərarı ilə təsdiqlənmişdir.

Baş planda şəhərin Azərbaycan SSR-in ərazisinin digər qonşu rayonlarına xidmət göstərən iri şəhər mərkəzi, həmçinin kənd təsərrüfatı məhsullarının emal edən mərkəz olması nəzərdə tutulmuş, şəhər əhalisinin artırılaraq 01.01.1979-ci ildə olan 22,0 min nəfərdən ilkin dövrdə 28 min nəfər artırılması, hesablama dövrünün sonuna isə 40 min nəfər artırılması planlaşdırılmışdır.

Əvvəlki plana əsasən 2010-cu ilə qədər mənzil fondu 0,73 mln.m^2 artaraq bir nəfərə 18 m^2 mənzil təminatı olmalı idi. Reallıqda isə 2000-ci illərinin sonlarında şəhərin mənzil fondu 0,9 mln. m^2 çox olmuş və orta hesabla adambaşı 24 m^2 təşkil etmişdir. Hesablama dövründə şəhərdə müxtəlif mərtəbəli yaşayış binalarının tikintisi nəzərdə tutulmuşdur (*43% - 4-5 mərtəbəli yaşayış evləri, 10% - azmərtəbəli evlər, 47% - fərdi tikintilər)*. Buna baxmayaraq, şəhərdə aparılan tikinti işlərində əsas yeri fərdi yaşayış evləri tutmuşdur.

Gələcəkdə sənayenin inkişaf etdirilməsi burada kərpic zavodunun, Kirovabad (Gəncə) avtomobil zavodunun filialının, tikinti sənayesi müəssisələrinin yerləşdirilməsi ilə nəzərdə tutulmuşdur.

Baş planda şəhərin Cəyirçayın sol sahilində tədricən inkişaf etdirilməsi, həmçinin dəmir yoluna birləşən əraziləri də əhatə etməsi nəzərdə tutulmuşdu. Ümumilikdə mənzil tikintisi üçün nəzərdə tutulan ərazilər mənimsənilmişdir. 1979-1982-ci illərin Baş planında nəzərdə tutulmuş tədbirlər demək olar ki həyata keçirilmişdir, istisna 1990-2015-ci illərdə mənzil tikintisi strukturunda fərdi tikililər üstünlük təşkil etməsidir. Əvvəlki Baş planda olan şəhərin mərkəzi hissəsinin tikintisi üzrə təfərrüatlı planlama layihəsi (şəhərin iki mühüm küçəsi boyu çoxmərtəbəli binaların tikintisi) həyata keçirilməmişdir.

1982-ci ilin Baş planının işləmə dövrü sona yetmişdir, ilkin dövrün həyata keçirilməsi keçid dövrünə *(SSRİ dağılması və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması)* təsadüf elədi, bu da öz növbəsində Şəmkir şəhərinin tikintisinə təsir edən bir sıra strateji sosial-iqtisadi istiqamətlərin yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur.

Əvvəlki Baş planın həyata keçirilməsinin kompleks təhlili aşağıdakıları göstərdi:

Baş planın hesablama dövrü üçün nəzərdə tutulan əhali artımı öz göstəricilərinə demək olar ki çatmışdır, hal hazırda şəhər əhalisi rəsmi olaraq 40,6-41,5 min nəfər qeydə alınmışdır.

Müasir mənzil tikintisi strukturu əvvəlki Baş planda nəzərdə tutulan struktura – yeni çoxmərtəbəli binaların üstünlük təşkil etməsinə müvafiq deyil. Hal-hazırda aparılan tikinti işlərinin 100% yerli əhalinin özü tərəfindən aparılan fərdi evlərin tikintisindən ibarətdir.

Yeyinti sənayesinin əsas müəssisələri öz planlaşdırılmış inkişaflarına nail ola bilməmişlər və nəticə olaraq faydasız olmaları səbəbindən və satış bazarı ilə əlaqəsini itirməsinə görə ləğv olunmuşlar. Digər sənaye sahələri də gözlənilən inkişafa nail ola bilməmişlər - əksər istehsalat müəssisələri işləmir, ya da yerlərində qeyri-profilli xırda müəssisələr fəaliyyət göstərir. İstehsalatların şəhər ərazisində yerləşdirilməsi üzrə Baş plan tədbirləri öz aktuallığını itirmir, istehsalat zonalarının bir hissəsini yenidən profil dəyişikliyi edərək müasir istehsalatlar və çoxfunksiyalı ictimai-işgüzar müəssisələrə çevirmək mümkündür.

1979-1982-ci il Baş planının bir çox təklifləri öz aktuallığını saxlayır və müasir dövrə də aid edilə bilər.

Nəqliyyat

Əvvəlki Baş planın xarıcı nəqliyyat sahəsində tədbirləri kütləvi yol tikintilərini nəzərdə tutmamış və əsas etibarilə mövcud infrastrukturun yenidən bərpası və inkişaf etdirilməsi istiqamətlənmişdi. Təkliflərin çox hissəsi indiyə qədər həyata keçirilməmiş qalır.

Dəllər dəmiryol stansiyası da gözlənilən və yük dövriyyəsinin artması ilə əlaqədar nəzərdə tutulan inkişafa nail olmadı. 1979-cu illə müqayisədə stansiyanın yük dövriyyəsi kəskin azalmış, sərnişin daşıması isə cüzi artmışdır.

Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolunun da müxtəlif səviyyəli yollarla kəsişmələrinin təmin olunması ilə I-ci texniki kateqoriya parametrləri ilə yenidən bərpası da həyata keçirilməmişdir. İstisna Dəllər-Gədəbəy avtomobil yolunun Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu ilə kəsişməsində yolötürücüsünün tikintisi (indiki Şəmkir-Gədəbəy) və Heydər Əliyev prospekti ilə kəsişmədə dairəvi yolötürücüsünün tikintisi olmuşdur.

Mövcud avtostansiyanın yerində 100 sərnişinlik avtovağzal tikintisi təklifi də həyata keçirilməmişdir.

Yeni şəhər ərazilərinin mənimsənilməsi əvvəlki Baş planın şəhərin nəqliyyat-planlaşdırma karkasının formalaşdırılması üzrə təkliflərinə müvafiq olmadan aparılmışdır. Layihədə verilmiş magistral parametrlərinə normativ tələblərə riayət olunmamışdır.

Şəhərdaxili ictimai nəqliyyat ümumilikdə götürsək Baş planda verilən təkliflərə müvafiq inkişaf etmişdir. Bununla belə, şəhərdaxili avtobus marşrutlarının bir hissəsi planlaşdırılan istiqamətlərdə salınmamışdır və nəticə olaraq hal-hazırda şəhərin ərazisinin bir hissəsi ictimai nəqliyyat dayanacaqlarının piyada əlçatarlılığına qoyulan normativ tələblərdən kənarda yerləşir. Şəhərdaxili sərnişin daşımasının həcmi gözlənilən göstəricilərdən olduqca aşağıdır.

Əhalinin avtonəqliyyat xidmət obyektləri ilə təmin olunmasına verilən tədbirlər də təmamilə həyata keçirilməmişdir *(xüsusilə texniki xidmət stansiyalarının təmin olunması)*. Avtomobil nəqliyyatının saxlanması üçün planlaşdırılan obyektlərin tikintisi aparılmamışdır *(300 maşınlıq 2 manej qarajı, boks növlü qarajlar)*.

Su təchizatı, kanalizasiya

Su təchizatı və kanalizasiya üzrə "Şəmkir şəhərinin Baş planı"nda nəzərdə tutulmuş tədbirlər, su təchizatı və kanalizasiya komplekslərinin yaradılması, suqəbuledici qurğunun tikintisi və təmizləyici kanalizasiya qurğularının tikintisi həyata keçirilməmişdir.

İstilik təchizatı

1982-ci il Şəmkirin Baş planında nəzərdə tutulan istilik təchizatı üzrə tədbirlər həyata keçirilməmişdir:

- şəhərin şimal hissəsində yerləşən 2 nömrəli məhəllə pambıq-toxuculuq fabriki üçün ayrılmış sənaye zonasında isitmə-istehsalat qazanxanasının tikintisi;
- 57 nömrəli məhəllədə isitmə-istehsalat qazanxanasının tikintisi.

Mövcud qazanxanaların ləğv olunması üzrə tədbirlər həyata keçirilmişdir.

Qaz təchizatı

1982-ci il Şəmkir şəhərinin Baş planında müəyyən olunmuş təbii qazın əsas istifadə istiqamətləri olduğu kimi qalır.

Qismən orta təzyiqli qaz tənzimləyiciləri ilə qaz kəmərlərinin tikintisi tədbirləri həyata keçirilmişdir.

Elektrik təchizatı

"Şəmkir şəhərinin Baş planı"nda elektrik təchizatı üzrə nəzərdə tutulan tədbirlər:

- 35/10kV "Şəmkir" yarımstansiyasında mövcud transformatorların hər biri 20 MV · A iki transformatorla əvəz olunması,
- 35/10kV "Şəmkir" yarımstansiyasının yenidən qurulması, gərginliyinin 110 kV keçirilməsi və hər biri 40 MV · A gücü olan iki transformatorun quraşdırılması,
- İki 10/0,4 κV paylayıcı transformator yarımstansiyasının hər birinin gücü 630 κV · A olan iki transformatorla 12 və 22 nömrəli kvartallarda tikintisi həyata keçirilməmişdir.

Cədvəl 1.6

1982-ci ilin Baş Planında təsbit olunmuş göstəricilər (müasir şəraitlə müqayisədə)

Göstərici	1982-ci ilin Baş Planı, hesablama müddətinə (2010-cu il) nəzərdə tutulub	Müasir vəziyyət, 2015-ci il	Gerçəkləşdirmə %-i
Əhalinin sayı, min nəfər	40,0[1]	40,6	101,5
Mənzil fondu, m^2	730,0	1001,5	137,2
Orta mərtəbəli binalarda (4-5 mərtəbə) mənzil fondunun xüsusi çəkisi, %	42,8	1,4	3,3
Magistral küçə-yol şəbəkəsinin sıxlığı, km/km^2	2,2	2,0	90,9
Əmək qabiliyyətli yaşda olan əhalinin xüsusi çəkisi, %	50,7	65,5	129,2

FƏSİL 4. ŞƏHƏRİN MÖVCUD VƏZİYYƏTİ

4.1. Mövcud tikililər, abadlaşdırma, nəqliyyat və mühəndis təminatı

Şəmkir şəhəri Azərbaycan Respublikasının qərb hissəsində Şəmkir rayonunun həndəsi mərkəzində yerləşir və onun inzibati mərkəzi hesab olunur. Şəmkir rayonu öz növbəsində qərbdə Tovuz rayonu, şimalda Samux rayonu ilə, şərqdə Göygöl rayonu, cənubda isə Daşkəsən və Gədəbəy rayonları ilə sərhədlənir, Tovuz və Göygöl rayonları ilə respublika əhəmiyyətli "Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu" magistral avtomobil yolu ilə, Gədəbəy rayonu ilə isə respublika əhəmiyyətli avtomobil yolu ilə bağlanır.

Şəhər İƏD sərhədləri çərçivəsində Aşağı və Yuxarı Morul, Sərxan, Posanlı kəndləri bütövlükdə və Dəllər və Sarıtəpə məntəqələrinin bir hissəsi daxildir. Onların heç birinin ayrıca inzibati-ərazi statusu yoxdur.

Şəmkir rayonunun və onun inzibati mərkəzinin fəaliyyət strukturunda kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı prioritet yer tutur, və bu ərazidən istifadədə öz əksini tapır. Şəhər sərhədlərində çoxlu kənd təsərrüfatına yararlı torpaqlar vardır – şimalda, şimal-şərqdə və şərqdə çəmənliklər, əkinlər, meyvə bağları. Həmçinin böyük sahələr istilik təsərrüfatlar üçün istifadə olunur. Qərb, cənub-qərb istiqamətində dağ yamacları və dağlara doğru heyvanların otlaması üçün otlaq və örüşlər vardır. Yuxarıda adı çəkilən ərazilər şəhər ərazisinin böyük bir hissəsini əhatə edir və kənd təsərrüfatı istehsalı üçün böyük imkanlara malikdir.

[1] *Burada və sonra – şəhərin mövcud sərhədlərindən fərqlənən əvvəlki sərhədlər çərçivəsində*

Şəhər mərkəzi tarixən Cəyirçayın sahilində dağ yamaclarında müntəzəm küçə sistemi şəklində planlanmış və "Annenfeld" qəsəbəsi adlandırılmışdır, sonralar Annino qəsəbəsi adını almış, sonralar - Şamxor və nəhayət ən son dövrlərdə Şəmkir adlandırılmışdır. Tarixi planlaşdırma xüsusiyyəti indiyə qədər qorunub saxlanmışdır. Tədricən mərkəzin planlaşdırma strukturuna radial-dairəvi küçə və yollar əlavə olunmuşdur.

Hal-hazırda şəhərin tarixi mərkəzi yenidən bərpa olunur, abadlaşır və mehmanxanalar, muzeylər və digər xidmət obyektləri - tikilir, parklar, xiyabanlar salınır. Əsasən kənd təsərrüfatının istehsalı və emalı ilə əlaqəli fəal iqtisadi fəaliyyəti hesabına Şəmkir şəhəri intensiv surətdə inkişaf edir və lider iqtisadi mövqe tutmağa cəhd göstərir.

Son dövrlərə qədər şəhərin inkişaf etdiyi yeganə planlaşdırma sənədi 1982-ci ilin Baş planı olmuşdur.

Şəhərin formalaşmasında aşağıdakı mərhələlər fərqləndirilir:

- 1818-ci ildə müntəzəm küçə strukturu olan Annenfeld qəsəbəsinin əsasının qoyulması;
- Qəsəbənin adının Annino adına dəyişdirilməsi və qəsəbə ətrafında ərazilərin tikilməsi, şüa və yarımdairəvi küçə və yol strukturunun istifadə olunması;
- Keçən yüzilliyin ortalarında şəhər inzibati və ictimai mərkəz statusunu almış və Şamxor adlandırılmışdır. Bu dövr xəstəxana, poliklinika, texnikum və s. kimi bir sıra ictimai binaların və tikililərin tikintisi ilə əlamətdardır.
- Şəhərin sol sahil hissəsinin yaşayış tikintiləri ilə təmin olunması və planlaşdırma strukturunun düzbucaq mərkəzli radial-dairəvi struktura transformasiyası.

Layihə ərazisini iri nəqliyyat dəhlizi olan "Bakı - Tbilisi" dəhlizi kəsib keçir. Şəhərin şimalında Dəllər qəsəbəsində dəmiryol stansiyası yerləşir. Şəmkir və Dəllər bir-birindən en istiqamətində uzanan magistral boru kəməri dəhlizi ilə ayrılırlar. İki yaşayış məntəqəsi magistral küçə ilə birləşir – respublika magistral avtomobil yolunun dairəsi ötürücüsündən şimala doğru Heydər Əliyev prospektinin davamı. Hal-hazırda Şəmkir şəhərinin qərb hissəsində Şiştəpə qəsəbəsi ərazisində yeni suvarma kanalı tikilir.

Planlaşdırma rayonları

Şəhər Cəyirçayın sağ və sol sahilində yerləşən iki iri planlaşdırma rayonundan ibarətdir. Mərkəzi (şərq) hissədə Səməd Vurğun və İsrafil Məmmədov küçələrinin sərhədlərində azmərtəbəli yaşayış binaları olan tarixi mərkəz seçilir. Tarixi mərkəzdən cənuba doğru Cəyirçayın yuxarı axınına doğru keçmiş Sərxan kəndi yerləşmişdir. Hər bir planlaşdırma hissəsində müxtəlif funksional təyinatlı ərazilər var. Şəhər mərkəzindən az məsafədə yaşayış binaları (5 mərtəbə evlər) və hərbi hissədən ibarət hərbi şəhərcik yerləşir.

Planlaşdırma karkası

Şəmkir şəhərinin əsas xüsusiyyətlərindən və planlaşdırma problemlərindən biri odur ki, şəhər cənub-qərb istiqamətində ona birləşən geniş dağ yamaclarına olan birbaşa çıxışından az istifadə edir, çayın sol sahilində formalaşmış yeni yaşayış məntəqələri isə kifayət qədər sosial təminat infrastrukturuna malik deyillər və mərkəzdən uzaqdırlar.

Mərkəz rayonda meridian istiqamətində əsas planlaşdırma oxları Heydər Əliyev, Səməd Vurğun, Həzi Aslanov, Nizami, İsrafil Məmmədov küçələridir, bu küçələr en istiqamətli əsas planlaşdırma xətti olan - respublika əhəmiyyətli magistral avtomobil yolu "Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu" ilə əlaqələnir.

Planlaşdırma karkasının en istiqamətində 20 yanvar, Hüseyn Cavid, Şiştəpə kəndi istiqamətində yerli əhəmiyyətli avtomobil yolu tamamlayır. Yarımdairəvi magistral yolu olan "Kraz yolu" sol sahil tikililərini əhatə edir və Gədəbəy istiqamətində respublika avtomobil yoluna qoşulur.

Sənaye və kommunal-anbar əraziləri

Şəhərdə dəqiq formalaşmış istehsalat zonası yoxdur. İstehsalat və kommunal-anbar əraziləri bütün şəhər ərazisinə səpələnmişdir.

Belə ki, şəhərin mərkəzində, Səməd Vurğun küçəsində, keçmiş konyak zavodunun sahəsi yerləşir. Əhməd Cavad küçəsinə yenidən bərpa olunmuş çörək zavodunun ərazisi birləşir. 20 yanvar küçəsinə fəaliyyət göstərməyən şərab zavodunun əraziləri birləşir. Fəaliyyət göstərməyən obyektlərin ərazilərinin yenidən rekultivasiyası şərti altında bu ərazilər gələcəkdə istehsalat-işgüzar və yaşayış təyinatlı tikililərin yerləşdirilməsi üçün olduqca əlverişli ərazilərdir.

Şəhərin cənub-qərb sərhədi uzunu sahəcə böyük olan quşçuluq fabriki yerləşir, onun sanitar-mühafizə zonası şəhər daxilindəki tikililər ərazisinə düşür.

Şəhərdə mühüm yeri yerli tikinti materialı – tuf daşı çıxarılan karyerlər tutur, bu material əsas divar hörgüsü materialı hesab olunur. Bir karyer şəhərdən cənub-şərqə doğru, dağ dərəsində yerləşir, bu əraziyə yaxınlıqda isə radioəlaqə antenası yerləşir. İkinci karyer isə şəhərin qərb hissəsində Şəmkir şəhərini Şiştəpə kəndi ilə birləşdirən yerli avtomobil yolunun kənarında yerləşir.

Yaşayış zonaları

Şəhərin yaşayış təyinatlı tikililərinin əksəriyyəti bir-iki mərtəbəli fərdi yaşayış evləridir. Şəhərdə həmçinin qəsəbənin şəhərə keçidi dövründə *(1950-ci illərdə)* tikilmiş çoxmənzilli yaşayış binaları olan mikrorayonlar yerləşir. Tədricən həm azmərtəbəli, həm də orta mərtəbəli yaşayış binaları olan mikrorayonlar formalaşmışdır – 5 mərtəbəli yaşayış binasının mikrorayonu çörək zavodunun yaxınlığında yerləşir. Azmərtəbəli tikililər Heydər Əliyev prospekti boyu, Heydər Əliyev meydanı ətrafında park ərazisinin qarşısında yerləşir. Azmərtəbəli və orta mərtəbəli yaşayış tikililəri fərdi yaşayış evləri ilə müqayisədə Şəmkir ərazisində olduqca az bir ərazini tuturlar, amma gələcəkdə əsaslı ərazi inkişafı alacaqları güman edilir.

İctimai mərkəzlər sistemi

Şəmkir şəhərində inkişaf etmiş əhaliyə xidmət obyektləri mövcuddur, bir sıra iri ictimai mərkəzlər vardır. Şəhərin tarixi mərkəzi "şimal-cənub" istiqamətli əsas 5 tarixi küçələr boyu salınmışdır. Bu xəttin şimal hissəsində bu yaxınlarda müasir iri obyektlər tikilmişdir. Mərkəzin cənub hissəsində tarixi və yeni müasir binalar, park zonaları yerləşmişdir.

Bakı tərəfdən respublika avtomobil yolu ilə şəhərin girişində xətt boyu ticarət və xidmət mərkəzi formalaşmışdır, burada yolkənarı servislər, kafelər, restoranlar, ticarət obyektləri yerləşmişdir. Avtomobil yolunun digər tərəfində isə stadionu, idman meydançaları və zalları olan Olimpiya mərkəzi yerləşmişdir.

Dairəvi yolötürücü ərazisində Heydər Əliyev prospektinin başlandığı yerdə şəhər və ümumilikdə rayon üçün mühüm olan obyektlər yerləşmişdir. Burada yerləşən Bayraq Muzeyi şəhərin, rayonun və ümumilikdə yerli regionun tarixindən bəhs edir. Elə buradaca müasir Gənclərin yaradıcılıq inkişafı mərkəzi yerləşmişdir, mərkəzdə əlavə təhsil, o cümlədən, intensiv şahmat kursları, təsviri incəsənət dərnəkləri, xarici dil kursları və s. kimi geniş spektrli xidmət sahələri vardır. Mərkəzin həmçinin telestudiyası vardır, burada maarif və öyrədici verilişlər çəkilir, tematik görüşlər və yarışlar keçirilir.

Şəhərin və bütün rayonun ən mühüm ictimai binası Heydər Əliyev Mərkəzidir, burada daimi olaraq ən yaxşı dünya şahmatçılarının yarışları və digər mühüm tədbirlər keçirilir. Bina qarşısında gözəl fontanları, gülləri olan böyük bir ərazi salınmışdır.

Heydər Əliyev prospekti boyunca gözəl yaşıl bulvar Heydər Əliyev Mərkəzi ilə Bayraq meydanını bir-birinə bağlayır. Heydər Əliyev mərkəzinə sahəcə böyük əyləncə parkı, attraksionlar parkı, abadlaşdırılmış istirahət zonaları birləşir.

İctimai binalar qrupu tarixi mərkəzi cənub hissədən bağlayır, buraya məscid binası, şəhər administrasiyasının binası, "Annenfeld" restoranı və digər tikililər aiddir, tikililər bir-biri ilə dendropark və zəngin yaşıllaşdırılmış küçə xiyabanları ilə bağlanır.

Şəhərin tarixi retroperspektivi cəhətdən mühüm ictimai mərkəzi lüteran kilsəsi ərazisi və bura birləşən kinoteatr, əlavə təhsil müəssisələrinin ərazisidir. Lüteran kilsəsi şəhər üçün mühüm tarixi əhəmiyyətə malikdir və mədəni irs obyektlərinə aiddir.

Tarixi mərkəzə həm də stadion ərazisi və "Şəhidlər Xiyabanı" parkı birləşir. "Olimpiya mərkəzi"nin istifadə verilməsindən sonra stadion söküləcək, onun ərazisi isə şəhərin digər ehtiyaclarına müvafiq istifadə olunacaq.

20 yanvar küçəsi yaxınlığında hərbi şəhərcik və avtostansiya ərazisində şəhər bazarı və mağazalar da əhəmiyyətli ictimai qovşaq sayılır.

Magistral respublika avtomobil yolu boyu ictimai-iaşə, ticarət tikililəri vardır ki, bunlar da cəmdə xətti konstruksiya təşkil edir.

Şəhərin planlaşdırma strukturunun xüsusiyyətləri və ərazidən istifadə öz əksini "Ərazinin mövcud istifadə sxemi"ndə tapmışdır. Xüsusi istifadə təyinatlı zonalar "Ərazinin kompleks qiymətləndirilməsi sxemi"ndə öz əksini tapmışdır.

Nəticələr:

1. Şəhər əsas təbii meridian xətti olan Cəyirçayın iki sahilində yerləşmişdir.
2. Şəhərin planı mozaik və rəngarəngliyi ilə seçilir. Şəmkir şəhərində inkişaf etmiş əhaliyə xidmət obyektləri şəbəkəsi vardır, bir sıra iri ictimai mərkəzlər tikilmişdir. Şəhərin tarixi mərkəzi "şimal-cənub" istiqamətli əsas beş tarixi küçə boyu yerləşmişdir. Şəhərin mərkəz hissələri intensiv şəkildə yenidən qurulur və abadlaşdırılır.
3. Heydər Əliyev prospektinin şimal hissəsində iri xidmət obyektləri tikilmişdir. Mərkəzin cənub hissəsində tarixi və yeni ictimai binalar, park zonaları yerləşir.
4. Şəhərin yaşayış tikililərinin əsas hissəsi – bir-iki mərtəbəli fərdi yaşayış evləridir. Tədricən az və orta mərtəbəli yaşayış binaları olan mikrorayonlar formalaşmışdır.
5. Şəmkir şəhəri dəqiq formalaşmış istehsalat zonasına malik deyildir. İstehsalat və kommunal-anbar təyinatlı obyektlər bütün şəhər boyu səpələnmişdir.
6. Şəhərin böyük turizm-rekreasiya imkanları vardır. Şəmkir şəhərinin əsas planlaşdırma problemi ondan ibarətdir ki, planlama zamanı şəhərə birləşən dağ yamaclarının gözəl təbiətindən tam istifadə olunmur.
7. Şəmkir şəhəri qiymətli kənd təsərrüfatı torpaqları ilə əhatə olunmuşdur. Gələcək inkişaf üçün yararlı olan əsas ərazi ehtiyatları dağ yamaclarında və şəhərin qərb sol sahil hissəsində yerləşmişdir.

4.2. Şəhərin sanitar-gigiyena vəziyyəti

Şəmkirin sanitar-gigiyena vəziyyəti nisbətən əlverişli kimi qiymətləndirilir.

Şəhər ərazisində atmosfer havanı çirkləndirəcək iri sənaye mənbələri yoxdur.

Son illər ərzində bir sıra istehsalatlar öz məhsullarını azaltmış və ya tamamilə fəaliyyətlərini saxlamışlar ki, bu da havaya atılan tullantıların miqdarını əhəmiyyətli dərəcədə azaltmış və ətraf mühitin keyfiyyətinə əlverişli təsir etmişdir.

Stasionar mənbələrdən atmosfer havasına atılan çirkləndirici maddələrin həcminə görə bütün Şəkmir rayonunun tullantıları Azərbaycan Respublikası üzrə tullantıların ümumi həcminin 0,003%-ni təşkil edir.

Havaya atılan çirkləndirici maddələrin əsaslı hissəsi avtomobillərin payına düşür. Son illərdə avtomobillərin havaya atdıqları çirkləndirici maddələr iki dəfə artmışdır ki, bu da avtomobillərin sayının müntəzəm olaraq artması ilə əlaqədardır. Bundan əlavə, şəhərdə vahid yanacağa nəzarət sistemi yoxdur, küçə-yol şəbəkəsi yetərincə abadlaşdırılmamışdır.

Şəmkir şəhərinin su təchizatı infrastrukturunun bir hissəsi istismar dövrünün olduqca uzun olması səbəbindən artıq müasir tələblərə cavab vermir. Bunun nəticəsi olaraq isə, əhaliyə verilən suyun keyfiyyəti sanitar-gigiyena normativlərinə uyğun deyildir. Bununla yanaşı şəhərin su təchizatı sisteminin həddindən artıq istifadə nəticəsində ikincili çirklənmə də istisna olunmur.

Azərbaycan Respublikası Ekologiya və Təbii Ehtiyatlar Nazirliyinin məlumatlarına əsasən Şəmkir şəhərində radiasiya vəziyyəti illər boyu stabil olaraq qalmışdır və normativ göstəriciləri aşmamışdır.

Şəhər ərazisində tikinti daşının hasilatı üzrə daş karxanaları yerləşir. Onların ərazilərinin rekultivasiyası aparılmayıb. Xarablaşmış torpaqlar üzrə dəqiq məlumatlar yoxdur. Şəhər ərazisində daş karxanalarının fəaliyyəti nəticəsində pozulmuş torpaqların rekultivasiyası layihəsini hazırlamaq və həyata keçirmək lazımdır. Bu cür layihə çərçivəsində deqradasiya olunmuş (pozulmuş) torpaqların sahəsinin və onların pozulması dərəcəsinin qiymətləndirilməsi aparılmalıdır.

Ekoloji vəziyyətin daha da yaxşılaşdırılması və optimallaşdırılması üçün hava hövzəsinin təmizlənməsinə, su ehtiyatlarının və torpağın təmizlənməsinə yönəldilmiş təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi lazımdır. Bundan əlavə, atmosferin, su obyektlərinin, torpağın, səs və elektromaqnit çirklənmənin monitorinqi sistemini inkişaf etdirmək və tematik rəqəmsal xəritə layları yaratmaq və onların vaxtında həyata keçirilməsinə nail olmaq lazımdır.

4.3. Şəhərin torpaq fondu və onun istifadə olunması

Şəmkir şəhəri hüdudları daxilində yerləşən bütün torpaqlar onun vahid torpaq fondunu təşkil edir. Şəhərin müasir sərhədləri Azərbaycanda keçən əsrin 90-cı illərinin ikinci yarısında aparılmış torpaq islahatı nəticəsində bərqərar olmuşdur. Bu islahatların gedişatı zamanı Şəmkir şəhərinin öz torpaqları iki təsərrüfata *(əvvəlki sovxozlar)* - N.Nərimanov adına və Aşıq Teymur adına sovxozların torpaqları ilə birləşdirilmişdir. (Cədvəl 4.1)

Cədvəl 4.1

Şəhər ərazisinin ilkin tərkib hissələri

№	Birləşdirilən şəhər və təsərrüfat subyektlərinin adları	Sahə (ha)
1	Şəmkir ş.	387,00
2	N.Nərimanov adına təsərrüfat (sovxoz)	8 620,80
3	Aşıq Teymur adına təsərrüfat (sovxoz)	3 626,49
	Şəmkir İƏD	**12 634,29**

Mənbə: Mənbə: AR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. "Azdövyerqurlayihə" İnstitutunun materialları.

Razılaşma prosesində sərhədlərə xırda düzəlişlər edilmişdir ki, bu da son nəticədə Şəmkir İƏD (inzibati anlamda Şəmkir İƏD tərkibinə ancaq Şəmkir şəhəri daxildir və müvafiq olaraq hər ikisinin sərhədləri üst-üstə düşür) sahəsinin bir qədər azalmasına səbəb olmuşdur. O vaxtdan indiyə qədər şəhər ərazisinin sərhədləri dəyişilməz olaraq qalmışdır (Şəkil 1).



Mənbə: AR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. "Azdövyerqurlayihə" İnstitutu. 2013 il.

Şəkil 4.1. Şəmkir şəhər İƏD-nin xəritəsi

Bu bölmə Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, Azərbaycan Respublikasının "Torpaq islahatı haqqında" qanunu və digər normativ-hüquq aktları əsasında yazılmışdır.

Mövcud qanunvericiliyə əsasən *(AR Torpaq Məcəlləsi. 18-ci maddə, 1-ci bənd)*, Şəmkir şəhərinin torpaq fondu məqsədli təyinatı üzrə - "Yaşayış məntəqələrinin (şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin) torpaqları" kateqoriyası ilə təqdim olunub. Şəmkir şəhərinin torpaq fondunun ümumi sahəsi 12 604,4 ha təşkil edir.

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 20-ci maddəsinin 1 və 2-ci bəndlərinə əsasən, "Yaşayış məntəqələrinin torpaqlarından onların Baş planlarına, ərazinin planlaşdırılması və tikintisi layihələrinə və eləcə də yerquruluşu-təsərrüfat planlarına müvafiq surətdə istifadə edilir", həmçinin, "yaşayış məntəqələrinin Baş planları yaşayış, sənaye, mədəni-məişət obyektlərinin tikintisi və başqa tikintilər, əhalinin istirahət yerlərinin müəyyənləşdirilməsi və abadlaşdırılması üçün şəhərlərin, qəsəbələrin və kənd yaşayış məntəqələrinin torpaqlarından istifadənin əsas istiqamətlərini müəyyən edir. Baş plan əsasında hazırlanmış planlaşdırma və tikinti layihələri tikinti üçün torpaqlardan istifadəni müəyyən edir".

Şəmkir şəhərinin torpaq fondu təyinatından asılı olaraq qüvvədə olan qanunvericiliyə əsasən 6 kateqoriya ilə təmsil olunmuşdur –

- kənd təsərrüfatı təyinatlı torpaqlar;
- yaşayış məntəqələrinin torpaqları;
- sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar;
- xüsusi qorunan ərazilərin torpaqları;
- meşə fondu torpaqları;
- ehtiyat fondu torpaqları.

Layihə ərazisində su fondunun torpaqları təqdim olunmamışdır. Eyni zamanda layihə ərazisində dağətəyi ərazilərə məxsus olan torpaqlar mövcuddur, onlar da torpaq fondu kimi qeydə alınmışdır – Kiçik Qafqazın şimal dağətəyi əraziləri.

Şəmkir şəhərinin torpaqlarının növlər ilə bölgüsü aşağıdakı cədvəldə və şəkil 4.1-də verilmişdir, torpaqların sahə rəqəmləri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ""Azdövyerqurlayihə" İnstitutu məlumatlarının əsasında hesablanmışdır.

Cədvəl 4.2

Şəmkir şəhəri torpaq fondunun təyinatına görə bölgüsü.

Torpaqların təyinatı	Sahəsi, ha	Ümumi şəhər torpaq fondunda tutduğu yer, %
Yaşayış məntəqələrinin torpaqları	2 652,1	21,04
Kənd təsərrüfatı təyinatlı torpaqlar	5 592,1	44,37
Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar	231,0	1,83
Xüsusi qorunan ərazilərin torpaqları	11,5	0,09
Meşə fondu torpaqları	1 229,6	9,76
Ehtiyat fondu torpaqları	70,9	0,56
Kiçik Qafqazın şimal yamacları torpaqları	2 817,2	22,35
Cəmi:	12 604,4	100,00

Mənbə: AR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. "Azdövyerqurlayihə" İnstitutu. 2013 il.

Şəmkirin torpaq fondunun strukturunda kənd təsərrüfatı təyinatlı torpaqlar üstünlük təşkil edir və şəhər ərazisinin yarı hissəsini tutur. İkinci və üçüncü yeri isə demək olar ki, bərabər nisbətdə Kiçik Qafqazın şimal yamacları torpaqları və yaşayış məntəqələrinin torpaqları tutur. Bu üç komponentlər birgə şəhərin torpaq fondunun 90%-ni təşkil edir. İlk iki komponentin üstünlük təşkil etməsinə səbəb 20 il əvvəl aparılmış torpaq islahatları zamanı şəhərin ona birləşik olan ərazilərlə birləşməsidir.



Mənbə: AR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. "Azdövyerqurlayihə" İnstitutu. 2013 il.

Şəkil 4.2 Şəmkir şəhəri torpaq fondunun strukturu

Yaşayış məntəqələrinin torpaqları

Azərbaycan Respublikası Torpaq məcəlləsinin bənd 1 maddə 18 əsasən "Şəhər, qəsəbə və kəndlərin hüdudları daxilindəki bütün torpaqlar yaşayış məntəqələrinin torpaqları hesab edilir".

Yaşayış məntəqələrinə aid torpaqlar Şəmkir şəhərinin ərazisinin *(məxsusi Şəmkirin və onunla vahid tikililmiş əraziyə birləşmiş keçmiş yaşayış məntəqələri: Yuxarı və Aşağı Morul, Sərxan, Posanlı, həmçinin bir az aralıqda yerləşən xırda eksklavlar: Sarıtəpə və Dəllər)* 2 327,4 ha sahəsini tutur.

Bu torpaqlara avtovağzal, yanacaqdoldurma məntəqələri, yollar *(asfalt və torpaq)*, hərbi şəhərcik, qaz infrastrukturu müəssisələri, konyak zavodu, ictimai və yaşayış binaları, məscidlər, qəbiristanlıqlar, parklar, olimpiya kompleksi, otlaqlar, açıq təbii landşaft zonaları, artezian quyuları, göllər, xəstəxanalar, məktəblər, uşaq bağçaları, yaşıl zolaqlar *(ağaclardan ibarət)* və digər şəhər əraziləri üçün xarakterik olan obyektlər aiddir.

Kənd təsərrüfatı təyinatlı torpaqlar

Azərbaycan Respublikası Torpaq Məcəlləsinə uyğun olaraq *(bənd 1 maddə 12)*: "Ərazi planlamasında kənd təsərrüfatı tələbləri üçün istifadə olunması nəzərdə tutulan torpaqlar kənd təsərrüfatı təyinatlı torpaqlar hesab olunur".

Layihə ərazisinin tərkibində olunan kənd təsərrüfatı təminatlı torpaqları 6 149,1 ha və ya ərazinin ümumi sahəsinin 48,8 %-ni təşkil edir və torpaqların müəyyən olunmuş təyinatı üzrə istifadə olunur:

– əkinlər – 2 569,99 ha;

– örüş *(daşlı və kollu örüş daxil olmaqla)* – 2 519,47 ha

– meyvə bağları (o cümlədən üzümlüklər) – 263,45 ha;

– yarğanlar – 346,6 ha

– biçənəklər – 179,17 ha;

– torpaq yolları – 145,6 ha

– digər – 124,82 ha

Yuxarıdakı məlumatlardan göründüyü kimi, kənd təsərrüfatı təyinatlı torpaqlar içində ilk iki yer demək olar ki, bərabər nisbətdə əkin yerlərinə *(41,8%)* və örüşlərə *(41,0%)* aiddir. Kənd təsərrüfatı torpaqlarının digər istifadə növləri az yer tutur və adi çəkilən iki növdən hiss olunacaq qədər geri qalır.

Kənd təsərrüfatı yararlı torpaqları əsas kənd təsərrüfatı istehsalatı vasitəsi kimi xüsusi hüquqi rejimi var və xüsusi olaraq onların sahələri qorunub saxlanır, neqativ proseslərin qarşısı alınır və torpağın məhsuldarlığı artırılır.

Sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar

Qanunvericiliklə tənzim olunmuş qaydada sənaye obyektlərinin, rabitə, nəqliyyat, ictimai iaşə və digər istehsalat və xidmət obyektlərinin yerləşməsi və fəaliyyət göstərməsi üçün ayrılmış torpaqlar sənaye, nəqliyyat, rabitə və s. təyinatlı torpaqlar hesab olunur.

Sənaye və digər xüsusi təyinatlı torpaqlar torpaq fondunun tərkibində olduqca az bir yer tutur – 234,3 ha *(torpaqların ümumi sahəsinin 1,86 %)*. Sənaye cə digər xüsusi təyinatlı torpaqlar kateqoriyası nəqliyyat, sənaye, energetika və həmçinin faydalı qazıntılar çıxarılan torpaqlarla təmsil olunur.

Meşə fondu torpaqları

Meşə örtüyü ilə örtülmüş və örtülməmiş bununla belə meşə təsərrüfatı məqsədləri üçün nəzərdə tutulan torpaqlar meşə və qeyri-meşə torpaqları hesab olunur.

Meşə torpaqları kateqoriyasına aid torpaqlar 994,0 ha *(torpaqların ümumi sahəsinin 7,89 %)* təşkil edir. Meşə fondu torpaqları ağaclardan ibarət yaşıl zolaq, kol və meşə *(əsasən şəhər ərazisinin cənub dağ və dağətəyi zonasında yerləşirlər)* ilə təmsil olunur.

Xüsusi qorunan ərazilərin torpaqları

Xüsusi qorunan ərazilərin torpaqları təbiətin xüsusi mühafizə əhəmiyyəti olan, elmi, mədəni-tarixi, estetik, turizm və rekreasiya, sağlamlaşdırıcı və digər əhəmiyyəti olan, yerli icra orqanları tərəfindən tamamilə və ya qismən təsərrüfat və ya mülki istifadəsi qadağa olunan, üzərilərində xüsusi hüquqi rejim yaradılan torpaqlardır.

Xüsusi mühafizə olunan torpaqlara aşağıdakılar aiddir:

- təbiəti mühafizə təyinatlı torpaqlar;
- təbii qoruq təyinatlı torpaqlar;
- sağlamlıq təyinatlı torpaqlar;
- turizm və rekreasiya təyinatlı torpaqlar;
- tarix-mədəniyyət təyinatlı torpaqlar

Torpaqların xüsusi qorunan torpaqlar kateqoriyasına aid edilməsi, onlardan istifadə və onların mühafizəsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tənzim olunur.

Layihə ərazisində bu kateqoriyadan olan torpaqlar cəmi 11,5 ha və ya ümumi torpaqların 0,09% hissəsini təşkil edir. Buraya mədəni-tarixi təyinatlı torpaqlara aid olan və Şəmkir şəhərinin ərazisində yerləşən qəbiristanlıqlar, məzarlar və abidələrdir.

Ehtiyat fondu torpaqları

Ehtiyat fondu torpaqları dövlət və bələdiyyə ehtiyat torpaqlarlarından ibarətdir. Dövlət ehtiyat fondu torpaqlarına o torpaqlar aiddir ki, onların istifadə hüquqları dayandırılmışdır və konservasiya nəticəsində təsərrüfat istifadəsi məhdudlaşdırılmışdır. Dövlət ehtiyat fonduna bələdiyyə, vətəndaş və hüquqi şəxslərin istifadəsinə və mülkiyyətinə verilməyən dövlət torpaqları aiddir.

Bu kateqoriyadan olan torpaqlar da layihə ərazisinin az hissəni təşkil edir, sahələri 70,9 ha *(torpaqların ümumi sahəsinin 0,56 %)* olaraq təyin edilmişdir.

Kiçik Qafqazın şimal yamacları *(yerli əhali tərəfindən mövsümi örüş kimi istifadə olunan)*

Kiçik Qafqazın şimal yamacları layihə ərazisinin mühüm bir hissəsini əhatə edir, sahəsi 2817,2 ha və ya ümumi torpaqların 22,35%-ni təşkil edir. Şəmkir şəhərinə aid olan bu torpaqları hər hansı bir istifadə növünə aid etmək mümkün deyil, Baş planda bu torpaqlar Azərbaycan Respublikası Torpaq Məcəlləsinə müvafiq olaraq digər kateqoriyalardan ayrı təmsil olunmuşdur.

Torpaqların mülkiyyət formaları

Şəmkir şəhəri ərazisində 3 mülkiyyət forması mövcuddur:

- dövlət mülkiyyətində olan torpaqlar
- bələdiyyə mülkiyyətində olan torpaqlar
- şəxsi mülkiyyətdə olan torpaqlar

Cədvəl 4.3

Torpaq fondunun mülkiyyət üzrə bölünməsi

Mülkiyyət növləri	Torpaq fondunun sahəsi, ha	Torpaq fondunda xüsusi çəkisi (%)
Layihə ərazisi sərhədləri daxilində torpaqlar,	12 604,41	(100,00%)
o cümlədən:		
dövlət mülkiyyəti	834,86	6,62
bələdiyyə mülkiyyəti	7 351,00	58,32
şəxsi mülkiyyət	4 418,85	35,06

Mənbə: AR Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. "Azdövyerqurlayihə" İnstitutu. 2013 il.

Şəmkir şəhərinin torpaqlarının çox hissəsi bələdiyyə mülkiyyətinə aiddir *(58,32%)*, dövlət mülkiyyətinə - 6,62%, şəxsi mülkiyyətdə olan torpaqlar isə ümumi torpaq fondunun 35,06%-ni təşkil edir.

Torpaqların yenidən paylanılması

Davamlı sosial-iqtisadi inkişaf məqsədilə şəhər inzibati-ərazi dairəsinin ərazilərinin bir hissəsinin Şəmkir şəhərinin tərkibindən çıxarılıb iki yeni kənd (Morul və Aşağı Morul) inzibati-ərazi dairəsinin yaradılması planlaşdırılır. Eyni zamanda qonşu inzibati-ərazi dairələrdən bəzi ərazilərinin şəhərə birləşdirilməsi nəzərdə tutulub.

Cədvəl 4.4

Şəmkir şəhəri IƏD-nə daxil edilməsi nəzərdə tutumuş ərazilər və Şəmkir şəhəri IƏD-in tərkibindən çıxarılması nəzərdə tutumuş ərazilər

s/s	Ərazi vahidinin adı	Sahə (ha)
1	***Şəmkir şəhər İƏD-nin mövcud ərazisi***	***12 604,41***
2	***Şəmkir şəhər İƏD-nə verilməsi təklif olunan ərazilər***	***2 914,54***
	onlardan:	
2.1	Şəmkir rayonu Əliyaqublu kənd İƏD-dən	114,27
2.2	Şəmkir rayonu Muxtariyyat kənd İƏD-dən	112,01
2.3	Şəmkir rayonu Qasımalılar kənd İƏD-dən	21,03
2.4	Şəmkir rayon Dövlət meşə fondundan	1 518,26
2.5	Şəmkir rayon Dövlət torpaq fondundan *(Kiçik Qafqazın şimal dağ yamacları)*	1 148,97
3	***Şəmkir şəhərindən verilməsi təklif olunan ərazilər***	***5 727,63***
	onlardan:	
3.1	Şəmkir rayonu Morul kənd İƏD-nə	3 719,58
3.2	Şəmkir rayonu Aşağı Morul kənd İƏD-nə	1 768,33
3.3	Şəmkir rayonu Sarıtəpə kənd İƏD-nə	178,29
3.4	Şəmkir rayonu Dəllər qəsəbə İƏD-nə	61,43
4	***Şəmkir şəhər İƏD-nin layihədə təklif olunan yekun ərazisi***	***9 791,32***

Mənbə: Şəmkir Rayon İcra Hakimiyyəti. 2013 il.

FƏSİL 5. ŞƏHƏRİN MƏSKUNLAŞMA SİSTEMİNDƏ YERİ VƏ ROLU

Şəmkir şəhəri respublikanın qərb hissəsində Kürün sağ qolu olan Cəyirçayın sağ və sol sahillərində yerləşir. Bakı şəhərindən avtomobil məsafəsi 399 km, Dəllər (Bakı-Tbilisi dəmir yolu) dəmiryol stansiyasından isə 4 km məsafədə yerləşir. Şəhərin şimalında Şəmkir su anbarı, cənubda isə Kiçik Qafqazın yamacları yerləşir, şəhərin şərq və qərb hissələri kənd təsərrüfatı torpaqları ilə məşğuldur.

Hal-hazırda Şəmkir şəhərində 40 mindən çox əhali yaşayır. Şəmkir şəhər inzibati-ərazi dairəsinin sahəsi 126,0 km^2-dir. Şəhərin tikililib-abadlaşdırılmış ərazilərdə (məxsusi şəhər) əhalinin sıxlığı hər 1 km^2-də 1834 nəfər təşkil edir, Şəmkir şəhər inzibati-ərazi dairəsi daxilində isə hər 1 km^2-də 322 nəfərdir. Müvəqqəti köçkünlərin sayı nisbətən azdır.

Şəmkir şəhəri əhalisinin sayına görə Azərbaycan Respublikasının 13-cü şəhəridir və ölkənin iri kənd təsərrüfatı rayonun mərkəzidir. Gəncə-Qazax iqtisadi rayonu daxilində əhalisinin sayına görə ikinci yeri tutur və iqtisadi rayonun əhalisinin 7% hissəsini özündə cəmləşdirir.

Əhali sayının dinamikası iqtisadi rayon və ümumilikdə respublika göstəriciləri ilə müqayisəli şəkildə aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 5.1

Şəmkir şəhəri əhalisinin sayının dinamikası və müxtəlif taksonomik qurumlarla müqayisə

İnzibati ərazilər	Əhalinin sayı, min nəfər				Artım tempi, faiz		
	1989	1999	2009	2015	1989-1999	1999-2009	1989-2009
Şəmkir şəhəri	27,9	31,8	36,5	40,6	113,9	114,8	130,8
Şəmkir rayonun şəhər əhalisində Şəmkir şəhərinin payı, %	54,5	54,2	54,7	56,9	-0,3	0,5	2,2
Şəmkir rayonun əhalisində şəkər şəhərinin payı, %	19,8	18,3	19,1	19,6	-1,5	0,8	0,5
Gəncə-Qazax iqtisadi rayonun şəhər əhalisində Şəmkir şəhərinin payı, %	6,2	6,4	6,7	7,1	0,2	0,3	0,4
Azərbaycan Respublikasının şəhər əhalisində Şəmkir şəhərinin payı, %	0,73	0,78	0,77	0,79	0,05	-0,01	0,02

Mənbə: 1.Azərbaycan əhalisi. Statistik bülleten. Bakı, 2015 il

2.Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, 2015 il

3 Azərbaycan Respublikasının əhalisinin siyahıyaalınması, Dövlətstatkom,1989, 1999, 2009 il;

4.Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı, 2015 il

FƏSİL 6. ŞƏHƏRİN İQTİSADİ BAZASI

6.1. Ümumi məlumat

Ərazinin iqtisadi imkanları bir sıra əsas amillərlə müəyyən olunur: iqtisadi-coğrafi vəziyyət, təbii ehtiyatlarla təminatlılıq, turizm-rekreasiya potensialı, əmək və elmi-texniki imkanlar. İqtisadi imkanların bu tərkib hissələri birlikdə iqtisadiyyatın, onun sahələrinin, müəssisələrin və təsərrüfatların istehsalat-iqtisadi fəaliyyətini, məhsul istehsal etmə, xidmətlərin göstərilməsi, əhalinin tələblərinə cavab verilməsi, ictimai tələblərə cavab verilməsi, istehsalat və istehlakın inkişafı bacarıqlarını əks etdirir.

Şəmkir şəhərinin iqtisadiyyatı kənd təsərrüfatı xammalının emalı, xidmət sahələri və nə qədər paradokslar ola da kənd təsərrüfatı istehsalatı (bu haqda növbəti bölmələrdə) üzrə ixtisaslaşmışdır.

Əsas iqtisadi göstəricilərin müsbət inkişaf dinamikası "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın tədbirlərinin uğurla həyata keçirilməsi ilə bağlıdır.

İqtisadi bazanın inkişafı

Sənaye potensialının genişlənməsi:

- Mövcud az səmərəli sənaye zonalarının yenidən qurulması və yeni müəssisələrin yaradılması üzrə renovasiya işlərinin dəstəyi.
- Sənaye müəssisələrinin yenidən qurulması və sağlamlaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsi.

Təşkilat tədbirləri:

- Sənaye kadr potensialının və elmi təminatın artırılması
- Normativ-hüquqi bazanın və idarəçiliyin nizamlanması
- "İnnovasiya fəaliyyət haqqında" qanun layihəsinin təqdim olunması
- Sənaye və texnoparklar üzrə təkanverici tədbirlərin genişləndirilməsi üzrə təkliflərin verilməsi
- Sənaye məhəllələrinin yaradılması və fəaliyyəti üzrə təkliflərin təqdim olunması
- Təşviqat və irəliləmə üzrə işlərin aparılması

Baş planda Şəmkir şəhərinin Azərbaycan Respublikasının iri kənd təsərrüfatı, sənaye, mədəniyyət və turizm mərkəzi kimi inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

Şəmkirin davamlı inkişafı üçün strateji oriyentirlər kimi aşağıdakı istiqamətlər götürülmüşdür:

- aqrar sənaye kompleksin inkişafı;
- iqtisadiyyatın müasirləşdirilməsi və diversifikasiyası;
- iqtisadi fəaliyyətin innovasiya növlərinin inkişafına təkan verilməsi;
- elmi potensialın saxlanması və inkişaf etdirilməsi;
- yeni istehsalatların ixtisaslı əmək ehtiyatlarına olan tələbatlarını ödəməyə yönəldilmiş peşə təhsili sisteminin və məsafədən təhsilin inkişaf etdirilməsi;
- investisiya fəallığının və ərazinin investisiya cəlb ediciliyinin artırılması;
- rekreasiya və turizm infrastrukturunun inkişaf etdirilməsi.

Şəmkir şəhərinin ənənəvi olaraq bərqərar olmuş təsərrüfat kompleksi Baş planın hesablama dövrü ərzində bir sıra dəyişikliklərə məruz qalacaqdır.

Bu dövrdə, xidmət sahələrinin və emal sənayesinin əhəmiyyətlərinin artması hesabına Şəmkir iqtisadiyyatı strukturunun diversifikasiyası baş verəcək, ilk növbədə ticarət və xidmət, maliyyə xidməti və turizm fəaliyyəti olmaqla, kommersiya fəaliyyəti əhəmiyyətli dərəcədə genişlənəcəkdir.

Sənaye ilə məşğul olanların payı artacaqdır. Şəhərdə ehtimal olunan yeni sənaye müəssisələrinin yerləşdirilməsi ilə əlaqədar olaraq nəqliyyatın və onunla əlaqədar ekspeditor, maliyyə, daşıma və sığorta sahələrinin də inkişafı güman edilir.

Şəhərin iqtisadiyyatının sürətli inkişafı, əhalinin sayının artması və bunun nəticəsi olaraq daşınmaz əmlaka olan ehtiyacın artması ilə əlaqədar olaraq tikinti sektoru gələcəkdə tam vüsət ilə inkişaf etmək üçün bütün şərtlərə malikdir.

Kənd təsərrüfatının əsaslı sürətdə intensivləşməsi gözlənilir.

Mədənçıxarma sənayesində məşğulluq səviyyəsi yüksək olaraq qalacaqdır.

Şəmkirin iqtisadi potensialının həyata keçirilməsi zamanı şəhərdə fəal surətdə sosial sfera: təhsil, səhiyyə də inkişaf edəcəkdir.

İnşası və ya yenidən qurulması davam etdirilən obyektlər.

Cədvəl 6.1

“Azərbaycan Respublikası Regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində Şəmkir şəhərinə aid olan aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur

Sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı üzrə tədbirlər			
4.2.4.158.	Emal sənayesinin (o cümlədən, meyvə-tərəvəz, üzüm və kartof emalı) inkişafının dəstəklənməsi	2014-2018	İqtisadiyyat və Sənaye Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti
4.2.4.159.	Müasir çörək və nişasta istehsalı müəssisələrinin yaradılmasının dəstəklənməsi	2014-2018	İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti
Yol təsərrüfatı və nəqliyyat tədbirləri			
4.2.4.164.	Yerli əhəmiyyətli avtomobil yollarının tikintisinin, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi, o cümlədən Şəmkir-Yeni Göyçə-Dağ Cəyir avtomobil yolunun yenidən qurulması	2014-2018	Nəqliyyat Nazirliyi, yerli icra hakimiyyəti/
4.2.4.165.	Şəhərdaxili yolların asfaltlaşdırılmasının davam etdirilməsi	2014-2018	yerli icra hakimiyyəti
Elektrik enerjisi təchizatı			
4.2.4.166.	Rayonun elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi, o cümlədən elektrik verilişi xətlərinin tikintisi və yenidən qurulması	2014-2018	"Azərenerji" ASC
İstilik təchizatı			
4.2.4.167.	Rayonun istilik təchizatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi	2014-2018	"Azəristiliktəchizat" ASC
Qaz təchizatı			
4.2.4.168.	Rayonun qaz təchizatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi	2014-2018	Dövlət Neft Şirkəti
Rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri			
4.2.4.169.	Rabitə və informasiya xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlərin	2014-2018	Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi

	davam etdirilməsi		
Su təchizatının və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması tədbirləri			
4.2.4.170.	Şəmkir şəhərinin kanalizasiya sisteminin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi	2014-2017	"Azərsu" ASC
Meliorasiya və irriqasiya tədbirləri			
4.2.4.171.	Rayonun torpaqlarının su təminatının yaxşılaşdırılması üçün meliorasiya-irriqasiya işlərinin həyata keçirilməsinin davam etdirilməsi, o cümlədən Mahmudlu, Posanlı[2], …… yaşayış məntəqələrində subartezian quyusunun qazılması	2014-2018	"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC, yerli icra hakimiyyəti
Mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri			
4.2.4.172.	Şəmkir şəhərinin Baş planının hazırlanması	2014-2018	Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
4.2.4.173.	Rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi	2014-2018	yerli icra hakimiyyəti
Səhiyyə müəssisələrinin tikintisi və yenidənqurulması			
4.2.4.174.	Səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi, o cümlədən Şəmkir Rayon Mərkəzi Xəstəxanasının tikintisi …	2014-2018	Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti
Mədəniyyət müəssisələrinin tikintisi və yenidənqurulması			
4.2.4.175.	Mədəniyyət obyektlərinin əsaslı təmiri, tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası və konservasiyası sahəsində işlərin davam etdirilməsi	2014-2018	Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti
Gənclər və idman müəssisələrinin tikintisi və yenidənqurulması			
4.2.4.176.	İdman-sağlamlıq obyektlərinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi	2014-2018	Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti
Təhsil müəssisələrinin tikintisi və yenidənqurulması			
4.2.4.177.	Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi, o cümlədən Şəmkir şəhərində Nizami Gəncəvi adına 640 şagird yerlik tam orta məktəbinin və şəhər 8 №-li körpələr evi-uşaq bağçasının tikintisi…	2014-2018	Təhsil Nazirliyi, yerli icra hakimiyyəti

Mənbə: AR İqtisadiyyat Nazirliyinin məlumatları. 2015il

---

[2] *Posanlı yaşayış massivi Şəmkir şəhəri ərazisinin tərkib hissəsidir (əvvəllər o kənd olmuşdur)*

6.2. Sənaye

Ümumi daxili məhsulun strukturunda və əhalinin məşğulluq strukturunda əsas rol oynayan sənaye Şəmkir şəhərində aparıcı iqtisadi fəaliyyət növü deyil. Bununla belə, son illərin nəticələrinə əsasən Şəmkir rayonun (o cümlədən Şəmkir şəhərinin) sənaye məhsullarının ümumi həcmi Gəncə-Qazax iqtisadi rayonunun sənaye istehsalı həcminin 5,5%-ni təşkil etmişdir. Şəhərdə istehsal olunan sənaye məhsulunun həcmi 3,5 mln. manat (rayon üzrə - 18,0 mln. manat), əsas fondlara investisiya qoyuluşu həcmi isə 20,5 mln. manat təşkil edir.

Şəhərin sənayesi məhdud sayda kiçik emaledici istehsalatlarla təmsil olunmuşdur, bunlar əsasən qida məhsullarının istehsalı, kənd təsərrüfatı xammalının emalı ilə əlaqədardır:

Sənaye istehsalının həcmi 3,5 mln. manat, əsas fondlara investisiyaların həcmi 20,5 mln. manat təşkil edir.

Şəhərin sənayesi ərzaq məhsullarının istehsalı, kənd təsərrüfatı xammalının emalı, tikinti daşının hasilatı və emalı ilə bağlı məhdud sayda kiçik emal müəssisələri ilə təmsil olunmuşdur:

Şəmkir şəhərinin sənaye müəssisələri

Cədvəl 6.2

№	Sənaye müəssisənin adı	Yerləş-məsi (ünvanı)	İstismara verildiyi tarix	İllik istehsal gücü/min əd.	İstehsal olunan məhsulun növü/	İstehsal olunan məhsulun dəyəri, min manat	Məşğul olanların sayı, nəfər	Son beş ildə müəssisədə işləyənlərin sayının dinamikası (orta illik)		Ərazisinin sahəsi (ha, m^2)	Əsas fəaliyyət istiqaməti	Əsas fondların dəyəri, min manat	İstifadə olunan xammalın mənbəyi və həcmi	Sanitar-mühafizə zonaların (zolaqların) mövcudluğu, metr	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
									o cümlədən müəssisədə çalışan yerli yerli sakinlərinin sayı						
1.	"PLATE K PACT". "Nəfis Çörək" Çörək Zavodu.	Şəmkir ş, T.İsmayıl ov küç. ev.64	2015		Çörək	2001,5	220	-	-	9 680	Çörək və çörək məhsulları istehsalı	1492,4	Taxıl		2013-cü ildə tikilib
2.	«Anar» tam ortaqlığı müəssisəs i	Şəmkir ş., Şiştəpə yolunun sol kənarı	2001	300	Mişar daşı	45,8	9	-	-	-	Tikinti daşların hasilatı	1,6	Daş karxana sı		Nəzərə alın-mayıb
3.	"Azərbay can" kiçik müəssisəs i	Şəmkir ş., Şiştəpə yolunun sağ kənarı	1996	200	Mişar daşı	45,8	4	-	-		Tikinti daşların hasilatı	0,5	Daş karxana sı		-//-
4.	"Natural" Su və Konserv zavodu[1]	"Ağ dağlar" ərazidə	2016(m ay)		Qablaşdırıl mış içməli su.		50			1,1ha	Su və konserv istehsalı				

[1] Zavod ərazisinin sahəsi 1,1 ha-dır. Şəhər ərazisində, "Ağ Dağlar" adlanan yerdə (c-ş), Şəmkir bələdiyyəsinin 2015-ci ilin aprelində təsis etdiyi "Abad Şəmkir" MMC çərçivəsində 2015-ci ilin mayında sudoldurma və "Natural" konservlərinin istehsalı üzrə zavodun tikintisinə başlanmışdır. 2016-cı ilin mayında zavod ilk məhsulunu buraxıb. Zavod üçün avadanlıq İtaliya və Türkiyədə alınıb. Zavod qazlı və adi içməli su, cem (riçal), mürəbbə, kompotlar, şoraba (turşular) istehsal edəcək. Zavodda 50 iş yeri yaradılmışdır, gələcəkdə onların sayını 70-ə çatdırmaq planlaşdırılır.

					Meyvə konservləri										
5.	"Morul Tikinti"[1]		2016		tikinti materialların istehsalı		30								

1923-cü ildən şəhər ərazisində yerləşən köhnə konyak zavodu hal-hazırda ləğv olunmuşdur, onun yerləşdiyi ərazi isə yenidən istifadəyə verilməlidir. Eyni hal köhnə şərab zavodu ilə baş vermişdir, onun da ərazisində yenidənqurma işləri aparılır.

Bundan əlavə, şəhərdə sənaye müəssisələrinə və mənzil-kommunal sahəsinə xidmət verən müəssisələr yerləşmişdir. Onların arasında Şəmkir rayonu kommunal müəssisələri kombinatı (120 nəfər işçi), Şəmkir paylayıcı elektrik şəbəkəsi (120 nəfər işçi), Şəmkir su kanalı idarəsi (48 nəfər işçi) fərqlənir.

Sənaye istehsal inkişafının əsas göstəriciləri, əsas sənaye müəssisələrinin xarakteristikası və natura ifadəsində istehsal olunan məhsulun həcm dinamikası ilkin mənbələrdə öz əksini tapmamışdır.

Şəmkir şəhəri ərazisində tikinti materialları kimi istifadə olunan faydalı qazıntı yataqları vardır, onların çıxarılması fəal surətdə şəhərin cənub və qərb hissəsində aparılır. Dəllər stansiyası ərazisində kərpic və keramit istehsal etmək üçün istifadə oluna bilən gil yataqları vardır, amma onların hasilatı həyata keçirilmir.

"Azərbaycan Respublikası Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi"nə əsasən gələcəkdə sənayenin inkişafı əsas etibarilə şəhər ərazisində yeni müəssisələrin yerləşdirilməsi hesabına nəzərdə tutulur. Şəhərin sənaye bazasının inkişafı üzrə əsas layihələr sırasında aşağıdakılar xüsusi yer tutur:

- Tikinti materialları istehsal edən müəssisələrin tikintisi *(lazım olan investisiyaların həcmi 2018-ci ilə qədər 34,1 mln. manat, 2030-cu ilə qədər isə 113,7 mln. manat təşkil edəcəkdir, 2018-ci ilə qədər 226 yeni iş yeri, 2030-cu ilə qədər isə 754 iş yeri açılacaqdır, həyata keçirilən tikinti-quraşdırma işlərinin həcmi 2018-ci ilə qədər 37 mln.manat, 2030-cu ilə qədər isə 125 mln.manatdan çox olacaqdır, layihənin tam həyata keçirilməsi anında əlavə dəyər həcmi 44 mln. manat olacaqdır).* 2016-ci ildə "Azərxalça" ASC 200 iş yeri olan xalça fabrikinin inşasını başa çatdırmağı planlaşdırıb.
- Xalça və üzlük istehsalının təşkil olunması *(2030-cu ilə qədər 301 yeni iş yeri, 2018-ci ilə qədər 90 iş yeri, tam qüvvədə fəaliyyətə qədər əlavə dəyər həcmi 12 mln.manat, investisiyaların həcmi 23 mln.manat təşkil edəcəkdir).*
- Metal mebel istehsalı zavodunun tikintisi *(qara metallurgiya, 2030-cu ilə qədər 44 yeni iş yeri, tam qüvvədə istehsala qədər əlavə dəyər həcmi 2 mln.manat təşkil edəcəkdir).*
- Alüminium pəncərə və qapı blokları, furniturları və mebellərini istehsal edən zavodun tikintisi *(əlvan metallurgiya, 2030-cu ilə qədər 30 yeni iş yeri, 2030-cu ilə qədər investisiya həcmi 2,1 mln.manat, əlavə dəyər həcmi isə 1 mln.manat təşkil edəcəkdir).*
- Ət və ət məhsullarının emalı, kofe və çay qablaşdırılması, südün emalı və dondurma istehsalı, tərəvəz emalı və konserv emalı müəssisələrinin *(sexlərinin)* tikintisi.

[1] *Şəmkir bələdiyyəsinin təsis etdiyi "Morul Tikinti" MMC çərçivəsində rayon əhalisini tikinti materialları ilə təchiz (təmin) etmək üçün yerli xammaldan istifadə etməklə tikinti materiallarının istehsalı üzrə müəssisə fəaliyyətə başlamışdır. Müəssisədə 30 yeni iş yeri açılmışdır.*

- Üzvü gübrə, yem və bioloji əlavələrin *(kənd təsərrüfatı istehsalı qalıqları)* istehsalı və qablaşdırması üzrə sexin təşkil olunması.
- Kənd təsərrüfatı istehsalı və meliorasiya sahələrində xidmət verən müəssisələrin yaradılması.

Şəmkirdə istehsal olunan məhsulların ümumi rəqabətə davamlılıq səviyyəsini artırmaq, mövcud müəssisələrin inkişafını təmin etmək məqsədilə yeni istehsalatların yerləşdirilməsi növbəti tələblər nəzərə alınmaqla həyata keçirilməlidir: istehsalın ekoloji xarakteri, istehsalın yüksək texnoloji səviyyəsi, mövcud istehsalat ərazilərinin səmərəli istifadə olunması.

Mövcud faydalı qazıntı yataqlarından istifadə *(tikinti daşı, əhəng daşı)* gələcəkdə saxlanılacaqdır, belə ki, bunlar tikinti materialları istehsalı üçün əsas xammal bazası hesab olunur və bundan başqa gələcəkdə bu bazanın genişləndirilməsi üçün yeni yataqların kəşfiyyat işinin aparılması planlaşdırılır.

Yeni sənaye müəssisələri şəhərin cənub-şərqində prioritet istehsalat zonasında Yeni Həyat kəndinə və quşçuluq fabrikinə gedən yol boyu yerləşdiriləcəklər.

6.3. Tikinti-quraşdırma təşkilatları

Şəmkir şəhəri ərazisində bir neçə xırda tikinti-quraşdırma təşkilatları yerləşmişdir, burada rəsmi statistika məlumatlarına əsasən 2015-ci ildə 1 182 nəfər işlə təmin olunub. Tikinti təşkilatlarının siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 6.3

Şəmkir şəhərində tikinti-quraşdırma təşkilatları

№	Təşkilatın adı	Ünvanı	Fəaliyyətə başladığı tarix	Ərazisinin sahəsi (ha, m^2)	Əsas fəaliyyət istiqamətləri	Görülən işlərin illik həcmi	İşçilərin orta illik sayı	Balansında olan xüsusi texnika və nəqliyyat vasitələrinin sayı
1	"Şəmkir tikinti 18" ASC	Şəmkir ş., SUM-28	2004	550	Tikinti	18,9	4	Mövcud deyil
2	"Şəmkir mənzil tikinti" MMC	Şəmkir ş., İnşaatçı	2008	?	-/-	442,0	3	-/-
3	Səma-4MT Kooperativi	Şəmkir ş., S. Vurğun küç., ev 147	2006	15	-/-	18,8	10	-/-

Mənbə: Cədvəl Şəmkir rayonu Statistika İdarəsi tərəfindən təqdim olunan məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Yuxarıda göstərilən tikinti təşkilatlarının həyata keçirdiyi tikinti-quraşdırma işlərinin həcmi barədə məlumat yoxdur. İlkin məlumatlara əsasən hər il həm tikinti təşkilatları cəlb olunmaqla, həm də təsərrüfat qaydası ilə sahəsi 4-7 min m^2 olan 40-50 yaşayış evinin tikintisi aparılır.

6.4. Kənd təsərrüfatı

Kənd təsərrüfatı

Kənd təsərrüfatı Şəmkir rayonunun inkişafının prioritet sahəsidir. Rayon Azərbaycan Respublikasının aqrar-sənaye kompleksi istehsalçıları sırasında iri mərkəzlərindən biridir. Rayon

tərəvəz yetişdirilməsi, o cümlədən örtülü torpaqda (istixanalarda), buğda, meyvə, üzüm, mal əti, quş əti və süd istehsalı üzrə ixtisaslaşmışdır. Bu sahədə, o cümlədən bura aid olan emaledici istehsalatlarda yerli iqtisadi fəal əhalinin əsas hissəsi məşğuldur. Şəhər ərazisində "Şərq Ulduzu" MMC, həmçinin Şirzad Həsənovun fermer təsərrüfatı, şəhərin cənub-şərqinə yaxın ərazidə "Şəmkir quşçuluq" MMC yerləşmişdir.

Rayonun 2009-2014-cü illərdə kənd təsərrüfatının inkişaf göstəriciləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 6.4.

Kənd təsərrüfatı müəssisələri

№	Kənd təsərrüfatı müəssisənin və fərdi sahibkar təsərrüfatının adı	Yaranma tarixi	Sahəsi (ha)	Əsas fəaliyyət növü	Görülən işlərin illik həcmi(min manat)	İşçilərin sayı və onlardan şəhərdə yaşayanların sayı	Təşkilatın yerləşdiyi binanın texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)/
1	"Şərq Ulduzu" MMC/OAO[1]	2002	160	Üzümçülük, şərabçılıq	73,4	17	Qənaətbəxş	Nəzərdə tutulmayıb

Mənbə: Cədvəl Şəmkir rayonu Statistika İdarəsi tərəfindən təqdim olunan məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 6.5.

Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, ha

Göstəricilər	2011	2012	2013	2014	2015
Əkin sahəsi cəmi, cəmi, o cümlədən:	-/ 42 888	3 948/ 42 963	3 948/ 48 012	3 948/ 44 090	3 948/ -
Dənli və dənli paxlalıların əkin sahəsi	1 500/ 19 414	1 500/ 19 450	1 500/ 24 575	1 500/ 20 938	1 550/ -
Kartofun əkin sahəsi	500/ 6389	515/ 6392	515/ 6397	515/ 6406	515/ -
Tərəvəzin əkin sahəsi	510/ 6124	510/ 6152	510/ 6159	510/ 6164	510/ -
Ərzaqlıq bostan bitkilərinin əkin sahəsi	20/ 251	-/ 252	-/ 254	-/ 256	-/-
Bağlar və giləmeyvəliklərin sahəsi	230/ 2950	250/ 2957	250/ 2968	250/ 2998	250/
Üzüm bağlarının ərin sahəsi	120/ 526	140/ 526	140/ 526	140/ 537	140/ -
Yem bitkilərinin əkin sahəsi	260/ 10093	350/ 10098	350/ 9998	350/ 9372	350/ -
Örtülü torpaqlarda tərəvəzin əkin sahəsi. İstilikxana (tərəvəz: pomidor, xiyar və s., əsasən ixrac üçün)	65/ 611	100/ 657	100/ 710	160/ 714	160/ -

Mənbə: Cədvəl Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi və Şəmkir rayonu Statistika İdarəsi tərəfindən təqdim olunan məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 6.6.

[1] *Şərq Ulduzu" ASC kənd təsərrüfatı müəssisələrinin siyahısına daxil edilib, çünki istehsal olunmuş kənd təsərrüfatı məhsullarının dəyəri sənaye məhsullarının dəyərindən çoxdur (yuxarıdır). 2009-2013-cü illərdə regionların inkişafı üzrə Dövlət Proqramı çərçivəsində "Şərq Ulduzu" ASC-də alman texnologiyaları əsasında yenidənqurlma keçirilmişdir (aparılmışdır). Üzüm emalı üzrə istehsal gücü 2 min ton nəzərdə tutulub. Zavodda 9 növ şərab və konyak spirti istehsal olunur. Konyak spirti istehsalı üzrə yeni sex işə salınmışdır. Gələcəkdə istehsalın genişləndirilməsi nəzərdə tutulub.*

Məhsuldar mal-qaranın sayı

	2012	2013	2014	2015	2016
İri buynuzlu mal-qaranın sayı, baş	-/ 60583	-/ 60993	3 458/ 61 053	3 480/-	3 510/-
Xırda buynuzlu mal-qara, baş	-/ 282 170	-/ 285 408	37 803/ 288 375	37 860/-	37 900/-
Quşlar, baş	-/ 519447	-/ 923136	-/-	20 068/ 1021777	-/-

Mənbə: Cədvəl Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi və Şəmkir rayonu Statistika İdarəsi tərəfindən təqdim olunan məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Qeyd. Surətdə Şəmkir şəhəri üzrə, məxrəcdə isə Şəmkir rayonu üzrə məlumatlar gətirilir (verilir, göstərilir).

** 2012-ci ildə dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 119 748 manat vəsait ödənilmişdir*

** 2013-cü ildə dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 119 748 manat vəsait ödənilmişdir.*

** 2014-cü ildə dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 109 552 manat vəsait ödənilmişdir.*

** 2015-ci ildə dövlət tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 109 552 manat vəsait ödənilmişdir.*

Son 15 il ərzində kənd təsərrüfatı göstəriciləri dayanmadan artır, belə ki, taxıl bitkilərinin məhsuldarlığı 25-30%, kartof 2-2,5 dəfə, üzüm minimum 2 dəfə artmışdır. Bütün növ mal-qara və quşların sayı artır, donuz artımı istisna təşkil edir, donuz yetişdirilməsi demək olar ki, dayanmışdır. Gələcəkdə 2035-ci ilə qədər əməyin məhsuldarlığının intensiv artımı və kənd təsərrüfatı istehsalında məhsuldarlığın ildə 7%-dən az olmayaraq artacağı ehtimal olunur.

Gəncə-Qazax iqtisadi rayonunun ərazisində olan suvarılan 100 min ha ərazinin üçdə biri Şəmkir rayonunda yerləşir ki, bu da ildə suvarma məqsədilə 243 mln.m3 əlavə su tələb edəcəkdir.

"Azərbaycan Respublikası Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional sxemi"nə müvafiq olaraq Şəmkir rayonunda kənd təsərrüfatının inkişafı Şəmkir şəhərində dövlət baytarlıq xidmətinin tikintisini (15 yerlik bina) və dövlət toxum, və aqrar-kimya laboratoriyasının tikintisini nəzərdə tutur. Şəhər bu sahə üçün mühüm idarəçilik və xidməti funksiyaları yerinə yetirir. Bundan əlavə sxemdə Şəmkir rayonunda aşağıdakı müəssisələrin tikintisi nəzərdə tutulmuşdur:

- üzüm emalı üzrə yeni zavod;
- yun təmizlənməsi və emalı üzrə yeni müəssisə;
- əhalidən (istehlak kooperativləri tərəfindən) alındıqdan sonra süd və ətin emalı və saxlanması üzrə istehsal obyektləri;
- meyvə və tərəvəz emalı üzrə sexlər;
- kartof emalı (kartof nişastası, çipsi və s. istehsalı) üzrə zavod;
- meyvə, tərəvəz və bostan bitkilərinin qurudulması üzrə 500 ton gücündə sex.

Bundan başqa:

- Tərəvəzçilik institutunun filialının infrastrukturunun inkişaf etdirilməsi;
- ən azı min hektar sahədə otlaqların yaxşılaşdırılması;
- dənli bitkilərin tutduğu əkin sahələrinin genişləndirilməsi;
- bitki xəstəlikləri ilə mübarizə aparan mərkəzin avadanlıqla təchiz olunması;
- kənd təsərrüfatı istehsalçılarının və 62 kənd yaşayış məntəqəsinin texnika ilə təchiz olunması;
- rayon sallaqxanasının tikintisi;
- kənd təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə damazlıq heyvanların alınması planlaşdırılır.

6.5. Biznesin inkişafı

Şəmkir rayonu ərazisində fəaliyyət göstərən kiçik müəssisələrin sayı Gəncə-Qazax iqtisadi rayonu üzrə kiçik müəssisələrin 14%-ni təşkil edir və beləliklə Şəmkir rayonu və Şəmkir şəhəri iqtisadi rayonda kiçik müəssisələrinin sayına görə Gəncə şəhərindən sonra ikinci yeri tutur.

Cədvəl 6.7

Kiçik sahibkarlıq subyektlər sayının dinamikası

İqtisadi və inzibati ərazilər	Sahibkarlıq subyektlərinin sayı				
	2010	2011	2012	2013	2014
Gəncə-Qazax İqtisadi Rayonu	16 797	15 983	16 869	20 586	22 114
Şəmkir rayonu	2 589	2 508	2 672	3 070	3 341
Şəmkir şəhəri[5]	Məlumat yoxdur				

Cədvəl 6.8

İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin bölgüsü, 2014 il

İqtisadi və inzibati ərazilər	Kiçik müəssisələrin sayı	o cümlədən						
		Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq	Sənaye	Tikinti	Topdan və pərakəndə ticarət	Nəqliyyat və anbar təsərrüfatı	Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	Digər sahələr
Gəncə-Qazax İqtisadi Rayonu	1206	243	206	64	502	37	8	146
Şəmkir rayonu	136	44	12	15	49	3	1	12
Şəmkir şəhəri[5]	Məlumat yoxdur							

Cədvəl 6.9

Şəmkir rayonu[5] üzrə kiçik sahibkarlıq subyektlərinin əsas göstəriciləri

	2014[1]		
	Subyektlərin sayı	Kiçik müəssisələrdə çalışan muzdlu işçilərin sayı	Məhsul buraxılışı min manat
İqtisadiyyatın bütün sahələri üzrə - cəmi	**3 341**	**845**	**53 349,0**
ondan fiziki şəxslər - fərdi sahibkarlar	**3 205**		**46 857,6**
o cümlədən: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	44		1 498,7
fiziki şəxslər - fərdi sahibkarlar	–		–
sənaye	131		2 504,7
fiziki şəxslər - fərdi sahibkarlar	119		1 575,7

[5] Dövlət Statistika Komitəsində və Şəmkir rayonu Statistika İdarəsində Şəmkir şəhəri üzrə kiçik sahibkarlıq haqqında ayrıca məlumat yoxdur. Məlumat yalnız inzibati rayon səviyyəsində toplanılıb hesablanır.

[6] 2015 ilə aid məlumatlar 2016-ci ilin oktyabrında hazır olacaqlar.

Tikinti	23		2 832,6
fiziki şəxslər - fərdi sahibkarlar	8		94,2
topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri	1 549		32 623,1
fiziki şəxslər - fərdi sahibkarlar	1 500		31 782,9
nəqliyyat və anbar təsərrüfatı	1 047		6 484,2
fiziki şəxslər - fərdi sahibkarlar	1 044		6 369,7
yaşayışın təşkili və ictimai iaşə	184		4 009,5
fiziki şəxslər - fərdi sahibkarlar	180		3 845,0
informasiya və rabitə	1		6,0
fiziki şəxslər - fərdi sahibkarlar	-		-
daşınmaz əmlakla əlaqədar əməliyyatlar	11		118,2
fiziki şəxslər - fərdi sahibkarlar	10		12,9
təhsil	1		4,0
fiziki şəxslər - fərdi sahibkarlar	_		-
əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi			
fiziki şəxslər - fərdi sahibkarlar	_		_
digər sahələr	350		3 268,0
fiziki şəxslər — fərdi sahibkarlar	344		3 177,2

Gəncə-Qazax iqtisadi rayonunda biznesin inkişaf etdirilməsi üçün daha əlverişli şəraitə Gəncə, Qazax və Naftalan şəhərləri malikdir. Burada xidmət və investisiya sahələrinin daha intensiv yüksəlişi gözlənilir. Şəmkirin Gəncəyə nisbətən yaxın olması və Gəncədə həm daxili, həm də beynəlxalq uçuşlar həyata keçirən aeroportun olması buraya kənd təsərrüfatı məhsullarının emalı, turizm, geniş xidmət sahələrində kiçik və orta müəssisələrə investisiya qoyuluşunun artmasına ehtimal yaradır.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli ehtiyatlardan istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsini şərtləndirən istiqamətlərdən biri burada sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye məhəlləsi dedikdə, sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün lazım olan infrastruktura malik olan, kiçik və orta sahibkarlıq tərəfindən məhsul istehsalı və xidmət verilməsi üçün istifadə olunan ərazi nəzərdə tutulur. Sənaye məhəllələri istehsalat prosesinin təşkili, kooperativ əlaqələrin yaradılması, kiçik və orta sahibkarlığın inkişafı və digər məsələlərin həlli zamanı infrastruktur xərclərini əsaslı şəkildə azaltmağa imkan verir. Ölkədə sənaye məhəllələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti "Sənaye məhəllələrinin yaradılması və onların fəaliyyətinin təşkili" adlı sərəncam vermişdir, sərəncamda aşağıdakılar nəzərdə tutulur:

- Sənaye məhəllələrinin təşkili, nizamlanması və fəaliyyətinin həyata keçirilməsi üzrə lazımi tədbirlərin həyata keçirilməsi (məsləhət, treyninq xidmətləri, peşə hazırlığı xidmətləri, güzəştli kreditlərin verilməsi və səmərəli fəaliyyət üçün digər xidmətlərin verilməsi), həmçinin, işə məsləhətçilərin cəlb olunması.
- Sənaye məhəllələrinin yaradılması və fəaliyyəti ilə bağlı olaraq müvafiq ərazilərin yararlı hala gətirilməsi üçün tədbirlərin həyata keçirilməsi, xarici və daxili infrastrukturun yaradılması

(elektrik və istilik enerjisi obyektlərinin yaradılması, qaz və su təchizatı, kanalizasiya, rabitə, nəqliyyat, yanğından müdafiə, inzibati obyektlər və digər təyinatlı obyektlər) və sənaye məhəllələrində sahibkarlıq fəaliyyətinin səmərəli təşkil olunması.

- "Sənaye məhəlləri haqqında nümunəvi əsasnamə" layihəsinin hazırlanması.

Şəmkir rayonu və ya şəhəri ərazisində müasir sənaye məhəllənin yaradılması haqqında heç bir məlumat yoxdur. Şəhərin sənaye zonaları daxilində kiçik sənaye məhəllənin (1-5 ha) yaradılması məqsədəuyğundur.

6.6. Tədarük, anbar və təchizat təşkilatları

Hal-hazırda Şəmkirdə bir kommunal-anbar zonası vardır. Yeni Həyat kəndi istiqamətində gedən şose yolu boyu şəhərin cənub-şərq hissəsində yerləşən bu zona yolun cənub hissəsində formalaşmış sənaye və ictimai-işgüzar zonalarına bitişir.

Sahibkarlığa Kömək Milli Fondun yardımı ilə Gəncə-Qazax iqtisadi rayonunda müasir və tutumlu anbarların tikintisi həyata keçirilir. Belə ki, Sarıtəpədə (layihə ərazisi daxilində) min ton kənd təsərrüfatı məhsulu tutumu olan və 19 işçi yeri olan anbar istifadəyə verilmişdir.

Anbar və logistika təsərrüfatının inkişafı sahəsində hesablama dövründə mövcud kommunal-anbar zonanın saxlanması və gələcəkdə onun bazasında tərəvəz məhsullarının emalı, tərəvəz və meyvənin emalından alınan hazır məhsulun paylanması üzrə böyük olmayan logistika (paylayıcı) mərkəzin yaradılması mümkündür. Əsas logistika iqtisadi rayonun Gədəbəy və Qazax rayonlarında yerləşəcəkdir.

6.7. Elm və kadr hazırlığı

Şəmkir Azərbaycan Respublikasının iri elm və təhsil mərkəzi deyildir. Ən yaxın elm və təhsil mərkəzi Gəncə şəhəridir. Bu gün üçün Şəmkir rayonunda tərəvəzçilik institutunun filialı və Şəmkir peşə liseyi (240 tələbə və 97 müəllim və xidmətçi heyət) fəaliyyət göstərir.

Əhalinin təhsil strukturu haqqında statistik məlumatlar aşağıdakı kimidir: ali təhsilli (22 və yuxarı yaşda əhalinin 11,4%), - 2897 nəfər, natamam ali təhsil – 261 nəfər, orta peşə ixtisası təhsilli 1632 nəfər, peşə ixtisaslı – 906 nəfər, orta təhsilli – 25086 nəfər, ibtidai təhsilli 3247 nəfər.

Baş planda mövcud peşə liseyində daha 100 nəfərlik yer açılması və şəhərin mərkəzində yeni binasının tikintisi nəzərdə tutulmuşdur (köhnə konyak zavodu meydançasının renovasiyası).

6.8. Turizm və rekreasiya

Şəmkir şəhərində turizm-rekreasiya sahəsi zəif inkişaf etmişdir və şəhərin iqtisadiyyatının digər sahələrinə nisbətdə tabe vəziyyətə malikdir. Hal-hazırda şəhərdə ümumi yer sayı 164 olan 3 mehmanxana fəaliyyət göstərir (minimal normativ göstəricinin 67%). Rəsmi statistika məlumatları ərazidəki mehmanxanalarda 36 yerin olmasını göstərir. Mehmanxanaların siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 6.10

Bütün növ yerləşdirmə vasitələri

№	Müəssisənin adı və növü	Ünvan	Tutumu (istirahət edənlər üçün yerlərin sayı)	Obyekt ərazisinin sahəsi/	Yerləşdirilmiş şəxslərin sayı	İşçilərin orta illik sayı	o cümlədən onlardan şəhərdə yaşayanların sayı	binanın texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
1	"Exelsior" mehmanxanası	Şəmkir ş., Sabir küç. 75	53 nömrə, 106 yer	1,2 ha	-	32	-	Qənaət bəxş	Tələb olunmur
2	«Sərxan» mehmanxanası	Şəmkir ş., Nizami küç. 105	12 nömrə, 24 yer	0,03 ha	396	6	-	-/-	-/-
3	«MeridianF» mehmanxanası	Şəmkir ş., İpək Yolu qəs.	17 nömrə, 34 yer	0,12 ha	-	-	-	-/-	-/-

Mənbə: Şəmkir rayon Statistika İdarəsinin məlumatları. 2015 il

2010-2014-cü illər ərzində orta hesabla bütün növ yerləşdirmə vasitələrində yerləşdirilənlərin sayı ildə 1,1 min nəfərdən artıq olmayıb, o cümlədən hər il təxminən 0,3-0,5 min nəfər turizm məqsədi ilə şəhərə gəlirdi.

Orta qalma müddəti 1,5 gün təşkil edir. 2014-cü ilin nəticələrinə əsasən mehmanxanaların gəlirləri 70 min manatı ötmüşdür, bununla yanaşı olaraq bu müəssisələrin xərcləri 65,4 min manat olmuşdur. Rəsmi olaraq şəhərdə turizm sahəsi ilə məşğul olan fərdi müəssisələr yoxdur, Şəmkir rayonu Mədəniyyət və turizm şöbəsi ekskursiya və turizm xidmətləri verir *(640 nəfər işçisi var)*. Mehmanxana sahəsində işləyənlərin ümumi sayı 20 nəfərdir (rəsmi statistika ilə 7 nəfər).

Şəmkir Rayon Mədəniyyət və Turizm Şöbəsinin məlumatına görə, 2015-ci ildə şəhərə gələn turistlərin ümumi sayı 2 750 nəfər təşkil edib, onlardan 650 nəfəri xarici turistlər olub.

Mövcud layihə-smeta sənədləşməsinə əsasən şəhərin şimal hissəsində tikilmiş Şəmkir Olimpiya Kompleksinin nəzdində 70 yerlik iki mərtəbəli mehmanxana tikilməsi nəzərdə tutulur ki, bu da burada kompleks daxilində qonaqları yerləşdirməklə respublika səviyyəli idman yarışları keçirməyə imkan verəcəkdir.

Şəmkirin əsas turizm görməli yerləri şəhər ətrafında arxeoloji irs nümunələridir (Şəmkir orta əsr qalası), lüteran kilsəsi, şəhərin mərkəzindəki alman tikililəri *(XIX – XX əsrin əvvəlləri)*, şəhər tarixi-diyarşünaslıq muzeyindən ibarətdir. Bundan əlavə Şəmkir rayonunun cənub hissələrinin dağ landşaftları xüsusi diqqət cəlb edir.

Rekreasiya məqsədilə Kür çayı üzərində olan *(şəhərdən 20 km şimalda)* Şəmkir su anbarının sahilləri fəal istifadə olunur, burada fəal istirahət növləri, balıqçılıq və passiv (çimərlik) rekreasiyası üstünlük təşkil edir. Şəmkirdə əhalinin gündəlik istirahəti park zonalarında həyata keçirilir: Şəmkir şəhər istirahət parkı, "Xaqani" istirahət parkı, "20 Yanvar Şəhidləri" parkı, Şəhidlər xiyabanı, "Abidələr" parkı, "İstiqlal" parkı, "Lüteran kilsəsinin ətrafı" istirahət parkı. Şəhərdə parkların ümumi sahəsi 27 ha-dan yuxarıdır.

Mədəni tədbirlər, bayramlar, musiqi və folklor festivalları, yarmarkalar və digər əlamətdar hadisələr şəhərin növbəti meydanlarında baş tutur: Nizami və Həzi Aslanov küçələri arasındakı şəhərin tarixi hissəsindəki meydan və bulvarda, Heydər Əliyev meydanı, Dövlət Bayrağı meydanı, Olimpiya idman kompleksinin ərazisi.

Turizm-rekreasiya infrastrukturunun əsas inkişaf istiqaməti kimi Şəmkir şəhərində yaxın gələcəkdə (2020-ci ilə qədər) şəhərin tarixi hissəsində, həmçinin Sol sahildə yeni mikrorayonlar arasında turizm infrastrukturunun yaradılması nəzərdə tutulmuşdur.

Turizm-rekreasiya kompleksinin inkişafı

Qeyri-neft sahələrinin inkişaf etdirilməsi ilə Azərbaycanın davamlı iqtisadi inkişafına nail olmaq müasir dövrdə dövlətimizin qarşısında dayanan mühüm məsələlərdən biridir. Çoxsaylı tədqiqatlar göstərir ki, bu sahələr içində aparıcı yerlərdən birini daha çox perspektivə malik olanı turizm tutur. Azərbaycan Respublikası turizmin inkişafı üçün böyük perspektivlərə malikdir, xüsusilə Şəmkir şəhərində bir sıra turizm növlərinin inkişaf etdirilməsi üçün imkanlar vardır: mədəni-maarif, işgüzar, əlamətdar hadisələr, idman turizmi *(şahmat və digər idman növləri)*.

Şəmkir şəhərində turizm-rekreasiya infrastrukturunun əsas inkişaf istiqaməti kimi yaxın gələcəkdə (2020-ci ilə qədər) şəhərin tarixi hissəsində və Sol sahildə turizm infrastrukturunun yaradılması, həmçinin turistlərin yerləşdirmə vasitələrin şəhər əhalisinin gələcək artımı da nəzərə alınmaqla minimal normativ göstəricilərinə yaxın rəqəmə çatdırılması nəzərdə tutulmuşdur (əhalinin hər 1000 nəfərinə 6 yer).

Aşağıda birinci növbə və hesablama dövrü üçün mehmanxana və rekreasiya obyektləri şəbəkəsinin inkişaf etdirilməsi üzrə tədbirlərin siyahısı verilmişdir.

Birinci növbə üçün tədbirlər (2015-2025-ci illər):

- Şəhərin ictimai-işgüzar zonalarında hər biri 50 yerlik *(cəmi 100 yerlik)* 2 yeni mehmanxananın tikintisi *(prioritet – tarixi mərkəz)*;
- Şəhərin cənub hissəsində dağlıq ərazidə 100 yerlik turist bazasının yaradılması;
- Şəhərin Sol sahilində kempinqin tikintisi.

Hesablama dövrü üçün tədbirlər (2035-ci ilə qədər)

- Cəyirçayın sol sahilində karyerdən cənuba doğru yüksəklikdə iri turizm-rekreasiya kompleksinin tikintisi *(100 yerlik mehmanxana, restoranlar, parklar, əyləncə parkı, idman infrastrukturu və s.)*;
- Şəhərin ictimai-işgüzar zonalarında hər biri 25-50 yerlik (cəmdə 100 yerlik) əlavə xırda mehmanxaların tikintisi;
- Şəmkirçayın sahilində *(anklavın ərazisində)* Yeni Həyat kəndinin ətraflarında Orta əsr Şəmkir qalasına gələn turist qruplarına xidmət göstərmək üçün turizm-rekreasiya kompleksinin, aqroturizm klasterinin tikintisi.

Rabitə, telekommunikasiyalar və KİV

Şəhər telefon şəbəkəsi abunəçilərinin sayı 4625 nəfər təşkil edir. Hər 1000 nəfərə 7 telefon, hər 100 nəfərə 103 nömrə düşür. Bütün Şəmkir rayonu üzrə telefon çəkilişi üçün müraciət edənlərin sayı 400 nəfər təşkil edib.

Cədvəl 6.11

Rabitə, telekommunikasiya və KİV üzrə müəssisələr

№	Müəssisənin adı və növü	Ünvan	ATS-in tutumu, nömrə	Obyekt ərazisinin sahəsi m^2	İşçilərin sayı, nəfər	onlardan şəhərdə yaşayanların sayı/, nəfər	Müəssisənin yerləşdiyi binanın texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
1	Şəmkir Telekommunikasiya Qovşağı. Mərkəz 1	Şəmkir ş., İ.Məmmədov küç. 22 a	7 504	1 700	54	35	Ayrıca duran bina. Qənaətbəxş	Nəzərdə tutulmayıb
2	Mərkəz 2 (Bu yaxın zamanlardan əsas qovşaqdan ayrılıbdır)	Şəmkir ş.,, Posanlı y.m./	256	4	1	1	Ayrıca duran bina. Qənaətbəxş	Nəzərdə tutulmayıb
	Cəmi:		**7 760**	**1704**	**55**	**36**	**-**	**-**

Mənbə: Şəmkir Telekommunikasiya Qovşağı məlumatlarına əsasən tərtib edilib. 2016 il

FƏSİL 7. ƏHALİ VƏ ƏMƏK EHTİYATLARI

7.1. Ümumi məlumat

Şəmkir şəhərinin əhalisinin sayı 1989-cu ildə ümumittifaq siyahıyaalınması ilə müqayisədə 12,7 min nəfər artmışdır (bu artım 45,5%-ə bərabərdir, analoji göstəricilər AR şəhər əhalisi üçün 25,4% və Gəncə Qazax İR şəhər əhalisi üçün 22,8% təşkil edir), ümumilikdə şəhər üçün əhalinin yüksək tempdə artımı xarakterikdir *(göstərilən dövr üçün əhalinin orta illik artım tempi Şəmkir şəhəri üçün 1,75%, AR şəhər əhalisi üçün 0,98% və Gəncə Qazax İR şəhər əhalisi üçün 0,88% təşkil edir)*. Şəhər əhalisinin sıxlıq göstəricisi ümumilikdə Azərbaycan Respublikası üzrə göstəricini üstələyir.

Əhalinin təkrar istehsalının prosesi yeni doğulanların ölənlər üzərində üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Miqrasiya balansı mənfi saldoya malikdir, bununla belə, miqrasiya saldosunun 0 səviyyəsində stabilləşməsi tendensiyası vardır. Beləliklə, əhalinin artımı sırf yüksək doğum səviyyəsi hesabına baş verir.

Yaş strukturunda gənclərin payı pensiya yaşlı böyüklərin payını əhəmiyyətli dərəcədə üstələyir. Əmək qabiliyyətli əhali üstünlük təşkil edir – şəhər əhalisinin 67-70%-i.

Şəmkir şəhərində məcburi köçkün və qaçqınların sayı ölkə üzrə orta statistik göstəriciyə uyğundur *(ümumi əhalinin 5-7%-ni təşkil edirlər)*.

Əhalinin etnik strukturunda azərbaycanlılar üstünlük təşkil edir.

Əhali əsas etibarilə kənd təsərrüfatı, ticarət, xidmət sahələri, təhsil və səhiyyə sahələrində çalışırlar.

Şəhərdə muzdla işləyənlərin sayının azalması müşahidə olunur. Əhalinin özməşğulluq səviyyəsi əhəmiyyətli olaraq qalır. Ümumilikdə Şəmkirdə açılan yeni iş yerlərinin sayı azalmışdır, amma son dövrlərdə şəhərdə bu proses fəallaşmışdır.

Əmək qabiliyyətli əhalinin strukturunda işsizlərin payı Azərbaycan Respublikası üzrə göstəricilərdən yüksək olaraq qalır, baxmayaraq ki, şəhərdə işsizlərin sayı tədricən azalır.

7.2. Əhalinin sayı və artım dinamikası

Əhali

Hal-hazırda[1] Şəmkir şəhərinin əhalisinin sayı 40,6 min nəfər təşkil edir (ölkə əhalisinin 0,4%), şəhər icrasının məlumatlarına əsasən 41,5 min nəfər. 1989-cu ildə ümumittifaq əhalisinin siyahıyaalınması nəticələri ilə müqayisədə Şəmkir əhalisinin sayı 12,7 min nəfərdən çox artmışdır.

Əhalinin orta sıxlığı şəhərin tikilib abadlaşdırılmş sahəsində 1 km^2 615 nəfər və ümumilikdə layihə ərazisi sərhədləri daxilində *(şəhər İƏD sərhədləri çərçivəsində)* 1 km^2 322 nəfər təşkil edir ki, bu da Azərbaycan Respublikası üzrə əhalinin sıxlıq göstəricisindən (1 km^2-ə 111 nəfər) 6 dəfə *(layihə ərazisi daxilindəki kənd administrasiyalarını da nəzərə alsaq 3 dəfə)* çoxdur.

Cədvəl 7.1

İllər	Təbii artım, nəfər	Doğulanların sayı, nəfər/	Ölənlərin sayı, nəfər	Təbii artım, hər 1000 nəfər əhaliyə	Doğulanların sayı, hər 1000 nəfər əhaliyə	Ölənlərin sayı, , hər 1000 nəfər əhaliyə	Gələnlərin sayı, nəfər	Gedənlərin sayı, nəfər	Miqrasiya saldosu, nəfər	Əhalinin sayı (ilin əvvəlinə, min nəfər r)
2000	149	322	173	4,3	9,3	5,0	-	-	-	34,8
2001	235	430	195	6,8	12,4	5,6	-	-	-	34,8
2002	216	426	210	6,2	12,2	6,0	-	-	-	35,0
2003	318	541	223	9,1	15,4	6,3	-	-	-	35,1
2004	262	499	237	7,4	14,1	7,7	-	-	-	35,3
2005	386	607	221	10,7	16,8	6,1	18	178	-160	36,0
2006	396	655	259	10,9	18,0	7,1	20	194	-174	36,4
2007	344	608	264	9,3	16,5	7,2	92	174	-82	36,8
2008	466	702	236	12,6	18,9	6,3	101	159	-58	37,1
2009	481	724	243	12,8	19,2	6,4	95	151	-56	37,6
2010	524	775	251	13,7	20,3	6,6	103	169	-66	38,1
2011	636	870	234	16,5	22,6	6,1	66	154	-92	38,5
2012	502	777	275	12,8	19,8	7,0	87	164	-77	39,1
2013	522	799	277	13,2	20,2	7,0	50	106	-56	39,5
2014	624	886	262	15,6	22,1	6,5	73	75	-2	40,0
2015	1008	1283	275	24,8	31,6	6,8	106	80	26	40,6

Mənbə: Dövlət Statistika Komitəsindən təqdim olunan materiallar əsasında tərtib olunub. Bakı, 2016 il.

Son on ildə *(2005-2015)* şəhərdə əhalinin sayı 10% artmışdır. Şəhər və ümumilikdə rayon üçün əhalinin yüksək artım tempi xarakterikdir - əhalinin sayının il ərzində davamlı olaraq 1-1,5% artması müşahidə olunur, 2000ci-2014-cü illərdə əhalinin sayının hər il təxminən 1-1,5% davamlı artımı müşahidə olunub. 2015-ci ildə doğumun sayında əhəmiyyətli sıçrayış qeydə alınıb, şəhər əhalisinin sayı bir dəfəyə (birdən-birə) 2,5% artıb.

Əhalinin təbii təkrar istehsalının prosesi doğum səviyyəsinin ölüm səviyyəsini orta hesabla 3-4 dəfə üstələməsi ilə xarakterizə olunur. 2014-cü ildə Şəmkir rayonu üzrə doğum səviyyəsi hər 1000 nəfərə 20,9 nəfər, Şəmkir şəhəri üzrə hər 1000 nəfərə 22,1 nəfər təşkil etmişdir, şəhər üzrə

[1] 1 yanvar 2015 il

ölüm səviyyəsi hər 1000 nəfərə 6,5 nəfər, rayon üzrə 6,3 nəfər təşkil edir. 2004-2014-cü illər şəhərdə əhalinin təbii artım göstəriciləri artmışdır. Şəmkir şəhəri və Şəmkir rayonu üzrə təbii artım Respublika üzrə göstəricidən *(1000 nəfərə 12,2 nəfər)* artıqdır. 2004-2014-cü illərdə miqrasiya saldosu şəhər üzrə müsbət göstəriciyə *(sıfıra yaxın)* malikdir, rayon üzrə isə mənfi saldoya malikdir.

Əhalinin təbii təkrar istehsal prosesi doğumun ölüm hallarından orta hesabla 3-4 dəfə artıq olması ilə səciyyələnir. 2014-cü ildə Şəmkir rayonu üzrə doğum səviyyəsi əhalinin hər 1000 nəfərinə 20,9 nəfər, Şəmkir şəhəri üzrə hər 1000 nəfərə 22,1 nəfər (yəni əhalinin hər min nəfərinə, orta hesabla, 22,1 doğum halı qeydə alınıb) təşkil edib, ölüm səviyyəsi əhalinin hər 1000 nəfərinə şəhər üzrə 6,5 və rayon üzrə 6,3 nəfər olub. 2004-2014-cü illər ərzində təbii artım göstəricisi şəhər üzrə bütövlükdə yüksələn xətlə gedib. Şəmkir və Şəmkir rayonu üzrə təbii artım Respublika üzrə müvafiq göstəricidən (əhalinin hər 1000 nəfərinə 12,2) sabit surətdə (daim) çox olur. Miqrasiya saldosu 2004-2014-cü illərdə şəhər üzrə müsbət qiymətə çıxış tendensiyasına malik olaraq mənfi qiymətlə ifadə olunub.

Ümumilikdə Azərbaycan Respublikasında olduğu kimi Şəmkir şəhərində də əhalinin əksəriyyəti azərbaycanlılardan ibarətdir.

7.3. Əhalinin cins-yaş tərkibi

Şəhər əhalisinin yaş strukturu irəliləyən xarakterə malikdir və gənc yaşlıların sayı təqaüd yaşlı şəxslərin sayından əhəmiyyətli dərəcədə çoxdur. 2015-ci ildə gənc yaşlı əhalinin sayı yaşlı əhalinin sayını 3 dəfə üstələmişdir. Şəmkir rayonunun əhalisinin cins tərkibində kişilər azacıq üstünlük təşkil edir *(50,1%)*. Şəmkir rayonunun əhalisinin 2009-cu il üçün cins-yaş tərkibi aşağıdakı cədvəldə verilmişdir.

Şəhər əhalisinin yaş strukturu gənclərin payının pensiyayaşlı şəxslərin payından gözə çarpacaq dərəcədə say üstünlüyünə malik olması ilə mütərəqqi xarakter daşıyır. 2015-ci ildə gənc yaşlarda olan əhalinin sayı yaşlı şəxslərin sayından 2 dəfədən çox olub. Şəmkir əhalisinin cinsi strukturu kişilərin cüzi üstünlük (50,1%) təşkil etməsi ilə səciyyələnir. 2009-2015-ci illərdə olan vəziyyətə görə, Şəmkir əhalisinin yaş strukturu aşağıdakı cədvəldə göstərilmişdir.

Əhalinin cins-yaş strukturu

Cədvəl 7.2

№	Göstəricilər	Əhalinin sayı													
		2009		2010		2011		2012		2013		2014		2015	
		min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%
1.	Əhali, cəmi	37,8	100,0	38,1	100,0	38,5	100,0	39,1	100,0	39,5	100,0	40,0	100,0	40,6	100,0
o cümlədən:															
1.1.	Əmək qabiliyyətli yaşlıdan kiçik	9,8	25,9	10,1	26,5	10,4	27,0	10,7	27,3	11,0	27,8	11,4	28,5	11,8	29,0
1.2.	Əmək qabiliyyətli əhali	24,8	65,5	24,4	64,0	24,1	62,6	24,0	61,4	23,7	60,0	23,4	58,5	23,1	56,9

№	Göstəricilər	Əhalinin sayı													
		2009		2010		2011		2012		2013		2014		2015	
		min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%	min nəfər	%
1.3.	Əmək qabiliyyətli yaşlıdan böyük	3,2	8,5	3,6	9,5	4,0	10,4	4,4	11,3	4,8	12,2	5,2	13,0	5,7	14,1

Mənbə: Dövlət Statistika Komitəsindən təqdim olunan materiallar əsasında tərtib olunub. Bakı, 2016 il.

7.4. Əmək ehtiyatları və məşğulluq

Əmək ehtiyatları

Əmək potensialının əsas göstəricisi əhalinin strukturunda əmək qabiliyyətli yaşlı şəxslərin sayıdır. Əmək ehtiyatları əmək qabiliyyətli işləyən şəxslərin, işləyən təqaüdçülərin, əmək qabiliyyətli təhsil alanların (onların çox hissəsi təhsil təqaüdləri ilə kifayətlənmir və iqtisadiyyatın müxtəlif sahələrində tam və qismən məşğul olurlar), şəxsi təsərrüfatla məşğul olanların (yalnız öz tələbatlarını ödəmək üçün yox satış üçün də məhsul istehsal edirlər) və əmək qabiliyyətli rəsmi qeydiyyatda olan işsizlərin hesabına formalaşır.

2015-ci ildə Şəmkir şəhərində əmək qabiliyyətli yaşında olan əhalinin sayı 23163 nəfər olmuşdur, bu da şəhərin ümumi əhalisinin 64%-ni təşkil edir. 2015-ci ildə iqtisadi fəal əhalinin sayı – 18,2 min nəfər, məşğul əhalinin sayı 16,15 min nəfər, muzdlu işçilərin sayı 9 min nəfər təşkil etmişdir. Ümumilikdə 2005-2014-cü illərdə muzdla işləyənlərin sayında azalma müşahidə olunmuşdur. Özməşğul əhalinin sayı yüksək olaraq qalmaqdadır.

Şəmkir şəhərinin işləyən əhalisinin iqtisadiyyatın sahələri üzrə bölgüsü əsas etibarilə iqtisadiyyatın strukturunu müəyyənləşdirir. İşçilərin sayının üstünlük təşkil etdiyi sahələr kənd təsərrüfatı, ticarət və ictimai qidalanma, tikinti sahələridir.

Cədvəl 7.3

Əhalinin əsas yaş qruplar üzrə paylanması

Yaş qrupu	1-6	7-16	17-40	41-60	60-100	100 yaşdan çox
Əhalinin sayı	4 838	7 415	16 444	9 639	2 962	1

Mənbə: Şəmkir rayonu Statistika İdarəsinin təqdim olunan materiallar əsasında tərtib olunub. Şəmkir, 2015 il.

Şəmkir şəhərinin işləyən əhalisinin iqtisadiyyatın sahələri üzrə bölgüsü bir çox hallarda iqtisadiyyatın strukturunu izah edir (açıqlayır, əks etdirir). İşlə məşğul olanların sayına görə liderlik edən (irəlidə gedən) fəaliyyət sahələri kənd təsərrüfatı, ticarət, ictimai iaşə və tikintidir.

Cədvəl 7.4

Şəmkir şəhəri üzrə əhalinin məşğulluğu (2011 - 2015 illər)

№	Məşğulluq sahəsi	2011		2012		2013		2014		2015	
		Rəsmi məşğuldur, nəfər/	Əmək bazarında payı, %	Rəsmi məşğuldur, nəfər	Əmək bazarında payı, %	Rəsmi məşğuldur, nəfər	Əmək bazarında payı%	Rəsmi məşğuldur, nəfər	Əmək bazarında payı, %	Rəsmi məşğuldur, nəfər	Əmək bazarında payı, %
1.	Dövlət idarəçiliyi	409	2,3	359	2,1	309	1,8	259	1,6	212	1,3
2.	Səhiyyə sistemi	905	5,1	921	5,4	937	5,6	953	5,8	974	6,0
3.	Təhsil, mədəniyyət və incəsənət	1383	7,8	1293	7,5	1203	7,1	1113	6,7	1 026	6,4
4.	Nəqliyyat və rabitə	1244	7,0	1088	6,3	932	5,5	776	4,7	631	3,9
5.	Sənaye	475	2,7	413	2,4	350	2,1	287	1,7	221	1,4
6.	Ticarət və iaşə	2419	13,7	2225	12,9	2092	12,4	1929	11,7	1768	10,9
7.	Kənd və meşə təsərrüfatı	7910	44,8	8265	47,9	8620	51,0	8975	54,4	9 325	57,7
8.	Tikinti	2329	13,2	2039	11,8	1749	10,4	1459	8,8	1 182	7,3
9.	Digər sahələr	586	3,4	642	3,7	698	4,1	754	4,6	810	5,0
	Cəmi:	**17660**	100,0	**17245**	100,0	**16890**	100,0	**16505**	100,0	**16 149**	100,0

Mənbə: Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunan materiallar əsasında tərtib olunub. Bakı, 2016 il.

Şəmkir şəhərində adambaşıma orta gəlir 2010-2014-cü illər ərzində 38% artaraq ayda 200 manat təşkil edir. Belə ki, 2010-cu ildə əhalinin ümumi gəliri şəhər üzrə 65,8 mln. manat, 2014-cü ildə 97,4 mln. manat olub.

Şəmkir rayonunda muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 2014-cü ildə 282,4 manat təşkil edib ki, bu da 2005-ci ildə olduğundan 4,3 dəfə çoxdur.

Cədvəl 7.5

Orta aylıq nominal əmək haqqı, manat

№	İnzibati ərazi	Orta aylıq nominal əmək haqqı, manat		
		2005	**2010**	**2014**
1.	Şəmkir rayonu	65,6	226,1	282,4
2.	Şəmkir şəhəri	75,0	221,0	282,0

Mənbə: Şəmkir rayon Statistika İdarəsinin məlumatları, 2015

7.5. Məcburi köçkünlər

Şəmkir rayonunda əhəmiyyətli sayda qaçqın və məcburi köçkünlər məskunlaşmışlar. 2016-cı ilin əvvəllində rayonda 12 240 qaçqın və 1 765 məcburi köçkün məskunlaşıb. Bunlar birlikdə rayonun ümumi əhalisinin 6,7%-ni təşkil edir.

7.6. Əhalinin layihədə qəbul olunmuş sayı

Demoqrafik proqnoz

Növbəti onillikdə demoqrafik vəziyyətin inkişaf proqnozu layihə ərazisində əhalinin təbii və mexaniki hərəkətindən və ümumilikdə ölkədə demoqrafik vəziyyətdən çıxış edərək verilir. Demoqrafik proqnozun mütləq tərkib hissəsi dövlət demoqrafik siyasətinin hesaba alınmasıdır.

Hal-hazırkı demoqrafik inkişafın əsas tendensiyası rəvan gedən demoqrafik keçid prosesidir. Əhalinin təbii artımının azalması Azərbaycandan əvvəl bu prosesdən keçmiş ölkələrlə müqayisədə gecikir. Bununla belə, ölkə ilə müqayisədə əhalinin artımı olduqca yüksək olaraq qalır. Şəmkir şəhəri ölkənin digər şəhərləri ilə müqayisədə *(2015-ci ildə hər min nəfərə 31,6 yeni doğulan)* daha yüksək doğum səviyyəsi göstərir. Ölüm səviyyəsi ölkə üzrə orta göstəricilərə daha yaxındır: 2015-ci ildə Şəmkir şəhərində bu göstərici hər min nəfərə 6,5 ölüm, respublika şəhərlərində isə hər min nəfərə 6,0 ölüm olmuşdur. Doğum səviyyəsinin davamlı olaraq artması demoqrafik keçid şəraitində az ehtimal olunandır, bununla belə, ayrı-ayrı illərdə real göstəricilər proqnoz olunan göstəricilərdən az və ya çox dərəcədə fərqlənə bilər. Əhalinin yaşama müddətinin uzanması ehtimal olunduğu üçün yuxarı yaş qruplarına aid olan əhalinin sayında artım olacağı təqdirdə ölüm səviyyəsinin az miqdarda artması gözlənilir. Demoqrafik keçid konsepsiyası çərçivəsində bu artımı əhalinin təkrar istehsalının xarakterinin dəyişməsi mümkün minimum pisləşmə kimi qiymətləndirmək lazımdır.

"2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın 4-cü icra ilinin nəticələrinə həsr olunmuş konfransda Prezident İlham Əliyev qeyd etdiyi kimi: "Bizim ölkədə demoqrafik vəziyyət müsbətdir... İstənilən halda görülən işlər, ölkədə bərqərar olan stabillik, sakitlik, ictimai-siyasi intizam, iqtisadi inkişaf, regionların inkişafı kimi amillər bu müsbət tendensiyanı daha da gücləndirəcəklər". Ölkədə demoqrafik vəziyyətinin müsbət və davamlı inkişafı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları ilə də təsdiq olunur. Bununla bağlı olaraq aşağıda təqdim edilmiş nəzəri cəhətdən mümkün alternativlərdən inkişafın ən yaxşı ssenarisini Şəmkir şəhəri üçün demoqrafik proqnozun əsas variantı kimi qəbul etmək təklif olunur.

Şəhərin inkişafına əsaslı töhfəni miqrasiya verə bilər. Hal-hazırda miqrasiya saldosu sıfır səviyyəsinə yaxındır, bununla, belə şəhərin böyük iqtisadi inkişaf imkanları vardır. Gəncə şəhərinə yaxınlıq və yaxşı nəqliyyat əlçatarlılığın olması həm kiçik, həm də orta sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradır, kiçik və orta sənaye müəssisələrinin mövcudluğu isə şəhər üçün əlverişli miqrasiya imkanları yaradır.

Layihələndirilən Şəmkir şəhəri üçün demoqrafik proqnoz, demoqrafik statistikada nəzərdə tutulduğu kimi, üç variantda yerinə yetirilmişdir (Cədvəl 7.6). Demoqrafik proqnozun yüksək variantı layihələndirilən ərazinin ən intensiv iqtisadi inkişaf variantı ilə eyniləşdirilir.

Cədvəl 7.6

Şəmkir şəhəri üzrə demoqrafik proqnoz variantlarının müqayisəsi üçün əsas göstəricilər

Göstərici		Variant		
		Yüksək	Orta	Aşağı
Əhalinin sayı, min nəfər	2016-cı ilin yanvarın 1-nə	41,6	41,6	41,6
	2025-ci ilin əvvəlinə	46,5	48,0	50,0
	2035-ci ilin əvvəlinə	52,0	55,0	58,0
Ölənlərin sayı (cəmi), min nəfər	2016-2024-cü illərdə	3,23	3,02	2,82
	2025-2034-cü illərdə	5,12	4,48	3,88

Doğulanların sayı (cəmi), min nəfər	2016-2024-cü illərdə	7,84	8,38	8.89
	2025-2034-cü illərdə	7,91	9,13	10,42
Miqrasiya *(cəmi)*,min nəfər	2016-2024-cü illərdə	0,26	1,00	2,30
	2025-2034-cü illərdə.	2,71	2,34	1,46
Əhalinin strukturu[1] 2025-ci ilin əvvəlinə, %	əmək qabiliyyətli yaşdan kiçik	27,2	28,7	29,8
	əmək qabiliyyətli yaşda	57,5	56,1	55,0
	əmək qabiliyyətli yaşdan böyük	15,3	15,2	15,2
2035-ci ilin əvvəlinə, %	əmək qabiliyyətli yaşdan kiçik	22,8	25,4	27,6
	əmək qabiliyyətli yaşda	59,3	56,9	54,5
	əmək qabiliyyətli yaşdan böyük	17,9	17,7	17,9
Əmək qabiliyyətli yaşda olanların sayı, min nəfər	2025-ci ilin əvvəlinə	26,7	26,9	27,5
	2035-ci ilin əvvəlinə.	30,8	31,3	31,6

Mənbə: Şəmkir rayonu Statistika İdarəsinin məlumatları və layihə müəlliflərinin hesablamaları. Şəmkir-Bakı - 2015-2016-cı illər..

Əhalinin yaş strukturunun hesablanması "yaş yerdəyişməsi" metodu ilə doğulanlar, ölənlər və miqrasiya amilləri nəzərə alınmaqla aparılmışdır.

Əhalinin sayı və yaş strukturunun formalaşmasında əhalinin miqrasiya axını əhəmiyyətli rol oynayacaq. Miqrasiyanın olmadığı halda *(miqrasiyanın sıfır saldosu)* şəhər əhalisinin sayı 2035-ci ildə 53,6 min nəfərdən artıq olmayacaq. Şəhər əhalisinin miqdarının artırılması ehtiyatı əvvəllər iş dalınca respublikanın digər bölgələrinə və onun hüdudlarından kənara gedən vətəndaşların bir hissəsinin qayıtması prosesindən ibarət ola bilər.

Miqrasiyanın yaş strukturu əmək qabiliyyətli yaş həddində olan əhalinin, əmək qabiliyyətli yaş həddindən gənc və ya yaşlı əhalinin 2 dəfə azalan nisbətində stasionar məskunlaşdığı artım nisbəti ilə ehtimal olunur.

2015-ci ilin əvvəlinə Şəmkir rayonunun şəhər əhalisi 71,4 min nəfərə çatmışdı, şəhər sakinlərinin 56,9%-i Şəmkir şəhərində yaşayırdı.

"Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrinin ərazi təşkilinin regional planlaşdırma sxemi"ndə təqdim olunmuş əhali sayının proqnozunda 2030-cu ilə *(sənədin hesablama müddəti)* Şəmkir rayonunun şəhər əhalisi miqdarının maksimum göstəricisi 74,8 min nəfər *(Şəmkir ş. və digər şəhər tipli yaşayış məntəqələri)* göstərilib. Baş Planda Şəmkir şəhəri əhalisinin həmin tarix üçün proqnozlaşdırılan sayı proqnozun aşağı variantı üzrə 49,3 min nəfər, proqnozun yüksək variantı üzrə isə 54,0 min nəfərə qədər təşkil edəcək. Beləliklə, rayonun inzibati mərkəzində yaşayan sakinlərin payı artacaq. Bu, fəal iqtisadi artım mərkəzi yaratmağa imkan verəcək. Həmin amil, öz növbəsində, bütövlükdə Şəmkir rayonu ərazisində investisiyaların sürətli artımına, sənaye və iqtisadiyyatın xidmət sahələrinin inkişafına səbəb olacaq.

İqtisadi inkişaf mütləq əhalinin miqrasiya fəallığının yüksəlməsi və miqrasiya saldosunun artması ilə müşayiət olunur. Yeni istehsalatın yaradılması və ərazi üçün yeni fəaliyyət növlərinin inkişafı yeni iş yerləri əmələ gətirir və ixtisaslı kadrların cəlb edilməsinə gətirib çıxarır, deməli,

[1] *Müxtəlif illər üçün məlumatları müqaisə etmək üçün bu cədvəldə burada və daha sonra əsas yaş intervallarının hüdudları 2009-cu il əhalinin siyahıyaalınması zamanı analoji intervallarla götürülmüşdür. Əmək qabiliyyətindən kiçik yaş dövrü siyahıyaalmada 0-14 yaş, əmək qabiliyyətli yaş - kişilər 15-64 yaş, qadınlar isə 15-54 yaş, əmək qabiliyyətli yaşdan böyük - kişilər 65 yaş və yuxarı, qadınlar isə 55 yaş və yuxarı nəzərə alınmışdır. Azərbaycanda qəbul olunmuş qanunlara əsasən təqaüdə çıxma yaş həddi tədricən artırılır.2015-ci ilin əvvəli üçün əmək qabiliyyətli yaş həddi kişilər üçün artıq 15-63, qadınlar üçün 15-60 yaş təşkil etmişdir.*

miqrasiya saldosu artır. Bu səbəbdən də demoqrafik proqnozun orta və yüksək variantları Şəmkir rayonu və Gəncə-Qazax iqtisadi rayonunun fəal inkişaf strategiyasına daha çox dərəcədə cavab verir. Şəmkir şəhəri ərazisinin yaşayış və istehsalat zonalarının yerləşdirilməsi üzrə real imkanlarının təhlili göstərir ki, 2035-ci ilə əhali sayının 58,0 min nəfər olması nəzərdən keçirilən ərazi üçün həddən artıq yük olmayacaq və formalaşmış şəhər mühitinə üzvi şəkildə daxil olacaq.

Bu səbəblərdən və Layihə Tapşırığının parametrləri nəzərə alınmaqla, Baş Planda demoqrafik proqnozun yüksək variantı qəbul olunub, ona uyğun olaraq 2035-ci ilə əhalinin sayının 58 min nəfərə, o cümlədən, 2025-ci ilə 50 min nəfərə çatacağı nəzərdə tutulur

FƏSIL 8. ƏRAZİNİN KOMPLEKS QİYMƏTLƏNDİRİLMƏSİ

1. Təbii şərait:

▪ ümumilikdə şəhərin iqlimi mülki və sənaye tikintisinin aparılması üçün olduqca əlverişli kimi xarakterizə olunur;

▪ tikinti üçün ayrılmış ərazilərin mikro-iqlim şəraitinin yaxşılaşdırılması üçün planlama strukturunda istiqamətə görə küləyin təkrarlanması nəzərə alınma imkanlarından istifadə etmək olar (şərqdən-qərbə istiqamətdə küləklərin mövsumi təkrarlanması mövcuddur);

▪ Şəmkirin əlverişli aqro-iqlim ehtiyatları suvarma üçün su verilmə sisteminin inkişaf etdirilməsi ilə paralel burada kənd təsərrüfatının inkişaf etdirilməsi üçün gözəl imkanlar açır, xüsusilə də bağçılıq, istilik təsərrüfatı, meyvə bağlarının salınması üçün;

▪ səth sularının çox olmaması Şəmkirçay su anbarından suyun verilməsi ilə kompensasiya olunur;

▪ sözü gedən ərazi mühəndis-tikinti şəraitinin az öyrənilməsi ilə xarakterizə olunur. Tikinti işləri görməzdən əvvəl həmin ərazidə mühəndis-geoloji və mühəndis-geodeziya araşdırma işləri aparılmalıdır;

▪ faydalı qazıntılardan şəhər ərazisində yerli tələbləri ödəmək üçün istifadə olunan ümumyayılmış tikinti materialları yataqları vardır;

▪ faydalı qazıntıların hasilatı sahəsində ən perspektivli istiqamət Şəmkirin qərb hissəsində, Şiştəpə kəndinə gedən yolun sol və sağ tərəfindəki daş karxanalarında tikinti daşının sənaye hasilatının bərpası və inkişaf etdirilməsidir.

2. Planlaşdırma strukturu:

▪ Şəmkir şəhəri tarixən (XIX-cu əsr alman kolonistlərin məskən salması dövründən) dəqiq planlama strukturu və funksional zonalaşmış əraziyə malikdir. Şəhər əsas meridian boyu təbii xətt olan Cəyirçayın iki sahili boyu yerləşmişdir. En planlama oxu kimi respublika magistral avtomobil yolu götürülə bilər;

▪ şəhər ümumilikdə gələcək sosial-iqtisadi və şəhərsalma inkişafı üçün mühüm daxili və xarici ərazi ehtiyatlarına malikdir;

▪ şəhərsalmanın inkişafı üçün əsas ehtiyatlardan biri artıq mövcud olan tikililərdən qərbə doğru istifadə olunmayan yamaclardır. Şəhərin şəhərsalma formalaşdırmasına mane olan amillərdən biri ərazidə kifayət qədər mühəndis hazırlığı işlərinin aparılmamasıdır.

3. Sosial-iqtisadi vəziyyət:

▪ Şəmkir şəhərində yaşayan əhalinin sayı durmadan artır, şəhər üçün şəhər əhalisinin artımının ümumi ölkə üzrə eyni göstəricidən az olması xarakterikdir. Əhalinin təbii artımı prosesi doğumların sayının ölüm səviyyəsi üzərində dəfələrlə üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Son 10 ildə şəhərdə əhalinin davamlı miqrasiya axını müşahidə olunmuşdur. Yaş strukturunda cavanların payı təqaüd yaşlı qocaları əhəmiyyətli dərəcədə üstələyir. Əmək qabiliyyətli əhalinin pay nisbəti şəhər əhalisinin 66%-ni təşkil edir.

▪ Şəmkir rayonunda məcbur köçkünlərin payı ümumi əhalinin sayının 7%-ni təşkil edir.

▪ Əhali əsas etibarilə kənd təsərrüfatı, ticarət və tikinti və əhaliyə sosial xidmət sahələrində məşğuldur, sənaye istehsalı, kommunal sahə və xidmət sahələrində məşğul olanların sayı nisbətən azdır. Əhalinin öz məşğulluq səviyyəsi əhəmiyyətli olaraq qalmaqdadır. Əmək qabiliyyətli əhalinin strukturunda işsizlərin payı Azərbaycan Respublikası üzrə göstəricilərdən yuxarıdır, baxmayaraq ki, şəhərdə işsizlərin sayı tədricən azalır.

▪ Şəmkir şəhərinin iqtisadiyyatı iri kənd təsərrüfatı rayonuna xidmət verilməsi üzrə ixtisaslaşmışdır. İqtisadiyyatın müsbət inkişaf dinamikasına baxmayaraq şəhər ümumilikdə

ölkə üzrə iqtisadi inkişaf göstəricilərindən olduqca geri qalır. Şəmkirdə sənaye demək olar ki, yoxdur, yeni sənaye müəssisələrinin inkişafına ehtiyac vardır. Bundan əlavə gələcəkdə xidmət sahəsi də inkişaf etməlidir.

▪ Şəmkir şəhər əhalisinin mənzillə təminat göstəriciləri ölkə üzrə göstəricilərdən yuxarıdır. Mənzil tikintisinin həcmi Azərbaycan Respublikası üzrə ümumi həcmin 0,3-1,3%-ni təşkil edir.

▪ Əhalinin əsas mədəni-məişət xidmət növləri ilə təminatlılıq səviyyəsi (səhiyyə müəssisələri istisna təşkil edir) AzDTN 2.6–1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması sənədində tövsiyə olunan normativ göstəricilərdən azdır. Gələcəkdə məktəbəqədər və ümumtəhsil müəssisələrinin, idman tikililərinin, mədəniyyət və istirahət obyektlərinin sayının artırılmasına ehtiyac vardır. Mədəni-məişət xidməti müəssisələrinin çox hissəsi qeyri-kafi texniki vəziyyətdədir və kifayət qədər maddi-texniki bazaya malik deyillər.

4. Ekologiya:

▪ Şəhərdə atmosferin vəziyyəti ümumilikdə qənaətbəxşdir, son illər ərzində atmosferə atılan tullantıların miqdarı azalmışdır. Stasionar mənbələrdən atılan tullantılar həcminə görə Şəmkir şəhərinin tullantıları Azərbaycan Respublikası üzrə ətraf mühiti çirkləndirən tullantıların 0,003%-ni təşkil edir. Şəhər ərazisində atmosferi korlayan iri sənaye mənbələri yoxdur. Bununla belə, heç də bütün obyektlər təsdiq olunmuş sanitar-müdafiə zonalarına malik deyillər, hər yerdə normativ obyektlərə qədər olmalı olan məsafəyə riayət olunmur, sanitar-müdafiə zonalarının ərazisi dəqiq ayrılmayıb və abadlaşdırılmayıb.

▪ Əhaliyə verilən suyun keyfiyyəti həmişə sanitar-gigiyena normalarına uyğun gəlmir. Bundan başqa, su təchizatı sistemlərinin yenidən qurulmağa ehtiyacları vardır ki, bu amil də suyun ikincili çirklənmə ehtimalını ortaya qoyur.

▪ 2011-ci ildən başlayaraq "Şəmkir şəhərinin su təchizatı və kanalizasiya kompleksinin yaradılması" layihəsi çərçivəsində mərkəzləşmiş su təchizatı və su axıdılması sisteminin yaradılması üzrə işlər aparılır. Aparılan tədbirlər su obyektlərinin sanitar vəziyyətinə və əhali tərəfindən istifadə olunun suyun keyfiyyətinə müsbət təsir göstərir.

▪ Ərazinin sanitar təmizlənməsinin düşünülmüş sisteminin yaradılması üçün şəhərin sanitar təmizlənmə sxeminin hazırlanması, bərk məişət və sənaye tullantılarının saxlanılması üçün poliqonun təchiz olunması, zibili ayıraraq toplamaq və zibil ayırıcı kompleks təchiz etmək lazımdır.

▪ Şəmkirdə radiasiya şəraiti norma göstəricilərini aşmır.

5. Nəqliyyat:

▪ Şəmkir şəhəri yetərincə yüksək nəqliyyat potensialı ilə xarakterizə olunur, bu potensial ilk növbədə şəhərin "TRASEKA" Avro-Asiya nəqliyyat dəhlizinin keçdiyi yerdə yerləşməsi ilə şərtlənir. Şəhərin nəqliyyat kompleksi gələcəkdə inkişaf imkanlarına malik olan dəmiryol və avtomobil nəqliyyatı sistemləri ilə təmsil olunmuşdur.

▪ Əhalinin daimi daşınması avtomobil və dəmiryol nəqliyyatı ilə əsas şəhərlər arası və beynəlxalq istiqamətlərdə (Bakı, Tiflis, Gəncə), həmçinin şəhərkənarı istiqamətdə həyata keçirilir.

▪ Nəqliyyat-planlama karkası ümumilikdə şəhər ərazisinin əsas inkişaf istiqamətlərinə uyğun gəlir. Şəhər tikililərinin xüsusiyyətlərini nəzərə alaraq (fərdi yaşayış evləri) demək olar ki, mövcud küçə və yol parametrləri şəhər küçə-yol şəbəkəsinə qoyulan normativ tələblərə uyğun deyildir.

▪ Şəhərdəki küçələrin əksər hissəsinin vəziyyəti qeyri-kafidir. Qrunt örtüyünün bərk örtüklə əvəz edilməsi üzrə əsaslı təmir işlərinin aparılmasına ehtiyac vardır.

▪ Şəhərdaxili sərnişin daşımaları avtobuslar tərəfindən həyata keçirilir. Şəhər ərazisinin mühüm bir hissəsi ictimai nəqliyyat dayanacaqlarına qədər olan piyada məsafəsi normativləri zonasına daxil deyildir, bu da əhalinin ictimai nəqliyyatla aşağı səviyyədə təmin olunmasına səbəb olur.

▪ Əhalinin avtomobil nəqliyyatına xidmət obyektləri ilə təminatlılıq səviyyəsini ümumilikdə qənaətbəxş hesab etmək olar.

6. Ərazinin mühəndis təchizatı:

▪ Şəhər əhalisinin 40%-inin içməli su təchizatı desentralizasiya edilmiş su təchizatı sistemindən baş verir. İstifadədən çıxmış su borusu xətləri və qurğularının təmirə ehtiyacı var. Şəmkir şəhərinin su boru şəbəkəsi sistemi, həmçinin su axıtma sistemi istismar müddətinin uzanması səbəbindən müasir tələblərə cavab vermir. Şəhərin su təchizatı və kanalizasiya sistemini tamamilə yenidən qurmaq lazımdır.

▪ Mövcud 4 qazanxanadan yalnız biri normal fəaliyyət göstərir. Digərləri həddindən artıq istismar olunma səbəbi ilə qeyri-işlək vəziyyətdədir və bütün avadanlıqlarının müasir, qazla işləyən avadanlıqla əvəz olunmasına ehtiyac var.

▪ Əhali və şəbəkə təbii qazından istifadə edən sənaye istehlakçıları qazla tam təmin olunurlar. Gələcəkdə şəhərin qaz təchizatı sistemini inkişaf etdirərək qazlaşmamış ərazilərə, müasir qazanxanalara, həmçinin yeni tikinti rayonlarına qaz verilməsini təmin etmək lazımdır. Bundan əlavə qaz borularının bir hissəsini dəyişərək polietilen turbalarla əvəz etmək lazımdır.

▪ Şəhər elektrik enerjisi tamamilə təchiz olunmuşdur. Elektrik enerjisi istifadəçilərini bundan sonra da davamlı elektrik enerjisi ilə təmin etmək üçün mövcud 6-10 - 0,4 кV və TY 6-10\0,4 кV şəbəkələr yenidən qurulmalıdır.

▪ Əhali, müəssisələr və şəhər idarələri rabitə vasitələri ilə kifayət qədər təmin olunublar. Efir və kabel televiziyası sistemi inkişaf etdirilir.

FƏSIL 9. ŞƏHƏRİN İNKİŞAFI ÜÇÜN ƏRAZİLƏRİN SEÇİLMƏSİ

Perspektiv şəhərsalma mənimsəməsinin əraziləri

Ərazilərin kənd təsərrüfatı üçün intensiv istifadəsi səbəbindən məskunlaşma üçün ərazi ehtiyatları kənd təsərrüfatı mübadiləsinə cəlb olunmamış, mühəndis-tikinti istifadəsi şərtlərinə uyğun olan ərazilərdən seçilir.

Şəhərsalma mənimsəməsi üçün müvafiq olan ərazilərin nəzərdən keçirilməsi zamanı boş meydançaların olması, əsas nəqliyyat kommunikasiyalarına yaxın məsafədə yerləşmə, şəhərin planlaşdırma xüsusiyyətləri (yaşayış və istehsalat zonalarının bir-birinə nisbətdə yerləşməsi), sanitar-mühafizə zonalarının mövcudluğu, qoruyucu yaşıllığın olması, ərazinin mühəndis-tikinti vəziyyəti və s. bu kimi amillər nəzərə alınır. Ümumilikdə götürdükdə əvvəlcədən mühəndis hazırlığına ehtiyac duymayan boş meydançalar azlıq təşkil edir. Əsas planlama xətlərinə birləşmiş əraziləri ilk növbədə tikinti məqsədilə istifadə etmək təklif olunur.

Şəmkir şəhəri daxilində nisbətən boş tikintiyə yararlı meydançalar azdır:

- ilk növbədə Cəyirçayın sağ sahilində, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi istiqamətli avtomobil yolundan şimala doğru yerləşən əraziləri nəzərdən keçirmək lazımdır;
- elə burada şəhərsalma mənimsəməsi üçün maraqlı ərazilər Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolundan cənuba doğru, şəhərin tarixi hissəsi olan Heydər Əliyev prospektinə mərkəzi girişdən qərbə doğru yerləşən ərazilərdir;
- Şiştəpə qəsəbəsinə gedən avtomobil yolu boyu və qərb dolayı yolu boyu yerləşən ərazilər də bu cəhətdən maraq kəsb edir;
- 20 yanvar prospektindən cənub istiqamətində ərazilər və mövcud ərazilər yenidən qurulma şərtləri altında da maraq kəsb edir.

FƏSIL 10. ƏRAZİNİN PLANLAŞDIRMA TƏŞKİLİ

10.1. Şəhərin ümumi memarlıq-planlaşdırma həlli

Şəhərsalma inkişafinin strateji istiqamətləri. Şəhərsalma konsepsiyasi

Baş plan – Şəmkir şəhərinin 20-25 illik kompleks inkişaf planıdır. Baş planın əsas məqsədi yaşamaq, iş və istirahət üçün rahat şəhər mühitinin yaradılmasıdır. Şəmkir Azərbaycanın ən abad, müasir və gözəl şəhərlərinin beşliyinə daxil olmalıdır. Yeni Baş planda biz şəhərin şəhərsalma ənənələrini qoruyub saxlayır və onun özünəməxsusluğunu önə çəkmək üçün tədbirlərin həyata keçirilməsini təklif edirik.

Şəmkirin Baş planının şəhərsalma konsepsiyası növbəti strateji mövqelərə əsaslanır:

- Şəhər mühitinin keyfiyyətli dəyişimi, şəhər ərazisinin sözün geniş mənasında yenidən qurulması və abadlaşdırılması, şəhərin bütün funksional zonalarının vəziyyətinin və abadlığının yaxşılaşdırılması.
- Şəhər mərkəzinin şəhərsalma formalaşmasının və abadlaşdırılmasının davam etdirilməsi, yeni xidmət mərkəzlərinin yaradılması.
- Əməyin tətbiq edilə biləcəyi yeni müasir yerlərin yaradılması.
- Milli memarlıq-tikinti materialları və üsullarından istifadə etməklə şəhərin fərdi memarlıq görünüşünün formalaşdırılması.
- Əhalinin bütün sosial qrupları üçün yeni mənzil tikintisinin həyata keçirilməsi. Mövcud mənzil fondunun yenidən qurulması və müasirləşdirilməsi, yaşayış zonalarının kompleks şəkildə abadlaşdırılması və yaşıllaşdırılması.
- Şəhərin nəqliyyat kompleksinin prioritet inkişafı – nəqliyyat infrastrukturunun bütün elementlərinin yenidən qurulması və tikintisi.
- Şəhər ərazisində ətraf mühitin mühafizəsi və ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi. Şəhərin yaşıllaşdırma, rekreasiya və turizm sisteminin inkişaf etdirilməsi.
- Mühəndis infrastrukturunun müasirləşdirilməsi və inkişafı, şəhər ərazisinin qeyri-əlverişli təbiət və texnogen mənşəli proseslərdən müdafiəsi və abadlaşdırılması.

Mənzil tikintisi. Baş planda Cəyirçayın həm sağ, həm də sol sahilində fəal mənzil tikintisi nəzərdə tutulmuşdur. Müxtəlif növlü yaşayış binalarının tikintisi təklif olunur: həyətyanı sahəsi olan fərdi yaşayış evləri, az və orta mərtəbəli (4-8 mərtəbə) binalar.

Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu boyu orta və azmərtəbəli binalardan və ehtiyac olan gündəlik xidmət obyektlərində-n ibarət olan yeni yaşayış rayonunun tikilməsi təklif olunur. Həmçinin, yol kənarı xidmət obyektləri olan bufer xidmət zonasının yaradılması da planlaşdırılır. Əsas magistrala tərəf düşdükcə tikililərin kaskad prinsipi ilə yüksəkliyinin azaldılması tövsiyə olunur. Yeni şəhər ərazisi Şəmkirin "vizit kartı" olmalıdır. Onun memarlıq görünüşü qonaqlar və şəhər əhalisi üçün yaddaqalan və tanınan olmalıdır.

Cəyirçayın sol sahilində dəyişkən mərtəbəliliyə malik yeni yaşayış rayonunun formalaşdırılması və bütün lazımlı xidmət obyektləri – mehmanxana, məktəb, uşaq bağçaları, mağazalar, uşaq və idman meydançaları olan yeni mərkəzin tikintisi təklif olunur. Yeni sol sahil rayonunun planlaşdırma strukturunun formalaşdırılması zamanı Annenfeldin tarixi plan xüsusiyyətləri diqqətlə öyrənilmişdir. Şəmkirin tarixi mərkəzində olduğu kimi, yeni rayon və onun mərkəzi də bir neçə paralel küçələr boyu formalaşacaqdır.

Yeni rayonun memarlıq aksenti idman obyektləri və park zonası olan, şəhərlə Şiştəpə qəsəbəsi arasında yerləşən təpələrin yamacında yerləşən rekreasiya və turizm obyektləri zonası olacaqdır. Relyefin səfalı xüsusiyyətini nəzərə alsaq yeni rayonun terras görünüşü şəhərin sağ sahil hissəsindən yaxşı görünəcəkdir.

Şəhərin qərb hissəsindəki ərazilərdə (şəhərin Şiştəpə kəndi ilə sərhədindən şərqə doğru) qarışıq növ yaşayış binaları tikmək təklif olunur. Tikililərin növü və mərtəbəliliyi relyefin xüsusiyyətləri və memarlıq-planlama həlli ilə müəyyən olunacaqdır. Bu ərazinin yeni mərkəzlə əlaqələndirilməsi məqsədilə yeni küçə və yol sisteminin tikintisi layihələşdirilir. Baş plan layihəsində yamacların cənub hissələrində istirahət və turizm obyektlərinin yerləşdirilməsi üzrə təkliflər hazırlanmışdır.

Baş planda şəhərin şərq hissəsinin (Cəyirçayın sağ sahili) Sərxan kəndi ərazisində dağ silsiləsinin yamacları boyu mənimsənilməsi təklif olunur. Planlaşdırılan şərq yarımdairəvi yolu boyu fərdi tikililərdən ibarət kvartalların tikintisi təklif olunur.

İctimai mərkəzlərin inkişafı. Şəmkir şəhəri Baş planda Azərbaycan Respublikası Gəncə-Qazax iqtisadi rayonunun iri ictimai və inzibati mərkəzi kimi nəzərdən keçirilir. Baş planda əhaliyə xidmət sahələrinin hamısının inkişafı nəzərdə tutulmuşdur – səhiyyə obyektləri, təhsil, ticarət, mədəniyyət və incəsənət, idman, rekreasiya və turizm. Respublika əhəmiyyətli magistral avtomobil yolundan cənuba doğru tikililərdən azad ərazidə qərb avtomobil yarımdairəsi boyu içində xəstəxana, ambulator-poliklinika obyektləri və s. olan iri səhiyyə kompleksi yerləşdirmək təklif olunur.

Şəhərin tarixi mərkəzində köhnə stadion ərazisində Şəhidlər xiyabanı boyu yeni xidmət mərkəzinin (əyləncə və idman obyektləri, mehmanxana kompleksi, park ərazisi, inzibati-işgüzar kompleks) tikintisi təklif olunur.

Səməd Vurğun küçəsi boyu keçmiş konyak zavodunun ərazisində də burada işgüzar, ictimai və kommersiya təyinatlı obyektlər yerləşdirməklə yenidən qurulma işlərinin aparılması təklif olunur. Şadlıq sarayı yaxınlığında əlavə təhsil müəssisəsinin iri mehmanxana kompleksinin yerləşdirilməsi təklif olunur. Bu yeni "alt mərkəzin" vahid ictimai-rekreasiya mühitini yaratmağa və onu vizual olaraq Şəhid Xəqani İbrahimli adına Parkı ərazisi ilə birləşdirməyə imkan verəcəkdir.

Şəhərin sol sahilində yeni ictimai mərkəzin formalaşdırılması təklif olunur. Yeni sol sahil mərkəzinin fərqli xüsusiyyəti onun planlaşdırma oxu – bulvar olacaqdır. Relyefin xüsusiyyətlərinə müvafiq olaraq bulvar en istiqamətində planlanmışdır. Tarixi mərkəzin planlamasına analoji olaraq bulvar boyu geniş sahələrdə xidmət göstərən xidmət obyektlərinin yerləşdirilməsi təklif olunur: işgüzar və kommersiya təyinatlı obyektlər, idman, istirahət və turizm obyektləri, həmçinin dəyişik mərtəbəlilikli yaşayış evləri. Mərkəzə yaxın orta mərtəbəli evlər yerləşəcək, daha sonra yaşayış binaları pilləkənvarı qaydada az mərtəbəli və fərdi yaşayış evləri ilə əvəz olunacaqdır.

Cəyirçayın sol sahilində yeni yaşayış evləri əsasən fərdi yaşayış evlərindən ibarət olacaqdır. Orta və kiçik mərtəbəli binalar olan kvartallarda xüsusi diqqət tikintinin kompleks aparılmaması probleminə yönəldilmişdir. Yeni yaşayış rayonları bütün lazımi xidmət obyektləri – məktəblər, uşaq bağçaları, idman zalları, mağazalar, bazar, kafelər, poliklinikalar, mədəniyyət obyektləri ilə birgə tikilməlidir. Baş plan təkliflərinə əsasən yeni yaşayış zonalarında ictimai binalar xiyabanların, bulvarların ətrafında cəmləşib və rahat meydançalar və piyada məkanları əmələ gətirirlər.

Mühəndis və nəqliyyat infrastrukturunun inkişafı. Müasir şəhərin uğurlu sosial-iqtisadi inkişafı ilk növbədə onun infrastrukturunun inkişaf səviyyəsi ilə müəyyənləşir. Layihədə magistral küçə və yolların fəal tikintisi və yenidən qurulması, yerli əhəmiyyətli küçələrin və yaşayış mikrorayonlarında keçidlərin abadlaşdırılması, yeni yaşayış zonalarında parkinq zonalarının yaradılması nəzərdə tutulmuşdur. Layihədə velosiped yollarının və piyada zonalarının yaradılması da nəzərdə tutulub. Şəmkirin şimal-şərq avtomobil kənar yolunun tikintisi və sağ sahil və sol sahili əlaqələndirən nəqliyyat yollarının tikintisi planlaşdırılır. Baş planda mövcud və yeni yaşayış rayonlarında, istehsalat zonalarında, yaxın şəhər ətrafı və istirahət yerlərinə yeni avtobus marşrutlarının artırılması təklif olunmuşdur.

Dövlət proqramına müvafiq olaraq Baş planın prioritet tədbirlərindən biri Şəmkirin bütün rayonlarının su təchizatı və kanalizasiya sisteminin inkişaf etdirilməsidir. Baş planda elektrik təchizatı, qaz təchizatı, istilik təchizatı və rabitə sahələri üzrə sistemlərin yenidən qurulması və inkişafı üzrə bölmələr öz əksini tapmışdır. Baş planın mühüm bölmələrindən biri ərazinin qeyri-

əlverişli təbiət və texnogen proseslərindən qorunması istiqamətli, həmçinin ətraf mühitin qorunmasına yönəldilmiş tədbirlərdən ibarətdir.

İstehsalat və istehsalat-işgüzar zonaları. Təsdiq olunmuş dövlət planlarına əsasən Şəmkir şəhərinin qarşısında dayanan əsas sosial-iqtisadi problemlərdən biri – yeni iş yerlərinin açılmasıdır.

Şəmkir şəhəri ilk növbədə öz qabaqcıl sahəsində - yüksək məhsuldarlı kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sahəsində ixtisaslaşmışdır və bununla əlaqədar olaraq 20 yanvar prospekti boyu yerləşən keçmiş şərab zavodunun ərazisinin yenidən qurulması və yeni məqsədlə istifadəsi nəzərdə tutulur.

Həmçinin şəhərin cənub-şərqində yerləşən fəaliyyət göstərməyən sənaye zonasının ticarət, işgüzar və yaşayış təyinatı ilə mənimsənilməsi nəzərdə tutulmuşdur. Əsas nəqliyyat magistralları boyu yerləşən istehsalat zonaları xidmət obyektləri ilə təchiz olunmalıdır – ticarət və ofis binaları, avto-xidmət obyektləri və s. Sənaye zonalarının əraziləri abadlaşdırılmalı, yaşıllaşdırılmalı və rahat parkinqlərlə təchiz olunmalıdır.

Yaşıllaşdırma sistemlərinin inkişafı. Ərazinin yamaclıq relyef xüsusiyyətləri təbiət obyektlərini xətti park məkanlarının yaradılması üçün istifadə etməyə imkan verir. Şəmkirin artıq yaşıllaşma sistemini yeni yaşıllıq zonaları – parklar, bağlar, bulvarlar, idman və rekreasiya zonaları ilə zənginləşdirmək təklif olunur. Yaşıllaşma və idman obyektləri şəhərin bütün rayonlarında, yeni küçələr və yollar boyu, mikrorayon və məhəllələrdə yerləşirlər. Gələcəkdə Şəmkir öz park fondunu qoruyub saxlamalı və artırmalıdır.

Baş planın əsas təkliflərinin həyata keçirilməsi Şəmkir şəhərinə Gəncə-Qazax iqtisadi rayonunun iri ictimai mərkəzi mövqeyini möhkəmləndirməyə və yaxın gələcəkdə kənd təsərrüfatı məhsullarının emalı, sosial xidmət, təhsil, istirahət və turizm sahələrində yeni müasir iş yerləri açmağa, şəhərdə mənzil fondunu genişləndirməyə, şəhər mühitini daha da yaşıllaşdırmağa və abadlaşdırmağa, Şəmkiri rekreasiya və turizm mərkəzinə çevirməyə imkan verəcəkdir.

Şəhərin mərkəzi hissəsinin inkişafı. Mərkəzi hissənin planlaşdırma inkişafı həm tarixi yaşayış məskəni olan Annenfeldin və şəhərin "Şamxor dövrü" ərazilərini, həm də şimal-qərb və şimal-şərq istiqamətlərində ona bitişik olan yaxın ətraf əraziləri əhatə edir (onların planlaşdırma karkasının əsas oxuyla (Heydər Əliyev prospekti — planlaşdırılan 5 və 4 saylı meydançalarının əraziləri) planlaşdırılan əlaqəsi ilə bağlı).

Şəhərin tarixi hissəsində yenidən qurulması təklif olunan mühüm əraziyə Heydər Əliyev prospekti boyunca uzanan ərazi (keçmiş konyak zavodunun ərazisi) aiddir. Ərazi, qonşu yaşayış evlərinin tarixi fasadları ilə ahəngsizlik yaradan köhnə sənaye qurğularından təmizlənməsi nəzərə alınmaqla, burada ictimai-işgüzar zona təşkil etmək üçün çox perspektivlidir. Ərazilərin yaxınlığında yerləşən şəhər bağçaları və bulvarları nəzərə alaraq burada orta peşə təhsili müəssisələri, kitabxanalar, istirahət və turizm obyektləri təşkil etmək təklif olunur

Şəhərin tarixi hissəsinə şərqdən bilavasitə bitişik olan və hazırda idman meydançaları ilə tutulmuş və Olimpiya Idman Kompleksinin (keçmiş stadion) istismara verildiyi üçün istifadə olunmayan ərazinin, stadionun köhnə qurğularını çıxarmaqla və stadionun yanındakı meşə massivinin yerində bağ salmaqla, yenidən qurulması planlaşdırılır. Ərazisi xeyli yaşıllaşdırılmış olduğundan burada mehmanxana (otel) və iaşə obyektləri (kafe, restoran) təşkil etmək və ayrı-ayrı idman obyektlərini, ola bilsin, açıq meydançası olan məşq zalını qoruyub saxlamaq nəzərdə tutulur.

Şəhərin şimal-şərqində, Heydər Əliyev prospektindən qərbdə, tarixi məskun yerinin sərhədləri yanında öz nəqliyyat əlaqələri ilə Heydər Əliyev prospektinə səmtləşmiş, yaşayış mikrorayonu obyektləri olan çoxmənzilli yaşayış binasının tikiləcəyi böyük yaşayış sahəsi nəzərdə tutulur. Heydər Əliyev prospekti boyunca ictimai-işgüzar sahə təşkil etmək təklif olunur, bu, prospekt boyunca qərb tərəfdən ictimai-işgüzar təyinatlı obyektləri olan bufer tranzit zonası yaratmağa və onu keyfiyyətlə abadlaşdırmağa və yaşıllaşdırmağa imkan verərdi. Burada ticarət mərkəzi və bir qədər şimalda avtomobil yoluna yaxın (avtomagistralla əlaqənin asanlığı üçün) xəstəxana tikmək təklif olunur.

Tarixi mərkəzin kompozisiysıanı tamamlayan əsas dominant ərazi Heydər Əliyev prospekti və "Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi" avtomobil magistralının kəsişdiyi yerdə yerləşən Bayraq Meydanı və meydandan şimalda yerləşən Olimpiya Idman Kompleksidir. Ərazini Olimpiya Kompleksindən şərq və avtomobil yolundan şimal tərəfə qarışıq yaşayış tikililəri olan yaşayış mikrorayonu kimi inkişaf etdirmək təklif olunur. Bu, dərhal iki şəhərsalma məsələsini həll etməyə imkan vermişdir. Yalnız idman təyinatlı (böyük şahmat turnirləri və s.) deyil, digər kütləvi tədbirlərin keçirilməsi zamanı idmançıların və s. yerləşdirilməsi üçün mümkün ehtiyat təşkil etmək, həm də Şəmkir şəhərinə həcmli-məkan kompozisiyası vasitəsilə giriş şəhərsalma kompozisiysı tərtib etmək (məsələn, terras və lociyaların yaşıllaşdırılması ilə seksiyaların ardıcıl şəkildə yerləşdirilməsi, bununla da qonşu dağların yaşıllaşdırılmış yamaclarının urbanist analoqunu və regionun tanınmış kənd təsərrüfatı aspektinə işarə yaratmaq). Avtomobil yolu boyunca bufer zonası kimi ictimai-işgüzar təyinatlı zona təşkil etmək təklif olunur. Bu zona həm sosial xidmət, ticarət obyektlərini yerləşdirmək üçün məkan, həm də daha dərində yerləşən yaşayış tikililəri, o cümlədən yaşayış mikrorayonu, uşaq bağçaları və məktəblər xüsusunda qoruyucu (səs-küydən) sahə kimi xidmət edə bilərdi.

Yuxarıda adları çəkilən planlaşdırma tədbiləri əsas planlaşdırma oxu boyunca onun yanında kortəbii və səpələnmiş halda yerləşmiş ictimai-işgüzar təyinatlı obyektlərin ayrı-ayrı sahələrini toplamaq vəsifəsini yerinə yetirməlidir, bu isə vahid müxtəlifvariantlı məkan (üçölçülü) şəhərsalma kompozisiyasını yaratmağa imkan verəcək.

10.2. Mənzil fondu

Mənzil fondu

Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyinin 2015-ci il üçün məlumatlarına əsasən, Şəmkir şəhərinin mənzil fondunun ümumi sahəsi 1 132,3 min m^2, sakinlərin mənzil fondunun ümumi sahəsi ilə orta təminatı adambaşına 27,9 m^2 təşkil edib ki, bu da Azərbaycan Respublikası üzrə müvafiq orta göstəricidən əhəmiyyətli dərəcədə çox və Şəmkir rayonu üzrə orta göstəricidən (mənzil fondunun sahəsi 4 732 min m^2, hər 1 sakin üçün mənzil təminatı 22,9 m^2) artıqdır. Şəhərin mənzil fonduna Şəmkir rayonu mənzil-istismar sahəsi xidmət edir. Mövcud mənzil fondunun mərtəbəlilik strukturu aşağıdakı cədvəldə verilmişdir. Çoxmənzilli evlər ümumi mənzil fondunun 3%-dən bir az çox hissəsini tutur (37 ev), bura 30 iki mərtəbəli evlər, 1 üçmərtəbəli, 6 beş mərtəbəli ev daxildir, MİS balansında olan bir mərtəbəli evlər də 3% təşkil edir. Fərdi yaşayış evləri ümumi mənzil fondunun 90%-ni təşkil edir. MİS məlumatlarına əsasən qəza vəziyyətində olan yaşayış sahələri 2,5 min m^2 təşkil edir və S.Vurğun küçəsi boyu yerləşən 4 evdən ibarətdir.

Cədvəl 10.1

Mərtəbəlilik üzrə mənzil fondunun strukturu

№	Mərtəbəlilik	evlərin sayı	mənzillərin sayı	ümumi sahəsi	%
1.	Çoxmənzilli evlər – cəmi, o cümlədən:	39	3 296	105 784	9,3
	2-3 mərtəbəli	31	1 596	46 284	4,1
	5 mərtəbəli	8	1 700	59 500	5,2
2.	1 mərtəbəli evlər (mənzil-istismar konturunun balansında olan)	991	991	29 705	2,6
3.	Fərdi yaşayış evləri	10 245	10 245	996 798	88,1
	Cəmi:	**11 272**	**14 532**	**1 132 287**	**100,0**

Mənbə: Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi tərəfindən təqdim olunan materiallar əsasında tərtib olunub. Şəmkir, 2016 il.

Cədvəl 10.2

Mənzil fondunun idarə mənsubiyyəti

№	Mənzil fondunu istismar edən təşkilat	Evlərin sayı, ümumi və yaşayış sahəsi, m^2
1	Şəmkir Mənzil İstismar İdarəsi	138 ev, o cümlədən 6 bina – 5 mərtəbəli • Ümumi sahəsi - 12 228 m^2 • Yaşayış sahəsi - 9 564 m^2
2	Keçmiş "Şəmkir Konyak" sahəsində olan evlər. ("Şəmkir Konyak" ASC ləğv olunub, amma evlər qalıb. Heç bir təşkilatın balansında deyildirlər).	4 ədəd 8 mənzilli bina – 32 mənzil • Ümumi sahəsi - 1 880 m^2 • Yaşayış sahəsi – 1 046 m^2
3	Şəmkir elektrik paylayıcı şəbəkəsi (indi "Azərişıq")	1 bina, 2 mərtəbəli, 12 mənzilli: • Ümumi sahəsi – 720 m^2 • Yaşayış sahəsi – 576 m^2
4	"Qaçqınkomunun" xətti ilə "Ipək Yolu" qəsəbəsində Ermənistandan olan qaçqınlar üçün tikilən 126 ədəd ev	126 standart tipli ev: • 1-otaqlı 29 ədəd ev x 17 m^2 - 493 m^2 • 2-otaqlı 59 ədəd ev – 37,1 m^2 – 2 188,9 m^2 • 3 otaqlı 38 ədəd ev – 51 m^2 -1 938m^2 Cəmi: 126 ədəd ev = 4 619,9m^2
5	Şəmkir şəhəri.	Şəhid ailələri üçün tikilmiş binalar 3 bina: • 36 mənzil (4 mərtəbəli) • 16 mənzil (2 mərtəbəli) • 8 mənzil (2 mərtəbəli)
6	Şəmkir şəhər İƏD	Evlərin sayı – 10 245 fərdi ev • Ümumi sahəsi – 996 798 m^2 • Yaşayış sahəsi – 779 540 m^2

Mənbə: Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi *tərəfindən təqdim olunan materiallar əsasında tərtib olunub. Şəmkir, 2016 il.*

Mənzil tikintisinin dinamikası

Şəmkir şəhərində mənzil tikintisinin həcmi son illər ərzində 4-17 min m^2 göstəriciləri daxilində dəyişir və respublika üzrə mənzil tikintisinin 0,3-1,3%-ni təşkil edir. Mənzil tikintisinin demək olar ki, bütün həcmi fərdi yaşayış evlərinin tikintisi ilə təmsil olunmuşdur, çoxmərtəbəli evlərin son illərdə tikintisi aparılmır, son 10 il ərzində ümumi sahəsi 3 min m^2 olan 3 çoxmərtəbəli ev tikilmişdir.

Nəticələr:

Şəmkir şəhərinin mənzillə təminatlılıq səviyyəsi ümumilikdə Respublika üzrə göstəricilərdən yuxarıdır. 2004-2014-cü illərdə fərdi yaşayış evlərinin tikintisi çox mənzilli evlərin tikintisinə nisbətən çoxluq təşkil etmişdir. Orta hesabla il ərzində 40-50 ev tikilir, bir evin orta ölçüləri 100 m^2 üstələyir.

Yeni mənzil tikintisi

Vətəndaşların əlverişli mühitdə (şəraitdə) yaşamaq və işləmək hüququnun təmin edilməsi Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 4, 17, 19-cu maddələrində təsbit edilmişdir.

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 17-ci, 4-cü, 19-cu maddələri. Məcəllənin 22-ci maddəsinə əsasən, tikinti məqsədləri üçün istifadə olunan torpaqların tipi yaşayış məntəqələri üçün hazırlanan təsbit edilmiş müfəssəl planların ərazi zonaları əsasında müəyyən edilir. Tikinti üçün ərazilərin ayrılması müəyyən yaşayış yerinin mövcud vəziyyətini nəzərə alan yer quruluşu üzrə sənədlərə, Baş Planın konsepsiyasına, Baş Planla müəyyən edilmiş tikintinin qırmızı xətlərə və tənzimləmə xətlərinə, ərazilərin zonalaşdırılması, tikintinin tipi və miqyası ilə bağlı detallaşdırılmış qaydalara uyğun olaraq həyata keçirilir

Beləliklə, yaşayış məntəqələrinin müxtəlif məqsədlər üçün zonalara bölünməsi Baş planın qarşısında duran əsas tapşırıqlardan biridir.

Bu bölmədə mənzil tikintisinin mümkün inkişaf proqnozları və mənzil fondunun həcminin artırılması proqnozları verilmişdir. Lazım olan mənzil tikintisinin ümumi həcmi hesablama dövrü üçün aşağıdakı şərtləri təmin etməlidir:

- əhalinin mənzil fondunun ümumi və yaşayış sahələri ilə təminatlılıq göstəricilərinin artması;
- qəza şəraitində olan və köhnəlmiş mənzil fondunun dəyişdirilməsinin labüdlüyü;
- bələdiyyə ehtiyaclarının qarşılanması *(bələdiyyə idarələrində işləməyə dəvət olunmuş cavan mütəxəssislərə evlərin verilməsi)*;
- nazirlik və idarələrə lazım olan mütəxəssislərin idarə mənzil fondu ilə təmin olunması;
- İstehsalatın inkişafı üçün lazım olan mütəxəssislərin mənzil fondu ilə təmin olunması *(hüquqi şəxslərə aid mənzil fondu)* və s.
- məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının, əlillərin və digər əhali qruplarının dövlət proqramında nəzərdə tutulmuş tədbirlərə müvafiq olaraq yaşama şərtlərini yaxşılaşdırmaq.

Hesablama dövrü ərzində Şəmkirdə yeni yaşayış mikrorayonlarının, ictimai-işgüzar mərkəzlərin, istehsalat meydançalarının və zonalarının yaradılması, istehsalat və kommunal-anbar ərazilərinin yenidən təşkili və yeni istehsalat obyektlərinin yerləşdirilməsi nəzərdə tutulur. Bununla əlaqədar olaraq şəhərdə heyətin və onların ailə üzvlərinin yaşaması üçün yeni mənzil tikintisinə ehtiyac yaranacaqdır ki, bu da iqtisadi fəal əhalinin getməsinin qarşısını alacaq və ixtisaslı işçi və rəhbərlərin cəlb olunmasına səbəb olacaqdır.

Yeni mənzillərin güzəştli qiymətlərlə alınması, şəxsi tikinti aparmaq üçün boş sahələrin və tikinti materiallarının olması şəhər ərazisinin gələcək inkişafı üçün əsas amil olacaqdır. Yeni mənzil tikintisinin həcmi əhalinin rifah səviyyəsi artdıqca artacaqdır. Bu səbəbdən ekonom sinfi mənzillərin tikintisi üçün iqtisadi, sosial və texnoloji şərtlər kompleksinin yaradılması aktuallıq qazanır. Müvafiq mənzillər bütün vətəndaş sinifləri üçün maraqlı olacaqdır. Tikintinin ucuz başa gəlməsi və onun əlçatan olması məqsədilə tikinti aparanları müvafiq tikinti məhsulları ilə təmin edən müəssisələrin yaradılması labüddür. Yeni enerji səmərəli və ekoloji təmiz tikinti materiallarından istifadəyə keçmək lazımdır. Tikintidə ehtiyatlara qənaət etmək, yaşam rahatlığının və təhlükəsizliyin artırılması, o cümlədən, mümkün təbii və texnogen mənşəli fövqəladə hadisələrin mümkün təsirlərini aradan qaldırmaq məqsədilə innovativ texnologiyaları tətbiq etmək lazımdır.

Yeni mənzil tikintisinin strukturunun və ərazilərinin variantları

Yeni mənzil tikintisinin həcm variantları əhalinin 58 min nəfər layihə sayına görə hesablanıb və təminatlılıq səviyyəsi – yeni mənzil fondunun mərtəbəlilik strukturunun 3 varıantı üzrə 1 nəfərə 30 m^2 ümumi sahə təşkil edir. Ərazilərin mənzil tikintisi təyinatı ilə mənimsənməsinin variantları tikililərin strukturundan asılı olaraq cədvəl 10.2-da verilmişdir.

Variant 1-də yeni mənzil tikintisinin yerləşdirilməsi üçün tələb olunan ərazilərin hesablaması verilmişdir, hesablama mənzil fondu ilə təmin olunan əhalinin sayının daim artmasını təmin etmək üçün adambaşı 30 m^2 mənzil təminatı göstəriciləri və ətraf sahələri olan fərdi tikililərin üstünlük təşkil etməsi, yəni indiki tikinti strukturunu saxlamaqla aparılmışdır. Variant 2-də mənzil tikintisi üçün lazım olan ərazilərin hesablamaları Variant 1-lə müqayisədə az mərtəbəli binaların iki dəfə

artırılması ilə aparılmışdır. Variant 3-də tikinti zamanı üstünlük orta mərtəbəli binalara verilir (tikilən mənzil fondunun 50%-dən çox hissəsi), az mərtəbəli bina tikintisi artırılır və fərdi yaşayış evlərinin payı azaldılır.

Yeni mənzil tikintisinin orta illik həcmi 2009-2014-cü illərdə şəhərdə 4-7,5 min m^2 təşkil etmişdir, beləliklə, Baş planda verilmiş mənzil göstəricilərinə çatmaq realdır, amma bunun üçün orta illik yeni mənzil tikintisi həcminin 5-6 dəfə artırılması lazımdır. Mənzil tikintisi həcminin əhəmiyyətli dərəcədə artırılması çoxmənzilli ekonomklass evlərin sərmayədarların hesabına tikintisi payının dəfələrlə artırılması və dövlət vəsaitlərinin geniş cəlb edilməsi sayəsində mümkündür.

Gələcəkdə bu göstəricilər əl çatandır və orta mənzil təminatlılığı və əhalinin artım göstəricilərinin gələcəkdə artması, o cümlədən, müasir texnologiyaların tətbiqi və ucuz tikinti materialları və yerli xammalın sənaye istehsalının inkişafı şərti ilə həyata keçirilə bilər. Bu variantların layihədə nəzərdən keçirilməsi artıq indi şəhərin ərazi inkişafında çatmağa cəhd etdiyi planlama strukturunun əsasını qoymağa imkan verəcəkdir və boş sahələrdə gələcəkdə şəhərin davamlı inkişafına mane ola biləcək obyektlərin tikintisinin qarşısını alacaqdır.

Şəhərin ölçülərini, tikinti üçün uyğun ərazilərin qıtlığını, həmçinin mövcud mənzil tikintisi strukturunu nəzərə alaraq demək olar ki, şəhərin inkişafında ən yaxşı variant mənzil tikintisində çoxmərtəbəli yaşayış evlərinə üstünlük verilməsidir. Müxtəlif mərtəbəli çox mənzilli yaşayış binalarının tikintisi fərqli şəhər mühiti yaratmağa imkan verəcək, yeni, kompakt və müasir mikrorayonlar yaratmağa tikməyə və ehtiyac olan bütün sosial infrastruktur ilə təmin etməyə imkan verəcəkdir. Müxtəlif mərtəbəli çox mənzilli yaşayış binalarının tikintisi yeni şəhər alt-mərkəzlərinin, yaşayış mikrorayonlarını ictimai, işgüzar və kommersiya təyinatlı obyektlərlə birləşdirən ictimai məkanların, idman, istirahət və turizm obyektlərinin formalaşmasına kömək edəcəkdir. Sökülən qəza şəraitində olan yerində eyni mərtəbəli çoxmənzilli binaların tikilməsi daha məsləhətə uyğundur, beləliklə şəhərin artıq formalaşmış memarlıq görünüşünü qoruyub saxlamaq mümkün olacaqdır. Bu xüsusilə də Şəmkirin tarixi mərkəzi üçün keçərlidir.

Mərtəbəlilik üzrə yeni mənzil tikintisinin həcminin 3 variant nisbəti aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.3

Yeni mənzil tikintisinin mərtəbəlilik üzrə strukturu (%)

Yeni mənzil tikintisinin mərtəbəlilik üzrə strukturu	**2015-cü ildən 2035-ci ilə qədər müddətinə**		
	Variant I	Variant II	Variant III
Orta mərtəbəli və çoxmənzilli yaşayış binaları (5-8 mərtəbəli)	10	10	53
Azmərtəbəli və çoxmənzilli yaşayış binaları (5 mərtəbəyə qədər)	10	20	27
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	80	70	20
Cəmi:	100	100	100

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. Bakı, 2015 il.

Aşağıdakı cədvəldə hesablama dövrü ərzində (2035-ci ilə qədər) yerləşdirilməsi nəzərdə tutulan mənzil tikintisi üçün lazım olan ərazilərin göstəriciləri verilmişdir. Cədvəldən göründüyü

kimi bütün mənzil tikintisi həcminin yerləşdirilməsi üçün lazım olan ərazilər seçilən variantdan asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir – 120-dən 170 ha qədər.

Cədvəl 10.4

Hesablama dövrü müddətində yeni mənzil tikintisinin yerləşdirilməsi üçün tələb olunan ərazilərin hesablanması (2035-ci ilə qədər)

Göstəricilər	Ölçü vahidi	Variantlar		
		I	II	III
Yeni mənzil tikintinin həcmi - cəmi	ümumi sahəsi min m^2/%	618/100%	618/100%	618/100%
o cümlədən:				
Orta mərtəbəli və çoxmənzilli yaşayış binaları (5÷8 mərtəbə)– sıxlıq 8000 m^2/ha	ümumi sahəsi min m^2/ %	62/10 %	62/10 %	327,5/53%
Azmərtəbəli və çoxmənzilli yaşayış binaları (5 mərtəbəyə qədər) - sıxlıq 6000 m^2/ha	ümumi sahəsi min m^2/ %	62/10 %	124/20 %	166,9/27%
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri - sıxlıq 4000 m^2/ha	ümumi sahəsi min m^2/ %	494/80 %	433/70 %	123,6/20%
Yeni mənzil tikintisinin yerləşdirilməsi üçün tələb olunan ərazilər	ha	141,7	164,55	99,7
o cümlədən:				
Orta mərtəbəli və çoxmənzilli yaşayış binaları (5÷8 mərtəbə)	ha	7,8	7,8	40,9
Azmərtəbəli və çoxmənzilli yaşayış binaları (5 mərtəbəyə qədər)	ha	10,4	20,7	27,9
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	ha	123,5	108,2	30,9

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. Bakı, 2015 il.

Yeni mənzil tikintisinin əsas variantı

Baş plan konsepsiyasında yeni mənzil tikintisinin həcminin, strukturunun və ərazisinin əsas variantı kimi hesablama dövrünün sonuna qədər adambaşı mənzil təminatlılığı 30 m^2 olan və mənzil tikinti strukturu 5-8 mərtəbə - 53%; 2-4 mərtəbə - 27% olan, həyətyanı sahəsi olan fərdi evlər – 20% olan variant qəbul olunmuşdur ki, bu da ümumi mənzil tikintisi həcminin yerləşdirilməsi üçün 100 ha ərazi tələb edir, yəni bu variant tikinti məqsədi ilə yeni ərazilərin mənimsənməsi nöqteyi-nəzərdən ən optimal variantdır. Bu variant tikinti üçün nəzərdə tutulan ərazilərin tərkibində müxtəlif növ qeyri-əlverişli sahələrin (əlverişsiz relyefi olan, torpaq sahələrinin uğursuz planlaşdırma strukturu və ərazidən istifadəni çətinləşdirən digər səbəblər) olmasını nəzərə almır. Odur ki, reallıqda yeni mənzil tikintisi üçün 5-10% daha çox ərazi tələb oluna bilər, yəni 105-110 ha.

Cədvəl 10.5

Yeni mənzil tikintisinin yerləşdirilməsi üçün tələb olunan ərazilərinin hesablanması

Göstəricilər	Ölçü vahidi	2025-ci il	2035 -ci il
Dövrün (mərhələnin) sonuna əhalinin layihə sayı	min nəfər	50	58
Dövrün (mərhələnin) sonuna əhalinin orta mənzil təminatı	ümumi sahəsi, m^2/hər bir nəfərə	28	30

Dövrün (mərhələnin) sonuna tələb olunan mənzil fondu	ümumi sahəsi, min m^2	1400	1740
Mövcud mənzil fondu	ümumi sahəsi, min m^2	1132	1132
Mənzil fondunun azalması	ümumi sahəsi, min m^2	6	10
Mövcud saxlanılan mənzil fondu	ümumi sahəsi, min m^2	1 126	1 122
Yeni mənzil tikintisinin həcmi – cəmi Orta hesabla ildə	ümumi sahəsi, min m^2	274 30,4	618 32,5
o cümlədən:			
orta mərtəbəli və çoxmənzilli yaşayış binaları (5÷8 mərtəbə) – sıxlıq 8000 m^2/ha	ümumi sahə, min m^2/ %	164,4/60%	327,5/53 %
azmərtəbəli və çoxmənzilli (5 mərtəbəyə qədər) yaşayış binaları – sıxlıq 6000 m^2/ha	ümumi sahə, min m^2/ %	54,8/20%	166,9/27 %
həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri - sıxlıq 4000 m^2/ha	ümumi sahə, min m^2/ %	54,8/20%	123,6/20 %
Yeni mənzil tikintisinin yerləşdirilməsi üçün tələb olunan ərazilər (minimal) - cəmi	ha	43,5	99,7
o cümlədən:			
orta mərtəbəli və çoxmənzilli yaşayış binaları (5÷8 mərtəbə)	ha	20,6	40,9
azmərtəbəli və çoxmənzilli yaşayış binaları (5 mərtəbəyə qədər)	ha	9,2	27,9
həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	ha	13,7	30,9

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. Bakı, 2015 il.

Sıxlığına görə tikinti ərazilərinin ayrılması bu ərazilərdə göstərilən üstünlük təşkil edən mərtəbəlikdən əlavə çox və ya az mərtəbəli binaların da olmasını ehtimal edir. Baş planda birinci növbə və hesablama dövrü üçün tikinti üçün ayrılan zonalar yeni mənzil tikintisi yerləşdirmək üçün lazım olan minimum ərazilərlə müqayisədə kifayət qədər profisitə malikdir. Bu lazım gəldikdə bazar konyukturasına daha tez uyğunlaşmağa və mənzil tikintisi planlarına düzəlişlər etməyə imkan verəcəkdir, misal üçün, müvafiq tikinti növü daxilində orta mərtəbəliliyin və tikililərin orta sıxlığının azaldılması.

Cədvəl 10.6

Növbə üzrə yeni mənzil tikintisinin meydançaları

Meydançanın adı	**Tikilib abadlaşdırılmış ərazinin növü**	**Meydançanın sahəsi, ha**	**Mənzil fondunun yerləşdirmə imkanları, ümumi sahəsi, min m^2**	**Əhalinin proqnozlaşdırılan sayı, min nəfər (2025 il)**	**Əhalinin proqnozlaşdırılan sayı, min nəfər (2035 il)**
1-ci növbə (2025 il)					
Cəyirçayın sol sahili					
1 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	13,0	36,0	1,86	1,73

2 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	9,2	55,2	1,97	1,84
Cəyirçayın sağ sahili					
4 №-li meydança	Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları	22,7	181,6	6,48	6,05
Hesablama dövrü (2035 il)					
Cəyirçayın sol sahili					
1 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	16,8	67,2	0	1,71
2 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	3,2	19,2	0	0,64
3 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	2,1	12,6	0	0,42
6 №-li meydança	Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları	6,9	55,2	0	1,84
7 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	4,0	24,0	0	0,80
9 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	10,1	60,6	0	2,02
11 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	4,0	16,0	0	0,53
Cəyirçayın sağ sahili					
5 №-li meydança	Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları	14,6	116,8	0	3,89
Şəhərin cənub hissəsi, Cəyirçayın sağ sahili					
13 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	0,8	3,2	0	0,11
Ehtiyat (2035-ci ildən sonra)					
1 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	12,3	49,2	0	0
6 №-li meydança	Orta mərtəbəli (5-8 mərtəbəli) və	11,2	89,6	0	0

	çoxmənzilli yaşayış binaları				
8 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	37,1	148,4	0	0
9 №-li meydança	Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	6,5	39,0	0	0
10 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	33,0	132,0	0	0
11 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	11,0	44,0	0	0
12 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	43,0	172,0	0	0
Digər ehtiyat əraziləri	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	22,3	89,2	0	0
CƏMİ 1-ci növbədə, 2025-ci ilə qədər		**44,9**	**288,8**	**10,31**	**9,62**
Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları		22,7	181,6	6,48	6,05
Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları		9,2	55,2	1,97	1,84
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri		13,0	52	1,86	1,73
CƏMİ 2025-2035-ci illər dövründə tikinti		**58,5**	**358,8**	**0**	**11,96**
Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları		21,5	172,0	0	5,73
Azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları		19,4	116,4	0	3,88
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri		21,6	86,4	0	2,35
CƏMİ hesablama dövrü üçün artan yekun ilə		**103,4**	**647,6**	**-**	**21,58**
Orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları		44,2	353,6	-	11,78
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri		28,6	171,6	-	5,72
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri		34,6	138,4	-	4,08
Mövcud saxlanılan mənzil fondu üzrə arayış məlumatı			1-ci növbədə - 1126 min m^2, hesablama dövründə - 1122 min m^2	1-ci növbədə - 40,2 min nəfər, hesablama dövründə - 37,4 min nəfər	

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. Bakı, 2015 il.

10.3. Sosial və mədəni-məişət xidmət müəssisələri və idarələri

Əhaliyə xidmət göstərən müəssisələr və təşkilatlar

Təhsil

Uşaq bağçaları

Hal-hazırda Şəmkir şəhəri ərazisində 655 yerlik 7 məktəbəqədər təhsil müəssisəsi vardır. 2015-ci ildə şəhər məktəbəqədər müəssisələrində 570 uşaq var. Məktəbəqədər müəssisələrdə olan uşaqların yerlərlə təminatlılıq səviyyəsi hər 100 yerə 87 uşaq təşkil edir. Məktəbəqədər təhsil müəssisələrinin siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.7

Məktəbəqədər təhsil müəssisələrinin siyahısı

№	Adı	Ünvan	Yerlərin sayı	Pedaqoji kadrların sayı	Texniki işçilər	Tutumu		Binanın layihə üzrə və ya uyğunlaşdırılmış binada yerləşdirilməsi	Texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
						layihə	faktiki			
1	2 №-li şəhər	Şəmkir ş, F.Hüseynov küç.	155	22	21	280	155	Ayrıca layihələndirilmiş binada	Qənaət-bəxş	Əsaslı təmir nəzərdə tutulub
2	3 №-li şəhər	Şəmkir ş, Mehdi Hüseyn küç.	150	18	21	150	150	Ayrıca layihələndirilmiş binada	Qənaət-bəxş	Əsaslı təmir nəzərdə tutulub
3	4 №-li şəhər	Şəmkir ş, Səməd Vurğun küç. 108	95	13	16	95	95	Ayrıca layihələndirilmiş binada	Əla	Nəzərdə tutulmayıb
4	5 №-li şəhər	Şəmkir ş, Nizami küç. 40	75	11	16	75	75	Ayrıca layihələndirilmiş binada	Qənaət-bəxş	Nəzərdə tutulmayıb
5	6 №-li şəhər	Şəmkir ş, R.Rəhimov küç.84	35	7	8	45	35	Uyğunlaşdırıl-mış binada	Qənaət-bəxş	Yerləşdiyi binanın əsaslı təmiri nəzərdə tutulub
6	7 №-li şəhər	Şəmkir ş, Posanlı, Qara Qarayev küç. 15	55	9	11	55	55	Uyğunlaşdırıl-mış binada	. Qeyri-qənaət-bəxş	Yeni binanın tikintisi nəzərdə tutulub
7	8 №-li şəhər	Şəmkir ş, İsmət Qayıbov küç.	90	14	15	90	90	Uyğunlaşdırıl-mış binada	Qənaət-bəxş	Yeni binanın tikintisi nəzərdə tutulub
	Cəmi:	**-**	**655**	**94**	**108**	**790**	**655**	**-**	**-**	**-**

Mənbə: Cədvəl Şəmkir rayonu İcra Hakimiyyətinin məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il

Mövcud uşaq bağçalarından biri müasir tələblərə cavab vermir, uyğunlaşdırılmış yerin əsaslı təmirə ehtiyacı var. Bəzi uşaq bağçalarında isitmə sistemi mövcud deyil. Binaların əsaslı təmirə ehtiyacı var, onların bəzilərində isitmə sistemi yoxdur. Şəmkir şəhərində "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın tədbirlərinə əsasən 8 №-li şəhər bağçasının tikintisi aparılır.

Ümumtəhsil məktəblər

Hal-hazırda şəhər ərazisində 9 əyani dövlət ümumtəhsil məktəbi fəaliyyət göstərir. 2015-ci ildə şagirdlərin sayı 6 920 nəfər olmuşdur. İkinci və üçüncü növbədə təhsil alanların ümumi payı 32 % təşkil etmişdir. Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin yerlə təmin olunması səviyyəsi hər 100 yerə 140 şagird təşkil edir. Ümumtəhsil məktəblərinin siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.8

Ümumtəhsil məktəblərinin siyahısı

№	Adı	Ünvan	Tutumu		I növbədə oxuyan şagirdlərin sayı	İşçilərin ümumi sayı	Müəllimlərin sayı	Binanın tipi	Texniki vəziyyətinə dair məlumatlar	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
			layihə	faktiki						
1	Nizami adına şəhər tam orta məktəbi	Şəmkir ş., Səməd Vurğun küç.	640	675	436	95	66	Standart	2015-ci ildə tikilib	Nəzərdə tutulmayıb
2	Füzuli adına şəhər tam orta məktəbi/	Şəmkir, ş., Əzizbəyov küç. 34	640	1 248	748	133	106	-/-	Qeyri-qənaətbəxş	Əsaslı təmir tələb olunur
3	Əhməd Cavad adına şəhər tam orta məktəbi/	Şəmkir ş., Əhməd Cavad küç. 1	624	945	642	136	105	-/-	-/-	Təmir tələb olunur
4	C. Rüstəmov adına şəhər tam orta məktəbi	Şəmkir ş.	1 296	1 467	1219	182	134	-/-	Tam qənaətbəxş olmayan	-/-
5	Morul adına şəhər tam orta məktəbi	Şəmkir ş., Səməd Vurğun küç.	420	725	553	80	53	Uyğunlaşdırılmış	Qeyri-qənaətbəxş	-/-
6	Sərxan adına şəhər tam orta məktəbi	Şəmkir ş., S.Səfixanlı küç. 47	360	270	270	43	25	-/-	Tam qənaətbəxş olmayan	-/-
7	M.Əhmədov adına şəhər tam orta məktəbi	Şəmkir ş., Cəfər Cabbarlı	340	325	231	46	23	-/-	Qeyri-qənaətbəxş	Yeni binanın tikintisi tələb olunur
8	Pravda adına şəhər tam orta məktəbi	Şəmkir ş., Cavanşir küç.,1	280	598	297	71	45	-/-	-/-	Yeni binanın tikintisi nəzərdə tutulub
9	N. Nərimanov adına şəhər tam orta məktəbi	Şəmkir ş., Əhməd Cavad küç. 16	300	667	338	79	54	-/-	Qeyri-qənaətbəxş	Yeni binanın tikintisi tələb olunur
	Cəmi:	-	**4 900**	**6 929**	**4 734**	**865**	**611**	-	-	-

Mənbə: Cədvəl Şəmkir rayonu Təhsil Şöbəsinin məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Mövcud məktəblərin əksəriyyətinin binaları müasir tələblərə cavab vermir: bəzilərində yeməkxana yoxdur, əksəriyyətinin əsaslı təmirə, isitmə sisteminin təşkilinə və idman zallarının tikintisinə ehtiyacı var.

2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramının tədbirlərinə əsasən 9 məktəbdən 7-si üçün yeni binaların, korpusların tikintisi nəzərdə tutulmuşdur. O cümlədən Şəmkir şəhərində Nizami adına 640 yerlik yeni məktəb binasının tikintisi davam etdirilir.

Uşaqların məktəbdənkənar təhsil müəssisələri

Hazırda Şəmkir şəhəri ərazisində uşaqların 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Şagirdlərin ümumi sayı 1036 nəfər təşkil edir. 5 məktəbdənkənar təhsil müəssisəsindən 4-nün öz binası yoxdur, Şahmat məktəbi isə bunun üçün uyğunlaşdırılmış binada yerləşir. Ayrılmış əlavə təhsil müəssisələrinin yerləşdirilməsi üçün xüsusi binaların tikintisi tələb olunur.

Cədvəl 10.9

Məktəbdənkənar təhsil müəssisələri

№	Adı	Ünvan	Bina haqqında məlumat	Şagirdlərin sayı	İşçilərin ümumi sayı	Müəllimlərin sayı
1	Şahmat məktəbi	Şəmkir ş., H. Əliyev pr.	Uyğunlaşdırılmış binada yerləşir, damın təmiri tələb olunur, istilik sistemi yoxdur	238	17	15
2	UGİM	Şəmkir ş., Ə. Cavad küç.1	Ayrıca binası yoxdur	214	14	13
3	Uşaq Texniki Yaradıcılıq Mərkəzi	Şəmkir ş., H.Cavid küç.1	-/-	134	12	11
4	Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi	Şəmkir ş., S.Vurğun küç., döngə 4	-/-	225	10	9
5	Uşaq yaradıcılıq mərkəzi	Şəmkir ş., H. Əliyev pr.	-/-	225	11	10
6	Uşaq musiqi məktəbi	Şəmkir ş., Nizami küç. 101	Ayrıca bina. 1953-cü ildə inşa olunmuşdur. 46 otaq. Ümumi sahəsi 1500 m^2, həyatyanı sahəsi -500 m^2 Yeni binanın tikintisi nəzərdə tutulub.	772	151	142
	Cəmi:	-	-	**1 808**	**215**	**200**

Mənbə: Cədvəl Şəmkir rayonun Təhsil Şöbəsi tərəfindən təqdim olunmuş məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Peşə təhsili

Hal-hazırda Şəmkir şəhəri ərazisində 1 ilkin peşə-texniki təhsili müəssisəsi fəaliyyət göstərir – Şəmkir peşə liseyi (Natavan küç.70), burada 240 tələbə təhsil alır, 97 nəfərlik müəllim və işçi heyəti işləyir.

Səhiyyə

Hal-hazırda Şəmkir şəhərində ümumi tutumu 331 çarpayı 3 xəstəxana, 54 yataq yeri olan doğum evi və əhaliyə ambulator-poliklinika xidməti göstərən növbədə 847 xəstə qəbul etmə imkanı olan müalicə müəssisələri yerləşir. Səhiyyə müəssisələrinin siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.10

Səhiyyə müəssisələrinin siyahısı

№	Ayrı-ayrılıqda yerləşən tibb müəssisələri və onların filialları	Müəssisənin tutumu			Tibb obyektin ərazisinin sahəsi	Çarpayı sayı	Tibbi yardım maşınlarının sayı	İşçilərin ümumi sayı	Həkimlərin sayı	Aptekların sayı	Binanın tipi	Texniki vəziyyətinə dair məlumatlar	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s.)
		Stasionarlar, yer		Poliklinikalar, ambulatoriyalar və s. – bir növbəyə gələnlərin sayı (layihə üzrə)									
		layihə	faktiki										
1.	Mərkəzi Rayon Xəstəxanası	237	237	617	4 410	237	22	803	118	1	Standart	Qənaətbəxş	Tikintisi nəzərdə tutulub
2.	Doğum evi	54	54	50	-	54	1	205	33	-	-/-	-/-	-/-
3.	Uşaq xəstəxanası	54	54	100	2 197	54	2	216	40	-	-/-	-/-	-/-
4.	Təcili təxirəsalınma tibbi yardım stansiyası	-	-	-	117	-	15	108	19	-	-/-	-/-	-/-
5.	Ağ ciyər xəstəliklər xəstəxanası	40	40	80	780	40	1	79	9	-	-/-	-/-	-/-
	Cəmi:	**385**	**385**	**847**	**7 504**	**385**	**41**	**1 411**	**219**	**1***	**-**	**-**	**-**

Mənbə: Cədvəl Şəmkir rayon Mərkəzi Xəstəxanası tərəfindən təqdim olunmuş məlumatları əsasında tərtib edilib. Şəmkir, 2015 il.

Azərbaycan Respublikası Prezidentinin 19.09.2013-cü il tarixli Fərmanına əsasən, şəhərdə Mərkəzi rayon xəstəxanasının yeni binasının tikintisi nəzərdə tutulmuşdur. Binanın inşasına 2016-cı ildə başlanılıb.

2015-ci ildə həkim heyətinin sayı 2019 nəfər, orta tibb işçilərinin sayı isə 350 nəfər təşkil etmişdir.

Mədəniyyət müəssisələri

Asudə vaxtin təşkili əhalinin həyat keyfiyyətini müəyyən edən amillərdən biridir. Tam həcmdə mədəni-asudə sahəsi xidmətlərinin olması əhalinin, həmçinin gənclərin ərazidə qalması üçün stimul ola bilər.

Şəmkir şəhərinin mədəniyyət müəssisələri mədəniyyət evi, 4 filialı olan kitabxana sistemi, muzey və Heydər Əliyev mərkəzi ilə təmsil olunmuşdur. Mədəniyyət müəssisələrini siyahısı aşağıdakı cədvəldə verilmişdir.

**Bütövlükdə, şəhərdə 25 aptek var (cədvəldə göstərilən aptek daxil olmaqla)*

Cədvəl 10.11

Mədəniyyət obyektlərinin siyahısı

№	Adı	Ünvan	Tutumu (yerlərin sayı, nüsxələrin sayı və s.)	İşçilərin orta illik sayı	Son ildə gələnlərin sayı	Binanın növü	Texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
1	Heydər Əliyev Mərkəzi	Şəmkir ş., Heydər Əliyev pr. 5	Böyük zal-210 yer. Təqdimat zalı -70 yer, «Dairəvi masa» - 60 yer. Kinozal – 80 yer.	8	25 000	Ayrıca duran 5 mərtəbəli bina	Yeni bina, 2013-cü ildə tikilib	Tələb olunmur
2	Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS)		40 975	42				
2.1	Mərkəzi Kitabxana	Həzi Aslanov küç. 12	20 106	33		Ayrıca duran, XIX əsrin sonunda inşa edilmiş bina	Qəzalı vəziyyətdə	Tələb olunur. Mərkəzi Kitabxana üçün yeni bina "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur. Artıq tikinti üçün Şəmkir ş., Sabir küç.38 ünvanda yerləşən torpaq sahəsi (5 sot) ayrılmışdır.
2.2	1 saylı şəhər kitabxana filialı	"İpək Yolu" yaşayış massivi	5 842	3				
2.3	2 saylı şəhər kitabxana filialı	"Elektrik Sahəsi" yaşayış massivi	3 257	2				
2.4	3 saylı şəhər kitabxana filialı	"Morul" yaşayış massivi	4 192	2				
2.5	4 saylı şəhər kitabxana filialı	"Sərxan" yaşayış	7 578	2				

		massivi						
3	Tarixi-Diyarşünaslıq Muzeyi	Mirzə Ələkbər Sabir küç. 38	10 otaq; Böyük zal - 260 m^2; Kiçik zal - 100 m^2	11	3 626	Ayrıca duran 2-mərtəbəli bina	2015-2016-cı illərdə əsaslı təmir aparılmış dır	Tələb olunmur. Çünki keçmiş "Vidadi" kinoteatrının binası əsaslı təmir edilmişdir və 2016-cı ildə muzey bu binaya köçürülmüşdür
4	Əhməd Cavad adına Şəhər Mədəniyyət Evi	Şəmkir küç., Səməd Vurğun küç.18	Böyük zal – 450 yer Kiçik zal – 200 yer Foye – 100 yer	9	30 000	Ayrıca duran bina.	Tam qənaət-bəxş olmayan	Əsaslı təmir tələb olunur
	Cəmi:	-	-	**68**	**58 626**	-	-	-

Mənbə: Cədvəl Şəmkir rayonu İcra Hakimiyyətinin məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Hal-hazırda Şəmkir ərazisində 5 ictimai kitabxana yerləşir, onların ümumi kitab fondu 57,7 min nüsxədir. Bundan başqa şəhər ərazisində: 650 yerlik mədəniyyət evi və onun nəzdində hər il 10-15 min nəfəri qəbul edən muzey yerləşir. Yaxın gələcəkdə muzey ərazisinin əsaslı təmiri, həmçinin mərkəzi kitabxana sisteminin yerləşdirilməsi üçün yeni binanın tikintisi planlaşdırılır.

İdman müəssisələri

Hal-hazırda Şəmkir şəhəri ərazisində stadionu, idman zalı, məşq zalı və üzmə hovuzu olan bir Olimpiya idman kompleksi yerləşir. Bundan başqa 3 km velosiped yolu olan velotrek də fəaliyyət göstərir. İdman tikililərinin siyahısı aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.12

İdman qurğuların və tikililərin siyahısı

№	Adı	Ünvan	Tutumu (yerlərin sayı, nüsxələrin sayı və s.)	İşçilərin orta illik sayı	Son ildə gələnlərin sayı	Binaların tipi	Texniki vəziyyəti	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s.)
1	Şəmkir Güləş Məktəbi	Şəmkir ş., Sabir küç. 18	40	5	150	Ayrıca duran buna	Tamam yararlıdır	Nəzərdə tutulmayıb
2	Şəmkir Olimpiya İdman Kompleksi	"İpək Yolu", Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomagistralı, yolunun 406-	780	400	2000	Ayrıca duran bina	Tamam yararlıdır. 2009-cu ildə tikilib	Nəzərdə tutulmayıb

		cı km.						
	Cəmi:		**820**	**405**	**2150**	**-**	**-**	**-**

Mənbə: Cədvəl Şəmkir rayonu İcra Hakimiyyətinin məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Şəmkir əhalisinin əsas mədəni-məişət xidmət müəssisələri ilə təminatlılıq səviyyəsinin göstəriciləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 10.13

Hamamlar

№	Adı	Ünvan	Yerlərin sayı	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)/
1	"Bəy hamamı"	"İpək Yolu" yaşayış massivi	6	Ayrıca duran bina, yararlı

Mənbə: Cədvəl Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyiməlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.14

Bazar kompleksləri

№	Adı	Ünvan	Ticarət sahəsi-kv.m	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)/
1	«Dostluq» MMC	Şəmkir ş., 20 Yanvar küç.	1 500	Yeni bazar
2	"Həbibli" bazarı	Şəmkir ş., 20 Yanvar küç.	12 000	Köhnə bazarın əsasında yaradılıb
	Cəmi:		**13 150**	

Mənbə: Cədvəl Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyiməlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.15

İri ticarət obyektləri [1]

№	Adı	Növ	Ünvan	Ticarət sahəsi-m^2	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
1	"Meqafan"	Ticarət mərkəzi	Şəmkir ş.,Heydər Əliyev pr.	22 353	-
2	"Kontakt Home"	Mağaza	Şəmkir ş., Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun sol kənarı	520	Yeni tikili
3	«MAKRO MARKET»	Supermarket	Şəmkir ş., Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun sol kənarı	470	Yeni tikili
4	"MAKRO MARKET"	-/-	Şəmkir ş., E.Allahverdiyev küç., ev.l	700	-/-
5	«MUSIC GALERY»	-/-	Şəmkir ş., Sabir küç, 75	330	-/-
6	TİCARRƏT MƏRKƏZİ	Ticarət mərkəzi	Şəmkir ş., Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun sol kənarı	7 200	Yeni tikili

[1] Şəmkir şəhərinin ticarət sahəsi 100 m^2 çox olan ən iri ticarət obyektləri. AR Dövlət Statistika Komitəsinin məlumatlarının əsasında, Şəmkir rayonunda ticarət obyektlərinin ümumi sayı 1244 əd. Təşkil edir, onların ticarət sahəsi – 32,7 min m^2, köşklərin sayı isə - 51 əd.

7	“TUTTO BELLA”	Tikinti materialları (kafel, parket)	-/-	520	-/-
8	“WOODPECKER”	Mebel mağazası	-/-	1 000	-/-
9	“ESE”	Ticarət mərkəzi	-/-	150	-/-
10	“Orxan”	-/-	Şəmkir ş.,20 Yanvar küç.	1 333	-/-
11	Tərəvəz məhsullarının topdan satışı	-	Şəmkir ş., Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun sol kənarı	2 000	-/-
12	“Mustafa Tayat”	-/-	Şəmkir ş.,20 Yanvar küç.	300	-/-
13	“Şəmkir Market”	-/-	Şəmkir ş., İ.Məmmədov küç.	360	-
14	Hədiyyələr mağazası	-	Şəmkir ş.,20 Yanvar küç.	136	-
15	“Orxan”	Ticarət mərkəzi	Şəmkir ş.,20 Yanvar küç., ev.Həbibli firmasının arxa tərəfi	1 333	-
16	Mebel mağazası	-	Şəmkir ş.,Heydər Əliyev pr., ev 25	400	-
17	Tikinti materialları mağazası	-	Şəmkir ş.,20 Yanvar küç.	100	-
18	“Qadın Dünyası” geyim mağazası	-	Şəmkir ş.,20 Yanvar küç.	125	-
19	"Maşallah" Market	-	Şəmkir ş, M.Əsədov ev.5	200	-
20	Mebel mağazası	-	Şəmkir ş., Çingiz Mustafayev küç., ev.51	827	-
21	"Şəmkir İnşaat” mağazası	-	Şəmkir ş., Novruz Hüseynov ev.47	585,6	-

Mənbə: Cədvəl Şəmkir rayon İH tərəfindən təqdim olunmuş məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.16

Ticarət obyektləri (ümumi göstəricilər)

Ticarət obyektləri	Sayı, əd.	Əsas ticarət sahəsi, m^2	Yardımçı sahəsi, m^2
Şəmkir şəhəri üzrə	695	77 318,36	1 200,42
o cümlədən:			
İşləyən	*406*	*65 186,75*	*495,42*
Fəaliyyəti dayandırılmış	*289*	*12 131,61*	*705*
Şəmkir rayonu üzrə (Şəmkir şəhəri daxil olmamaqla)	796	53 077,09	2 635,9
o cümlədən:			
İşləyən	*486*	*31 687,51*	2 039,9
Fəaliyyəti dayandırılmış	*310*	*21 389,58*	*596*
Ümumi	1491	130 395,45	3 836,32

Mənbə: Cədvəl Şəmkir rayon İH tərəfindən təqdim olunmuş məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.17

İctimai-iaşə obyektləri (ünvan, oturacaq yerlərinin sayı)[1].

№	Adı	Ünvan	Oturacaq yerlərinin say	Sahəsi, m^2	Qeyd (tikilir, tikintisi nəzərdə tutulub və s..)
1	"Şəmşirin" şirniyyat kafesi	Şəmkir ş, Heydər Əliyev pr.		110	
2	Çay evi	Şəmkir ş, Vaqif küç.		70	
3	"Tbilisi" kafesi	Şəmkir ş, Səməd Vurğun küç.		122	
4	"Şəmburq" kafesi	Şəmkir ş, Z. Sarıyev küç., ev.6		367	
5	Kafe "Annenfeld"	Şəmkir ş, Səməd Vurğun küç.		150	
6	"Yamin" şadlıq sarayı	Şəmkir ş., E.Allahverdiyev küç.		1 387	
7	"Anadolu" restoranı	Şəmkir ş., Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolunun sol kənarı		330	
8	"Mado" restoran	-/-		330	
9	"Murovdağ" şadlıq sarayı	Şəmkir ş, Nizami küç., ev.115		464	

Mənbə: Cədvəl Şəmkir rayon İH tərəfindən təqdim olunmuş məlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

[1] *Ticarət sahəsi 50 m2 çox Şəmkir şəhərinin ən iri ictimai iaşə obyektləri*

Cədvəl 10.18

Qəbiristanlıqların siyahısı

№	Adı	Ünvan	Fəaliyyət göstərən və qapalı olan	Sahəsi, ha	Tələb olunan və ya azad (boş) sahə, ha
1	Mərkəzi qəbiristanlıq	Şəmkir şəhərin Çinarlı istiqamətinin çıxışında (cənub-şərq)	Fəaliyyət göstərir	3,71	Tələb olunmur (boş sahə-0,65 ha)
2	"Morul" qəbiristanlığı/	Şəmkir şəhərin cənub istiqamətinin çıxışında "Morul" (keçmiş Morul kəndi) yaşayış massivinin ərazisində/	-/-	6,72	Tələb olunmur (boş sahə-0,5ha)
3	"Sərxan" qəbiristanlığı (keçmiş Sərxan kəndinin qəbiristanlığı)	"Sərxan" yaşayış massivinin ərazisində/	-/-	9,87	Tələb olunmur (boş sahə-4,25ha)
4	"Fəxri Xiyaban"	"Posanlı" yaşayış massivinin ərazisinə yaxın, R.Rəhimov, M.Ə.Rəsulzadə, T.İsmayılov və Əhməd Cavad küçələri arasında yerləşir	-/-	3,83	Tələb olunmur
5	"Dəllər" qəbiristanlığı	Dəllər qəsəbəsinin yanında, Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi yolunun sol tərəfində	-/-	3,91	Tələb olunmur (boş sahə-2,24ha)
6	"Sarıtəpə" qəbiristanlığı	"Sarıtəpə" yaşayış massivinin ərazisində (şəhərin şimal-qərbi)	-/-	0,78	Tələb olunmur (boş sahə-0,36 ha)

Mənbə: Cədvəl Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyiməlumatları əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.19

Şəhər ərazisində tikintisi planlaşdırılan və tikilməkdə olan sosial və mədəni-məişət xidməti müəssisələrinin siyahısı

№	Adı	Ünvanı	Tutumu	Qeyd *(tikilir, tikintisi nəzərdə tutulub və s.)*
1	Nizami Gəncəvi adına tam orta məktəbi	Şəmkir ş., Şıxəli Qurbanov	640 şagird üçün yer	Tikintisi nəzərdə tutulub/Artıq tikilib/
2	Şəhər 8 №-li körpələr evi-uşaq bağçası	Şəmkir ş, İsmət Qayıbov küç.	?	Tikintisi gedir.
3	Şəmkir Rayon Mərkəzi Xəstəxanası	Şəmkir ş., Şıxəli Qurbanov küç.4	?	Tikintisinin başlanğıcı 2013-cü ildə nəzərdə tutulmuşdur. Bu barədə Prezident Fərmanı da olmuşdur. Lakin müəyyən səbəblərdən tikinti yalnız 2016-cı ildə başlanıb.
4	Tarixi-Diyarşünaslıq Muzeyi	Şəmkir ş., Nizami küç. 38	600 m^2	Əsaslı təmiri bitir. Regionların 20014-2018

				sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində. Əsaslı təmir və 3 təşkilatın bu binaya köçürülməsi nəzərdə tutulub.
5	4 №-li uşaq bağçası	Şəmkir ş., Səməd Vurğun küç.108	. 95 nəfərlik/5 qrup	Açılışı 14 dekabr 2015 ildə olmuşdur qrup

Mənbə: Cədvəl Şəmkir Rayon İH tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2016 il.

Cədvəl 10.20

Mədəni-məişət xidmət müəssisələri ilə təminat

Xidmət müəssisələrinin adları	Ölçü vahidi	Tutumu, cəmi/ 1000 nəfərə düşən	Tövsiyə edilən normativlər *(AzDTN 2.6–1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması)*	Təmin edilməsi, %
Təhsil müəssisələri				
Məktəbəqədər təhsil müəssisələri	yerlərin sayı	655/ 16	1-6- yaşlılar da daxil olmaqla uşaqların ümumi sayının 85%-i (4200 yer)	15
Ümumtəhsil müəssisələri	yerlərin sayı	faktiki – 6920/ 170 layihə üzrə - 4900/ 120	natamam orta təhsilli məktəbyaşlı uşaqların 100% və yuxarı sinif uşaqlarının 75%-nin əhatə edilməsi (6000 yer)	82
Səhiyyə müəssisələri[1]				
Xəstəxana	çarpayılarının sayı	331/8,1	şəhər səviyyəsi – 1000 nəfərə 3,7 çarpayı və respublika səviyyəsi - 1000 nəfərə 0,82 çarpayı	179
Ambulatoriya-poliklinika müəssisələri, feldşer-mamalıq məntəqələri	bir növbədə gəlişlərin sayı	847/20,9	Layihə tapşırığına uyğun, təxminən 1000 nəfərə 16 gəliş	130
Apteklər	əd.	25	Layihə tapşırığına uyğun	100
Təcili tibbi yardım stansiyası	əd.	1	1/10 min nəfər 15-dəqiqəlik əlçatarlığı çərçivəsində, xüsusi avtomobildə	100
Mədəniyyət müəssisələri				
Klub müəssisələri	yer	1030/25,4	şəhərlər üçün – 1000 nəfərə 80 yer	32
Kütləvi	min	57,7/1,4	şəhər kitabxanaları –	31

[1] Səhiyyə Nazirliyinin 151 №-li 31 oktyabr 2008-ci il tarixli «Azərbaycan əhalisinin tibbi kadrlar və xəstəxana yataqları ilə təmin olunması üzrə normativlərin təsdiqi» qərarına uyğun olaraq.

Xidmət müəssisələrinin adları	Ölçü vahidi	Tutumu, cəmi/ 1000 nəfərə düşən	Tövsiyə edilən normativlər *(AzDTN 2.6–1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması)*	Təmin edilməsi, %
kitabxanalar	nüsxə		4-4,5 min saxlanma nüsxəsi, əlavə olaraq mərkəzi şəhər kitabxanasında 0,5 min saxlanma nüsxəsi	
İdman qurğuları				
Bütün növ bədən tərbiyəsi - idman qurğularının yerləşdiyi sahələr	ha	7,8/0,2	1000 nəfərə 0,7-0,9 ha	25
Ümumi istifadədə olan idman və trenajor zalları	m^2	1110/27,3	bütün növ zallarda 1000 nəfərə 80 kv. m döşəmə sahəsi	34
Üzgüçülük hovuzları	m^2	300/7,4	su güzgüsünün sahəsi 25 m^2	29
Digər obyektlər				
Ticarət obyektləri	ticarət sahəsi, m^2	77 318,4/11368	1000 nəfər sakinə 280 m^2	678
Bazarlar	sahə, m^2	13500/1624	1000 nəfər sakinə 24-40 m^2	831
İctimai iaşə obyektləri	oturacaq yer	m/y	1000 nəfər sakinə 40 yer	m/y
Kimyavi təmizləmə	növbədə kq əşya	m/y	1000 nəfər sakinə növbədə 11,4 kq əşya	m/y
Camaşirxana	növbədə kq camaşir	m/y	1000 nəfər sakinə növbədə 120 kq camaşir	m/y
Hamamlar	yuyunma yer	6/0,14	1000 nəfər sakinə 5 yer	3
Meyvə-tərəvəz anbarları	min m^2	m/y	1000 nəfər sakinə 77 ton/	m/y
Ərzaq və qeyri-ərzaq anbarlar	min m^2	m/y	1000 nəfər sakinə 294 m^2	m/y
Soyuducu kameralar	ton	m/y	1000 nəfər sakinə 27 ton	m/y
Yanğından mühafizə bölməsi	əd.	1	Yanğından mühafizə bölməsinin xidmət ərazisinin radiusu 3 km.-dən çox olmamalıdır	100
Qəbiristanlıqlar	boş ərazi, ha	8,0/0,2	1000 nəfərə 0,24 ha	83

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. Bakı, 2015 il.

Nəticələr:

Əhalinin əsas mədəni-məişət obyektləri ilə təminatlılıq səviyyəsi (səhiyyə sahəsi istisna olmaqla) AzDTN 2.6–1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması sənədində göstərilən normativlərdən geri qalır. Gələcəkdə məktəbəqədər və orta ümumtəhsil müəssisələrin, idman tikililərinin, mədəniyyət və istirahət obyektlərinin artırılmasına ehtiyac var. Mədəni-məişət müəssisələrinin əksəriyyəti qeyri-kafi texniki vəziyyətdədirlər və kifayət qədər maddi-texniki bazaya malik deyillər.

Əhaliya xidmət göstərən müəssisələrinin inkişafı

Azərbaycan Respublikasında əhaliyə xidmət sisteminin inkişafına mühüm qiymət verilir. "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyd olunduğu kimi hər bir iqtisadi inkişafın məqsədi sosial rifahın yaxşılaşdırılmasıdır. "Bu cəhətdən konsepsiyanın üstünlüklərindən biri sosial sahə və insan kapitalının inkişafıdır. Bu üstünlük çərçivəsində əsas istiqamətlər təhsil və səhiyyənin keyfiyyətinin yaxşılaşdırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin və ailənin inkişafının təmin olunması, gənclərin və idmanın potensialını artırmaqdır. Konsepsiya çərçivəsində əsas strateji kurs qismində ön plana ölkə əhalisinin keyfiyyətli təhsil və səhiyyə xidmətləri ilə təmin etmək, bu xidmətlərin eləcə də vətəndaşlığı olmayan və aztəminatlı ailələr də daxil olmaqla müxtəlif sosial qruplar üçün əlçatan olması qoyulmuşdur". Bununla bağlı Şəmkir şəhəri Baş Planının əsas məqsədlərinə, nəzərdə tutulmuş müddət ərzində müəssisə və xidmət obyektlərində proqnozlaşdırılan ehtiyacların qiymətləndirilməsi və hesablama dövrü ərzində şəhərdə yerləşdirilməli olan daha iri obyektlərin siyahısının formalaşdırılması aiddir.

Əhalinin müxtəlif xidmət sahələri ilə təminat səviyyəsinin mühüm hesablanması AzDTN 2.6–1 "Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması" normativlərinə uyğun həyata keçirilir. Bu normativlərdən yayınma yalnız aşağıdaki hallarda yolverilən dir:

1) sosial-demoqrafik şəraitə uyğunlaşan ərazilər seçilən uşaq bağçaları və məktəblər üçün normativlər: məktəblərdə hər 1000 nəfərə 180 şagird yeri (СНиП II-60-75* yeni tikililər üçün tövsiyə olunan), amma proqnozlaşdırılan məktəb yaşlı şəxslərin sayından artıq olmamaqla, və əhalinin hər 1000 nəfərinə 60 yer məktəbəqədər müəssisələrdə.

2) tövsiyə olunan AzDTN 2.6-1 faktiki olaraq köhnəldiyi üçün uşaqların əlavə təhsil müəssisələri ilə bağlı (məktəbdənkənar tədris müəssisələri);

3) hal-hazırda yalnız Səhiyyə Nazirliyinin sahə üzrə normativlərinin tətbiq oluna biləcəyi səhiyyə müəssisələri ilə bağlı.

Şəmkir şəhərində yerləşən səhiyyə müəssisələrinin xidmət zonasına şəhərin özündən başqa Şəmkir rayonunun əhəmiyyətli bir hissəsi daxildir. Bununla əlaqədar hal-hazırda həmin müəssisələrdə olan xəstəxana çarpayıları və personalın sayı Şəmkir şəhəri əhalisinə xidmət göstərilməsi üçün lazım olduğundan çoxdur. O cümlədən: şəhər əhalisi üçün lazım olan kəmiyyətlə müqayisədə çarpayıların miqdarı 2 dəfə, həkim personalının sayı 1,5 dəfə, orta tibb heyətinin sayı 2,2 dəfə, kiçik tibbi və digər personalın sayı 2,8 dəfə çoxdur. Cədvəldə Baş Planın hesablama müddəti və birinci növbənin perspektivi nəzərə alınmaqla Şəmkir şəhəri üçün (mötərizəsiz qiymətlər) və Şəmkir şəhərində yerləşən səhiyyə müəssisələrinin mövcud xidmət zonası üçün (mötərizədə verilmiş qiymətlər) əsas göstəricilərin hesablama qiymətləri gətirilir. Xidmət zonası üçün qiymətlər Şəmkir rayonu əhalisinin sayının "Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrinin ərazi təşkilinin regional planlaşdırma sxemi"ndə nəzərdə tutulmuş artım dinamikasının müvafiq illər üzrə interpolyasiyası nəzərə alınmaqla hesablanıb.

Cədvəl 10.21

Şəmkir şəhəri əhalisinin xidmət obyektlərinə olan tələbatın hesablaması

Xidmət obyektlərinin adları	**Hesablama normativi**	**2015 il (faktiki vəziyyət)**	**2025 il (proqnoz qiyməti) 50 min əhalinin sayı üçün**	**2035 il (proqnoz qiyməti) 58 min əhalinin sayı üçün**
Təhsil müəssisələri, min yer[1]				
Məktəbəqədər müəssisələri	hər min nəfər əhaliyə 60 yer	0,65	3	3,5
Ümumtəhsil məktəbləri	hər min nəfər əhaliyə 180 şagird-yer	faktiki –6,9, layihə üzrə – 4,9	9	10,4
Uşaq-gənclər idman məktəbləri (UGİM)	bütün şagirdlərin sayından 2025-ci ildə 20,3 % və 2035-ci ildə 24,2 %	0,21	1,1	1,5
Əlavə təhsil (UGİM-ləri nəzərə almadan)	bütün şagirdlərin sayından 2025-ci ildə 5,7 % və 2035-ci ildə 6,8 %	0,82	0,33	0,51
İlk peşə-ixtisas təhsili müəssisələri	100 000 sakinə 59 tələbə	0,24 min tələbə	0,29	0,34
Səhiyyə müəssisələri Göstəricilərin qiymətləri (mötərizəsiz) Səhiyyə Nazirliyinin sahə normativlərinə (151 №-li Əmr) uyğun olaraq şəhər əhalisi hesaba alınmaqla verilir. 2015-ci ilə aid sütunda mötərizədə şəhərdə yerləşən və Şəmkir şəhəri və Şəmkir rayonunun şəhərə bitişik ərazisinin onların xidmət zonasına daxil olduğu tibb müəssisələri göstəricilərinin faktiki qiymətləri gətirilib. 2025 və 2035-ci illərə aid sütunlarda – mötərizədə yaranmış xidmət zonansının qorunması nəzərə alınmaqla göstəricilərin mümkün qiymətlərinin dəyərləndirilməsi göstərilib				
Stasionar tibb müəssələrində çarpayıların ümumi sayı (2-ci və 3-cü səviyyələr)	2-ci səviyyə üçün hər 1000 nəfər sakinə 3,7 (3,4-4) çarpayı; 3-cü səviyyə üçün hər 1000 nəfər sakinə 0,82 (0,72-0,92) çarpayı	184 (385)	226 (430)	262 (472)

[1] *Əmək qabilliyyətli yaşdan az olan əhaliyə xidmət göstərən müəssisələri üçün demoqrafik proqnozun yüksək variantının - idarəolunan və idarəolunmaz miqrasiya ilə (nəzərə alınmaqla) - həyata keçirilməsində yerlərin kəmiyyət göstəriciləri gətirilir. Sonuncu halda (idarəolunmaz miqrasiya olduqda) uşaqların sayının daha çox olacağı nəzərdə tutulur.*

Xidmət obyektlərinin adları	Hesablama normativi	2015 il (faktiki vəziyyət)	2025 il (proqnoz qiyməti) 50 min əhalinin sayı üçün	2035 il (proqnoz qiyməti) 58 min əhalinin sayı üçün
Həkim heyəti – cəmi, nəfər	1-ci səviyyə üçün 1600 (1600-1800) nəfər sakinə 1 sahə terapevti və 600 (600-800) nəfər uşağa 1 sahə pediatrı; 2-ci səviyyə üçün hər 1000 nəfər sakinə 2,09 (1,944-2,236) həkim vəzifəsi; 3-cü səviyyə üçün hər 1000 nəfər sakinə 0,475 (0,4573-0,493) həkim vəzifəsi	149 (219)	184 (294)	212 (325)
o cümlədən: – sahə terapevtləri	hər 1600 (1600-1800) nəfər sakinə 1 sahə terapevti	25 (13)	31 (36)	36 (40)
– sahə pediatrları	hər 800 (600-800) nəfər uşağa 1 sahə pediatrı	20 (20)	25 (26)	27 (28)
Orta tibb heyəti, nəfər	1-ci səviyyə üçün hər bir nəfər həkimə 2 orta tibb işçisi vəzifəsi; 2-ci səviyyə üçün hər 1000 nəfər sakinə 4,1 (3,9-4,3) orta tibb işçisi vəzifəsi; 3-cü səviyyə üçün hər 1000 nəfər sakinə 0,772 (0,677-0,867) orta tibb işçisi vəzifəsi	288 (619)	356 (690)	408 (754)
o cümlədən ilkin səhiyyə xidməti müəssisələrində	hər həkimə 2 orta tibb işçisi (sahə terapevtlər və pediatrlar)	90	112	126
Kiçik tibb işçisi heyəti, nəfər	1-ci səviyyə üçün hər 1000 nəfər sakinə 0,3 (0,27-0,33) kiçik tibb işçisi vəzifəsi; 2-ci səviyyə üçün hər 1000 nəfər sakinə 2,6 (2,54-2,66) kiçik tibb işçisi vəzifəsi; 3-cü səviyyə üçün hər 1000 nəfər sakinə 0,44 (0,41-0,47) kiçik tibb işçisi vəzifəsi	136 (377)	167 (411)	194 (446)
o cümlədən ilkin səhiyyə xidməti müəssisələrində	hər 1000 nəfər sakinə 0,3 (0,27-0,33) kiçik tibb işçisi vəzifəsi	12	15	17

Xidmət obyektlərinin adları	Hesablama normativi	2015 il (faktiki vəziyyət)	2025 il (proqnoz qiyməti) 50 min əhalinin sayı üçün	2035 il (proqnoz qiyməti) 58 min əhalinin sayı üçün
Digər tibb heyəti, nəfər	1-ci səviyyə üçün hər 1000 nəfər sakinə 0,14 (0,12-0,163) digər tibb işçisi vəzifəsi; 2-ci səviyyə üçün hər 1000 nəfər sakinə 1,19 (1,15-1,23) digər tibb işçisi vəzifəsi; 3-cü səviyyə üçün hər 1000 nəfər sakinə 0,44 (0,41-0,47) digər tibb işçisi vəzifəsi	72 (198)	89 (216)	103 (234)
o cümlədən ilkin səhiyyə xidməti müəssisələrində	hər 1000 nəfər sakinə 0,14 (0,12-0,163) digər tibb işçisi vəzifəsi	6	7	8
Ambulator-poliklinik müəssisələri, növbədə min gəliş	hər 1000 nəfərə bir növbədə 16-18 gəliş	0,69 (0,85)	0,85 (1,01)	0,99 (1,15)
Mədəniyyət müəssisələri				
Şəhər mədəniyyət evləri, min yer	1000 nəfər sakinə 80 yer	1,03	4,0	4,6
Kütləvi kitabxanalar (şəhər kütləvi kitabxanalar), min nüsxə	1000 nəfər sakinə 4,3 min nüsxə	57,7	215,0	249,4
Kinoteatrlar, kinozallar, min yer	1000 nəfər sakinə 25 yer	0,08	1,25	1,45
Teatrlar, yer	1000 nəfər sakinə 6 yer	0	300	348
Konsert zalları, yer	1000 nəfər sakinə 4 yer	450	200	232
Idman obyektləri				
İdman zalları, min m^2	1000 nəfər sakinə 80 m^2	1,11	4,0	4,64
Müstəvi qurğular min m^2	1000 nəfər sakinə 80 m^2	7,7	4,0	4,64
Üzgüçülük hovuzları, min m^2	1000 nəfər sakinə 25 m^2	0,3	1,25	1,45
Universal idman-tamaşa zalları, yer	1000 nəfər sakinə 9 yer	m/y	450	522
İdman qurğularının yerləşdirilməsi üçün ərazilər, ha	1000 nəfər sakinə 0,8 ha	7,8	40	46,4
Ticarət, məişət xidməti və ictimai iaşə				
Şəhər mağazaları, ticarət sahəsi min m^2	1000 nəfər sakinə 280 m^2	m/y	14	16,2
Bazar kompleksləri, ticarət sahəsi min m^2	1000 nəfər sakinə 40 m^2	m/y	2,0	2,32

Xidmət obyektlərinin adları	Hesablama normativi	2015 il (faktiki vəziyyət)	2025 il (proqnoz qiyməti) 50 min əhalinin sayı üçün	2035 il (proqnoz qiyməti) 58 min əhalinin sayı üçün
Məişət xidməti obyektləri, iş yeri	1000 nəfər sakinə 9 yer	m/y	450	522
İctimai iaşə obyektləri, min yer	1000 nəfər sakinə 40 yer	m/y	2,0	2,32
Kimyavi təmizləmə, növbədə-kq əşya	1000 nəfər sakinə 11,4 kq	m/y	570	661,2
Camaşirxana, növbədə kq camaşir	1000 nəfər sakinə 120 kq	m/y	6 000	6 960
Hamam, yer	1000 nəfər sakinə 5 yer	6	250	290
Meyvə-tərəvəz anbarları, ton	1000 nəfər sakinə 77 ton	m/y	3 850	4 466
Ərzaq və qeyri ərzaq anbarları, m^2	1000 nəfər sakinə 294 m^2	m/y	14 700	17 052
Soyuducu kameralar, ton	1000 nəfər sakinə 27 ton	m/y	1 350	1 566

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. 2015 il.

Təhsil müəssələrinə tələbatın hesablanması

"Azərbaycan – 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının qarşıda qoyduğu məsələlərdən biri vətəndaşların gündəlik həyatlarının rahatlığı məqsədilə təhsil xidmətlərinin təmin edilməsidir. Azərbaycanda təhsil islahatının həyata keçirilməsi ilə yanaşı, təhsilə qoyulan dövlət investisiyasının həcmi, ölkənin ümumi iqtisadi inkişafı ilə paralel, bir neçə dəfə artmışdır.

Uşaq bağçaları və ümumi təhsil məktəbləri

Konsepsiyada qeyd olunduğu kimi, işləyən valideynlər üçün uşaqlara nəzarəti asanlaşdırmağı nəzərdə tutan "Ailə öhdəlikləri olan işçilər barədə" Beynəlxalq Əmək Təşkilatı (BƏT) Konvensiyasının təsdiq edilməsi ilə əlaqədar uşaq bağçalarının sayının artırılması vacibdir. Azyaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunması səviyyəsini orta Avropa göstəriciləri səviyyəsinə çatdırmaq məqsəd olaraq qoyulur. Bu məqsədlə, dövlət uşaq bağçalarının şəbəkəsinin artırılması və şəraitlərinin yaxşılaşdırılması və dövlət uşaq bağçalarının təchizatı ilə yanaşı, həmçinin müxtəlif sahibkarlıq formalarında (bələdiyyə, icma, fərdi, ailə uşaq bağçaları) məktəbəqədər tədris müəssisələrinin yaradılması və fəaliyyəti üzrə tədbirlərin həyata keçirilməsi mümkündür.

Yuxarıda verilən cədvələ əsasən artıq birinci növbədə uşaq məktəbəqədər təlim müəssisələrində yerlərin iki dəfə artırılması və yenilərinin yaradılması işi aparılmalıdır. 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planına müvafiq olaraq Şəmkir şəhərində 8 nömrəli yasli-bağçanın tikintisi nəzərdə tutulmuşdur. Ümumtəhsil məktəblərinə gəldikdə isə 2014-2018-ci illərdə artıq mövcud olan və istismardan çıxmış məktəb binalarının (9 məktəbdən 8-i) yenidən qurulması daha aktualdır, yeni məktəblərin tikintisi üzrə əsas tədbirlər 2025-ci ildən sonrakı dövrə planlaşdırılır.

Konsepsiyaya əsasən, həmçinin məktəblərin inşaatı və tam təmiri üzrə işlər davam etdiriləcək, ümumi təhsil müəssisələr şəbəkələrinin təkmilləşdirilməsi sahəsində xüsusi proqramlar işlənib hazırlanacaq və həyata keçiriləcəkdir. 12-illik ümumtəhsil sisteminə keçid planlaşdırılır.

Baş planda, məktəbəqədər və ümumtəhsil sisteminin, yeni uşaq bağçaları və ümumi təhsil müəssisələrinin tikintisi hesabına inkişaf etdirilməsi nəzərdə tutulub. Təhsil obyektlərinin yeni tikinti sahələrində yerləşdirilməsi və yenidən qurma işləri imkan radiusları normativlərini nəzərə alaraq həyata keçirilməlidir.

Uşaqların əlavə təhsil müəssisələrin

AzDTN 2.6-1 normativlərində məktəblilərin ümumi sayının 10%-nin məktəbdənkənar təhsil müəssisələri ilə təmin olunması nəzərdə tutulmuşdur. Eləcə də, uşaq-gənclər idman məktəbi – 2.3%, uşaq incəsənət məktəbi və ya musiqi, bədii, xoreoqrafiya məktəbi – 2.7%. Göstərilən minimum normativ köhnəlmiş hesab oluna bilər, belə ki, Azərbaycan Respublikasında məktəbdənkənar müəssisələrin xidməti ilə məktəb yaşlı vətəndaşların hər beş nəfərindən bir nəfəri artıq təmin olunmuşdur.

Bu günə məktəbdənkənar təhsil sisteminə 1036 uşaq (şagirdlərin ümumi sayının 15%-i) cəlb edilib, o cümlədən 214 uşaq UGİM-də (3%), 238 uşaq şahmat məktəbində (3,4%), 584 uşaq (8,4%) digər məktəbdənkənar təhsil müəssisələrində (ekologiya yönümlü, texniki yaradıcılıq və bədii yaradıcılıq) məşğul olur. Beləliklə, müvafiq xidmətlərə olan tələblərin hesablanması üçün ikiqat normadan istifadə etmək daha məqsədəuyğundur, yəni məktəb yaşlı şəxslərin sayının 20%-dən az olmayaraq, eləcə də uşaq-gənc idman məktəbləri – 4.4%. İnsan potensialının keyfiyyətinin yaxşılaşdırılması məsələlərinə ciddi yanaşsaq birinci növbədə və hesablama dövründə normativlər artmalıdır. Bunun gerçəkləşməsi qaçılmazdır, belə ki, ölkədə insan potensialının inkişafına böyük diqqət ayrılır. Orta hesabla, bir ildə təxminən məktəblilərin 0.5%-nin müvafiq xidmətlərlə əhatə edilməsi normal hesab oluna bilər. Beləliklə, 2025-ci ildə bütün növ məktəbdənkənar təhsil ilə (eləcə də idman məktəbləri – 5,7%) uşaqların 26%-nin, 2035-ci ildə isə 31%-nin (eləcə də idman məktəbləri – 6,8%) təmin olunması tələb olunur.

Hal-hazırda yalnız Sağ sahildəki mədəniyyət və idman müəssisələrində yerləşən uşaqlar üçün 5 əlavə təhsil müəssisəsinin *(1-i uyğunlaşdırılmış binada yerləşir)* mövcud olması ilə əlaqədar olaraq Baş Planda şəhərin Sol sahilində yeni tikinti ərazisində, həmçinin respublika əhəmiyyətli avtomobil yolu boyunca salınmış yeni mikrorayonlarda məktəbdənkənar təlim müəssisələrinin tikintisi məqsədəuyğun hesab edilir. Şəmkir şəhəri İcra Hakimiyyətinin məlumatlarına əsasən, Baş Planın birinci növbə dövrü üçün uşaq musiqi məktəbinin tikintisi artıq planlaşdırılıb. Bundan başqa, layihədə yeni tikinti meydançalarında əlavə obyektlərin yerləşdirilməsi hesabına məktəbdənkənar təlimin gələcəkdə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur

İlk peşə-ixtisas təhsili

Şəmkir şəhərində iqtisadi inkişafın aktivləşdirilməsi iqtisadi fəaliyyətin müxtəlif sahələri üçün peşəkar kadrlara olan ehtiyacın artması ilə müşayiət olunacaq və sənaye, nəqliyyat, səhiyyə, əhaliyə xidmət və digər sahələrdə peşəkar işçi və mütəxəssislərə olan yüksək tələbata gətirib çıxaracaqdır.

Müvafiq qaydada peşə ixtisası təhsili də Şəmkirdə inkişaf etdirilməlidir. Kənd təsərrüfatının, həmçinin, kənd təsərrüfatı məhsullarının emalı sənayesinin inkişafı, sənaye müəssisələrində innovativ texnologiyaların tətbiqi, yeni müasir müəssisələrin yaradılması müvafiq peşə ixtisası istiqamətlərinin də inkişafını şərtləndirəcək, belə ki, yeni ixtisaslar və kadrların hazırlanmasının yeni istiqamətləri meydana çıxacaqdır.

AzDTN 2.6-1 normativlərində ilk peşə-ixtisas təhsil müəssisələri üçün təhsil sahələrinin hesablama normaları nəzərdə tutulmamışdır. Təhsilin ixtisas sisteminin əsrlərdir davamlı fəaliyyətdə olan bazar sistemi şəraitində formalaşdığı bir çox inkişaf etmiş ölkələr üçün hesablama normaları məsələsi bir qayda olaraq aktual deyildir. Yuxarıdakı cədvəldə verilmiş hesablamalar ilk peşə və orta peşə təhsilində hər min nəfərə 59 yer norması ilə aparılmışdır. Əlbəttə ki, bu təqribi rəqəmdir və Azərbaycan Respublikası üzrə ilk və orta peşə təhsili müəssisələrində təhsil alanların sayına əsaslanmışdır, nəzərə almaq lazımdır ki, son göstəricilər tələbələrin əsasən paytaxt ərazisində cəmləşməsi hesabına 40% düşmüşdür. Bu qiymətləndirmə regionda ehtiyac olan yerlərin və Bakıda yerləşən mərkəzi müəssisələrdə və ya xarici təhsil ocaqlarında təhsil alacaq gələcək mütəxəssislərin müəyyənləşdirilməsi üçün kifayət deyil. Ona görə də ilk peşə-ixtisas təhsilinin təşkilində təyinedici rolu müvafiq dövlət proqramları daşımalıdır. Baş plan fəaliyyət göstərən peşə liseyinin şəhər mərkəzində (keçmiş konyak zavodu ərazisində) yeni binasının tikintisi ilə 100 yer artırılaraq genişləndirilməsini nəzərdə tutur.

Yuxarıdakı cədvəldə verilmiş hesablamalar ilk peşə və orta peşə təhsilində hər min nəfərə 59 yer norması ilə aparılmışdır. Əlbəttə ki, bu təqribi rəqəmdir və Azərbaycan Respublikası üzrə ilk və orta peşə təhsili müəssisələrində təhsil alanların sayına əsaslanmışdır, nəzərə almaq lazımdır ki, son göstəricilər tələbələrin əsasən paytaxt ərazisində cəmləşməsi hesabına 40% düşmüşdür. Bu qiymətləndirmə regionda ehtiyac olan yerlərin və Bakıda yerləşən mərkəzi müəssisələrdə və ya xarici təhsil ocaqlarında təhsil alacaq gələcək mütəxəssislərin müəyyənləşdirilməsi üçün kifayət deyil. Ona görə də ilk peşə-ixtisas təhsilinin təşkilində təyinedici rolu müvafiq dövlət proqramları daşımalıdır. Baş plan fəaliyyət göstərən peşə liseyinin şəhər mərkəzində (keçmiş konyak zavodu ərazisində) yeni binasının tikintisi ilə 100 yer artırılaraq genişləndirilməsini nəzərdə tutur.

Səhiyyə müəssisələrinə tələbatın hesablanması

Son on il ərzində Azərbaycan Respublikasında səhiyyənin inkişafına çox böyük diqqət ayrılmışdır, mövcud bir sıra səhiyyə müəssisələri əsaslı təmir olunmuş, yeni müəssisələr inşa edilmiş və hamısı müasir texnika və avadanlıqlarla təchiz olunmuşdurlar.

Səhiyyənin əsas inkişaf istiqamətləri "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilmişdir. Konsepsiya, vətəndaşların rahat gündəlik həyatı üçün mühüm olan səhiyyə xidmətləri ilə əhalinin təmin olunmasını məqsəd olaraq müəyyənləşdirmişdir. Burada göstərilir ki, "səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün səhiyyə təşkilatlarının inşası, əsaslı təmiri və yenidən qurulması həyata keçiriləcək, müasir tibbi avadanlıqlarla təmin olunacaq, eyni zamanda plan üzrə səhiyyə islahatları davam etdiriləcəkdir". İslahatların əsas məqsədi kimi "stasionar yardımın göstərilməsinə əsaslanan tibbin, ilkin həkim-sanitar yardımının üstünlük təşkil etdiyi tibb sahəsi ilə əvəzlənməsi nəzərdə tutulmuş, ailə həkimi təcrübəsinin genişləndirilməsi üçün müvafiq şərait yaradılmışdır". Eyni zamanda ambulator-poliklinika xidmətlərinin təkmilləşdirilməsi məqsədi də qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Hökumətinin başa çatan demoqrafik keçid şəraitində vaxtı vaxtında ana və körpələrin səhhətinin yaxşılaşdırılması, uşaqlar və yeniyetmələr arasında profilaktik müayinənin aparılması və dispanserə yerləşdirilməsi üzrə işlərin gücləndirilməsi və uşaq əlilliyinin ilkin profilaktikası və müalicəsi vəzifələri qoyulmuşdur.

Azərbaycan Respublikası şəraitində müasir səhiyyə sistemin təşkilinin məntiqi paytaxtın tibb müəssisələrində daha mürəkkəb və yüksək texnoloji müalicə üsullarını toplamağa imkan verir.

Stasionar tibb müəssisələrinin stasionar fonduna və tibbi personala olan perspektiv tələblərin hesabatı Səhiyyə Nazirliyinin 31 Oktyabr 2008-ci il 151 saylı "Azərbaycanda əhalinin tibbi kadrlar və xəstəxana çarpayıları ilə təminatının normativlərinin təsdiq edilməsi barədə" əmrinin normativlərinə uyğun olaraq həyata keçirilir. Hesablama, mümkün normativ göstəricilərdən maksimum şəkildə istifadəsi yolu ilə həyata keçirilmişdir: 2-ci səviyyəli müəssisələrdə (şəhər, rayon, qəsəbə xəstəxanaları) hər min nəfərə dörd çarpayı və respublika səviyyəli müəssisələrdə hər min nəfərə 0.92 çarpayı. Tibbi personala olan tələbatın qiymətləndirilməsi ilkin tibbi yardım göstərən (1-ci səviyyəli) tibb müəssisələri üçün və eləcə də maksimal yüksək normativ göstəricilərini nəzərə alaraq həyata keçirilir. Normativ göstəricilərin bu cür seçilməsi, şəhər tibb müəssisələri təkcə şəhər əhalisinə deyil, həm də ora yaxın yaşayan əhaliyə də (onların xidmət sahəsi layihələndirilən əraziyə nisbətən daha genişdir) tibbi yardım göstərilməsi ilə izah olunur. Ambulator-poliklinik müəssisələrin gücünün qiymətləndirilməsi və hesabat müddəti ilk növbədə bir növbə ərzində 1000 nəfər sakindən 16-18 nəfərin yoxlanışa gəlişinə əsasən formalaşır. Bu göstərici, Səhiyyə Nazirliyinin 2008-ci il 31 Oktyabr 151 saylı tibbi heyətin ştat normativləri əmrinə əsasən müəyyənləşdirilmişdir.

Qüvvədə olan normativə əsasən mövcud yataq fondu Şəmkir əhalisini hesablama dövrü üçün lazım olan həcmdə təmin etməyə imkan verir. Bununla belə şəhər əhalisinin proqnozlaşdırılan əsaslı artımı və səhiyyə müəssisələrinin maddi-texniki bazasının daimi olaraq yenilənməsi və mükəmməlləşdirilməsi tələbatından irəli gələrək Baş planda yeni tikili meydançasının Şimal hissəsində Şəmkir Mərkəzi Rayon Xəstəxanasının tikintisi üçün yer ayrılması nəzərdə tutulmuşdur.

Bu ərazi həmçinin əlavə idarə stasionar səhiyyə müəssisələrinin yerləşdirilməsi üçün də istifadə oluna bilər.

Bundan savayı, yeni tikinti meydançalarında normativ radiusların mümkünlüyünü təmin etmək məqsədilə ambulator-poliklnik müəssisələrin yaradılması tələb olunacaqdır

Əhalinin sosial müdafiəsi müəssisələrinə olan tələbatların hesablanması

Əhalinin sosial müdafiəsinin inkişafı istiqamətləri "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilmişdir:

- yetkinlik yaşına çatmayan kimsəsiz uşaqların profilaktikası üzrə bərpa mərkəzlərin sayının artırılması;
- məhdud sağlamlıq imkanları olan uşaqlar üçün icma başlanğıclarında bərpa şəbəkəsinin genişləndirilməsi
- ana və uşaqların sosial mühafizə və müdafiəsinin gücləndirilməsi;
- məişət zorakılığına məruz qalan qadınlar üçün yardım və sığınacaq mərkəzinin, "Ailəvi psixoloq" institutunun yaradılması,
- sosial təyinatlı mənzillərin (evlərin) sayının artırılması və bu mənzillərdə yaşayan aztəminatlı əhalinin hüquqi imkanlarının təmin olunması
- gənclər və gənc ailələr üçün sosial ipoteka şərtlərinin yaxşılaşdırılması
- məhdud sağlamlıq imkanları olan gənclər üçün istirahət və təhsil mərkəzlərinin yaradılması

Qeyd etmək lazımdır ki, əhalinin sosial müdafiəsi təşkilatlarına münasib olaraq AzDTN 2.6-1 normativ göstəriciləri də lazımdan artiq olaraq nəzərdən keçirilməlidir. Praktika göstərir ki, Azərbaycanda internat tipli müəssisələrdə yer tələbi normativlərlə hesablanmış göstəricilərə nisbətən bir neçə dəfə az olacaqdır. Hal-hazırda Şəmkir tam funksiyalı sosial müdafiə müəssisələri yaratmaq üçün yetərli sayda əhali sayına malik deyildir. Şəhərdə Şəmkir rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi, həmçinin "Daun xəstəliyi əleyhinə stansiya" fəaliyyət göstərir. Bununla belə, böyüklüyünə görə ölkənin 8-ci şəhəri olmaqla Şəmkir gələcəkdə hər müəssisə növündən birinə malik ola bilər və onların tutumu şəhər əhalisinin və qonşu inzibati rayonların əhalisinin tələbatları ilə müəyyənləşdirilə bilər.

AzDTN 2.6-1 qaydalarında həmçinin 60 yaş və yuxarı tənha qocalar, əlil arabasına təhkim edilmiş xəstələr və onların ailələrinin yaşayış evləri və mənzil qrupları ilə təmin olunmaları barədə normativlər təqdim olunmuşdur. Lakin, həqiqi tələbatların müəyyənləşdirilməsi yalnız xüsusi mənzilə ehtiyacı olanları cari hesabatı yolu ilə mümkündür. Qeyd etmək lazımdır ki, göstərilən problem, mövcud mənzillərin qocalar və əlillərə verilərək onların ehtiyaclarının ödənilməsi yolu ilə əhəmiyyətli dərəcədə həll olunur.

Bununla yanaşı layihələndirmə zamanı əlillərin sosial, nəqliyyat və mühəndis infrastrukturu obyektlərinə, rabitə və informasiya vasitələrinə maneəsiz çıxış imkanlarının təşkilinin nəzərdə tutulması vacibdir. Layihə həlləri əlillər də daxil olmaqla əhalinin bütün təbəqələrinin fiziki imkanlarını nəzərə almalıdır. Əhalinin sosial müdafiəsi dövlət proqramlarına əsasən inşa edilən çoxmənzilli yaşayış binalarının artıq tikinti mərhələsində mənzillərin bir hissəsinin qocalar və əlil arabalarına təhkim edilmiş əlillərin rahat yaşaması üçün pandus və digər mexanizmlərlə təchiz olunması nəzərdə tutulmalıdır.

Mədəniyyət müəssisələrinə olan tələbatın hesablaması

Azərbaycan Respublikasının dövlət mədəni siyasətinin prioritetli strateji məqsədlərinə aiddir:

- mədəni və tarixi irsin qorunması;
- incəsənətin dəstəklənməsi;
- mədəniyyətin hüquqi, elmi, informativ inkişafı;
- kadr hazırlığı və gənc istedadların dəstəklənməsi;
- milli kinematoqrafiyanın yenidən dirçəldilməsi və inkişafı;

- mədəni turizm infrastrukturunun yaradılması və inkişafı;
- kitab nəşriyyatlarının inkişafı.

AzDTN 2.6-1 normativləri tərəfindən əhalinin təminatı hesablama səviyyəsi min nəfər sakin üçün nəzərdə tutulur: kinoteatrlarda 25-35 yer, teatrlarda 5-8 yer, konsert zallarında 3,5 – 5 yer. Bu tip müəssisələrə normativ tələbatlar yuxarıdakı cədvəllərdə, kinoteatrlar üçün minimal normada, teatr və konsert zalları üçün isə müvafiq olaraq min nəfərə 6 və 4 yer olaraq nəzərdə tutulub.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təqdim olunmuş 2014-2018-ci illərində inşası, təmiri və yenidənqurma işləri görüləcək obyektlərin siyahısına uyğun olaraq Baş planın birinci mərhələsində aşağıdakı tədbirlərin həyata keçirilməsi planlaşdırılır:

- Mərkəzi kitabxana sisteminin yeni binasının tikintisi;
- Tarixi-diyarşünaslıq muzeyinin binasının əsaslı təmiri;

Layihənin hesablama dövrü üçün istirahət müəssisələrinin (mədəniyyət evləri və kitabxanalar) yeni tikinti meydançalarında növbəti inkişafına ehtiyac vardır. Baş planın təkliflərinə əsasən şəhər ərazisinin əlverişli inkişafı şərti altında və əhalinin sayının planda nəzərdə tutulan saya çatması ilə Qərb meydançasının ictimai mərkəzinin formalaşdırılması üçün hesablama dövrünün sonuna qədər burada mədəni-istirahət kompleksinin, konsert zalı, kinoteatr, kitabxana və s. tikintisi mümkündür.

Layihələndirmənin nəzərdə tutulan hesablama müddətində yeni tikinti sahələrində asudə vaxt məkanlarının (mədəniyyət evləri və kitabxanalar) sonrakı inkişafı vacibdir. Baş planın təkliflərinə uyğun olaraq şəhər ərazisinin əlverişli inkişafı şəraitində və layihədə qəbul olunmuş əhali sayına nailiyyətdə yeni inşaatın Qərb sahəsində ictimai mərkəzinin yaradılması məqsədilə hesablama dövrünün sonuna yaxın konsert zalının yaradılması mümkündür.

Bədən tərbiyəsi – sağlamlıq və idman mərkəzlərinə olan tələbatın hesablanması

Bədən tərbiyəsi və idman insana təkmilləşməyə kömək edir, insanlarda sağlamlığın yaxşılaşdırılmasına əmək resurslarının effektiv fəaliyyətinə səbəb olur ki, bu da nəticədə ölkənin ümumi iqtisadi inkişafına təsir edir. Azərbaycanda idman sahəsi sosial sahənin çox mühüm sahəsi kimi durmadan inkişaf edir və gələcəkdə ona daha çox diqqət ayrılacaq.

Hal-hazırda Şəmkir şəhərində idman infrastrukturu yenilənir və müasirləşdirilir, o cümlədən, böyük Şəmkir Olimpiya idman kompleksinin tikintisi həyata keçirilmişdir. Son illər ərazində Şəmkirdə ən mühüm ictimai və idman hadisələrindən biri Heydər Əliyev mərkəzində təşkil olunan məşhur Azərbaycan qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr olunmuş beynəlxalq şahmat turnirinin Shamkir Chess keçirilməsi olmuşdur.

Əhalinin əksər hissəsinin iş qabiliyyətli uşaq-yeniyetmə və gənc yaş qruplarında planlaşdırılan əhalinin sağlamlığının təmin olunması məqsədilə davamlı fiziki sağlamlıq və idman məşğələlərinin xüsusi əhəmiyyətini nəzərə alaraq binaların və onların yerləşdirilməsi üçün ərazilərin növlərinin normativ səviyyə tələblərinin hesablanması AzDTN 2.6-1 normativinin maksimal göstəricisini nəzərə alaraq hesablama aparılmışdır.

Süni buz örtüyü olan universal idman-tamaşa zalları AzDTN 2.6–1 müvafiq olaraq əhalisinin sayı 100 mindən çox olan şəhərlərdə yaradılması nəzərdə tutulur, Şəmkir bu şəhərlər qrupuna daxil olmasa belə zalların yeni tikintinin sol sahil meydançasında turizm kompleksi tərkibində yaradılması mümkündür.

Baş planda əhalinin müxtəlif yaş qruplarını əhatə edən yeni idman tikililərinin hesabına müxtəlif və əlçatan idman müəssisələri sistemi ilə təchiz olunması nəzərdə tutulur. Yeni tikinti meydançalarında və ya onlara birbaşa yaxın ərazilərdə idman tikililəri kompleksinin yerləşdirilməsi lazımdır (idman zalları, səth qurğuları və üzmə hovuzları). Yeni tikintinin uzaq meydançasının (Şiştəpə qəsəbəsi yaxınlığında) uyğunluğu nöqteyi-nəzərdən burada bədən tərbiyəsi-idman tikililərinin yerləşdirilməsi məqsədə uyğundur. Səth qurğuları və idman zallarını həmçinin ümumtəhsil məktəblərinin nəzdində də yaratmaq lazımdır.

Pərakəndə ticarət və ictimai iaşə müəssisələrinə olan tələbatın hesablanması

AzDTN 2.6-1 normativləri, şəhər ərazisində əhalinin ticarət mağazaları ilə təminatının norması əhalinin hər min nəfərinə 280 m^2 ticarət sahəsi hesablanmış səviyyəsi min nəfər sıxlığı olan ərazilərdə 280 m^2, ictimai iaşə müəssisələri üçün isə min nəfərə 40 oturacaq yeri nəzərdə tutulub. Kənd təsərrüfatı məhsullarının əsas həcminin istehsalının əhaliyə məxsus təsərrüfatda istehsal olunduğunu və pərakəndə və kiçik topdan satış ticarətinin yaxşılaşdırılmasına olan ehtiyacı nəzərə alsaq yuxarıda göstərilən ticarət komplekslərinin hesablaması AzDTN 2.6-1 normativlərinin maksimal göstəricilərinə əsaslanaraq təşkil olunmuşdur (min nəfərə 40 m^2 ticarət sahəsi). Bazarın ixtisaslaşmasından asılı olaraq ticarət kompleksdən ümumi sahəsinin hər bir kvadrat metrinə 7-14 m^2 düşməlidir (daha doğrusu bazar üçün ayrılan torpaq sahəsi). Ticarət komplekslərinin ərazisi hər 1 m^2 ticarət sahəsinə 7-14 m^2-dək torpaq sahəsi ayrılmaqla müəyyən edilir.

Baş planda yeni inşaat ərazilərində ticarət mərkəzləri və restoranların yerləşdirilməsi nəzərdə tutulub. Qərb sahəsində (Şiştəpə) layihə tərəfindən ticarət kompleksinin əlavə olaraq yerləşdirilməsi təklif olunur.

Hesablama dövrü ərzində Şəmkir şəhərində yerləşdirilməsi Baş plan tərəfindən təklif edilən nisbətən iri həcmli xidmət obyektlərinin siyahısı aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 10.22

Baş planı tərəfindən yerləşdirilməsi hesablama dövründə nəzərdə tutulan ən iri xidmət obyektlərinin siyahısı

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
1	**Təhsil müəssisələri**						
1.1	8№-li uşaq bağçası	Mövcud tikilib-abadlaşdırılmış ərazidə, Şəmkir ş, İsmət Qayıbov küç.	1	Təxminən 250	İsmət Qayıbov küç.	m/y	Tikinti gedir
1.2	Uşaq bağçası	1 №-li yeni tikinti meydançasında	1	200	1№-li meydança	0,7	1-ci növbədə yeni tikinti
1.3	Uşaq bağçası	4 №-li yeni tikinti meydançasında	1	200	4 №-li meydança, Olimp	0,7	1-ci növbədə yeni tikinti
1.4	Uşaq bağçası	4 №-li yeni tikinti meydançasında	1	250	4 №-li meydança, Olimp	1,0	1-ci növbədə yeni tikinti
1.5	Uşaq bağçası	5 №-li yeni tikinti meydançasında	1	250	5 №-li meydança. Orta mərtəbəli yeni tikinti sahə-si, Heydər Əliyev prospektindən qərbə doğru	0,9	Yeni tikinti
1.6	Uşaq bağçası	5 №-li yeni tikinti meydançasında	1	200	5 №-li meydança. Orta mərtəbəli yeni tikinti	0,7	Yeni tikinti

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
					sahəsi, Heydər Əliyev prospek-tindən qərbə doğru		
1.7	Uşaq bağçası	6 №-li yeni tikinti meydançasında	1	200	6 №-li meydança. Sol sahildə yeni tikinti sahəsi	0,7	Yeni tikinti
1.8	Uşaq bağçası	8 №-li yeni tikinti meydançasında	1	200	Cənub,8 №-li meydançadan şərqə doğru	0,8	Yeni tikinti
1.9	Uşaq bağçası	11 №-li yeni tikinti meydança-sında	1	200	11 №-li meydan-çanın qərbində	0,7	Yeni tikinti
1.10	Uşaq bağçası	9 №-li yeni tikinti meydançasında	1	200	Uzaq, Şiştəpə kəndinin yaxınlığında orta mərtəbəli tikinti sahəsi	0,7	Yeni tikinti
1.11	Uşaq bağçası	9 №-li yeni tikinti meydançasında	1	200	Uzaq, Şiştəpə kəndinin yaxınlığında orta mərtəbəli tikinti sahəsi	0,7	Yeni tikinti
1.12	Uşaq bağçası	1 №-li yeni tikinti meydançasında	1	250	1 №-li meydança	0,8	Yeni tikinti
1.13	Uşaq bağçası	Şəhərin cənub hissəsi, 1 May küçəsi	1	250	13 №-li meydançanın qərbində, tikilən ərazidə	1,0	Yeni tikinti
1.14	Ümumtəhsil məktəbi	4 №-li yeni tikinti meydançasında	1	640	№4 Olimp	1,6	1-ci növbədə yeni tikinti
1.15	Ümumtəhsil məktəbi	5 №-li yeni tikinti meydançasında	1	1000	5 №-li meydança, Heydər Əliyev prospektinin qərbindən qərbə doğru orta mərtəbəli tikinti sahəsi	1,5	Yeni tikinti
1.16	Ümumtəhsil məktəbi	8 №-li yeni tikinti meydançasında	1	300	Cənub, 8 №-li meydançadan şərqə doğru	1,0	Yeni tikinti
1.17	Ümumtəhsil məktəbi	6 №-li yeni tikinti meydançasında	1	640	6 №-li meydança, sol sahildə orta mərtəbəli tikinti sahəsi	1,6	Yeni tikinti
1.18	Ümumtəhsil	11 №-li yeni	1	640	11 №-li	1,6	Yeni tikinti

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
	məktəbi	tikinti meydançasında			meydançadan qərbə doğru		
1.19	Ümumtəhsil məktəbi	9 №-li yeni tikinti meydançasında	1	640	Uzaq, Şiştəpə kəndinin yaxınlığında orta mərtəbəli tikinti sahəsi	1,7	Yeni tikinti
1.20	Məktəbdənkənar təhsil müəssisələri	Mövcud tikilib-abadlaşdırılmış ərazidə	1	200	Şəhər mərkəzi	10	Uşaq musiqi məktəbin yeni binasının tikintisi
1.21	Məktəbdənkənar təhsil müəssisələri	4 №-li yeni tikinti meydançasında	1	200	4 №-li meydança, Olimp	1,2	Yeni tikinti
1.22	Məktəbdənkənar təhsil müəssisələri	6 №-li yeni tikinti meydançasında	1	200	6 №-li meydança, sol sahildə orta mərtəbəli tikinti sahəsi	0,7	Yeni tikinti
1.23	İlk peşə-ixtisas təhsil müəssisələri	Heydər Əliyev pr.	1	100 yerli korpus	Keçmiş konyak zavodunun meydançası	1,4	Yeni binanın tikintisi (renovasiyası) hesabına mövcud peşə-ixtisas liseyinin genişləndirilməsi
2	**Səhiyyə müəssisələri**						
2.1	Şəmkir Rayon Mərkəzi Xəstəxanası (ŞRMX)	5 №-li yeni tikinti meydançasında Şəmkir ş., Şıxəli Qurbanov küç.4	1	m/y	Şəhərin sağ sahili, respublika əhəmiyyətli avtomobil magistralının cənubunda	9,5	ŞRMX-nin yeni korpusunun tikintisi (1-ci növbə)
3	**Mədəniyyət müəssisələri**						
3.1	Şəhər mədəniyyət evi	9 №-li yeni tikinti meydançasında	1	500	Uzaq, Şiştəpə kəndinin yaxınlığında orta mərtəbəli tikinti sahəsi	0,7	Yeni tikinti
3.2	Kinoteatr/Konsert zalı	6 №-li yeni tikinti meydançasında	1	300/ 700	6 №-li meydança, sol sahildə orta mənzilli tikinti sahəsi	1,1	Yeni mədəniyyət-əyləncə kompleksinin (konsert zalı, kinoteatr,

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
							kitabxana daxil olmaqla) tikintisi
3.3	Kütləvi kitabxana	10 №-li yeni tikinti meydan-çasında	1	200 m^2	10 №-li meydança, Şiştəpə kəndinin yaxınlığında azmərtəbəli tikinti sahəsi	0,5	Obyekt ictimai binanın kürsülü mərtəbəsində quraşdırılmış yer (otaq, mənzil) ola bilər
3.4	Kütləvi kitabxana	6 №-li yeni tikinti meydançasında	1	200 m^2	6 №-li meydança Sol sahildə azmərtəbəli tikinti sahəsi	0,5	Yeni tikinti
3.5	Kütləvi kitabxana	4 №-li yeni tikinti meydançasında	1	200 m^2	№4 meydança, Olimp.	0,5	Yeni tikinti ***(****obyekt ictimai binanın kürsülü mərtəbəsində quraşdırılmış yer (otaq, mənzil) ola bilər****)***
3.6	Kütləvi kitabxana	Şəhər mərkəzində	1	300 min m^2-dən az olmayaraq	Şəhər mərkəzi	0,5	1-ci növbədə Mərkəzi kitabxana sistemin yeni binasının tikintisi
4	**İdman qurğuları**						
4.1	Universal idman-əyləncə zalı (süni buz meydançası ilə)	6 №-li yeni tikinti meydançasında	1	1,4 min m^2	Şəhərin sol sahil hissəsində, turizm kompleksinin tərkibində, 6 №-li meydançadan qərbə doğru	1,0	Yeni tikinti
4.2	İdman zalı	5 №-li yeni tikinti meydançasında	1	0,7 min m^2	5 №-li meydança, cənub hissəsi	0,8	Yeni tikinti
4.3	İdman zalı	9 №-li yeni tikinti	1	0,7 min	Şiştəpə	0,8	Yeni tikinti

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
		meydançasında		m^2	kəndinin yaxınlığında, orta mərtəbəli tikinti sahəsi		
4.4	İdman zalı	11 №-li yeni tikinti meydançasında	1	0,7 min m^2	11 №-li meydan-çanın şimalında	0,9	Yeni tikinti
4.5	Səthi qurğu (stadion)	mövcud tikilib-abadlaşdırılmış ərazidə - şəhər mərkəzində stadionun yenidən qurulması	1	Tapşırığa görə	Şəhər mərkəzi	1,0	1-ci növbədə yenidən qurma
4.6	Səthi qurğu	6 №-li yeni tikinti meydançasında	1	9 000 m^2-ə qədər	6 №-li meydança Sol sahildə orta mərtəbəli tikinti sahəsi, bulvar	1,0	
4.7	Səthi qurğu	9 №-li yeni tikinti meydançasında	1	5000 m^2-ə qədər	Uzaq, orta mərtəbəli bina tikintisi ərazi, Şiştəpə kəndinin yaxınlığında, məktəbin yanında	0,6	Yeni tikinti
4.8	Üzgüçülük hovuzu	6 №-li yeni tikinti meydançasında	1	600 m^2-lik suyun güzgüsü	6 №-li meydança, turizm kompleksinin tərkibində, bulvar	1,5	Yeni tikinti
4.9	Üzgüçülük hovuzu	10 №-li yeni tikinti meydançasında	1	300 m^2-lik suyun güzgüsü	10 №-li meydança, Şiştəpə kəndinin yaxınlığında	0,6	Yeni tikinti
5	**Ticarət və ictimai iaşə müəssisələri**						
5.1	Bazar	10 №-li yeni tikinti meydançasında	1	1000 m^2	10 №-li meydança, Şiştəpə kəndinin yaxınlığında	0,3	Yeni tikinti
5.2	Ticarət mərkəzi	1 №-li yeni tikinti meydançasında	1	3000 m^2	1 №-li meydança	0,5	Yeni tikinti
5.3	Ticarət mərkəzi	4 №-li yeni tikinti meydançasında	1	4500 m^2	4 №-li meydança, Olimp	1	Yeni tikinti

№	Adı	Yerləşdiyi ərazi	Obyektlərin sayı	Tutum, yer	Tikinti meydançası	Tələb olunan sahə, ha	Yeni tikinti/əsaslı təmir
5.4	Ticarət mərkəzi	5 №-li yeni tikinti meydançasında	1	4500 m^2	5 №-li meydança	1	Yeni tikinti
5.5	Ticarət mərkəzi	10 №-li yeni tikinti meydan-çasında	1	4500 m^2	10 №-li meydança, Şiştəpə kəndinin yaxınlığında	0,7	Yeni tikinti
5.6	Restoran	5 №-li yeni tikinti meydançasında	1	150	Heydər Əliyev pr., 5 №-li meydança, şərq hissəsi	0,5	Yeni tikinti
5.7	Restoran	6 №-li yeni tikinti meydançasında	1	200	6 №-li meydança, bulvar	0,5	Yeni tikinti
5.8	Restoran	10 №-li yeni tikinti meydançasında	1	100	10 №-li meydança, Şiştəpə kəndinin yaxınlığında	0,5	Yeni tikinti
5.9	Restoran	11 №-li yeni tikinti meydançasında	1	200	11 №-li meydança, rekreasiya zonasında	0,5	Yeni tikinti
5.10	Restoran	Köhnə stadionun renovasiya meydançasında	1	200	Şəhər mərkəzi, köhnə stadionun yanı	0,5	Yeni tikinti
6	**Digər obyektlər**						
6.1	Şadlıq sarayı	4 №-li yeni tikinti meydançasında	1	500 nəfər	4 №-li yeni tikinti meydançası , cənub hissəsi	1	Yeni tikinti
6.2	Şadlıq sarayı	6 №-li yeni tikinti meydançasında	1	200 nəfər	Cavanşir küç.	0,6	Yeni tikinti

Mənbə: Cədvəl müəllif hesablamaları nəticəsində tərtib edilib. 2015 il.

10.4. Yaşıllaşdırma

Şəhər ərazisinin yaşıllaşdırma sistemi – yaşıllaşdırılmış şəhər ərazilərinin şəhərin memarlıq-planlaşdırma təşkili və onun sonrakı inkişaf planı ilə müəyyənləşdirilən, şəhərkənarı yaşıllıqlarla əlaqəni nəzərdə tutan bir-biri ilə əlaqəli, müntəzəm yerləşdirilməsidir.

Şəhərdaxili yaşıllaşdırma sisteminə ümumi istifadədə və məhdud istifadədə olan ərazilərin, həmçinin xüsusi təyinatlı ərazilərin yaşıllaşdırılması daxildir.

Ümumi istifadədə olan ərazilərın yaşıllaşdırılmasına parklar, bağlar, bulvarlar aiddir. Şəmkir şəhərinin əsas parkları: Heydər Əliyev Parkı, Xaqani Ibrahimli Parkı, Istiqlal Parkı, II Dünya Müharibəsi Memorial Parkı və s.

Şəhər ərazisində ümumi istifadə üçün yaşıllıqlar qeyri-bərabər paylanmışdır. Onların əsas hissəsi şəhərin mərkəzi hissəsində mərkəzi küçələr boyu yerləşmişdir: Heydər Əliyev prospekti, Səməd Vurğun, Həzi Aslanov, Nizami küçələri. Kənar rayonların yaşayış məhəllələri bu cür ümumi istifadə üçün yaşıllıqlarla təmin olunmayıblar.

Bu gün üçün Şəmkir şəhərində ümumi istifadə üçün yaşıllıq sahələri 22 ha və ya adambaşı 5,3 m^2 təşkil edir. Bu göstərici AzDTN 2.6-1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması" tərəfindən nəzərdə tutulan adambaşı 8 m2 normasına uyğun deyil.

Şəhərin yaşıllaşdırma sistemində həmçinin məhdud istifadəyə malik yaşıllıqlar var, bura inzibati binaların, məktəblərin, uşaq bağçaları ətrafında, həmçinin fərdi yaşayış evlərinin ətrafındakı yaşıllıqlar aiddir. Fərdi evlərin həyətyanı sahələr və şəxsi bağlar hesabına şəhər kifayət qədər yaşıllaşmış görünür.

Xüsusi təyinatlı yaşıllıqlar 17.6 bölməsində ayrıca nəzərdən keçirilmişdir.

Yaşıllaşdırma sisteminin inkişafı

Ekoloji vəziyyətin yaxşılaşdırılmasının və münasib mühitin formalaşdırılmasının ən əhəmiyyətli istiqaməti şəhər yaşıllaşdırılma sisteminin, istirahət zonalarının, şəhər və şəhərkənarı rekreasiya zonalarının inkişafı hesab olunur.

Yaşıllıqların salınması sisteminin inkişafı üzrə əsas istiqamətlər aşağıdakılardır: təbii irsin qorunması, mövcud yaşıllıqların yenidən qurulması, müasir ekoloji tələblərə uyğun olaraq yeni yaşıllaşdırmanın formalaşdırılması

Şəhərdə ərazinin mərhələli abadlaşdırılması və yaşıllaşdırılması nəzərdə tutulmuşdur, yenidən tikilən meydançalarda şəhər bağçaların salınması, yeni bulvarların, həmçinin idman və rekreasiya zonalarının layihələndirilməsi planlaşdırılır. Bundan başqa Cəyirçayın sahillərinin gəzinti zonalarının yaradılması ilə abadlaşdırılması planlaşdırılır. Müxtəlif növ yaşıllaşma formalarından, o cümlədən, mənzərə kompozisiyalarından, kiçik heykəltaraşlıq formalarından, işıqlandırmadan istifadə tövsiyə olunur.

Əsas planlaşdırma həllərinə uyğun olaraq əhalinin yaşıllaşdırılmış ərazilərlə təminatı adambaşına 13,9 m^2 təşkil edəcək.

Gəncə şəhərində dekorativ bitkilər baöı vardır ki, bu da ərazinin yaşıllaşdırılması üçün əkin materiallarına olan ehtiyacı qismən ödəməyə imkan verir.

Bundan başqa layihə üzrə yaşıllaşdırma sisteminin inkişafı üzrə növbəti tədbirlər təklif olunur.

- Problemli sahələrin aşkara çıxarılması ilə şəhərin yaşıllıqlarının inventarizasiyası. Uyğun olmayan vəziyyətdə yerləşən mövcud yaşıllıqların yenidən quraşdırılmasının həyata keçirilməsi. Əkilmiş ağacların yenilənməsi və budanması.
- Şəhərin əsas nəqliyyat magistralları boyunca yaşıllaşdırmanın təşkil edilməsi və mövcud əkin sahələrinin qorunması.
- Şəmkir şəhərində yaşıllaşdırmanın vahid sxemin və proqramın hazırlanması, və rekreasiya zonalarının inkişafı.

10.5. Əhalinin kütləvi istirahətinin təşkili

Şəmkirdə əhalinin gündəlik istirahəti parklar vasitəsilə həyata keçirilir: Şəmkir şəhər istirahət parkı, "Xaqani" parkı, "20 Yanvar Şəhidləri" parkı, Şəhidlər xiyabanı, "Abidələr" parkı, "İstiqlal" parkı, "Kirxə ətrafı" istirahət parkı. Şəhərdə parkların ümumi sahəsi 27 ha-dan çoxdur. Rekreasiya məqsədilə Kür üzərində Şəmkir su anbarının sahilləri fəal istifadə olunur, burada həm fəal istirahət – balıq tutma, həm də passiv istirahət (çimərlik) yer tutur. Şəhər daxilində rekreasiya üçün istifadə oluna biləcək su hövzələri yoxdur.

Şəmkirin sol sahil hissəsində şəhər mərkəzinə çıxışı olan bulvarın salınması planlaşdırılır. Bulvar boyu ictimai, işgüzar və kommersiya təyinatlı obyektlər kompleksi, idman, istirahət, turizm obyektlərinin salınması nəzərdə tutulur. Yeni yaşayış rayonlarında ictimai binalar şəhər bağçaların və bulvarların ətrafında qruplaşacaq, rahat meydançalar və piyada gəzinti yerləri formalaşdıracaqlar.

Ərazinin dağətəyi relyefə malik olması burada xətti yaşıl dəhlizlərin – yaşıllaşmış və abadlaşmış məkanların (parklar, şəhər bağçaları, bulvar, idman və rekreasiya zonaları) yaradılmasına imkan verir. Yaşıllıq və idman obyektləri şəhərin bütün rayonlarında, yeni küçə və yollar boyu, mikrorayonların və məhəllələrin tərkibində yaradılacaqdır.

Cəyirçayın sol sahilində iri turizm-rekreasiya kompleksinin *(mehmanxana, restoranlar, istirahət parkları, əyləncə parkı, idman infrastrukturu və s.)* karyerdən cənuba doğru yüksəklik ərazidə düşərgənin tikintisi nəzərdə tutulmuşdur, həmçinin kempinqin. Şəhərin cənub dağlıq hissəsində turist bazasının yaradılması planlaşdırılır.

Şəmkirçayın sahilində Yeni Həyat kəndinin ətraflarında *(eksklavın ərazisində)* turizm-rekreasiya kompleksinin, "Orta Əsr Qədim Şəmkir Qala Şəhəri"ni ziyarət edən turistlərə xidmət etmək üçün aqrar-turizm klasterinin yaradılması planlaşdırılır.

10.6. Ərazilərinin xüsusi istifadə şərtləri olan zonalar. Planlaşdırma məhdudiyyətləri

İndiki zamanda Şəmkir şəhəri ərazisində həyat fəaliyyətinin təhlükəsizliyini təmin etmək məqsədilə təbii və texnogen mənşəli mümkün təhlükələri nəzərə almaq və ərazinin və əhalinin müdafiəsi üçün lazımi tədbirləri həyata keçirmək lazımdır. Bu təhlükələrin üzə çıxarılması, onların xüsusiyyətləri, müəyyən ərazilərin risk səviyyəsi diqqəti daha təhlükəli sahələrə istiqamətləndirməyə imkan verir.

Təbii xüsusiyyətli mümkün fövqəladə hallar

Təbii fövqəladə hallar – təbii fövqəladə vəziyyətin meydana çıxması nəticəsində müəyyən ərazi və ya akvatoriyada olan elə vəziyyətdir ki, onlar insan tələfatına səbəb ola bilər, insanların sağlamlığına və ətraf mühitə zərər verə bilər, mühüm maddi itkilərə və insanların həyat şərtlərinin pozulmasına səbəb ola bilər.

Xüsusi təhlükəli təbii proseslərin və hadisələrin şəhər ərazisində və ona qonşu ərazilərdə baş verməsi qeydə alınmır.

Layihə ərazisində hal-hazırda normal həyat şərtlərinə və əhalinin fəaliyyətinə təsir göstərən geoloji, hidroloji və meteoroloji xarakterli təbiət hadisələri mövcuddur.

Şəhərin ərazisi 8 ballıq seysmikliklə xarakterizə olunan rayonda yerləşir. Çay və qobuların sahillərində lokal xarakterli ekzogen geoloji proseslər, eroziya prosesləri mövcud ola bilər və mühəndis-inşaat axtarışları mərhələsində tikinti meydançalarının hazırlanması zamanı hər bir konkret halda onları nəzərə almaq lazımdır.

Həmçinin, Cəyirçay çayında yaz-yay yaz-yay daşqınlarının keçməsi ilə bağlı hadisələrə nəzarət etmək lazımdır.

Şəhər əhalisi və iqtisadiyyatına təhlükə törədən digər təbii-iqlim hadisələri duman, buzlaşma, quraqlıq və qara yellərdir.

Tikinti aparılan ərazinin seysmikliyinin kəmiyyət qiymətləndirilməsini süxur və hidroloji şərtlər nəzərə alınmaqla mühəndis araşdırmalarının tərkib hissəsi olan və müvafiq normativ sənədlərin tələblərinə riayət edərək seysmik mikrorayonlaşma əsasında aparmaq lazımdır.

Seysmik mikrorayonlaşma xəritəsi olmayan rayonlarda tikinti meydançasının seysmikliyini aşağıdakı cədvələ müvafiq olaraq müəyyənləşdirmək olar.

Cədvəl 10.23

Ərazinin seysmikliyinin müəyyənləşdirilməsi

Seysmik xüsusiyyətlərinə görə qruplar kateqoriyası	Süxurlar	Rayonun seysmikliyi əsasında tikinti meydançasının seysmikliyi, bal		
I	Bütün növ qaya süxurları *(o cümlədən, həmişə buzlaq və buzlaq əriyən)*, aşınmamış və az aşınmış; 30% qum-gil qarışığı olan maqmatik mənşəli iri qırıntılı sıx az rütubətli qruntlar; aşınmış və çox aşınmış qaya və qeyri-qaya bərk donuşluq *(həmişə buzlaq)* qruntlar -2°C və daha aşağı temperaturda I prinsip üzrə tikinti və istismarı (təməl qruntlarının donmuş vəziyyətdə saxlanması)	6	7	8
II	Aşınmış və çox aşınmış qaya süxurları, I kateqoriyaya aid edilmişlər istisna olmaqla həmişə donuşluq qruntlar; I kateqoriyaya aid edilmişlər istisna olmaqla iri qırıntılı qruntlar; az və çox əhəmiyyətli çınqıllı, iri xırda, sıx və orta sıxlıqlı qumluq; az əhəmiyyətə malik xırda və toz halında sıx və orta sıxlıqlı qumlar; IL 0,5 konsistensiya göstəricisinə malik gil qruntları, məsaməlilik göstəricisi gillər və giltorpaq üçün e < 0,9 və qumluca torpaqlar üçün e < 0,7 olan; həmişə donuşluq qeyri-qaya qruntlar, həmçinin -2^{0}C bərk donan qruntlar, I prinsiplə tikinti və istismarı	7	8	9
III	Ölçüsündən və rütubətlilik dərəcəsindən asılı olmayaraq yumşaq qumlar; su ilə dolğun iri orta ölçülü, sıx və orta sıxlıqlı çınqıllı torpaqlar; nəm və suya doymuş xırda və toz halında sıx və orta sıxlıqlı qumlar; IL > 0,5 konsistensiyasına malik gilli süxurlar; IL < 0,5 konsistensiyasına malik gilli süxurlar gil və gilli torpaqlar üçün məsaməlilik göstəricisi e > 0,9 və qumlucalar üçün e > 0;	8	9	> 9

Mənbə:

Qeyd:

1. Seysmik xüsusiyyətlərinə görə meydançanın I kateqoriyaya aid edilməsi müvafiq kateqoriya qatının qalınlığının qazıntı zamanı planlama göstəricisinin qara nişanlanmasından 30 m-dən çox olması halında mümkündür. Süxurların müxtəlif tərkibli olduqda tikinti meydançaları seysmik xüsusiyyətlərinə əsasən, süxurun 10 m qatı daxilində bu kateqoriyaya aid olan qatın qalınlığının 5 m-dən çox olması halında daha da əlverişsiz zonaya aid edilir.
2. Seysmikliyi 6 bal olan rayonlarda tikilən xüsusi əhəmiyyətli bina və tikililər III kateqoriya süxurların mövcudluğu şərti altında ərazinin seysmikliyini 7 bala bərabər götürmək lazımdır.
3. Nəqliyyat və hidrotexniki qurğuların tikinti meydançalarının seysmikliyinin təyin olunması zamanı əlavə tələbləri nəzərə almaq lazımdır.
4. Konsistensiya və rütubətlilik məlumatları olmadığı hallarda gilli və qumlu süxurları qrunt sularının səviyyəsinin 5 m-dən çox olduğu ərazilərini seysmik xüsusiyyətlərinə görə III kateqoriyaya aid etmək lazımdır.

Yamacının dikliyi 15° çox olan, çökən ərazilərin yaxınlığında yerləşən, fiziki-geoloji proseslər altında güclü dağılan, qruntların üzə çıxdığı, dağıntıların, sürüşmələrin, dağ mədənləri, sellər yerləşən tikinti meydançaları seysmik cəhətdən qeyri-əlverişli ərazilərdir. Bu cür meydançalarda tikintiyə ehtiyac olduğu halda binaların bünövrəsinin möhkəmləndirilməsi və konstruksiyanın gücləndirilməsi istiqamətində əlavə tədbirlər həyata keçirmək lazımdır.

İntensiv zəlzələlər zamanı konstruksiyaların işi barədə doğru məlumatın alınması məqsədilə unikal tikililər və binalar yerləşən ərazilərdə mühəndis-seysmik müşahidə işi aparmaq üçün stansiyaların qurulmasının nəzərdə tutmaq lazımdır. Stansiyaların layihələri xüsusi texniki şərtlərlə hazırlanmalıdır.

Nəzərdən keçirilən ərazinin sərhədlərində, yamaclarda yarğan-qobu şəbəkəsinin inkişafına qar əriməsi dövründə təbii su axını sularının böyük məsrəfi səbəb olur.

Hidroloji xarakterli təhlükələr yaz-yay daşqınlarının keçməsi və qar əriməsi dövründə Cəyirçay çayında suyun pik sərfi ilə bağlıdır.

Nəzərdən keçirilən ərazidyə nisbətən tez-tez (martdan mayadək ayda 5-8 gün) dumanyaranma müşahidə olunur. Atmosferin yer qatına yaxın layında (bir neçə yüz metr yüksəkliyə qədər) çoxlu xırda su damcılarının (və ya buz kristallarının) bu yığını havanın üfüqi görünmə dərəcəsini 1 km. qədər endirir aşağı salır. Dumanların təhlükəsi onların, ilk növbədə, müxtəlif nəqliyyat növlərinin işinə mənfi təsirindən ibarətdir.

Atmosfer quraqlıqlarının təhlükəsi daha çox quraqlıq və onlarla eyni zamanda baş verən mənfi proseslərin kənd təsərrüfatına, eləcə də iqtisadiyyatın onunla sıx əlaqədar olan sahələrinə vurduğu böyük zərərlə bağlıdır və quraqlığın onlara əhəmiyyətli. Qara yellər zamanı quraqlığın mənfi təsiri dəfələrlə artır.

Cədvəl 10.24

Zədələmə təbii FH səbəb amillərinin siyahısı, onların təsir və təzahür xarakteri

Təbii FH mənbəyi	**Zədələmə təbii FH amillərinin siyahısı**	**Təsirin xüsusiyyəti, təsir göstərən təbii FH faktorunun mənbəyinin əks olunması**
Təhlükəli geoloji proseslər		
Zəlzələ	Seysmik	Seysmik zərbə
		Dağ suxurlarının deformasiyası
		Partlayış dalğası
		Dağ suxurlarının, qar kütlələrinin, buzlaqların qravitasiya sürüşməsi
		Çay məcralarının deformasiyası
	Fiziki	Elektromaqnit dalğası
Sürüşmə, çökmə	Dinamik	Dağ suxurlarının sürüşməsi (hərəkətə gəlməsi)
	Qravitasiya	Yer səthinin silkələnməsi
		Qarışıq kütlələrə dinamik və mexaniki təzyiq
		Zərbə
Təhlükəli hidrogeoloji hadisələr və proseslər		
Məcra eroziyası	Hidrodinamik	Su axınının hidrodinamik təzyiqi
		Çay məcrasının deformasiyası
Sel	Dinamik	Dağ suxurlarının sürüşməsi (hərəkəti)
	Qravitasiya	Zərbə
		Sel kütləsinin mexaniki təzyiqi
	Hidrodinamik	Sel kütləsinin hidrodinamik təzyiqi
	Aerodinamik	Zərbə dalğası
Təhlükəli meteoroloji hadisələr və proseslər		
Güclü külək.	Aerodinamik	Külək axını
		Külək yükü
		Aerodinamik təzyiq
		Vibrasiya
Buzbağlama	Qravitasiya	Buzbağlama yükü
	Dinamik	Vibrasiya

Dolu	Dinamik	Zərbə
Duman	İstilik-fiziki	Görünmə dərəcəsinin azalması (havanın tutqunlaşması)
Quraqlıq	İstilik	Torpaq və havanın isitməsi
Qara yel	Aerodinamik	Torpağın quruması
	İstilik	

Nəticə

- Ərazi seysmik intensivliyi 8 bal olan zona hüdudlarında yerləşir. Şəmkir şəhəri ərazisində səmərəli torpaqdan istifadənin planlaşdırılması və zəlzələyə davamlı tikintinin həyata keçirilməsi üçün şəhər ərazisinin seysmik mikrorayonlaşdırılması aparılmalı və bu zaman, mövcud binaların və infrastrukturun dəyərli olduğuna əsaslanaraq, qrunt şəraiti əlverişsiz olduğundan seysmik effekti (təsiri) gücləndirən lokal amillər hesaba alınmalıdır. Nəzərdən keçirilən ərazinin sərhədlərində (hüdudlarında) bina və qurğuları, onların təhlükəsiz istismarı üçün, seysmik rayonlarda tikinti normalarını nəzərə alaraq layihələndirnək lazımdır.

- Ərazidəki təhlükəli təbii proses və hadisələr həyat təminatı obyektlərində qəzalara səbəb ola bilər; yüksək gərginlikli elektrik xətlərinin zədələnməsi (qırılması), mühəndis və nəqliyyat kommunikasiyalarının dağılması; yol-nəqliyyat hadisələrinin sayının artırılması — bütün bunlar şəhər ərazisində yaşayan, işləyən və dincələn əhali arasında normal həyat fəaliyyətinin pozulması, nəqliyyatın işində çətinlik və qəza-xilasetmə işlərinin aparılmasında məhdudiyyət ilə nəticələnə bilər.

- Nəzərdən keçilriən ərazidə tikintinin həyata keçirilməsi üçün hər bir tikinti obyekti üçün mühəndis-geoloji araşdırmaların aparılması, tikinti ərazisinin mühəndis mühafizəsi və hazırlanması üzrə tədbirlərin hazırlanması, təhlükəli təbii proseslərin mənfi təsirinin vaxtında aşkara çıxarılması və proqnozlaşdırılması üçün onların daimi monitorinqinin həyata keçirilməsi, bu proseslərin mənfi nəticələrinin qarşısının alınması üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi lazımdır.

Texnogen xüsusiyyətli fövqəladə halların yaranmasının mümkün mənbələri

Texnogen fövqəladə hal elə haldır ki, texnogen mənşəli halın meydana çıxması nəticəsində müəyyən ərazi və ya akvatoriyada insanların normal yaşayış və iş şəraitləri pozulur, onların həyatına və sağlamlığına təhlükə yaranır, əhalinin mülkiyyətinə, xalq təsərrüfatına və ətraf mühitə zərər dəyir.

Azərbaycan Respublikasının "Texniki təhlükəsizlik haqqında" (№ 695-IIQD saylı, 2 oktyabr, 2008-ci il tarixli) qanununa əsasən təhlükəli istehsalata aid ola bilən obyektlərin siyahısı müəyyənləşmişdir, həmçinin, ərazidə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin № 107, 1 may, 2008-ci il tarixli "Potensial təhlükəli obyektlərin siyahısının təsdiqi haqqında" qərarı da qüvvədədir.

Ən ağır nəticələr bu qəzalar radiasiya- və kimyəvi-təhlükəli obyektlərdə qəzalar zamanı yaranır. Radiasiya- və kimyəvi-təhlükəli obyektlərin ayihələndirmə sərhədlərində yerləşdirilməsinə dair məlumat yoxdur.

Fövqəladə vəziyyət həmçinin istehsal və kommunal-energetika sahəində partlayış-yanğın təhlükəli obyeklərdə qəzalar nəticəsində də yarana bilər.

Partlayış - və yanğın təhlükəli obyektlərdə qəzalar

Şəmkir şəhəri ərazisində fövqəladə vəziyyət mənbəyi qəzalar ola bilər:

- energetika obyektləri (texnologiyalarda qaz generatorlarından və qazanxanalardan istifadə, təbii qazın yüksək təzyiq altında yanması; qazanxanalarda yanacaq kimi tez alovlanan mayelərin və alışqan mayelərinin tətbiqi);
- sənaye obyektlərində *(təbii qazın istifadəsi, tez alovlanan mayelərin və alışqan mayelərinin tətbiqi və s.)*;
- partlayış təhlükəsi olan toz birləşmələri yaradan, partlaya bilən, yanğın mənbəyindən özü-özündən alışa bilən və mənbə aradan qaldırıldıqdan sonra da yanmağa davam edən bitki xammalı (taxıl, toxum) və onun emalı məhsullarının *(un, kəpək, maya, kombiyem, cecə, şəkər, ot və ağac unu və s.)* saxlanılan, emal olunan obyektlərdə;
- neft məhsulları anbarlarında və saxlanma yerlərində, yanacaqdoldurma və təbii qaz yanacaqdoldurma stansiyalarında, boru kəmər nəqliyyatında, qaz borularının qəzalı hermetikliyinin pozulması zamanı.

Şəhər ərazisində yanğın-partlayış təhlükəsi olan obyektlərə əsasən yanacaq istehsalı və satışı ilə məşğul olan obyektlər aiddir. Qəza vəziyyətinin meydana gəlməsi zamanı alışan materiallarla (yanan qaz, benzin) zərər görmüş ərazinin böyüklüyü saxlanılan maddələrin miqdarından asılıdır.

Partlayış təhlükəsi olan obyektlərə partlayıcı maddələrin tətbiq edildiyi dağ-mədən işlərinin aparıldığı obyektlər aiddir. Fövqəladə halın mənbəyi partlayıcı maddələrin saxlandığı anbar və ya yükləmə meydançaları ola bilər.

Partlayış və yanğınlarla əlaqədar olan fövqəladə halların qarşısının alınması üçün onların yaranma ehtimalının aşağı salınmasına, yanğından müdafiəyə, əhalinin təhlükəsiz köçürülməsinə, yanğın əleyhinə texnikanın maneəsiz daxil olmasına yönəldilmiş texniki və təşkilatı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmalıdır.

Partlayış təhlükəsi olan maddələrin istifadə olunduğu müəssisələrdə aşağıdakı tədbirlər nəzərə alınmalıdır:

- partlayıcı və yanan maddələrin miqdarının istehsalat üçün lazım olan minimum səviyyəyə endirilməsi;
- partlayıcı maddələrin dərin qazılmış saxlama yerlərində üstlərinin örtülməsi şərti ilə saxlanması;
- təhlükəsizlik texnikası və yanğından müdafiə tədbirlərinə ciddi riayət olunması;
- müəssisədə heyətin 24 saatlıq növbətçiliyinin təşkili;
- xəbərdarlıq sisteminin yaradılması;
- qəza vəziyyətinin meydana çıxması halında heyətin vaxtında təlimləndirilməsinin təşkili;
- planlı təlimlərin aparılması;
- müəssisə daxilində fərdi mühafizə vasitələrinin fondunun yaradılması.

Nəqliyyatda fövqəladə hallar.

Nəqliyyat vasitələri, insanların həyatı və sağlamlığına təhlükə yaradan tezalışan, kimyəvi, partlayıcı və s. yüklərin daşındığını nəzərə alsaq, həm sərnişin həm də nəqliyyat magistralları ərazilərində yaşayan əhali üçün yüksək təhlükə mənbəyidir.

Şəhər ərazisini respublika əhəmiyyətli Bakı-Tbilisi dəmiryol magistralı, respublika əhəmiyyətli Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolu *(M-2)*, Şəmkir – Gədəbəy avtomobil yolu *(R-22)* kəsir. Deməli, şəhər müəssisələrinin ehtiyacları üçün nəqliyyatla və tranzitlə daşınan təhlükəli yüklərin ştirakı ilə nəqliyyat hadisəsinin baş verməsi mümkünlüyünü istisna etmık olmaz.

Təhlükəli yüklərin daşması ilə müşayiət olunan qəzalar, yol nəqliyyat hadisələri zamanı və ya yükləmə-boşaltma işlərinin düzgün texnologiya ilə yerinə yetirilmədiyi hallarda mümkündür. Dəmiryol nəqliyyatında ən zəif hissələr stansiyalar, müəssisələrin yollarının keçid və kəsişmə hissələridir, avtomobil yollarında körpülər, yol ötürücüləri, kəsişmələr, yolların mühəndis kommunikasiya ilə kəsişən hissələrdir.

Şəhərə ən yaxın dəmir yolu yük-sərnişin stansiyası - Dəllər - şəhər mərkəzindən 4 km aralıda yerləşir. Rayonun avtomobil yollarında çoxsaylı süni yol qurğular yerləşir.

Dəmiryol nəqliyyatında qəza və fəlakətlər təbii səbəblərdən və insanların günahı ucbatından baş verə bilər.

Fəlakətlər və qəzaların təbii səbəbləri aşağıdakılar ola bilər:

- əlverişsiz geoloji hadisə və proseslər;
- əlverişsiz meteoroloji hadisə və proseslər;
- təbii yanğınlar;
- əlverişsiz hidroloji hadisə və proseslər.

İnsan fəaliyyəti ilə bağlı səbəblər:

- dəmir yolunun nasazlığı;
- dəmir yol nəqliyyatı vasitələrinin nasazlığı
- siqnalizasiya vasitələrinin nasazlığı;
- dispetçerlərlərin səhvi;
- maşinistləri etinasızlıq və səhlənkarlığı.

Daha tez rast gəlinən hadisələr qatarın relsdən çıxması, toqquşma, keçidlərdə maneələrlə toqquşma, vaqonların özündə baş verən yanğın və partlayışlardır.

Təhlükəli yüklərin daşması ilə müşayiət edilən qəzalar nəqliyyat hadisəsi baş verən və yükləmə-boşaltma işlərinin aparılması texnologiyasının pozulduğu zaman mümkündür.

Qəza kimyəvi-təhlükəli maddələrin (QKTM) iştirakı ilə qəzaların ehtimal edildiyi halda zəhərlənmənin miqyasının əvvəlcədən proqnozlaşdırılması zamanı əsas məlumatlar kimi ən əlverişsiz variant qəbul edilir.

- içində QKTM olan tutumlar (qablar) tamamilə dağıdılır (doldurulma səviyyəsi 95%);
- içində xlor olan dəmir yolu tutumu - 46 m3;
- içində ammonyak olan dəmir yolu tutumu - 54 m3;
- içində xlor olan avtomobil tutumu - 1 ton;
- içində ammonyak olan avtomobil tutumu - 8 m3;
- sərbəst daşma qalınlığı - 0,05 m;
- meteoroloji şərait - inversiya, yer qatına yaxın küləyin sürəti - 1 m/s;
- küləyin FH ocağından obyektin ərazisi istiqamətində;
- ətraf havanın temperaturu + 20 C
- qəza başlanandan sonar keçən vaxt - 1 saat

Cədvəl 10.25

QKTM-in qəza daşqınları zamanı zəhərlənmə zonasının xarakteristikaları

Parametrlər	xlor		ammonyak	
	1 t	**46 m^3**	**8m^3**	**1 t**
Sisternin dolma dərəcəsi, %	95	95	95	95
QKTM-ıшт molyar kütləsi, kq/kmol	70,91	70,91	17,03	17,03
QKTM-in (buxarların sıxlığı , kq/m^3	0,0073	0,0073	0,0017	0,0017
Həddtoksodozu mq*dəq	0,6	0,6	15	15
QKTM-in saxlanma əmsalı	0,18	0,18	0,01	0,01
QKTM-in fiziki-kimyəvi xassələri əmsalı	0,052	0,052	0,025	0,025
Qe1 və Qe2 üçün havanın temperaturu əmsalı	1	1	1	1
Qəza zamanı tullanmış (axmış) maddənin miqdarı,t	0,95	67,87	5,18	34,94
İlkin bulud üzrə maddənin ekvivalent miqdarı t	0,171	12,22	0,002	0,014
İkinci bulud üzrə maddənin ekvivalent miqdarı, t	0,522	37,27	0,150	1,016
Axma sahəsindən QKTM-in buxarlanma müddəti, s.: dəq	1:29	1:29	1:21	1:21
Zəhərlənmə zonasının dərinliyi, km				
İlkin buludla	1,581	21,496	0,079	0,43
İkinci buludla	3,229	43,413	1,491	4,79
Tam	4,023	54,16	1,530	4,998
Hava kütlələrinin köçürülməsinin son həddi dərinliyi, km	5	5	5	5
Zəhərlənmə zonasının son mümkün dərinliyi, km	4,023	5	1,53	4,998
QKTM-lə Zəhərlənmə zonasının son mümkün dərinliyi, km, км	4,651	64,27	1,732	5,629
QKTM buludu ilə zəhərlənmə zonasının sahəsi km^2				
Mümkün	25,409	39,24	3,66	39,21
Faktiki	1,34	2,025	0,19	2,024

Dəmir yolunda QKTM-in yayılması ilə baş verən fəlakət və ya qəza zamanı 5 km dərinliyində zəhərlənmə zonası yaranacaq. Zəhərlənmə sahəsi yer qatına yaxın küləyin istiqaməti, zəhərli havanın yayılması sürəti, dərinliyi, atılmış QKTM-in miqdarından asılı olacaq.

QKTM-lə qəza nəticəsində layihələndirilən ərazidə əhalinin müdafiəsi üzrə tədbirlər ehtiva edir:

- küləyin istiqamətinə perpendikulyar i və verilən xəbərdarlıq siqnalında göstərilən stiqamətdə təcili evakuasiyasını;

- müasir şüşəsalma və qapı yeri konstruksiyalarının quraşdırılması yolu ilə bayır havası infiltrasiyasının və zəhərli maddələrin içəri otaqlara daxil olmaq imkanının azaldılması;
- xəstəxana, poliklinika, məktəb otaqlarında fərdi mühafizə vasitələrinin (əleyhqazları) saxlanılması. Tənəffüs orqanlarının müdafiəsi üçün QKTM növü üzrə istifadə etmək təklif olunur.

Yanacaq-sürtgü maddələrinin *(YSM)* və mayeləşmiş karbohidrogen qazlarının *(MKQ)* iştirakı ilə nəqliyyat kommunikasiyalarında (sisternlərin hermetikliyinin pozulması) baş verən qəzalar zamanı əsas zərərverici amillərin fəaliyyət zonaları aşağıdakı şərtlər daxilində hesablanır:

YSM növü (benzin), MKQ (3-cü sinif);	
Avtomobil sisterninin həcmi	- MKQ - 14,5 m^3;
	- YSM - 20 m^3;
Dəmiryol sisterninin həcmi	- MKQ - 73 m^3;
	- YSM - 73 m^3;
Daşıma zamanı dolu olma səviyyəsi	- YSM 95 %;
	- MKQ 85 %;
axma qatının qalınlığı	- 0,05 m;
ərazi	- az tutulmuş;
hava və torpaq temperaturu	- müsbət 20 ^oC;
yer səthinə yaxın küləyin sürəti	- 1 m/san;
yanacaq-hava qarışığı buludunun mükün dreyfi (YHQ buludun mümkün dreyfi)	- 15-100 m;
Yanğının sinfi	- B1, C.

Cədvəl 10.26

YSM və MKQ iştirakı ilə qəzalar zamanı zədələnmə zonalarının xüsusiyyətləri

Parametrlər	avtomobil sisterni		dəmiryol sisterni	
	YSM	MKQ	YSM	MKQ
Çənin həcmi, m^3	20	14,5	73	73
Axıdılmış yanacağın kütləsi, t	14,63	8,63	53,4	43,4
Axmanın ekvivalent radiusu, m	11	8,9	33,2	19,9
Axma sahəsi, m^2	380	246,5	3468	1241
Qaz-hava qarışığının (QHQ) yaranmasında iştirak edən yanacaq kütləsi	0,02	0,7	0,02	0,7
QHQ tərkibində yanacaq kütləsi, t	0,293	6,039	1,068	30,405
Sənaye obyektlərinə və insanlara zərbə dalğasının təsir zonası				
Tam dağılma zonaları, m	10,6	29,3	16,4	50,5
Güclü dağıntılar zonası, m	26,4	73,3	40,9	126,3
Orta dağıntılar zonası, m	59,5	164,9	92,0	284,2
Zəif dağılmış zonalar, m	152,1	421,4	235,2	726,2
Şüşəsizləşmiş zonası (50%), m	251,2	696,2	388,5	1199,7
Adamların zədə sərhədi 99%, m	18,5	51,3	28,6	88,4
Adamların zədə sərhədləri (kontuziya), m	29,1	80,6	45,0	138,9
Alov şarının parametrləri				
Alov şarının radiusu, m	17,2	45,9	26,1	77,6
Alov şarının mövcudluq zamanı, san	3,3	7,2	4,6	10,9
Alovun yayılmasının sürəti, m/san	35	58	43	76
İstilik axınının bina və tikililərə təsirinin həcmi, $кVt/m^2$	130	220	130	220

Alov şarının kənarında istilik şüalanmasının indeksi	2146	9507	3004	14472
Alov şarının kənarında zərər çəkən insanların payı, %	0	0	0	0
Axıntının yanma parametrləri				
Yanmanın təxmini zamanı, dəq : san	16:44	30:21	16:44	30:21
Axıntı ətrafında istilik axınının bina, qurğu və insanlara təsir sahəsi, κVt/m^2	104	176	104	176
Yanan axın ətrafında istilik şüalanmasının indeksi	29345	59179	29345	59179
Axıntının yanma ətrafında zərər çəkən insanların nisbəti,%	79	100	79	100

Dəmiryol və avtomobil yollarında YSM və MKQ iştirakı ilə qəzalar zamanı partlayış hadisələri anında sənaye obyektləri, texnoloji avadanlıqlar, yaşayış evləri də müvafiq dağıntı zonalarına daxil ola bilər.

Cədvəl 10.27

Bina və qurğuların dağıntı dərəcəsinin xüsusiyyətləri

Dərəcənin adı	Bina və qurğuların dağıntı dərəcəsinin xüsusiyyətləri
Tam	Bütün tikinti və qurğu elementlərinin dağılması
Güclü	Hissələrinin, divarların və örtüklərin dağıntısı. Divarlarda çatların əmələ gəlməsi, örtüklərin formasının pozulması.
Orta	İkinci dərəcəli elementlərin dağılması (damlar, çəpərlər, pəncərə və qapıların). Örtüklər dağılmır. Məkan dağıntılardan təmizləndikdən sonra istifadə üçün yararlı vəziyyətə gətirilə bilər və təmir oluna bilər.
Zəif	Pəncərə və ağacların, çəpərlərin dağılması. Məkanlar bütövlüyünü tam saxlayır və zibillərin təmizlənməsi və uçuqların örtülməsindən sonra tam istifadə oluna bilər.

Yanacaqdoldurma (YDM) məntəqələrində qəzalar

YDM-də yanacaq paylayıcı kolonkalar vardır. Ərazi ildırımdan müdafiə avadanlığı ilə, yanğın söndürmək üçün ilkin vasitələrlə təchiz edilmişdir.

YDM-ə neft məhsulları avtosisternlərlə gəlir. Neft məhsullarının çənlərə doldurulması öz gedişi ilə operatorun və sürücünün nəzarəti altında aparılır. Yanacaq saxlayan çənlər bir divarlıdır. Operator otağında operatorun iş yeri, paylayıcı kolonkaları idarə pultu, YDM-də elektrik enerjisini kəsmək üçün açar yerləşir.

Yanacaq saxlama çənlərinin doldurulması quyular vasitəsilə həyata keçirilir, bu quyular hermetik asan açılıb-bağlanan muftalar, filtrlər, xüsusi meydançada yanacaqdan mühafizə çəpərlərlə təchiz olunmuşdur, yağ-benzinə davamlı örtüyə və qəza yeraltı rezervuarlara malikdir. Avtosisternlərin və çənlərin axıtma qurğuda nasazlıq olduqda oraya neft tökülməsi dayandırılır.

YDM elektron idarə etmə sistemi ilə təchiz olunur, bu sistem vasitəsilə yanacaq paylayıcı kolonkaların işini idarə etmək, yanacaq doldurma əməliyyatlarını həyata keçirmək, yanacaq ehtiyatını idarə etmək, yanacaq ötürülməsini təcili dayandırmaq mümkündür. YDM üçün maksimum mümkün neft məhsulu tutumu avtosisternlərin tutumunun 100% ilə təyin edilir.

Ən pis inkişaf ssenarisində YDM-də qəzalar yerli xarakter daşıyır.

YDM-də qəzaların zərərverici təsirinə bütün YDM heyəti və qəza anında həmin ərazidə olan müştərilər məruz qalır. Ən böyük təhlükə yanğınlardır. Ölümcül xətər yanan avadanlığın və operator otağında olan insanlara dəyə bilər.

Obyektdə partlayıcı hadisələrin təsirinin ən ehtimal olunan nəticəsi operator otağının dağılması və yanğın paylayıcı kolonkaların talvarının dağılmasıdır.

Yanacağın avtosisternlərdən yanacaq paylayıcı kolonkalara töküldüyü yerlər ölümlə nəticələnən insan itkisi baxımından az ölüm ehtimalı olan ərazilərdir. Şüşələrin qırılması və

konstruksiyaların dağılması ucbatından operator otağı daxilində insanların zərər alması mümkündür.

Qəzalar ərazinin neft məhsulları ilə çirklənməsinə səbəb olur.

Yanğın zamanı operator binasında insanlar üçün təhlükəsiz məsafə 16 m-dən çox, yanacaq axması zamanı isə 36 m-dən çox olmalıdır.

Boru kəməri nəqliyyatında qəzalar.

Şəhər tikililərindən şimala doğru magistral qaz kəməri keçir.

Boru kəməri nəqliyyatında qəzalar boruların yeraltı hissələrinin qruntların yerdəyişməsi zamanı zədələnməsi səbəbindən baş verə bilər. Qaz təchizatı sistemlərində fövqəladə halların ilkin zəminləri: icazəsiz kəsiklər, qaz istifadə edən qurğuların alışdırılması zamanı partlayışlar, qaz borularının avtomobil nəqliyyatı ilə mexaniki zədələnməsi, borularin korroziyası və pis keyfiyyətdə olması, əsas fondların işlənib sıradan çıxması, tikinti zamanı qayda və normalara riayət olunmaması ola bilər.

Qəza halında borunun yarılması nəticəsində qazın təzyiq altında çölə axması və qaz-hava qarışığının partlayışı baş verir. Qaz kəmərində fövqəladə halların nəticələrinin proqnozlaşdırılması zamanı partlayış anında detonasiya zonasını hesablama ilə təyin edirlər (qazın təzyiqini, borunun diametrini və s. nəzərə almaqla). Detonasiya zonası külək istiqamətində yayılacaqdır.

Həyat təminatı obyektlərində qəzalar.

Həyat təminatı obyektlərində qəza vəziyyətləri su təchizatı və kanalizasiya sistemlərinin fiziki köhnəlmə nəticəsində sıradan çıxması, istilik sistemlərinin köhnəliyi, qazanxana və elektrik enerjisi avadanlıqlarının fiziki köhnəlməsi, həmçinin yüklənmə və qeyri-əlverişli hava şəraiti səbəbindən baş verə bilər.

Mümkün nəticələr planında daha çox təhlükəli olanlar aşağıdakı ərazilərdə yerləşən həyat təminatı obyektlərində baş verən qəzalardır:

- su kəmərləri;
- enerji təminatı obyektləri;
- təmizləmə qurğuları.

Yuxarıda adı çəkilən obyektlərdə qəzaların qarşısının alınması tədbirləri onların vəziyyətinə nəzarət, planlı-qabağalıcı təmir, tez lokallaşma və şəbəkələrin zədələnmış hissələrinin ləğv olunması üçün vasitələrin ehtiyata alınması, sıradan çıxmış avadanlığın yeniləri ilə əvəz olunması ola bilər.

Texnogen xüsusiyyətli fövqəladə halların dağıdıcı amilləri öz mənşəyinə görə növbəti növlərə bölünür:

- birinci dərəcəli (birbaşa təsir, texnogen fövqəladə halların mənşəyinin törənməsi nəticəsində);
- ikinci dərəcəli (birinci dərəcəli zərərli amillərin ətraf mühit obyektlərinin dəyişməsi nəticəsində yaranan əlavə təsirlər);

təsir mexanizminə əsasən aşağıdakı kimi:

- fiziki təsir – hava zərbə dalğası, qruntda sıxılma dalğası, seysmik partlayıcı dalğa, hidrotexniki qurğulara sıçrama dalğası, qırıntılar və ya qəlpələr, ətraf mühitin həddən artıq isinməsi, istilik radiasiyası, ionlaşdıran şüalanma.
- kimyavi təsir - təhlükəli kimyəvi maddələrin zəhərli təsirləri

Texnogen xüsusiyyətli fövqəladə hallar əsasən aşağıdakı ərazilərdə baş verir:

- əhalinin sıx olduğu və şəhərləşmiş mühitlərdə;
- təhlükəli təbii və təbii-texnogen proseslərin inkişaf etdiyi ərazilərdə;
- potensiallı təhlükə obyektlərin yerləşmə zonaları;
- nəqliyyat və mühəndis infrastrukturu obyektlərinin yerləşmə yerləri.

Şəhərdə ehtimalı ən yüksək olan təhlükə yanğınlardır.

Statistik məlumatlara əsasən birinci yerdə elektrotexniki avadanlığın sıradan çıxması və odla diqqətsiz rəftar səbəbindən meydana çıxan yanğınlar durur. Yaşayış tikililərində yanğın təhlükəsi mənbəyi köhnəlmiş və qəza vəziyyətində olan mənzil fondudur.

Nəticə

Şəmkir şəhərinin ərazisində texnogen fövqəladə halların yaranma mənbəyi bnlar bilər:

- yanğın və partlayışlar;
- dəmir yolu və avtomobil nəqliyyatında təhlükəli hadisələr,

eləcə də, həyat təminatı kommunal sistemlərdə qəzalar;

Şəmkir şəhərinin ərazisinin bir hissəsi avtomobil nəqliyyatında qəza zamanı mümkün dağıntı zonasında və dəmir yolu və avtomobil nəqliyyatında qəza zamanı mümkün kimyəvi çirklənmə zonasında yerləşir;

Təbii və texnogen xarakterli FH-nın qarşısının alınması üzrə tədbirlər

Azərbaycan Respublikası ərazisində əhalini fövqəladə təbiət hadisələrindən, texnogen xüsusiyyətli qəzalardan və yanğınlardan qoruyan, sadalananların nəticələrinin aradan qaldırılması üzrə tapşırıqları yerinə yetirən, həmçinin vətəndaş müdafiəsi sahəsində dövlət siyasətinin həyata keçirilməsinə nəzarət edən icraedici orqan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2005-ci ilin Dekabrın 16-da verdiyi Sərəncamla yaradılmış Fövqəladə Hallar Nazirliyidir (FHN). Nazirlik xilasetmə və bərpa işlərinin həyata keçirilməsi zamanı mərkəzi və yerli icra orqanlarının fəaliyyətini əlaqələndirir.

Nazirlik vətəndaşların və ərazilərin geofiziki, geosiyasi, meteoroloji, hidroloji, dəniz hidroloji proseslər, təbiət yanğınları, partlayışlar, binaların dağılması, təhlükəli kimyəvi, radioaktiv və bioloji maddələrin tullanması ilə əlaqədar olaraq müdafiəsi istiqamətində tədbirlər hazırlayır və həyata keçirir.

FHN həmçinin elektrik enerjisi sistemlərində, həyat təminatı verən kommunal sistemlərdə, təmizləyici qurğularda, hidrodinamik qurğularda, neft və qaz çıxarılması və emalı obyektlərində, magistral boru kəmərlərində və nəqliyyatda baş verən fövqəladə hallar zamanı müdafiəni təmin edir. Bundan əlavə FHN xırda gəmilərin və insanların su hövzələrində təhlükəsiz hərəkətini, yanğın təhlükəsizliyini təmin edir, fövqəladə halların yaranmasının qarşısını alır və onun nəticələrini aradan qaldırır.

FH-ın qarşısının alınması (onların yaranma riskinin azaldılması) və mümkün itkilərin və onların vurduğu zərərin azaldılması (fövqəladə halların miqyasının azaldılması) üzrə tədbirlərin əsasında dəqiq elmi, mühəndis-texniki və texnoloji xarakterli qabaqlayıcı tədbirlər dayanır ki, onlar da təbiət və texnogen xüsusiyyətli təhlükələrin növündən asılı olaraq həyata keçirilir.

<u>FH qarşısı əsas istiqamətlər üzrə alınmalıdır:</u>

- fövqəladə halların monitorinqi və proqnozlaşdırılması;
- məhsuldar qüvvələrinin təbiət və texnogen təhlükəsizlik nəzərə alınmaqla səmərəli yerləşdirilməsi;
- mümkün dərəcədə bir sıra qeyri-əlverişli və təhlükəli təbiət hadisələrinin və proseslərinin onların toplanan dağıdıcı qüvvələrinin sistematik azaldılması ilə qarşısının alınması;
- qəza və texnogen qəzaların istehsalat proseslərinin texnoloji təhlükəsizliyinin və avadanlığın istismar etibarlılığının artırılması hesabına qarşısının alınması;
- FH-ın mənbələrinin yaranmasına mane olmaq, onların nəticələrinin yumşaldılması, əhali və maddi vasitələrin mühafizəsini təmin etmək məqsədilə mühəndis-texniki tədbirlərin hazırlanması və həyata keçirilməsi;

- iqtisadiyyat obyektlərinin və əhalinin həyat təminatı obyektlərinin fövqəladə hal şəraitində işləməsinin təmin edilməsi;
- sənaye təhlükəsizliyinin elan olunması;
- təhlükəli istehsalat obyektlərinin fəaliyyətinin lisenziyalaşdırılması;
- təhlükəli istehsalat obyektinin istismarı zamanı vurulan zərərə görə məsuliyyətin sığortalanması;
- fövqəladə halların qarşısının alınması sahəsində dövlət ekspertizasının aparılması;
- təbiət və texnogen təhlükəsizliyi üzrə məsələlərə dövlət nəzarətinin təmin olunması;
- əhalinin yaşadıqları ərazidə mümkün ola biləcək təbii və texnogen xüsusiyyətli qəzalar haqqında məlumatlandırılması;
- əhalinin fövqəladə hallardan mühafizəsi sahəsində hazırlanması.

Əhali və ərazilərin FH-dan müdafiə edilməsinin əsas prinsipləri:

- etibarlı xəbərdarlıq sisteminin yaradılması;
- qoruyucu qurğu fondunun toplanması;
- təxliyə tədbirlərini kombinə edilmiş vasitə ilə planlaşdırmaq və həyata keçirmək, köçürülmüş əhalinin yerləşdirilməsi üçün şəhər ətrafı zonanın hazırlanması;
- əhalinin fərdi mühafizə vasitələri ilə təchiz olunması;
- ərzaq və suyun çirklənmədən mühafizəsinin təmin olunması;
- radiasiya, kimyəvi və bakterioloji nəzarətin və laborator nəzarətin təşkili;
- rejimli, sanitar-gigiyena və epidemiya əleyhinə tədbirlərin aparılması.

Təhlükəli təbii hadisələr zamanı zərərin azaldılması üzrə qabaqcadan görülən və operativ tədbirlərin keçirilməsi zamanı optimal müdafiə variantlarının seçilməsi gözlənilən hadisələrin proqnozu əsasında keçirilir. Təxirəsalınmaz tədbirlər nəticələrinin ağırlığına görə təbii fəlakətin özünün təsirindən artıq olacaq təkrar zərər vuran amillərin yaranmasına gətirib çıxara biləcək nəticələrin qarşısının alınmasına, yəni tikinti rayonunda rabitə xətlərinin, elektrik şəbəkələrinin, şəhər və şəhərlərarası nəqliyyatın dayanıqlığının gücləndirilməsinə, sahil ərazilərinin mühafizəsinə yönəldilməlidir.

Zəlzələlərin mümkün dağıdıcı nəticələrinin azaldılması məqsədilə mövcud yaşayış və sənaye tikintisi, nəqliyyat və mühəndis təminatı obyektlərinin öyrənilməsi üçün zəlzələ təhlükəsi olan zonalarda tikinti tələblərinə uyğunluq dərəcəsi üzrə nəzarət və inventaririzasiya tədbirləri aparmaq lazımdır.

Tikilən ərazilərdə mühəndis mühafizəsi vahid kompleks ərazi sisteminin və ya şəhər ərazisinin səmərəli müdafiəsini təmin edən obyektyanı lokal qoruyucu qurğuların yaradılmasını nəzərdə tutmalıdır.

Seysmikliyin 7, 8 və 9 bal olduğu meydançalarda tikinti i üçün bina və qurğuların layihələndirməsi zamanı bunlar edilməlidir:

- seysmik yükün ən az qiymətini təmin edən material, qurğu və konstruktiv sxemləri tətbiq etmək;
- bir qayda olaraq, simmetrik konstruktiv sxemlər qəbul etmək, qurguların ağırlığı və kütləsinin, habelə çatıların yüklənməsinin bərabər bölünməsini təmin etmək;
- yığma elementlərdən ibarət bina və tikililərdə calaqları maksimum qüvvə zonasından kənarda yerləşdirmək, iriləşdirilənlər yığma elementlərin tətbiqi ilə konstruksiyaların monolitliyi və həmcinsliyini təmin etmək;
- bu halda qurğuların elementləri və və onların birləşmələrində plastik deformasiyaların inkişafını asanlaşdıran və eyni zamanda tikintinin dayanıqlığını təmin edən şərtləri qabaqcadan nəzərə almaq.

Bina və qurğuların zəlzələyə davamlılığını təmin etmək üçün, onların xüsusi texniki şərtlər üzrə layihələndirilməsi şərti ilə, seysmoizolyasiya və qurğunun dinamik reaksiyasının tənzimlənməsinin digər sistemlərinin tətbiqinə yol verilir.

Zəlzələlərin nəticələrinin aradan qaldırılmasında əsas tədbirlər aşağıdakılardır:

- zərərçəkənlərin axtarışı;
- zərərçəkənlərin tikinti konstruksiyaları qalaqlarından, qapalı məkanlardan bina və qurğuların zədələnmiş və dağılmış mərtəbələrindən azad edilməsi;
- zərərçəkənlərə ilk tibbi və həkimdən əvvəlki yardımın göstərilməsi;
- zərərçəkənlərin təhlükə zonalarından (bloklanma yerlərindən) onların cəmləşdirildiyi məntəqələrə və ya tibb məntəqələrinə ərər evakuasiyası;
- əhalinin təhlükəli yerlərdən təhlükəsiz rayonlara evakuasiyası;
- əhalinin həyat təminatına dair təxirəsalınmaz tədbirlərin keçirilməsi;
- dağıntı zonasında hərəkət yollarının təmizlənməsi və təchiz edilməsi;
- uçma təhlükəsi olan tikiliərin uçurdulması və möhkəmləndirilməsi;
- xilasetmə işlərinin aparıldığı məntəqələrdə (obyektlərdə) yanğınların lokallaşdırılması və söndürülməsi,tüstüyəqaşı tədbirlərin keçirilməsi;
- kimyəvi təhlükəli və radioaktiv maddələrlə zəhərlənmə mənbələrinin lokallaşdırılması və zərərsizləşdirilməsi;
- kommunal-energetika şəbəkələrində və hidrotexniki qurğularda təkrar zəhərlənmə mənbələri ola bilən zədələnmələrin lokallaşdırılması;
- epidemiyaya qarşı tədbirlərin keçirilməsi.

Əraziərin təhlükəli daşqın nəticələrindən qorumaq üçün ərazinin mühəndis mühafizəsi və hazırlanması, səthi axının təşkili, Cəyirçay çayının məcrasının abadlaşdırılması və möhkəmlənməsi və məcraların qobuların talveqi üzrə abadlaşdırılması və tənzimlənməsi sahəsində tədbirlərin keçirilməsi.

Əhalinin mümkün təbii və texnogen fövqəladə hallar — zəlzələ, daşqın və təhlükəli istehsal obyektlərində və nəqliyyat magistrallarında, kommunal təsərrüfatı obyektlərində qəza — baş vermə təhlükəsi barədə vaxtında xəbərda edilməsi üçün əhalinin təminatlı xəbərdar edilməsini təmin etmək.

Fövqəladə vəziyyətin yarandığı təqdirdə fövqəladə hallar zonasından köçürülmüş əhalinin sığınması və həyat təminatı üçün şəhər ərazisində (və ya onun hüdudlarından kənarda) müdafiə olunan bina və qurğularda (bir qayda olaraq, ictimai təyinatlı) əhalinin müvəqqəti yerbəyer edilməsi məntəqələrinin yerləşdirilməsini nəzərdə tutmaq lazımdır.

Yanğından mühafizə tədbirləri Şəmkir şəhəri ərazisində fövqəladə halların qarşısının alınması üzrə tədbirlərin mühüm tərkib hissələrindən biridir.

Yanğındanqorunma tədbirləri

Yanğındanqorunma tədbirləri elə tədbirlər kompleksidir ki, bu zaman iqtisadi obyektlərin FH-da davamlı fəaliyyəti təmin olunur, əhalinin həyat fəaliyyətinin təhlükəsizliyi təmin olunur (vətəndaşların yanğınlardan mühafizəsinin, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətlərinin qorunması artırılır).

Yanğın zamanı insanların təhlükəsizliyi vaxtında xəbərdarlıq və təhlükəli zonalardan maneəsiz təxliyə, dumanlı və yüksək temperaturlu ərazilərdə insanların həyatlarının qurtarılması kimi tədbirlərlə təmin olunur.

Baş plan layihəsi çərçivəsində Şəmkir ərazisində yanğındanqorunma tədbirlərinin təmin olunması aşağıdakı əsas istiqamətlər üzrə aparılır:

- yanğın mühafizə bölmələrinin yayılma yerlərinin təhlili, yanğın yerinə yanğınsöndürənlərin çatma vaxtının normalar daxilində olmasına nəzarət;
- qəza vəziyyətində olan mənzil fondunun tədricən ləğv edilməsi;
- su təchizatı olmayan ərazilərin bayırdan yanğını söndürmək üçün su ilə təmin olunması;
- su təchizatı mənbələrinə yanğınsöndürmə keçidlərinin quraşdırılması;
- meşə təsərrüfatları, binalar və tikililərin bir-birindən təhlükəsiz yanğındanqorunma məsafəsində yerləşməsini təmin etmək;
- bütün mühafizə obyektlərinə maneəsiz keçidlərin təmin olunması;
- iqtisadi obyektlərdə yanğın təhlükəsizliyinin təmin olunması;

Partlayış təhlükəsi olan obyektlər yaşayış ərazilərindən kənarda yerləşdirilməli və əgər bu mümkün deyilsə və ya məqsədəuyğun deyilsə onda partlayış təhlükəsi olan obyektin ərazisində insanların, bina və qurğuların təhlükəsizliyini təmin etmək və onları partlayış və yanğınlardan mühafizə etmək üçün tədbirlər həyata keçirilməlidir. İqtisadiyyat obyektlərində partlayış və yanğınlarla bağlı fövqəladə halların qarşısının alınması üçün onların yaranma ehtimalının azaldılmasına, yanğından qorunmasına, insanların obyektin ərazisindən təhlükəsiz evakuasiyasına, yanğın maşın və texnikasının maneəsiz yeridilməsinə yönəldilmiş texniki və təşkilati tədbirləri nəzərdə tutmaq lazımdır.

Şəhər tikililərinin yerləşdiyi ərazilərə xidmət etmək üçün yanğın mühafizə bölməsinin əvvəllər təklif olunan yerdə - Dəllər dəmiryol stansiyası ərazisində yerləşdirmək təklif olunur.

Layihədə qəza vəziyyətində olan mənzil fondunun ləğv olunması (mədəni irs obyektləri istisna olmaqla), yanğın təhlükəsizliyi normalarına cavab verən yeni müasir binalarla əvəz olunması təklif olunur.

Yanğınsöndürmə məqsədilə istifadə olunan su mənbələri su xətlərində yerləşdirilmiş yanğın hidrantları və təbii su hövzələridir. Bayırdan yanğın söndürmə məqsədilə su təchizatı mənbələrinin yerləşdirilməsi üzrə layihədə aşağıdakı tədbirlər təklif olunur:

- mövcud su xətlərinin yenidən qurulması və yenilərinin tikintisi, onların su hidrantları təchiz olunması;
- yanğın söndürmək məqsədilə su obyektlərinin yaradılması (rezervuarlar, süni su tutarları) və onlara layihədə nəzərdə tutulmuş yollarla keçidlərin yaradılması.

Şəhərin təklif olunan nəqliyyat infrastrukturunun, küçə-yol şəbəkəsinin inkişaf etdirilməsi elə aparılmalıdır ki, yanğınsöndürmə, sanitar, qəza maşınlarının mühafizə obyektlərinə maneəsiz gedişini təmin etsin, yaşayış məhəllələri arasında məsafəni təmin etsin ki, tikililərdə yanğının yayılmasının qarşısını almaq mümkün olsun.

FƏSİL 11. ƏRAZİLƏRİN ZONALAŞDIRILMASI

11.1. Ümumi məlumat

Azərbaycan Respublikasının fəaliyyətdə olan Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən (maddə 22.5) tikinti məqsədilə torpaq növlərinin istifadəsi dəqiq təyin edilmiş ərazi zonaları əsasında müəyyənləşdirilir.

Şəmkir şəhərinin ərazisinin zonalara bölünməsi üzrə Baş plan təklifləri "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"Azərbaycan Respublikası Nazirlər Kabineti 51 №-li Qərara əsasən hazırlanmışdır.

Ərazi zonalaşdırılmasının məqsədi – tikinti və şəhər torpaqlarının digər istifadəsi ilə əlaqədar münasibətlərin nizamlanması, şəhərsalmanın nizamlanmış inkişafı, torpaqdan istifadə, əhalinin sayı, istehsalat meydançalarının sıxlaşdırılmasının qarşısının alınması, tikintinin tərkibinin, növünün və miqyasının müəyyənləşdirilməsi.

Tikintinin miqyası, binaların imkan verilən həddi hündürlüyü və mərtəbələrin sayı ərazinin tikinti əmsalı və ərazinin tikinti sıxlığı əmsalı ilə müəyyənləşdirilir.

Ərazi zonaları - ərazi planllaşdırma sənədlərində sərhədləri müəyyənləşdirilmiş və torpaqdan istifadə və tikinti miqyaslarının növ və şərtlərinin reqlamentləri təyin edilmiş zonalardır.

Xüsusi istifadə şərtləri olan zonalar – sanitar-mühafizə sonaları, istehsalat və sənaye müəssisələrinin, nəqliyyat və mühəndis infrastrukturu, su təchizatı mənbələri, mühafizə olunan obyektlərin və digər sənaye və kommunal obyektlərini ayıran ərazilər.

Baş plan tərkibində tərtib olunmuş zonalaşdırma şəhər torpaqlarının mövcud istifadə xüsusiyyətlərini və şəhərin şəhərsalma xarakterini nəzərə alır, kompleks şəhərsalma təhlillərinə əsaslanır.

Aşağıda Baş plan cizgisində öz əksini tapan funksional zonaların siyahısı verilmişdir:

11.2. Zonalaşdırılma növləri

Şəmkir şəhərinin Baş planının Əsas Cizgisində aşağıdakı ərazi zonaları göstərilmişdir:

- yaşayış zonaları;
- ictimai-işgüzar zonalar;
- rekreasiya zonaları;
- istehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) zonaları;
- nəqliyyat infrastrukturu zonaları;
- mühəndis infrastrukturu zonaları;
- kənd təsərrüfatı zonaları;
- xüsusi təyinatlı zonalar (qəbiristanlıqlar, bərk məişət tullantıları poliqonları və s.);
- xüsusi şərtlərlə istifadə olunan ərazilər;
- hərbi və digər rejimli zonalar .

11.3. Ərazi zonalarının tərkibi, tikinti növü və miqyası

Yaşayış zonaları ərazisində müxtəlif növ yaşayış tikililərinin üstünlük təşkil etdiyi zonalardır. Çoxmənzilli binaların və həyətyanı torpaq sahələri olan fərdi yaşayış evlərinin tikintisi üçün nəzərdə tutulmuşdur.

Şəmkir şəhəri Baş planında ərazi orta və az mərtəbəli çox mənzilli binaların, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evlərinin, bloklaşdırılmış yaşayış binalarının tikintisi üçün zonalara bölünür. Baş planın cizgilərində növbəti yaşayış zonaları növləri fərqləndirilir:

- *orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları*
- *azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları*
- *həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri və bloklaşdırılmış yaşayış binaları*

Şəhərsalma normativ sənədlərinə müvafiq olaraq yaşayış zonalarında sosial və kommunal-məişət, mədəniyyət, məktəbəqədər və təhsil müəssisələri, səhiyyə müəssisələri (poliklinikalar, ambulatoriyalar), mühəndis infrastrukturu obyektləri (transformator yarımstansiyaları, nasoslar və s.) yerləşə bilər.

Yaşayış zonalarında həmçinin mehmanxanalar, yeraltı və yerüstü qarajlar, açıq avtomobil dayanacaqları, o cümlədən, ətraf mühitə mənfi təsir göstərməyən və sanitar-mühafizəsinin yaradılmasına ehtiyac olmayan istehsalat obyektləri yerləşə bilər.

Şəmkir şəhərinin Baş planında yaşayış zonalarının əsas inkişafı aşağıdakı meydançalarda aparılacaqdır:

- şəhərin şimal hissəsində Heydər Əliyev prospektinin magistral avtomobil yolu ilə kəsişməsi hissəsində azmərtəbəli və çoxmənzilli binaların yerləşdirilməsi;
- şəhərin sol sahilində - orta mərtəbəli və çoxmənzilli binaların yerləşmə zonası və yeni ictimai mərkəz ərazisində azmərtəbəli və çoxmənzilli binaların yerləşməsi;
- şəhərin sol sahil hissəsində Şiştəpə avtomobil yolundan şimala və cənuba doğru yerləşmiş həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri və bloklaşdırılmış yaşayış binaları zonası.

İctimai-işgüzar zonalar – ictimai, maliyyə və işgüzar mərkəzlərin, ictimai təşkilatların, mehmanxana və mehmanxana komplekslərinin, səhiyyə obyektlərinin (stasionarlar), idman, layihə, elmi-tədqiqat, kommersiya, ticarət obyektlərinin və ictimai iaşə obyektlərinin, o cümlədən onların açıq nəqliyyat dayanacaqlarının, yeraltı və yerüstü qarajların və digər təbiətin mühafizəsi tədbirlərinin həyata keçirilməsinə ehtiyac olmayan obyektlərin tikintisi üçün nəzərdə tutulmuşdur.

Şəmkir şəhərinin Baş planında ictimai-işgüzar zonaların genişləndirilməsi növbəti ərazilərdə nəzərdə tutulmuşdur:

- şəhərin şimal hissəsində - əsas nəqliyyat qovşağı ərazisində və magistral avtomobil yolu boyu;
- şəhərin cənub-şərq hissəsində (iri ticarət kompleksləri və digər xidmət obyektləri);
- çayın sol sahilində - sol sahil rayonun iri ictimai mərkəzi (kommersiya, idman, turizm-rekreasiya obyektləri);
- çayın sol sahilində - Şiştəpə kəndi ilə yeni tikililər arasındakı yeni rayonun qərb hissəsində.

Rekreasiya zonaları əhalinin istirahəti üçün nəzərdə tutulublar və bağları, parkları, xiyabanları, landşaft və memarlıq obyektlərini, turizm və rekreasiya obyektlərini əhatə edir. Rekreasiya zonalarında bu zonanın fəaliyyəti ilə əlaqədar olmayan sənaye, anbar, kommunal obyektlərinin tikintisinə, yaşayış təyinatlı yeni binaların tikintisinə və mövcud olanların artırılmasına icazə verilmir.

Baş planda Şəmkirin tarixi yaşıllaşmasının qorunub saxlanması, mövcud park və bağça obyektlərinin abadlaşdırılmasının davam etdirilməsi və sol sahildə dağətəyi və vadi landşaftından istifadə etməklə rekreasiya zonalarının inkişafı nəzərdə tutulmuşdur.

Layihə üzrə sol sahildə aşağıdakıların yaradılması planlaşdırılır:

- yeni iri park və idman komplekslərinin yaradılması;
- geniş yaşıllaşmış bulvarın (esplanadanın) yaradılması;

- kiçik çay vadilərinin xətti park və rekreasiya zonalarının yaradılması məqsədilə abadlaşdırılması;
- turizm və istirahət obyektlərinin tikintisi (dağ ətəyi zona ilə sərhəddə - planlaşdırılan şəhərin kənarından keçən avtomobil yolu boyu).

İstehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) zonaları - sənaye müəssisələrinin və müxtəlif təyinatlı komplekslərin yerləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu zonada ətraf mühitə mənfi təsir göstərən elmi-istehsalat obyektləri yerləşə bilər.

Baş planda şəhərin cənub-şərq hissəsində sənaye və kommunal-anbar obyektlərinin yerləşdirilməsi və burada iqtisadiyyatın istehsal sahəsində yeni iş yerlərinin açılması planlaşdırılır.

Yaşayış zonalarına nisbətdə sənaye obyektlərinin yerləşdirilməsi zamanı sanitar-mühafizə zonalarının yaradılması üzrə qüvvədə olan bütün normativ tələblərə riayət etmək lazımdır.

Nəqliyyat infrastrukturu zonaları - nəqliyyat obyektləri və komplekslərinin yerləşdiyi ərazilərdir. Bu əraziyə avtovağzal və şəhər daxilində yerləşən xırda nəqliyyat infrastrukturu obyektləri daxil edilir.

Mühəndis infrastrukturu zonaları - mühəndis infrastrukturu zonaları qaz, elektrik və rabitə xətləri və onların fasiləsiz fəaliyyətini təmin edən obyektlərin yerləşdiyi ərazilər daxildir. Mühəndis infrastrukturu obyektləri həyati əhəmiyyətə malikdirlər, onların yerləşmə zonaları xarici təsirlərdən və fəaliyyətlərini məhdudlaşdıran amillərdən qorunmalıdır.

Kənd təsərrüfatı zonaları – kənd təsərrüfatı təyinatı ilə istifadə olunan məkanların daxilində yerləşən ərazilərdir. Müvafiq əsaslandırma olduqda digər funksional təyinatlı zonaların inkişafı üçün ehtiyat zonası rolunu oynaya bilər.

Xüsusi təyinatlı zonalar – qəbiristanlıq, mal qəbiristanlıqları, tullantıların ilkin emalı müəssisələri, sənaye tullantıları poliqonları, təmizləmə qurğuları və fəaliyyəti yaşayış zonaları ilə birgə mümkün olmayan digər obyektlər yerləşən əraziləri əhatə edir.

Xüsusi şərtlərlə istifadə olunan ərazilər – bu növ ərazilərə şəhər sərhədləri daxilində dağətəyi və dağlıq ərazilər aid edilir. Bu ərazilər təbiətin mühafizəsi əhəmiyyətinə malikdir, məhdud şərtlər daxilində heyvandarlıq, turizm və rekreasiyanın inkişafı üçün istifadə oluna bilər.

Hərbi və digər rejimli zonalar – Azərbaycan Respublikası hökuməti tərəfindən təyin edilən xüsusi istifadə rejiminə malik olan ərazilərdir.

Ərazi zonalarında icazə verilən tikintinin həcmi "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar" Azərbaycan Respublikası Nazirlər Kabineti 51 №-li Qərar bənd 4.13 müvafiq olaraq müəyyənləşdirilir.

Cədvəl 11.1

Ərazi zonalarda yol verilən tikintinin miqyası

Ərazi zonaları	Ərazinin tikinti əmsalı	Ərazinin tikinti sıxlığı əmsalı
Yaşayış zonaları		
orta mərtəbəli çoxmənzilli yaşayış binalar	0,4	0,8
azmərtəbəli çoxmənzilli yaşayış binalar	0,4	0,6
mənzilyanı torpaq sahələr olan bloklaşdırılmış yaşayış binaları	0,3	0,6
həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	0,2	0,4
İctimai-işgüzar zonaları		
çoxfunksiyalı ictimai – işgüzar zona	1,0	3,0
ixtisaslaşdırılmış ictimai – işgüzar zona	0,8	2,4
İstehsalat zonaları		
sənaye	0,8	2,4

elmi-istehsalat	0,6	1,0
kommunal-anbar	0,6	1,8

Qeyd:

1.Tikinti sıxlığının əsas göstəriciləri:

1.1.Ərazinin tikinti əmsalı – bina və qurğuların altında olan sahələrin planda olan ərazinin *(məhəllənin)* ümumi sahəsinə olan nisbəti;

1.2.Ərazinin tikinti sıxlığı əmsalı – binanın bütün mərtəbələrinin ümumi sahəsinin planda olan ərazinin *(məhəllənin)* ümumi sahəsinə olan nisbəti;

2. Yaşayış və ictimai-işgüzar zonaların tikintisinin *(məhəllələrin ərazisinə)* tikinti və tikinti sıxlığı əmsalı qarajlar, avtomobil dayanacaqları, yaşıllıqlar, meydançalar və digər abadlaşdırma obyektləri nəzərə alınmaqla təqdim olunacaqdır.

Nisbətdə istehsalat zonası üçün məhəllənin sənaye tikililəri, o cümlədən, bir və ya bir neçə obyektlər nəzərə alınır.

3. Tikinti sıxlığı əmsalının müəyyənləşdirilməsi zamanı mərtəbələrin sayı binanın xarici ölçüləri ilə təyin olunur. Bura ancaq yerüstü mərtəbələr və mansardalar daxildir. Binaların yeraltı sahələri və yeraltı təmir işləri üçün nəzərdə tutulan qurğular nəzərə alınmır.

4. Məhəllələrin sərhədləri qırmızı xətt ilə nizamlanır.

5.Məhəllə daxili yaşayış zonalarının, ictimai-işgüzar zonaların yenidən qurulması üzrə işlər məhəllənin əhalisinə xidmət göstərən müəssisə və idarələrin hesabına aparılır. Həmçinin yaşayış yerlərinə bitişik obyektlərin xidməti də nəzərə alınır *(məktəbəqədər və ibtidai məktəblər istisna olmaqla).*

6. Mövcud binaların yenidən qurulması zamanı sanitar gigiyena və yanğın təhlükəsizliyi normaları nəzərə alındığı təqdirdə 30%-dən çox genişlənməyə icazə verilmir.

FƏSIL 12. TARİXİ VƏ MƏDƏNİ İRS OBYEKTLƏRİNİN MÜHAFIZƏSI

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" 2 avqust, 2001-ci il tarixli fərmanına əsasən Şəmkir şəhərində 1 mədəni irs obyekti - yerli əhəmiyyətli abidə var. Mədəniyyət Və Turizm Nazirliyi tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikası üzrə yeni aşkar olunmuş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında isə 4 abidə var. Aşağıdakı cədvəldə mədəni irs obyektlərinin siyahısı verilmişdir.

Cədvəl 12.1

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı

№	Obyektlərin adı	İnventar nömrəsi	Yerləşdiyi ərazi	Qeyd
1	Lüteran kilsəsi *(yerli əhəmiyyətli memarlıq abidəsi)*	4999	Şəmkir ş., Həzi Aslanov küç.	1909-cu il
Azərbaycan Respublikasında yeni aşkar olunmuş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı (Nazirlər Kabineti tərəfindən təsdiq edilməmiş)				
2	Şəmkir məscidi *(yeni aşkar olunmuş abidə)*	-	Şəmkir ş., Yaşar Muradov küç.	1998-ci il
3	Alman yaşayış evi *(yeni aşkar olunmuş abidə)*	-	Şəmkir ş., Səməd Vurğun küç., ev 159/1	1819-cu il
4	Alman kəhrizləri *(yeraltı su kəmərləri)* *(yeni aşkar olunmuş abidə)*	-	Şəmkir ş.	1895-ci il
5	Heydər Əliyev heykəli *(yeni aşkar olunmuş abidə)*	-	Şəmkir ş., Heydər Əliyev meydanı	2006-cı il

Mənbə: Cədvəl Şəmkir rayonu İcra Hakimiyyətinin məlumatları əsasında tərtib edilib. Şəmkir, 2015 il.

Şəmkir Lüteran kilsəsi 1909-cu ildə neoqotika stilində tikilmişdir və 1941-ci ilə qədər, yəni Cənubi Qafqaz almanlarının Orta Asiyaya köçürülməsinə qədər öz birbaşa təyinatı üzrə istifadə olunmuşdur.

Müasir dövrə qədər alman koloniyaçılarının yaşayış evləri və 19-cu əsrdə tikilmiş bir sıra digər tikililər də qorunub saxlanıb (əsrlik ağacları olan çəhər bağçaları və yeraltı kanallar – kəhrizlər). Hər bir qədim alman evinin dərin tutumlu zirzəmisi, otaqların rahat planlaşdırma quruluşu və yardımçı otaqları var. Əksər tikililər və yaşayış evləri qotika tərzində tikilmişdir və turistlər üçün maraq kəsb edir. Xüsusilə nizamlı planlaşdırma quruluşuna malık şəhər mərkəzi fərqlənir – burada 19-cu əsrdə alman kolonistləri tərəfindən şimaldan cənuba doğru salınmış dörd küçə vardır.

Yuxarıda adı sadalanan mədəni irs nümunələrinə əlavə olaraq son illər ərzində şəhər ərazisində bir sıra abidələr tikilmişdir – məscid, H. Əliyevin abidəsi, İkinci Dünya Müharibəsi iştirakçılarının abidəsi, Dövlət Bayraq Meydanı.

Tarixi və mədəni abidələrin mühafizəsi dövlətin mühüm vəzifəsidir. Tarixi və mədəni abidələr, 06.02.1998-ci il tarixli Azərbaycan Respublikası "Mədəniyyət haqqında", 10 Aprel 1998-ci il "Tarixi və mədəni abidələrin mühafizəsi" Qanunlarına, eləcə də "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında konvensiya" (Paris, 1992), "Arxeoloji irsin mühafizəsi haqda Avropa konvensiyası" (La Valetta, 1992) beynəlxalq sənədlərinə əsasən mühafizə, bərpa və istifadə olunur.

Tarixi və mədəni abidələrin pasportlaşdırılma sistemi SSRİ Ümumittifaq Mədəniyyət İnstitutu tərəfindən işlənib hazırlanmış vahid qurulmuş prinsip əsasında aparılmışdır. Hal-hazırda

Azərbaycanın abidələrinin elektron pasportlaşma və kataloqlaşdırmanın yeni milli standartları işlənib hazırlanmaqdadı.

Mühafizə zonalarının təyin olunması dövlət qanunu ilə müəyyənləşdirilməsinə baxmayaraq, onların yoxluğu abidələrin mühafizəsi sahəsində böyük problemlər yaradır. Abidələrin mühafizə zonasının yaradılması ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi məşğul olur, lakin o, ölkə ərazisindəki müxtəlif kateqoriyalı abidələrin mühafizəsi üzrə kifayət qədər səlahiyyətə malik deyildir.

Abidələrin dövlət səviyyəsində qorunması sahəsində fəaliyyətlərin mükəmməlləşdirilməsi məqsədi ilə yaxın perspektivdə aşağıda göstərilən işlərin görülməsi zəruridir:

- mövcud siyahılarla abidələrin araşdırması və beynəlxalq standartlara cavab verən tam yeni siyahının yaradılması;
- abidələrin mühafizəsi zonalarının müasir layihələrinin işlənib hazırlanması;
- tarixi və mədəni abidələrin pasportlaşdırılmasının başa çatdırılması;
- elmi əsaslandırılmış abidələr şəbəkəsinin yaradılması;
- abidələrin mövcudluğu və mühafizəsi tələblərinə cavab verən abidələrdən istifadə proqramının yaradılması;
- məqsədyönlü mühafizə və bərpa planının işlənib hazırlanması;
- mədəni irsin mühafizəsi və bərpası sahəsində təhsil sisteminin yaxşılaşdırılması;
- bərpa işlərinin milli istehsal bazasının yaradılması və təkmilləşdirilməsi;
- mədəni irsin mühafizəsi və bərpası sahəsində mövcud qanunvericiliyinin təkmilləşdirilməsi;
- obyektlərin inkişafı planlarının həyata keçirilməsi;
- gənc mütəxəssislərin Avropa ali məktəblərində təhsili.

Azərbaycan UNESCO yanında Dünya İrsi Mərkəzi ilə yaxından əməkdaşlıq edir. Bir çox ölkələrin mədəni irsinin qorunması sahəsindəki təcrübəsi öyrənilir. Beynəlxalq təşkilatlarla əməkdaşlıqlar yaradılmışdır.

Bərpa və konservasiya işləri əsasən, dövlət büdcəsindən maliyyələşdirməsi, yerli icra hakimiyyətinin büdcəsi, eləcə də fiziki şəxslərin, xarici və beynəlxalq təşkilatların dotasiyadan istifadəsi hesabına həyata keçirilir.

Şəmkir şəhəri ərazisində mədəni irs obyektlərinin qorunması və istifadəsi təklifləri aşağıdakı sənədlərin vəzifələri və nəticələrinə əsasən verilmişdir:

- "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı";
- "Azərbaycan – 2020: gələcəyə baxış" konsepsiyasının təkmilləşdirilməsi.

Daşınmaz tarixi və mədəni abidələrin bərpası və mühafizəsi, tarixi və mədəni qoruqların mükəmməlləşdirilməsi və fəaliyyətinin yaxşılaşdırılması üzrə Dövlət proqramının qəbul edilməsi məqsədi ilə 2013-2020-ci illərdə bu sahədə vahid elektron sorğu bazası və reyestri yaradılacaqdır.

Azərbaycan Respublikasında sosial, iqtisadi və mədəni inkişafı nəzərə alaraq, muzey işinə yeni yanaşmanın təmin olunması və muzey fondlarında saxlanılan əşyaların tam mühafizəsi məqsədilə aşağıdakılar nəzərdə tutulur:

- muzey əşyaları haqqında beynəlxalq tələblərə cavab verən elektron məlumat bazasının yaradılması və muzeylərin mərkəzləşmiş informasiya sisteminin təşkili;
- muzeylərin əsaslı təmiri və onların maddi-texniki bazasının artırılması, həmçinin yeni muzeylərin açılması istiqamətində işlərin gücləndirilməsi.

Azərbaycan xalqının ənənə və adətlərinin təbliği üzrə tədbirlər:

- Azərbaycan xalqının milli bayramları və mərasimlərinin saxlanması;

- milli musiqi və rəqslərin dəstəklənməsi, şifahi xalq yaradıcılığının mühafizəsi, milli oyunların və tamaşaların bərpa olunması;
- zəngin təsviri, dekorativ və miniatür ənənələrin inkişaf etdirilməsi.

Mədəni irs obyektlərinin və onların kompleksləri ilə əlaqədar olaraq aşağıdakı bərpa, yenidən qurulma, konservasiya və gələcəkdə hesablama dövrü və birinci növbədə istifadəyə uyğunlaşmasını təmin edən tədbirlər planlaşdırılır.

Birinci növbəli tədbirlər (2015-2025-ci illər):

- Şəmkir şəhərində yerləşən tarixi-mədəni və memarlıq abidələrinin bərpası, o cümlədən:
  - Alman yaşayış binaları, alman kəhrizləri (2018-2020-ci illər);
  - Lüteran kilsəsinin binası (2020-2025-ci illər);
- Şəhərin tarixi (alman) hissəsində yerləşən memarlıq və heykəltaraşlıq irsi obyektlərinin mühafizə zonalarının layihələrinin hazırlanması və təsdiq olunması.

Hesablama dövrü üzrə tədbirlər (2035-ci ilə qədər)

- Şəhərin tarixi mərkəzinin muzeyləşdirilməsi, buranın fəal turist istifadəsi üçün uyğunlaşdırılması.

FƏSIL 13. XARİCİ VƏ ŞƏHƏRDAXİLİ NƏQLİYYAT

13.1. Ümumi məlumat

Şəmkir şəhəri Bakı-Tbilisi istiqamətində avtomobil və dəmiryol xətti ilə təmsil olunan mühüm "TRASEKA" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin üzərində yerləşməklə çox əlverişli nəqliyyat-coğrafi mövqeyə malikdir. Hal-hazırda tarixi İpək Yolunun bərpası layihəsi çərçivəsində bu ərazinin inkişafına xüsusi diqqət yetirilir.

Şəmkir şəhərinin xarici nəqliyyat-iqtisadi əlaqələri istər yükdaşıma, istərsə də sərnişin daşıması üzrə əsas işi yerinə yetirən dəmiryol və avtomobil nəqliyyatına istiqamətlənmişdir.

Şəhər Gəncə-Qazax iqtisadi rayonunun ən iri yaşayış məntəqəsi və Azərbaycan Respublikasının böyüklüyünə görə ikinci ən iri şəhəri Gəncə şəhərindən 35 km məsafədə yerləşmişdir.

Müntəzəm sərnişin daşımaları avtomobil və dəmiryol nəqliyyatı vasitəsilə Bakı, Tbilisi, Gəncə şəhərlərarası və beynəlxalq istiqamətlərində, həmçinin şəhərətrafı istiqamətlərdə həyata keçirilir.

Nəqliyyat-planlaşdırma karkası ümumilikdə şəhərin əsas inkişaf istiqamətlərinə uyğun gəlir. Fərqləndirici xüsusiyyəti Şəmkirin mərkəzi hissəsində tarixən bərqərar olmuş paralel küçələrin düzbucaqlı quruluşudur. Şəhər şəhərdaxili avtobus sərnişin daşıma nəqliyyatına (avtobuslar) malikdir.

Nəqliyyat infrastrukturunun inkişafı şəhərin nəqliyyat-coğrafi potensialını həyata keçirməyə, iqtisadi yüksəlişi təmin etməyə və yük və sərnişin daşımalarına olan tələbatı ödəməyə imkan verən ən aktual strateji istiqamətlərdən biridir.

Xarici və şəhərdaxili nəqliyyat infrastrukturunun inkişafı sahəsində Baş planın layihə tədbirləri mövcud vəziyyətin təhlilinə əsaslanır və mövcud sənədlərin tələblərini nəzərə alır:

- "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı";
- "Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşma, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi".

Fəslin hazırlanması zamanı Azərbaycan Respublikasının nəqliyyat infrastrukturu sahəsində mövcud normativ-hüquqi sənədlərinin tələbləri nəzərə alınmışdır.

13.2. Dəmiryol nəqliyyatı

Bakı – Böyük Kəsik – Bakı respublika əhəmiyyətli dəmiryol xətti şəhərin şimal sərhədi boyu keçir və onun ərazisini yaxınlıqda yerləşən yaşayış məntəqələrinin (Sarıtəpə, Dəllər Cəyir) ərazisindən ayırır. Dəmir yolu iki xətlidir, şəhər sərhədləri daxilində uzunluğu 2,2 km təşkil edir.

Dəmiryol xətti ilə Azərbaycan Respublikasının Gürcüstanla əlaqəsi həyata keçirilir, həmçinin iqtisadi rayonların yerli işlərinin Bakı və digər iri şəhərlərlə xidməti həyata keçirilir.

Şəhərə yaxın dəmiryol stansiyası – Dəllər şəhərin mərkəz dairəvi meydanından 4 km məsafədə yerləşir və iki inzibati rayona – Şəmkir və Gədəbəyə xidmət edir. İcra edilən işin xüsusiyyətlərinə əsasən stansiya III sinif yük-sərnişin daşıma stansiyası rolunu oynayır. Xidmət edən yolların sayı 6, əsas yollar 4-dür.

Stansiya tikinti materialları (o cümlədən daş karxanalarının), polimetal mədənlərinin, kənd təsərrüfatı məhsullarının daşımalarının əsas həcmini yerinə yetirir. 2014-cü ildə stansiyanın yük dövriyyəsi 2 600 vaqon təşkil etmişdir, 128,75 min ton yük yola salınmışdır.

Stansiyanın cənub hissəsində dəmiryol vağzalı yerləşmişdir. Vağzal 1996-cı ildə tikilmişdir, son dəfə 2014-cü ildə təmir olunmuşdur.

Hər gün stansiyadan Bakı – Böyük Kəsik – Bakı, Bakı – Ağstafa – Bakı, Bakı – Tbilisi – Bakı istiqamətində sərnişin qatarları yola düşür. 2014-cü ildə stansiyadan yerli istiqamətlərdə 147 min nəfər yola salınmışdır.

Dəmiryolunun su maneələri ilə (Cəyirçay) kəsişmə hissələrində körpülər salınmışdır.

Dəmiryol nəqliyyatının inkişafı

Hal-hazırda tarixi İpək Yolunun ("TRASEKA") bərpa olunması layihəsi çərçivəsində Bakı – Tbilisi – Qars istiqamətli dəmiryol istiqamətinin təşkili üzrə, Gürcüstan və Türkiyə ilə birgə layihə hazırlanmışdır. Bu istiqamətin həyata keçirilməsi Asiya və Avropa ölkələri arasında birbaşa dəmiryol əlaqəsinin yaranmasına və Azərbaycan Respublikasının tranzit imkanlarını yüksəltməyə imkan verəcəkdir.

Bakı – Böyük Kəsik – Bakı dəmiryol magistralının planlaşdırılan beynəlxalq dəmiryol dəhlizinin tərkibinə daxil edilməsi mövcud dəmiryol xəttinin infrastrukturunda bir sıra kompleks yenidənqurma işlərinin aparılmasını labüd edəcəkdir:

- yol təsərrüfatı infrastrukturunun müasirləşdirilməsi (relslərin, şpalların, nişanların və siqnal qurğularının əvəz olunması);
- stansiyalarda qatarların hərəkəti yeni mikroprosessor mərkəzləşmə sistemi ilə həyata keçirilməsi;
- qatarların hərəkəti sabit cərəyandan dəyişən cərəyana keçirilməsi.

Bu tədbirlərin həyata keçirilməsi qatarların sürətli (90 km/saat) hərəkət rejiminin təmin olunmasına istiqamətlənmişdir.

"Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşma, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi"ndə Gəncə və Şəmkir arasında bu rayonların mədəni-tarixi imkanlarının istifadəsi məqsədilə kiçik dəmiryol sisteminin (tramvay) təşkili təklif olunur. Bu tədbirin lazımlılığının əsaslandırılması gələcək sərnişin axınının hesablanması ilə xüsusi layihə işinin aparılmasını tələb edir. Bu layihədə mövcud avtomobil yolu Y-57-11 Şəmkir – Abbaslı – Nərimanlı yolu boyu gələcək dəmiryol xəttinin salınması üçün ərazinin ehtiyata alınması nəzərdə tutulur.

13.3. Avtomobil nəqliyyatı və xarici avtomobil yolları

Avtomobil nəqliyyatı

Şəhər xarici avtomobil yolları ilə şəhərlərarası və şəhərdaxili avtobus daşımaları həyata keçirilir.

Şəhərlərarası avtobus marşrutları aşağıda göstərilən istiqamətlərdə həyata keçirilir:

"Sınıq Körpü"–Bakı, Qazax–Bakı, Gədəbəy–Bakı, Saratovka–Bakı. Şəhərətrafı avtobuslar yola düşmə və çatma məntəqələri şəhər sərhədləri daxilində Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolunun kənarında yerləşir.

Sərnişinlərin müntəzəm olaraq şəhərətrafı istiqamətlərdə daşınması Gəncə-Qazax iqtisadi rayonu ərazisi daxilində həyata keçirilir və şəhəri ona yaxın yaşayış məntəqələri ilə - Gəncə, Kür, Keçili, Şəmkir dəmiryol stansiyası, Dəllər, İrmaşlı, Zəyəm Cirdaxan, Qapanlı, Yeni Həyat, Çinarlı, Abbaslı, Qaracəmirli, Sabirkənd, Şıştəpə, Əliyaqublu, Muxtariyyət, Düyərli ilə əlaqələndirir. Həmçinin şəhər ərazisindən tranzit şəhərətrafı yollar keçir (Gəncə-Zəyəm).

Gündəlik olaraq şəhərdən ümumi uzunluğu 200,6 km olan 9 marşrutla 264 reys həyata keçirilir. Şəhərətrafı nəqliyyatda sərnişin daşınması il ərzində 1 853 nəfər təşkil etmiş, sərnişin dövriyyəsi isə - 30 599 sərnişin/km. Daşımalar "Mersedes" markalı kiçik və orta böyüklükdə olan avtobuslar vasitəsilə həyata keçirilir. Avtobusların orta istismar sürəti 30-35 km/saat təşkil edir. Xəttə buraxılışın illik orta əmsalı 0,7-dir. Şəmkir şəhərinə xidmət göstərən bütün şəhərətrafı marşrutların xüsusiyyətləri Cədvəl 13.1-də verilmişdir.

Sərnişinlərin şəhərətrafı istiqamətlərdə yola salınması Şəmkir şəhər vağzalından həyata keçirilir, vağzal 20 Yanvar küçəsi 11 ünvanında yerləşir. Mövcud sərnişin axınının həcmi üçün vağzalın tutumu azdır və cəmi 25 nəfər təşkil edir.

Cədvəl 13.1

Şəmkir şəhərinə xidmət göstərən şəhərətrafı avtobus marşrutlarının xarakteristikası

№	Avtobus marşrutlarının adı	Marşrutun №-si	Marşrutun uzunluğu, km	İstismar sürəti, km/st	Marşrut üzrə xəttə buraxılış əmsalı	Marşrutda işləyən avtobusların sayı	Marşrut üzrə gündəlik reyslərin sayı	Orta hərəkət intervalı, dəq	İl ərzində sərnişin daşınmaları, min sərnişin	İl ərzində yerinə yetirilən sərnişin-kilometr (min sərnişin-km)	Nəqliyyat vasitələrinin orta illik doldurma əmsalı	Avtobus markası	Avtobus növü
1	Şəmkir – Gəncə	22	36,0	35-40	0,9	8	64	20	467,2	12147,2	0,8	Mercedes	Kiçik- və orta qabaritli
2	Şəmkir – Kür	2	26,0	10	0,9	10	60	15	364,8	7296	0,7	Mercedes	Kiçik- və orta qabaritli
3	Şəmkir – Keçili	6	20,5	30-35	0,9	3	18		98,6	1538,2	0,6	Mercedes	Kiçik- və orta qabaritli
4	Şəmkir – Şəmkir d/y st.	8	15,8	30-35	0,9	1	10	145	40,2	502	0,7	Mercedes	Kiçik qabaritli
5	Şəmkir – Dəllər	1	5,8	30-35	0,9	4	96	15	479	1916,4	0,9	Mercedes	Orta qabaritli
6	Şəmkir – İrmaşlı	5	16,6	30-35	0,9	2	20	80	102,2	1328,6	0,7	Mercedes	Kiçik- və orta qabaritli
7	Şəmkir – Zəyəm Cırdaxan	7	30,0	30-35	0,9	1	6	210	25	549,2	0,6	Mercedes	Kiçik- və orta qabaritli
8	Şəmkir - Qapanlı	4	28,4	30-35	1,0	3	18	60	105,2	2417,8	0,8	Mercedes	Kiçik qabaritli
9	Şəmkir – Zəyəm	3	21,5	30-35	1,0	6	36	30	170,8	2903,6	0,7	Mercedes	Kiçik qabaritli
	CƏMİ		**200,6**				**328**		**1853,0**	**30599,0**			

Mənbə: DANX-nin "10 saylı Şəmkir Regional Nəqliyyat" MMC-nin məlumatları əsasında tərtib olunub.

Xarici avtomobil yolları

Şəhər ərazisi M-2 Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi respublika əhəmiyyətli avtomobil yolu ilə təmsil olunan "TRASEKA" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi zonasında yerləşir. Avtomobil yolu şəhərin şimal sərhədi boyu dəmiryolu ilə eyni dəhlizdən keçir və həm Azərbaycan Respublikası daxilində, həm də qonşu ölkələrlə nəqliyyat əlaqəsini təmin edir.

Avtomobil yolu əsas tranzit nəqliyyat işini, o cümlədən yük nəqliyyatının əsaslı axını işini yerinə yetirir. Avtomobil yolu şəhərin şimal-şərq hissəsində mövcud yaşayış tikililərindən yaxın keçir, bu da yerli əhalinin yaşama mühitinə və ümumilikdə şəhərin ekoloji vəziyyətinə mənfi təsir göstərir.

Şəhər ərazisindən keçən və Şəmkirlə Gədəbəy inzibati rayonlarını əlaqələndirən respublika əhəmiyyətli nəqliyyat yollarının sıralarına Şəmkir-Gədəbəy avtomobil yolunu (R-22) da aid etmək lazımdır. Bu avtomobil yolu şəhərin mərkəzi hissəsinin kənarından keçir və Dəllər dəmiryol stansiyasına birbaşa çıxışı təmin edir.

Cədvəl 13.2

Şəhər ərazisindən keçən avtomobil yollarının texniki göstəriciləri

№	Yolun adı	Yolun indeksi və nömrəsi	Kateqoriya	Torpaq yatağının eni, m.	Hərəkət hissəsinin eni, m.	Şəhər sərhədləri daxilində uzunluğu, km	Hərəkət hissəsi örtüyünün növü
Respublika əhəmiyyətli							
1	Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi	M-2	II	25,0	9,0	10,8	asfaltbeton
2	Şəmkir – Gədəbəy	R-22	III	10,0	7,0	19,2	asfaltbeton
Yerli əhəmiyyətli							
3	Şəmkir – Zəyəm – Düyərli	Y-57-10	III	10,0	7,0	4,0	asfaltbeton
4	Şəmkir – Şıştəpə – Dağ Tatar	Y-57-16	III	10,0	7,0	5,2	asfaltbeton
5	Şəmkir – Abbaslı – Nərimanlı	Y-57-11	III	10,0	7,0	5,3	asfaltbeton
6	R-22 (4 km) – Yeni Göyçə – Dağ Cəyir	Y-57-12	III	8-12	7	1,7	asfaltbeton
7	M-2 (392 km) – Şəmkir	Y-57-05	I	-	9-15*	1,0	asfaltbeton
8	M-2 (398 km) – Sarıtəpə	Y-57-08	İV	15,0	17,5	1,5	qraviy
	CƏMİ					**48,7**	

Mənbə: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli, 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yerli əhəmiyyətli avtomobil yollarının siyahısı".

**Həmin yol 5 zolaqdan ibarətdir, şəhərə doğru – 3 zolaq, şəhərdən çıxış isə - 2 zolaq. Bunların arasında yaşıllıq zolağı var. Yolun kənarlarını da yaşıllıq təşkil edir*

Avtomobil yollarının süni və təbii maneələrlə kəsişmə yerlərində süni yol qurğuları vardır:

- Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi, Şəmkir – Gədəbəy və Şəmkir – Zəyəm – Düyərli avtomobil yollarının Cəyirçayla kəsişmə yerlərində körpülər;
- Şəmkir – Gədəbəy avtomobil yolunun sonunda Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolu ilə kəsişməsində yol ötürücüsü.

Bakı–Ələt–Qazax–Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolunun Heydər Əliyev prospekti ilə kəsişməsində bir səviyyəli dairəvi qovşaq vardır.

Avtomobil nəqliyyatın və xarici avtomobil yollarının inkişafı

Xarici avtomobil yollarının və avtomobil nəqliyyatının inkişafı sahəsində "Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşma, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi"ndə aşağıda göstərilən tədbirlər nəzərdə tutulmuşdur:

- M-2 Bakı – Ələt – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolunun I kateqoriya parametrlərinə müvafiq olaraq sürətli hərəkət rejimin təmin olunması məqsədilə digər yollarla kəsişmələrinin müxtəlif səviyyələrdə təşkil olunması ilə kompleks yenilənməsi.

Bu istiqamətdə olan yenidənqurma işlərinin tarixi İpək Yolunun bərpası layihəsi çərçivəsində həyata keçirilməsi nəzərdə tutulmuşdur ("TRASEKA" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi).

Burada, mövcud layihə təkliflərinə uyğun olaraq M-2 avtomobil magistralı boyu Şəmkirin, Dəllər qəsəbəsinin və Dəllər Cəyirinin kənarından keçən dövrələmə yolun tikintisi nəzərdə tutulmuşdur. Planlaşdırılan yolun mövcud magistral yoluna birləşdirilməsi müxtəlif səviyyəli yol qovşaqları vasitəsilə həyata keçiriləcəkdir. Bu tədbirlərin həyata keçirilməsi mövcud yollara düşən yükün tranzit daşıma axınlarının şəhərin yaşayış zonaları kənarına çıxarılması hesabına azaldılmasına imkan verəcəkdir.

- Yerli əhəmiyyətli avtomobil yollarının yenidən qurulması, əsaslı təmiri: Şəmkir – Şiştəpə – Dağ Tatar, Yeni Göyçə – Dağ Cəyir, Şəmkir – Abbaslı – Nərimanlı.

Yeni Göyçə – Dağ Cəyir avtomobil yolunun kompleks yenidən qurulması üzrə tədbirlər "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"na müvafiq olaraq birinci növbə üçün nəzərdə tutulmuşdur.

Əhali daşıması xidmətinin keyfiyyətinin artırılması məqsədilə, həmçinin şəhərin turist cəlbediciliyi artırmaq üçün, bu layihədə əvvəlki Baş planda təklif olunan 100 sərnişin yeri olan avtovağzalın tikintisi tədbirini nəzərə almaq təklif olunur.

13.4. Şəhərin küçə - yol şəbəkəsi

Şəhər küçələri və yolları

Şəmkir şəhərinin nəqliyyat-planlaşdırma karkası düzbucaqlı quruluşa malikdir, tarixən mərkəzi hissədə dar küçələrin yaratdığı və zamanla yarımdairəvi və radial istiqamətli yollarla tamamlanan paralel yol şəbəkəsi ilə fərqlənir.

Şəhərin nəqliyyat karkasının əsas uzununa xətlərinə aşağıdakı yollar aiddir:

- ümumşəhər əhəmiyyətli magistral yollar: Heydər Əliyev prospekti, Həzi Aslanov küçəsi, İsrafil Məmmədov küçəsi, Nizami küçəsi;
- rayon əhəmiyyətli magistrallar: Şəmkir küç., Elpərəst Hüseynov küç. R. Rəhimov küç, Nəriman Nərimanov küç., Cavanşir küç.

Əsas radial və köndələn istiqamətlər aşağıdakı magistrallarla təyin olunur:

- ümumşəhər əhəmiyyətli magistrallar yolları: Şixəli Qurbanov küç. – Cavanşir küç., 20 Yanvar küç., Molla Pənah Vaqif küç. – Hüseyn Cavid küç., Əhməd Cavad küç. – Gülüstan küç. – Elşən Allahverdiyev küç.;
- rayon əhəmiyyətli magistrallar: Sərxan küç., Məhəmməd Füzuli küç., Şahlar Musayev küç., Əbil İsmayılov küç., Məhəmməd Hüseyn Şəhriyar küç., Sevil Qazıyeva küç.

Yarımdairəvi istiqamətlərdə şəhəri qərbdən keçən, Şəmkir-Gədəbəy avtomobil yolu istiqaməti uyğun gələn dövrələmə yol fərqlənir. Bundan başqa tam fəaliyyət göstərməyən Zaur Sarıyev küçəsi istiqamətində Hüseyn Cavid küçəsinə qədər daha sonra isə Niyazi – Rəsul Rza küçələri ilə 20 Yanvar küçəsinə qədər gedən yarımdairəvi yolu göstərmək olar.

Şəhərin qərb dolayı yolu yük nəqliyyatını şəhərin sağ sahili kənarlarına çıxarmağa imkan verir. Hal-hazırda dolayı yola birləşən ərazilərdə fəal surətdə fərdi yaşayış evlərinin tikintisi aparılır, bununla əlaqədar olaraq bu yol daha çox şəhər magistralı yolunun funksiyalarını yerinə yetirməyə başlamışdır.

Şəhər tikililərinin xüsusiyyətlərini (fərdi yaşayış evləri) nəzərə alsaq mövcud küçə və yolların parametrlərinin şəhər küçə-yol şəbəkəsinə verilən normativ tələblərə (AzDTN 2.6-1 "Dövlət Tikinti Normaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması") uyğun gəlmədiyini görürük. Magistral yollarının layihədə qəbul olunmuş eni 15-20 m təşkil edir, bəzi yerlərdə isə 10 m çox deyil. İstisna şəhərin mərkəzi xəttidir – Heydər Əliyev prospekti, eni M-2 Bakı – Qazax – Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolundan Əhməd Cavad küçəsinə qədər 40 m təşkil edir.

Şəhərin mərkəzi hissəsində paralel küçələr sırasında küçələrin ötürmə qabiliyyətini artırmaq məqsədilə nəqliyyatın birtərəfli hərəkəti təşkil olunmuşdur.

Küçə-yol şəbəkəsinin şəhər daxilində ümumi uzunluğu 229,2 km təşkil edir, bunlardan Sarıtəpə yaşayış hissəsinə aid olanı 14,3 km-dir. Magistral yol və küçələrin uzunluğu – 54,1 km-dir. Magistral şəbəkənin tikili ərazilərdə sıxlığı 2,0 km/km^2 təşkil edir.

Şəhərin park zonalarında və Heydər Əliyev prospekti boyu piyada və velosiped hərəkəti üçün rahat zonalar yaradılmışdır: bulvarlar, xiyabanlar, velosiped cığırları.

Heydər Əliyev prospektinin, General Həzi Aslanov küç, Hüseyn Cavid küç. kəsişməsində bir səviyyəli dairəvi qovşaq tikilmişdir.

Mühəndis qurğuları

Şəhər ərazisi təbii planlaşdırma xətti ilə - Cəyirçay vasitəsilə 2 rayona (hissəyə) ayrılmışdır, onlar arasındakı əlaqə isə aşağıdakı yolların qurtaracağında 5 körpü vasitəsilə həyata keçirilir:

- şəhərin qərb dövrələmə yolu (Şəmkir – Gədəbəy avtomobil yolu);
- Şıxəli Qurbanov küçəsi;
- Məhəmməd Hüseyn Şəhriyar küçəsi;
- Heydər Əliyev prospektindən Şəmkir – Gədəbəy avtomobil yoluna dönüş.

<u>Küçə-yol şəbəkəsinin inkişafı</u>

Şəhərin nəqliyyat karkasının inkişafı və mükəmməlləşdirilməsi üzrə layihə təklifləri növbəti konseptual müddəalara əsaslanmışdır:

— şəhər daxilində küçə-yol şəbəkəsinin yenidən qurulması və əsaslı təmiri hesabına fasiləsiz nəqliyyat axınının təmin olunması;

— mövcud magistral küçə-yol şəbəkəsinin quruluşunun mükəmməlləşdirilməsi, sol və sağ sahil hissələri arasında tam nəqliyyat əlaqələrinin təmin olunması;

— şəhərin mövcud və yeni planlaşdırma meydançaları arasında və xarici avtomobil yolları şəbəkəsi ilə əlaqələrinin gücləndirilməsi;

— yaşıllaşmış piyada və velosiped cığırları sisteminin təşkili ilə rahat şəhər mühitinin formalaşdırılması.

Layihədə şəhərin sol sahilində mənimsənilməsi planlaşdırılan ərazilərdə küçə-yol şəbəkəsinin fəal inkişafı nəzərdə tutulmuşdur:

- Şəmkir – Şiştəpə təkraredən yolunun formalaşdırılması, istiqaməti M.A.Əhmədov küçəsindən Şiştəpə kəndinin sərhədinə qədər ümumşəhər əhəmiyyətli magistralı (uzunluğu 5,6 km);

- layihə meydançaları arasında nəqliyyat əlaqəsini təmin edən rayon əhəmiyyətli magistral yolların tikintisi və ümumşəhər əhəmiyyətli magistrallara çıxışlar (ümumi uzunluğu 17,0 km);
- yaşayış tikililəri ərazisində yerli nəqliyyat və piyada əlaqəsini təmin edən küçə və yolların tikintisi (ümumi uzunluğu 31,2 km).

Mövcud tikililər daxilində nəqliyyat karkasının inkişafı aşağıda göstərilən magistral istiqamətlərinin formalaşması hesabına planlaşdırılır:

- Zaur Əliyev küçəsi – Rəsul Rza küçəsi istiqamətində Şəmkir-Gədəbəy avtomobil yolundan (şəhərin qərb dövrələmə yolu) 20 Yanvar küçəsinə qədər tam yararlı yarımdairəvi magistralın formalaşdırılması (4,5 km);
- planlaşdırılan şəhər xəstəxanası ilə əlaqəni təmin edən rayon əhəmiyyətli magistralın tikintisi (0,6 km);
- Sevil Qazıyeva küçəsi istiqamətində Cəyirçayın üstündən körpü keçidin salınması və şəhərin qərb dövrələmə yoluna çıxmaqla rayon əhəmiyyətli magistralın formalaşdırılması (2,6 km);
- M-2 Bakı-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolu boyu şəhərin şimal-şərq hissəsində planlaşdırılan orta mərtəbəli binaların tikiləcəyi ərazidə yerli əhəmiyyətli küçələrin salınması;
- M.A.Əhmədov küçəsinin (dalan 10) davam edərək sahilə enməsi və M.A.Əhmədov küçəsinə (dalan 1) qoşulması (1,3 km);
- 28 may küçəsi ilə planlaşdırılan qəbiristanlığı yolların tikintisi (0,3 km);
- planlaşdırılan istehsalat zonalarına xidmət edən 20 Yanvar küçəsinin təkraredici yolunun tikintisi (3,0 km).

Layihədə Yeni Həyat yaşayış məntəqəsinin sərhədində Şəmkirçayın sahilində yerləşəcək planlaşdırılan turizm-rekreasiya kompleksinə giriş yollarının təşkili nəzərdə tutulmuşdur (0,9 km).

Planlaşdırılan küçə və yolların parametrləri layihədə qəbul edilmiş küçə-yol şəbəkəsinin təsnifatından asılı olaraq AzDTN 2.6-1 "Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlanlaşdırılması və tikilib abadlaşdırılması" normativ tələblərinə müvafiq olmalıdır.

Hesablama dövrünün sonuna qədər magistral küçə-yol şəbəkəsinin ümumi uzunluğu 94,4 km təşkil edəcəkdir. Tikilmiş ərazilərdə magistral şəbəkənin sıxlığı 2,0 km/km^2-dən 2,9 km/ km^2-ə qədər qalxacaqdır ki, bu da şəhər ərazisində nəqliyyat xidmətinin əsaslı şəkildə artmasına dəlalət edir.

Layihədə mövcud küçə-yol şəbəkəsinin hərəkət hissələrinin qrunt örtüyünün bərk örtüklə əvəz olunması ilə əsaslı təmiri hesabına normativ vəziyyətə salınması nəzərdə tutulur. Bu təkliflərin həyata keçirilməsi müntəzəm nəqliyyat əlaqəsinin təşkilinə və yol hərəkəti təhlükəsizliyinin artırılması üçün lazım olan şəraiti yaratmağa imkan verəcəkdir.

Yeni mənzil tikintisi ərazilərdə rayon əhəmiyyətli magistral küçələrin kəsişməsində bir səviyyəli dairəvi qovşaqların yaradılması planlaşdırılır.

Layihədə piyada və velosiped hərəkəti üçün rahat şəhər mühitinin formalaşdırılması nəzərdə tutulmuşdur ki, bu da piyada istiqamətləri və zonalarının təşkilini, rekreasiya zonalarında velosiped çığırlarının yaradılmasını nəzərdə tutur.

13.5. Şəhərdaxili ictimai nəqliyyat

Şəhərdaxili sərnişin daşımaları avtobuslar vasitəsilə həyata keçirilir. Şəhərdə 4 avtobus marşrutu fəaliyyət göstərir, hər gün 150 reys həyata keçirilir. Şəhər avtobus marşrutlarının ətraflı xüsusiyyətləri Cədvəl 13.4-də verilmişdir. Ümumilikdə şəhər üzrə şəhərdaxili avtobusların iş xüsusiyyətləri aşağıdakılardır:

— il ərzində sərnişin daşınması – 569,6 min nəfər;

— il ərzində yerinə yetirilən sərnişin-kilometr – 1662,0 min. sərnişin-km;

— avtobusların xəttə buraxılma əmsalı – 100%

— nəqliyyat vasitələrinin orta illik doldurma əmsalı) – 90 %;

— sutkalıq iş rejimi – 7:45 – 19:10;

— orta gediş məsafəsi – 2,9 km;

— avtobusun istismar surəti 18 km/st;

— orta hərəkət intervalı – 20-40 dəqiqə

Cədvəl 13.3

Şəmkir şəhərinə xidmət göstərən şəhərdaxili avtobus marşrutlarının xarakteristikası

№	Avtobus marşrutlarının adı	Marşrutun uzunluğu, km	Marşrut üzrə xəttə buraxılış əmsalı	Marşrutda işləyən avtobusların sayı	Marşrut üzrə gündəlik reyslərin sayı	Orta hərəkət intervalı, dəq	İl ərzində sərnişin daşınmaları, min sərnişin	İl ərzində yerinə yetirilən sərnişin-kilometr (min sərnişin-km)	Nəqliyyat vasitələrinin orta illik doldurma əmsalı	Avtobus markası	Avtobus növü
1	1-saylı şəhərdaxili	4,2	1,0	1	30	20	153,4	431,4	0,9	“Mercedes”	Kiçik- və orta qabaritli
2	2-saylı şəhərdaxili	3,8	1,0	2	60	20	306,6	858,4	0,9	“Mercedes”	Kiçik- və orta qabaritli
3	3-saylı şəhərdaxili	4,3	1,0	1	60	40	109,6	372,2	0,9	“Qazel”	Kiçik- və orta qabaritli
4	4-saylı şəhərdaxili[1]	5,7	-	1	-	-	-	-	-	-	-
	CƏMİ	18,0		5	150		569,6	1662,0		-	-

Mənbə: DANX-nin “10 saylı Şəmkir Regional Nəqliyyat” MMC-nin məlumatları əsasında tərtib olunub

Şəhər daxili avtobus marşrutlarında orta və kiçik tutumlu 5 ədəd nəqliyyat vasitələri işləyir.

İctimai nəqliyyatda əhalinin hərəkətliliyi 1 nəfərə il ərzində 15 gedişdir. İctimai nəqliyyatlı küçə-yol şəbəkəsinin uzunluğu 21,2 km, tikilmiş ərazilərdə onun sıxlığı isə - 0,9 km/km^2 təşkil edir ki, bu da mövcud normativlərdən biraz aşağıdır.

Şəhər ərazisinin mühüm bir hissəsi ictimai nəqliyyat dayanacaqlarına qədər olan normativ məsafə göstəriciləri daxilində yerləşmir, bu da əhalinin ictimai nəqliyyatla təminatının aşağı səviyyədə olmasını xarakterizə edir.

İctimai nəqliyyat şəbəkəsinin inkişafı

Şəhər ərazisinin maksimum əlçatarlığının təmin olunması və nəqliyyat xidməti səviyyəsinin artırılması, əhalinin lazımi səviyyədə ictimai nəqliyyatla təmin olunması üçün avtobusların marşrut şəbəkəsinin əhəmiyyətli dərəcədə inkişafı nəzərdə tutulur.

[1] 4№-li şəhərdaxili marşrut haqqında məlumatlar mövcud deyil

Şəhər küçələrinin və avtobuslu yolların uzunluğu hesablama dövrü üçün artaraq 21,2 km-dən 55,6 km-ə qədər çatması, tikili ərazilərdə onun sıxlığının isə 0,9-dan 1,9 km/km^2-ə çatması planlaşdırılır ki, bu da mövcud normativlərə uyğundur.

Ictimai sərnişindaşıma nəqliyyatının inkişaf parametrləri daşımalara olan gözlənilən tələbatdan, marşrut şəbəkəsinin təklif olunan uzunluğunun artırılmasından və hərəkətli vasitələrin hərəkət intervallarının təmin olunmasından irəli gələrək hesablanır.

Şəhər sərnişindaşıma nəqliyyatının inkişafı üzrə hesablamalar Cədvəl 13.4-də verilmişdir. Alınmış göstəricilər gələcəkdə əhalinin nəqliyyat xidməti ilə təmin olunması səviyyəsinin lazımi göstəricilərə çatdırılacağını göstərir.

Cədvəl 13.4

Şəhər ictimai nəqliyyatı işinin əsas göstəriciləri

Göstəricilər	Avtobus	
	Mövcud	Layihə
Sərnişin daşınması, ildə min sərnişin	569,6	4 350
Yerinə yetirilən sərnişin-kilometr (ildə min sərnişin-km)	1 662	16 095
İctimai nəqliyyatla gedişin orta məsafəsi km	2,9	3,8
İstismar sürət, km/st	18	20
Nəqliyyat vasitəsinin orta tutumu, sərnişin	30	30
Nəqliyyat vasitələrinin orta günlük dolma əmsalı	0,9	0,25
Nəqliyyat vasitələrinin xəttə buraxılış əmsalı	1,0	0,8
Nəqliyyat vasitələrinin sayı, əd. – hərəkətdə – inventarda	 5 5	 32 40
Əhalinin nəqliyyat hərəkətliliyi, il ərzində adambaşına gedişlərin sayı	15	75
Həmin nəqliyyat növünün keçdiyi küçələrin uzunluğu, km	21,2	55,6
Nəqliyyat hərəkətinin orta şəbəkə intervalı, dəq	25	10

Mənbə: DANX-nin "10 saylı Şəmkir Regional Nəqliyyat" MMC-nin məlumatları əsasında tərtib olunub.

Gələcək daşımaların həyata keçirilməsi üçün inventarda olan avtobusların sayı 40 ədəd təşkil edəcəkdir. Mövcud avtomobil nəqliyyatı müəssisəsinin ərazisi gələcək hərəkət vasitələrinin parkının yerləşdirilməsi üçün kifayət edir, sonralar isə ərazinin genişləndirilməsi mümkündür.

Avtobus parkının yeni hərəkətli tərkibi təhlükəsizlik tələblərinə cavab verməli, ekoloji və rahatlıq tələblərinə müvafiq olmalı, həmçinin əhalinin hərəkət məhdudiyyəti olan xırda qruplarının daşınmasına qoyulan təşkilatı tələblərə müvafiq olmalıdır.

13.6. Avtomobil nəqliyyatının xidmət obyektləri

Avtobusların saxlanması və onlara xidmət avtonəqliyyat müəssisəsi olan və 20 Yanvar küç. 11 ünvanında yerləşən "Şəmkir sərnişindaşıma" ASC tərəfindən həyata keçirilir. Müəssisənin tutumu – 21 ədəd, ərazinin sahəsi – 1,87 ha. Avtonəqliyyat müəssisəsinin ərazisi daxilində 150 avtomobil yeri olan açıq dayanacaq yerləşir.

Şəhər ərazisində 8 yanacaqdoldurma stansiyası (YDS) yerləşir, bunlardan 3-ü əsas etibarilə M-2 Bakı-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi istiqamətində tranzit nəqliyyatına xidmət edir. Kolonkaların ümumi sayı təxminən 16 ədəd təşkil edir, bu da mövcud avtonəqliyyat vasitələr parkının xidmət edilməsi üçün tam kifayətdir.

Şəhərdə texniki xidmət stansiyası yoxdur. Avtonəqliyyata xidmət 2-3 təmir məntəqələri olan (fiziki şəxslərə aid) 35 xidmət sexi tərəfindən aparılır.

Avtomobil parkının artması avtoservis müəssisələrinin sayının və gücünün artırılmasını, texniki-xidmət stansiyalarının sayının artırılması tələb edir. Hesablama dövrü üçün şəhərdə 60 maşın yeri olan texniki-xidmət stansiyasını yaratmaq lazımdır. Cari layihədə şəhər girişlərində mövcud avtomobil yolları boyu 4 texniki-xidmət stansiyasının yaradılması nəzərdə tutulmuşdur.

Mövcud YDS-in sayı hesablama dövründə də avtomobil parkına xidmət göstərmək üçün yetərlidir. M-2 Bakı-Qazax-Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolu ilə şəhərin şimal dövrələmə yolunun tikintisini nəzərə alsaq deyə bilərik ki, layihədə yeni YDS-lər yeni tras boyu yerləşəcəklər.

13.7. Avtomobil nəqliyyat vasitələrinin saxlanma obyektləri

Şəhər əhalisinin şəxsi minik nəqliyyat vasitələri ilə təminatlılıq səviyyəsi hal-hazırda hər 1000 nəfərə 90-100 avtomobil təşkil edir. Müvafiq olaraq şəhərdə şəxsi minik avtomobil parkı 4,0 min ədəddən ibarətdir.

Şəhər ərazisində avtonəqliyyat vasitələrinin saxlanması əsas etibarilə fərdi yaşayış evlərinin həyətyani sahələrində (təxminən 3,6 min maşın-yeri), birmərtəbəli boks və metal qarajlarda və az- və orta mərtəbəli yaşayış binalarının giriş hissələrində (təxminən 0,4 min maşın-yer) həyata keçirilir.

Hesablama dövrünün sonuna qədər əhalinin şəxsi minik avtomobilləri ilə təminatlılıq göstəricilərinin hər 1000 nəfərə 200 avtomobil təşkil edəcəkdir. Şəxsi minik avtomobil parkı artaraq 11,6 min ədədə çatacaqdır.

Qüvvədə olan normativlərə müvafiq olaraq daimi saxlama yeri avtomobil hesablama sayının 90%-ni, yəni 10,4 min ədədini əhatə etməlidir. Onların əsas hissəsi həyətyanı sahələrdə yerləşəcəkdir (6,8 min ədəd).

Layihədə tikintisi nəzərdə tutulan orta və azmərtəbəli yaşayış binalarının meydançalarında şəxsi minik avtomobillərinin daimi saxlama yerlərinin təşkili də nəzərdə tutulmuşdur: avtodayanacaqların açılması, çox səviyyəli qarajlar (ümumi tutumu 3,2 min maşın-yer). Mövcud boks qarajları saxlanılacaq, onların əraziləri yenidən abadlaşdırılacaq və avtonəqliyyat üçün əlavə saxlama yerləri düzəldiləcəkdir (təxminən 0,4 min maşın-yer).

Layihədə ictimai-işgüzar, inzibati, mədəni-məişət, idman və digər təyinatlı obyektlərin yanında müvəqqəti dayanma üçün iri avtodayanacaqların yaradılması nəzərdə tutulmuşdur.

FƏSİL 14. ƏRAZİNİN MÜHƏNDİS HAZIRLIĞI

14.1. Ümumi məlumat

Mövcud vəziyyət. Şəhər ərazisində müasir təbii və təbii-texnogen proseslərdə inkişaf hiss olunur: ərazinin şimal-qərb hissəsində yeni tikinti üçün istifadəsi nəzərdə tutulan Kiçik Qafqazın Şahdağ dağ silsiləsinin dağ ətəklərində qobu və yarğanların mövcudluğu. Eroziya proseslərinin əsas səbəbi yan yamaclardan qeyri-mütəşəkkil səth axını (yağış və ərimiş qar suyu) nəticəsində giltorpaq qruntların islanması hesab olunur.

Hal hazırda şəhər ərazisində səth (yağış və ərimiş qar suyu) novçalarının çəkilməsi yalnız mərkəzi hissədə səkilər tərəfdən, küçələrin keçid hissəsindən bordür daşları boyunca beton novların quraşdırılması yolu ilə öz həllini tapmışdır. Beton novlar paralel yerləşən asfaltlanmış küçələrdə quraşdırılmışdır (Heydər Əliyev prospektindən R. Rəhmanov küçəsinə qədər). Açıq tipli mövcud yağış kanalizasiya sistemlərinin (küçə beton novlar) uzunluğu 15,2 km təşkil edir. Novlardan gələn səth tullantıları təsərrüfat-məişət kanalizasiyasına axıdılır. Küçə novları yaşayış evlərinin küçə qapısında və giriş hissələrində üstdən metal barmaqlıqlarla örtülmüşdür, bundan başqa böyük ağacların yağış suyu ilə təmin olunması üçün onların yanında bordür daşlarından yarıqlar quraşdırılmışdır.

Şəhər ərazisi üzrə cənub-qərb istiqamətindən şimal-şərq istiqamətinə doğru məhəllələrdə mövcud tikililər arası axan Cəyirrçay çayının təbii məcrası yay-payız mövsümündə demək olar ki, quruyur, qırıntı materialları çoxluq təşkil edir, ərazi abad deyildir. Çayda su sərfi ən çox yaz-yay daşqınları zamanı müşahidə olunur, çayın az sulu olmasına görə nəzərdə tutulan ərazilərdə suvarma məqsədilə ondan istifadə olunması məhduddur.

Layihə təklifləri. Hazırki Baş planın memarlıq-planlaşdırma həllinə əsasən və mühəndis-geoloji və hirdogeoloji şərtlərini nəzərə almaqla ərazinin mühəndis hazırlığı üzrə növbəti tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- səth axımının təşkil edilməsi və təmizlənməsi;
- yeni tikinti meydançalarının mənimsənilməsi;
- qobu məcralarının (yollarının) abadlaşdırılması və nizama salınması;
- Cəyirçay məcrasının abadlaşdırılması və bərkidilməsi.

Ərazinin mühəndis hazırlığı üzrə tədbirlər planlaşdırılma həllərinin əsaslandırılması nəzərə alınmaqla hazırlanmışdır və layihənin növbəti mərhələlərində dəqiqləşdirilməlidir. Layihə tədbirlərinin qrafik həlləri «Ərazinin mühəndis hazırlığı sxemi"ndə (M 1:5000) təqdim olunmuşdur.

14.2. Səth suları axınının təşkili

Şəhər ərazisinin ümumi abadlaşdırma səviyyəsinin artırılması, nəqliyyat və piyadalar üçün optimal şəraitin yaradılması məqsədilə, eləcə də şəhərsalma normaları və qaydalarının şərtlərinə əsasən hazırki layihədə, planlaşdırma çərçivəsində, aşağıda göstərilən əsaslı vəziyyətləri nəzərə almaqla səth axımlarının təşkil olunması nəzərdə tutulur:

- çıxış hissələrində özünü təmizləmə qurğuları ilə təchiz olunmuş 2 təsərrüfat-məişət və yağış kanalizasiya sisteminin tikilməsi ilə ayrıca tam drenaj sisteminin istifadə olunması;
- tikilmiş və ya planlaşdırılan ərazilərdən səth axımlarının toplanması və açıq tipli novlarla yaxın suaxarlarına buraxılması;
- səth axımlarının suqəbuledicilərə çıxış hissələrində supaylayıcı qurğuların tikilməsi, bu qurğulardan ən çirkli suların ayrılaraq təmizləyici qurğulara ötürülməsi, nisbətən təmiz suların isə təmizlənmədən suqəbuledici qurğulara ötürülməsi;

Hazırki şəhərin Baş planının tərkibində yağış kanalizasiya sxemi şəhərin yaşayış tikililərinin mövcud küçələri üzrə novların ötürülməsini saxlamaq şərtilə, layihə təkliflərini nəzərə almaqla, öz həllini tapmışdır. Suyun kənara axıdılması sisteminin inkişaf etdirilməsi yeni ərazilərin tikilib, abad edilməsi şərti ilə nəzərdə tutulur.

Düzbucaqlı və ya trapesiya tipli (beton və ya polimer materiallardan yığılmış) yolüstü küvetlər və novlar formasında suyun kənara axıdılma açıq sistem qurğusu novların mövcud olduğu şəhər ərazisinə, yaşıllıqlar zonasına və kommunal-anbar zonalar sahəsinə bənzər mövcud və planlaşdırılan fərdi tikililərin ərazisində təklif olunur. Beton novlar relyefin enməsi istiqamətində optimal meyllərlə yaşıllıqlar zolağının və səkilərin işlək hissəsi boyunca quraşdırılır. Yağış mövsümü (yazda və payızda) küçə suyu kənara axıdan novlar işlək hissədən və səkilərdən səth axınlarını toplamaq və kənarlaşdırmaq üçün istifadə ediləcək. İsti, quraqlıq dövründə (ilin əksər hissəsi) novlardan küçələrdəki yaşıllıqları və həyətyanı sahələri sulamaqdan ötrü suyun ötürülməsi üçün novlar istifadə oluna bilər, bu zaman su yağış toplanan qurğuların rezervuarlarından nasoslarla verilə bilər,

Tikinti ərazilərdən olan səth axımlarının çirklənmə dərəcəsi və xarakteri su toplanan hövzələrin sanitar vəziyyətindən, ərazinin abadlaşdırma səviyyəsindən, eləcə də, düşən yağıntıların hidrometerioloji parametrlərindən (quraqlıq dövrünün ilkin periodunda yağıntıların intensivliyindən və davamlılığından) asılıdır. Uzunmüddətli quraqlıq hava və az yağıntı ilə səciyyələn dövrlərdə yağış axımında əsas qatışıqların qatılığı daha yüksəkdir.

Yağış kanalizasiyasının təmizləyici qurğuların tərkibində - təmizlənməsi nəzərdə tutulan səth tullantı sularının sərflərinin tənzimlənməsi üçün süni göl-rezervuarlar, bərk axımların durulducu hovuzları, neft sızıntılarının təmizlənməsi və təmizləmə filtrlər nəzərdə tutulur. Durulducu hovuzların süni göllərində təmizlənmənin effektivliyi 2 saat ərzində duruldulduqda 80%, 4 saat ərzində -85% təşkil edir. Nəticədə, təmizlənmiş və beton rezervuarlara yığılmış yaz mövsümü yağış axımlarını quraqlıq dövründə torpaqların, eləcə də yaşıllıqların və şəxsi ərazilərin kənd təsərrüfatı bitkilərinin suvarılması üçün istifadə oluna bilər.

Rayonun relyefinə və planlaşdırma həllərinə uyğun olaraq şəhərin nəzərdə tutulan ərazisi 13 sutoplayıcı hövzələrə bölünür, onlardan hər biri üçün fərdi təmizləyici qurğularının tikilməsi nəzərdə tutulur. Sutoplayıcı hövzələrin sahəsi, yağış kanalizasiyalarının mövcud və planlaşdırılmış şəbəkələrinin davamlılığı aşağıdakı cədvəldə təqdim olunmuşdur.

Cədvəl 14.1

Sutoplayıcı hövzələrin xarakteristikaları

Sutoplayıcı hövzələrin №-si	Sutoplayıcı hövzələrin sahələri, ha	Suaxarların uzunluğu, km		
		mövcud	layihələndirilən	
			cəmi	1-ci növbə
1	166,8	-	8,5	8,5
2	74	-	2,3	2,3
3	80,7	-	1,4	1,4
4	398,7	-	7,4	7,4
5	300,3	-	8,8	8,8
6	401,2	-	15,2	15,2
7	153	15,2	4,4	4,4
8	87,2	-	1,9	1,9
9	104	-	3,6	3,6
10	68,1	-	2	2
11	129,2	-	4,1	2,6
12	444,4	-	14,3	7,1
13	343	-	11,2	-

14.3. Cəyirçay çayının məcrəsinin abadlaşdırılması və gücləndirilməsi

Hazırkı layihədə çay məcrasının tənzimlənməsi üzrə işlərin aparılması nəzərdə tutulur-təmizləmə, ayrıca sahələri düzləndirmə (hamarlamaq), profilləşdirmə. Çay məcrası bilavasitə şəhər hüdudlarında trapesiyayavari kəsimi kanal formasında, yamacların və çay dibinin betonlanması və ya yamacların döşənmə və ya 1:3 enişli planlaşdırılmış yamaclar üzrə qumsal özüllü daş örtüklərlə bərkidilməsi təklif olunur. Sahilbərkitmə konstruksiya ətraflı geoloji, hidrogeoloji və hidroloji araşdırmaların aparılmasına əsaslanaraq planlaşdırmanın sonrakı mərhələlərində müəyyən olunur.

14.4. Ərazinin mühəndis hazırlığı üzrə tədbirlər

Cədvəl 14.2

Ərazinin mühəndis hazırlığının tələbat həcmləri

№	Ərazinin mühəndis hazırlığı üzrə tədbirlər	Ölçmə vahidi	İşlərin həcmi		
			mövcud	layihələndirilən	
				cəmi	o cümlədən 1-ci növbədə
1	Açıq tipli yağış kanalizasiyasının qurulması (beton novlar)	km	15,2	76,0	64,0
2	Yağış axımının təmizlənməsi üzrə qurğuların montajı	qurğ.	-	13	11
3	Dağətəyi qanovlarının tikilməsi	km	-	3,53	3,53
4	Qobuların suaxarları məcralarının talveq üzrə abadlaşdırılması	ha	-	15,3	15,3
5	Çalaların doldurulması	ha/min m^3	-	82,1/165,7	35/71,4
6	Cəyirçayın məcrasının abadlaşdırılması və bərkidilməsi	km	-	20,6	20,6

Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

FƏSİL 15. ŞƏHƏRİN MÜHƏNDİS TƏMİNATI

15.1. Su təchizatı

Şəmkir şəhərinin su təchizatı aşağıdakı mənbələrdən təmin olunur:

1. **Mərkəzləşdirilmiş su təchizatı sistemi,** 2011-ci ilin oktyabr ayından başlayaraq «Şəmkir şəhəri su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması layihəsi" çərçivəsində yaradılmağa başlandı. Cəyirçay çayının yuxarılarından *(demək olar ki qurumuş səthdən 8 m aşağıda)* gələn yeraltı sular- şəhərdən 5 km cənubda yerləşən drenaj sistemi. Su 7 min m^3 həcmində 4 su rezervuarına öz-özünə tökülür.

2013-cü ildə «Akkord» şirkəti tərəfindən su borusu çəkilmişdir. Layihə gücü – 120 l/s təşkil edir. Mövcud suötürücü şəbəkələrin bir hissəsi köhnəlmişdir.

Su üçün 7 000 m^3 həcmində rezervuar tikilir, 2 rezervuar təmir olunur. Tikilən suötürücü şəbəkələrin uzunluğu – 253 km.

2. **Şəmkirçay su anbarı**. Şəmkir şəhəri – Şəmkirçay su anbarı su kəməri «Azərsu» şirkəti tərəfindən 2015-ci ildə tikilmişdir. Gücü – 180 l/s təşkil edir. Şəhərin içməli su ehtiyacının təxminən 40 %-ni təmin edə bilər
3. **Kəhrizlər**. Yüz il öncə alman kolonistləri tərəfindən tikilmiş 4 kəhriz fəaliyyət göstərir. Ümumi gücü - 70–80 l/s təşkil edir. (su təsərrüfat işlərində və suvarmada istifadə olunur).
4. **Artezian quyuları**. Şəhər ərazisində «Sukanalı» («Azərsu») balansında (nəzdində) yerləşən 10 artezian quyusu fəaliyyət göstərir, onlardan 2-si suyu su rezervuarına (mərkəzləşdirilmiş su təchizatı), 8-i isə abunəçilərə verir. Eyni zamanda şəhərdə «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin balansında, eləcə də əhalinin ayrıca qruplarınıda təxminən 70 artezian quyusu mövcuddur.

Nəticələr

Şəhər əhalisinin 40 %-i içməli su ilə desentralizasiya su təchizatı sistemindən təmin olunur.

Köhnəlmiş su kəməri xətlərinin və qurğuların təmirə ehtiyacı var.

<u>Layihə təklifləri</u>

«Azərsu»-nun ««Şəmkir şəhəri su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması layihəsi»ndə adambaşı 120 l/s. su istehlakı norması qəbul olunmuşdur.

Baş planda su istifadəsinin hesablanması AzDTN 2.11-1 «Su təchizatı. Xarici şəbəkə və qurğular» normalarına əsasən qəbul olunmuşdur. Nəzərə alsaq ki, su təchizatı sisteminin həyata keçirilməsi prosesində suqənaətedici texnologiyaları istifadə olunacaq, eləcə də istifadəçilərdə su istehlakının hesablanması nəzərdə tutulur *(sayğacların quraşdırılması)*, bu da öz növbəsində AzDTN 2.11-1 normalarını 20–30 % aşağı salır, Baş planda adambaşı su istehlakının norması 120 l/s. qəbul olunur.

Təsərrüfat-içməli suyun sərfi yaşayış və ictimai binalarda su sərfiyatı da daxil olmaqla orta sutkalıq sudan istehlak normalarına əsasən müəyyən olunmuşdur.

Sutkalıq qeyri-müntəzəmlik əmsalı 1,2-ə bərabər qəbul olunur *(yeni tikintinin hesablama cədvəlində maksimum-sutkalıq su sərfiyyatı yer almışdır)*.

Küçələrin və yaşıllıqların suvarılması üçün sərfiyyat adambaşı 70 l/s. norma üzrə müəyyən olunmuşdur.

Hesablanmamış sərfiyyat əhalinin ehtiyacları üçün sərf olunan suyun 10% miqdarda qəbul olunmuşdur.

Suyun yanğın sərfi:

Xarici yanğından mühafizə tələbatı üçün suyun sərfiyyatı AzDTN 2.11-1-in normalarına müvafiq olaraq qəbul olunur və 70 l/s. təşkil edir *(hər biri 35 l/s. 2 yanğın hadisəsi)*.

Cədvəl 15.1

Yeni mənzil tikintisində içməli suyun sərfiyyat proqnozu

№	Adı	Əhali, min nəfər		Su istehlakı norması, l/s. nəfər	Su sərfiyyatı, min m^3/s.	
		1-ci növbə	Hesablama dövrü		1-ci növbə	Hesablama dövrü
I.	**Cəyirçayın sağ sahili**					
1.1.1	4 №-li meydança *(orta mərtəbəli və çoxmənzilli binalar)*	6,48	6,05	120	0,78	0,73
1.1.2	Suvarma ehtiyacları	6,48	6,05	70	0,45	0,42
1.1.3	Su itkiləri 10 %		-		0,12	0,11
	Cəmi		-		**1,35**	**1,26**
1.2.1	5 №-li meydança *(orta mərtəbəli və çoxmənzilli binalar)*	-	3,89	120	-	0,47
1.2.2	Suvarma ehtiyacları	-	3,89	70	-	0,27
1.2.3	Su itkiləri 10 %	-	-		-	0,07
	Cəmi	-	-		-	**0,81**
1.3.1	13 №-li meydança *(həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri)*	-	0,11	120	-	0,01
1.3.2	Suvarma ehtiyacları		0,11	70	-	0,01
1.3.3	**Cəmi**				-	**0,02**
II.	**Cəyirçayın sağ sahili**					
2.1.1	1 №-li meydança (həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri **)**	1,86	3,44	120	0,22	0,41
2.1.2	Suvarma ehtiyacları	1,86	3,44	70	0,13	0,24
2.1.3	Su itkiləri 10 %				0,04	0,06
	Cəmi				**0,39**	**0,71**
2.2.1	2 №-li meydança (azmərtəbəli və çoxmənzilli binalar)	1,97	2,48	120	0,24	0,30
2.2.2	Suvarma ehtiyacları	1,97	2,48	70	0,14	0,17
2.2.3	Su itkiləri 10 %				0,04	0,05
	Cəmi				**0,42**	**0,52**
2.3.1	3 №-li meydança (azmərtəbəli və çoxmənzilli binalar)	-	0,42	120	-	0,05
2.3.2	Suvarma ehtiyacları	-	0,42	70	-	0,03
2.3.3	Su itkiləri 10 %					0,01
	Cəmi					**0,09**
2.4.1	6№-li meydança (orta mərtəbəli və çoxmənzilli binalar)	-	1,84	120	-	0,22
2.4.2	Suvarma ehtiyacları	-	1,84	70	-	0,13
2.4.3	Su itkiləri 10 %					0,03
	Cəmi					**0,38**
2.5.1	7 №-li meydança (azmərtəbəli və çoxmənzilli binalar)	-	0,8	120	-	0,10
2.5.2	Suvarma ehtiyacları	-	0,8	70	-	0,06
2.5.3	Su itkiləri 10 %					0,02
	Cəmi					**0,18**
2.6.1	9 №-li meydança (azmərtəbəli və çoxmənzilli binalar)	-	2,02	120	-	0,24
2.6.2	Suvarma ehtiyacları	-	2,02	70	-	0,14

2.6.3	Su itkiləri 10 %				-	0,04
	Cəmi				**-**	**0,42**
2.7.1	11 №-li meydança (həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri **)**	-	0,53	120	-	0,06
2.7.2	Suvarma ehtiyacları	-	0,53	70	-	0,04
2.7.3	Su itkiləri 10 %				-	0,01
	Cəmi				**-**	**0,11**
	Sağ sahil üzrə cəmi	6,48	10,05		1,35	2,09
	Sol sahil üzrə cəmi	3,83	11,53		0,81	2,41
	Şəhər üzrə yekun	**10,31**	**21,58**		**2,16**	**4,50**

Mənbə: Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Cədvəl 15.2

Şəmkir şəhəri üzrə içməli suyun sərfiyyat proqnozu

№	Adı	Əhali, min nəfər	Su istehlakı norması, l/s. nəfər	Su sərfiyyatı, min m^3/s.	
				orta sutkalıq	maksimal sutkalıq K=1,2
I.	**I növbə**				
1.1	Saxlanılan mövcud mənzil fondu				
1.1.1	Çoxmənzilli yaşayış evləri	6,1	120	0,73	0,88
1.1.2	Suvarma ehtiyacları	6,1	70	0,43	0,43
1.1.3	Su itkiləri 10%			0,12	0,13
	Cəmi			**1,28**	**1,44**
1.1.4	Fərdi yaşayış evləri	33,6	120	4,03	4,84
1.1.5	Suvarma ehtiyacları	33,6	70	2,35	2,35
1.1.6	Su itkiləri 10%			0,63	0,71
	Cəmi			**7,0**	**7,90**
	Yekun	**39,7**		**8,28**	**9,34**
1.2	Yeni mənzil tikintisi				
1.2.1	Çoxmənzilli yaşayış evləri	8,45	120	1,01	1,22
1.2.2	Suvarma ehtiyacları	8,45	70	0,60	0,60
1.2.3	Su itkiləri 10%			0,16	0,18
	Cəmi			**1,80**	**2,00**
1.2.4	Fərdi yaşayış evləri	1,85	120	0,22	0,27
1.2.5	Suvarma ehtiyacları	1,85	70	0,13	0,13
1.2.6	Su itkiləri 10%			0,04	0,04
	Cəmi			**0,40**	**0,44**
	Yekun	**10,30**		**2,20**	**2,44**
1.3	Sənaye obyektləri 20 %			1,90	1,90
1.4	Turizm obyektləri 15 %			1,40	1,40
	Şəhər üzrə yekun	**50,0**		**13,80**	**15,10**
II.	**Hesablama dövrü**				
2.1	Saxlanılan mövcud mənzil fondu				
2.1.1	Çoxmənzilli yaşayış evləri	5,0	120	0,60	0,72
2.1.2	Suvarma ehtiyacları	5,0	70	0,35	0,35

2.1.3	Su itkiləri 10 %			0,10	0,11
	Cəmi			**1,05**	**1,18**
2.1.4	Fərdi yaşayış evləri	31,4	120	3,77	4,52
2.1.5	Suvarma ehtiyacları	31,4	70	2,2	2,2
2.1.6	Su itkiləri 10 %			0,60	0,67
	Cəmi			**6,57**	**7,40**
	Yekun	**36,4**		**7,60**	**8,57**
2.2	Yeni mənzil tikintisi				
2.2.1	Çoxmənzilli yaşayış evləri	17,5	120	2,10	2,52
2.2.2	Suvarma ehtiyacları	17,5	70	1,22	1,22
2.2.3	Su itkiləri 10 %			0,33	0,37
	Cəmi			**3,65**	**4,11**
2.2.4	Fərdi yaşayış evləri	4,1	120	0,49	0,59
2.2.5	Suvarma ehtiyacları	4,1	70	0,29	0,29
2.2.6	Su itkiləri 10 %			0,08	0,09
	Cəmi			**0,86**	**0,97**
	Yekun	**21,60**		**4,50**	**5,08**
2.3	**Sənaye obyektləri 20 %**			**2,2**	**2,2**
2.4	**Turizm obyektləri 15 %**			**1,60**	**1,60**
	Şəhər üzrə yekun	**58,0**		**15,90**	**17,40**

Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Sənaye obyektləri üçün su məsrəfi əhali üçün içməli su sərfiyyatının 20%-i *(nəzərə alınmamış məsrəfi çıxmaqla)*, turizm obyektləri üçün isə 15%-i həcmində qəbul olunub

Şəhərin təsərrüfat-içməli və istehsal məqsədli su istifadəsi üçün su təchizatı mənbələrindən istifadə olunacaq:

- Cəyirçay çayının yuxarı axarından gələn yeraltı sular;
- Şəmkirçay su anbarı;
- kəhrizlər;
- artezian quyuları.

Şəmkir rayonu ərazisində yerləşən uzunluğu 26,7 km., sərfi 8,3 m^3/san olan Sol sahil Şəmkirçay beton kanalının böyük bir hissəsi (13,2 km) şəhər ərazisindən keçir.

Şəhərə 200 l/s içməli su veriləcək və bu da Şəmkir şəhər əhalisinin ehtiyaclarını ödəyəcək.

Layihəyə əsasən şəhərin mərkəzləşdirilmiş su təchizatının inkişaf etdirilməsi qəbul olunmuşdur. Su təchizatı sistemi təsərrüfat-içməlidir. Su kəməri şəbəkəsinin salınması dövrəvi sxemlə həll olunur. Su içməli su təchizatının mərkəzləşdirilmiş sistem normalarının tələblərinə cavab verməlidir.

Yeni tikinti meydançalarının su təchizatı su kəmərinin mövcud xətlərinə qoşulmaqla su kəməri xəttinin çəkilməsi ilə həyata keçirilir.

Köhnəlmiş su kəməri xətləri yenidən qurulmalıdır.

Sanitar-mühafizə zonaları

Su təchizatı mənbələri çirklənə bilər, ona görə də onların mühafizə olunması üçün xüsusi tədbirlər görülməlidir. Suqəbuledici qurğuların planlaşdırılması ilə yanaşı sanitar-mühafizə zonaları (3 zolaq tərkibində) layihəsini hazırlamaq lazımdır.

Ciddi rejimli I-ci zolağa suqəbuledicilərin yerləşdiyi ərazilər daxildir, bu ərazilərin hüdudlarından kənarda suqəbuledici ilə bilavasitə əlaqəsi olmayan bütün növ tikintilər qadağan olunur.

II-ci və III-cü zolaqlara (məhdudiyyətlər rejimi) su təchizatı mənbələrində suyun çirklənməsinin qarşısını almaq üçün nəzərdə tutulan ərazilər daxildir. SMZ II-ci və III-cü zolaqların hüdudları çərçivəsində şəhərsalma fəaliyyəti binaların və qurğuların mütləq qaydada kanalizasiya çəkilməsi, ərazinin abadlaşdırılması, səth axımlarının təşkil olunması və s. şərtilə icazə verilir.

Cədvəl 15.3

Su təchizatı səthi mənbələri SMZ ərazilərinin istifadə reqlamentləri

Adı	**Qadağandır**	**İcazə verilir**
SMZ-nin I-ci zolağı	- Tikintinin bütün növləri; - İstənilən növ tullantıların axıdılması; - Yaşayış və təsərrüfat-məişət binalarının yerləşdirilməsi; - İnsanların yaşaması; - Zəhərli kimyəvi maddələrin istifadə edilməsi; - Yuyunma, paltarların yuyulması.	- Hasara alınma və qoruma; - Yaşıllaşdırma; - Yerüstü tullantıların axımını təmizləmə qurğularına ötürülməsi.
SMZ-nin II və III zolaqları	- YSM anbarların, sənaye tullantılarının toplanması, şlam saxlama çənləri, məzarlıq yerləşdirilməsi - Tərkibində kimyəvi maddələr və mikroorqanizmlərin normadan çox olduğu sənaye, şəhər və yağış sularının axıdılması - Gəmiçiliyin mövcud olduğu təqdirdə kanalizasiya və lilli suların, bərk tullantıların axıdılması	- Tullantıların təmizləmə qurğularına ötürülməsi ilə yaşayış, sənaye və kənd təsərrüfatı obyektlərinin tikintisi; - Yerüstü tullantıların təmizləmə qurğularına ötürülməsi ilə yaşayış sahələri ərazilərinin abadlaşdırılması; - Müəyyən edilmiş və təchiz olunmuş yerlərdə çimmək, turizm, su idman növləri, balıqçılıq; - Dövlət Sanitar-Epidemiologiya Nəzarəti Xidməti ilə razılaşdırılaraq qum, çınqıl çıxarılması, dibdərinləşdirmə işlərinin aparılması;

Cədvəl 15.4

Su təchizatı yeraltı mənbələrinin SMZ-də ərazilərin istifadə reqlamenti

Adı	Qadağandır	İcazə verilir
SMZ-nin I-ci zolağı	- Tikintinin bütün növləri; - İstənilən növ tullantıların axıdılması; - Yaşayış və təsərrüfat-məişət binalarının yerləşdirilməsi; - İnsanların yaşaması; – Quyuların başları və ağızları, rezervuarların köçürmə boruları və lyukları vasitəsilə içməli suyun çirkləndirilməsi	- Hasara alınma və qoruma; - Yaşıllaşdırma; - Yerüstü tullantıların axımını təmizləmə qurğularına ötürülməsi. – Kanalizasiya təmizləyici qurğularına tullantı sularının çəkilməsi ilə binalarda kanalizasiya sisteminin quraşdırılması – Quyuların başları və ağızları və s. vasitəsilə içməli suyun çirklənməsinin qarşısının alınması nəzərə alınaraq su kəməri qurğularla təchiz olunması – Debit nəzarəti üçün suqəbuledicilərin avadanlıqlarla təchiz olunması
SMZ-nin II və III zolaqları	– Emal olunmuş suların yeraltı qatlara doldurulması, bərk tullantıların anbarlara vurulması və yer təkinin qazılması – YSM anbarlarının, sənaye tullantıları toplayıcıların, lil çənlərin, məzarlıqların yerləşdirilməsi.	– Susaxlayan qatların çirklənməsində təhlükə yaradan bütün köhnə, işlək olmayan və ya düzgün istismar olunmayan quyuların aşkar edilməsi, tamponlanması və ya bərpa olunması. – Yaşayış məntəqələri ərazilərin abadlaşdırılması (kanalizasiya ilə təchiz olunma,sukeçirməyən kürəmələrin quraşdırılması, yerüstü səth axımın ötürülməsinin təşkil olunması) III-cü zolaqda qorunmuş yeraltı suların istifadə olunması zamanı çirklənmə əleyhinə susaxlayan qatların qorunması üzrə xüsusi tədbirlərin yerinə yetirilməsi: YSM anbarlarının, zərərli kimyəvi preparatlarının, sənaye tullantıları toplayıcılarının, lil çənlərinin və s. yerləşdirilməsi

Əhalini su təchizatının kifayət qədər zəmanət verilmiş sistemi ilə təmin etmək məqsədi ilə aşağıdakı tədbirlər təklif olunur:

Hesablama dövrü ilə bağlı tədbirlər

- hesablama dövrü ilə bağlı yeni tikinti üçün küçə su kəməri xətlərinin (33,0 km) tikintisi.

Birinci növbəli tədbirlər

- köhnəlmiş su kəməri xətlərinin (3,0 km) bərpası;
- küçə su kəməri xətlərinin tikintisi (23,0 km);
- su təchizatı mənbələrinin sanitar-mühafizə zonalarının təşkil olunması üzrə layihələrin hazirlanması.

15.2. Təsərrüfat-məişət kanalizasiyası

Tullantıların axıdılması kanalizasiya xətləri vasitəsilə akkumulyasiya rezervuarlarda həyata keçirilir. Təmizləyici qurğuları çatışmır.

Şəmkir şəhərində 203 km kanalizasiya xətlərinin tikintisi həyata keçirilir (hal hazırda 115 km tikilmişdir).

Təmizləyici qurğularının tikintisi üzrə işlər təxminən 30 % «Akkord» şirkəti tərəfindən yerinə yetirilir, maliyyələşdirmənin dayandırılması səbəbindən təmizləyici qurğularının tikintisi dayandırılmışdır.

Nəticə

Kanalizasiya xətlərinin və təmizləyici qurğularının tikintisi mütləqdir.

Layihə təklifləri

Su istifadəsi kimi, yağış sularının hesablanmış istifadəsi də yaşayış tikililərinin və saxlanılan mənzil fondunun abadlaşdırılması dərəcəsinə əsaslanaraq müəyyən olunur. Bu zaman su ayırma xüsusi çəki normaları su istifadənin normalarına bərabər qəbul olunur.

Axımların hesablanmamış istifadəsi 10% nəzərdə tutulur.

Cədvəl 15.5

Yeni mənzil tikintisində təsərrüfat-məişət sularının kənara axıdılmasının proqnoz sərfiyyatı

№	Adı	Əhali, min nəfər		Su istehlakı norması, l/s./nəfər	Su sərfiyyatı, min m^3/s. κ = 1,2	
		1-ci növbə	Hesablama dövrü		1-ci növbə	Hesablama dövrü
I.	**Cəyirçayın sağ sahili**					
1.1.1	4 №-li meydança, orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	6,48	6,05	120	0,78	0,73
1.1.2	Su itkiləri 10 %	-	-		0,12	0,11
	Cəmi		-		**0,90**	**0,84**
1.2.1	5 №-li meydança, *orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binalar*	-	3,89	120	-	0,47
1.2.2	Su itkiləri 10 %	-			-	0,07
	Cəmi	-			-	**0,54**
1.3.1	13 №-li meydança, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	-	0,11	120	-	0,01
	Cəmi				-	**0,02**
II.	**Cəyirçayın sol sahili**					
2.1.1	1 №-li meydança, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	1,86	3,44	120	0,22	0,41
2.1.2	Su itkiləri 10 %				0,04	0,06
	Cəmi				**0,26**	**0,47**
2.2.1	2 №-li meydança, azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	1,97	2,48	120	0,24	0,30
2.2.2	Su itkiləri 10 %				0,04	0,05
	Cəmi				**0,28**	**0,35**
2.3.1	3 №-li meydança, azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	-	0,42	120	-	0,05
2.3.2	Su itkiləri 10 %				-	0,01
	Cəmi				-	**0,06**
2.3.1	6 №-li meydança,	-	-1,84	120	-	0,22

	orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları					
2.3.2	Su itkiləri 10 %				-	0,03
	Cəmi				**-**	**0,25**
2.4.1	7 №-li meydança, azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	-	0,8	120	-	0,10
2.4.2	Su itkiləri 10 %				-	0,02
	Cəmi				**-**	**0,12**
2.5.1	9 №-li meydança, azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları	-	2,02	120	-	0,24
2.5.2	Su itkiləri 10 %				-	0,04
	Cəmi				**-**	**0,28**
2.6.1	11 №-li meydança, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	-	0,53	120	-	0,06
2.6.2	Su itkiləri 10 %				-	0,01
	Cəmi				**-**	**0,07**
	Sağ sahil üzrə cəmi	6,481	0,05		0,90	1,40
	Sol sahil üzrə cəmi	3,83	11,53		0,54	1,60
	Şəhər üzrə yekun	**10,31**	**21,58**		**1,44**	**3,00**

Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Cədvəl 15.6

Təsərrüfat-məişət sularının kənara axıdılmasının proqnoz sərfiyyatı

№	Adı	Əhali, min nəfər	Su istehlakı norması, l/s./nəfər	Su sərfiyyatı, min m^3/s.	
				orta sutkalıq	maksimal sutkalıq K=1,2
I.	**1-ci növbə**				
1.1	Saxlanılan mövcud mənzil fondu				
1.1.1	Çoxmənzilli yaşayış evləri	6,1	120	0,73	0,88
1.1.2	Su itkiləri 10 %			0,12	0,13
	Cəmi			**0,85**	**1,01**
1.1.3	Fərdi yaşayış evləri	33,6	120	4,03	4,84
1.1.4	Su itkiləri 10 %			0,63	0,71
	Cəmi			**4,66**	**5,55**
	Yekun	**39,7**		**5,51**	**6,56**
1.2	Yeni mənzil tikintisi				
1.2.1	Çoxmənzilli yaşayış evləri	8,45	120	1,01	1,22
1.2.2	Hesaba alınmamış xərclər 10 %			0,16	0,18
	Cəmi			**1,17**	**1,40**
1.2.3	Fərdi yaşayış evləri	1,85	120	0,22	0,27
1.2.4	Su itkiləri 10 %			0,04	0,04
	Cəmi			**0,26**	**0,31**
	Yekun *(əhali)*	**10,30**		**1,43**	**1,71**
1.3	Sənaye obyektləri 20 %			1,90	1,90
1.4	Turizm obyektləri 15 %			1,40	1,40

	Şəhər üzrə yekun	**50,0**		**10,20**	**11,60**
II.	**Hesablama dövrü**				
2.1	Saxlanılan mənzil fondu				
2.1.1	Çoxmənzilli yaşayış evləri	5,0	120	0,60	0,72
2.1.2	Su itkiləri 10 %			0,10	0,11
	Cəmi			**0,70**	**0,84**
2.1.3	Fərdi yaşayış evləri	31,4	120	3,77	4,52
2.1.4	Su itkiləri 10 %			0,60	0,67
	Cəmi			**4,37**	**5,19**
	Yekun	**36,4**		**5,07**	**6,03**
2.2	Yeni mənzil tikintisi				
2.2.1	Çoxmənzilli yaşayış evləri	17,5	120	2,10	2,52
2.2.2	Su itkiləri 10 %			0,33	0,37
	Cəmi			**2,43**	**2,89**
2.2.3	Fərdi yaşayış evləri	4,1	120	0,49	0,59
2.2.4	Su itkiləri 10 %			0,08	0,09
	Cəmi			**0,57**	**0,68**
	Yekun	**21,60**		**3,0**	**3,57**
2.3	Sənaye obyektləri 20 %			2,2	2,2
2.4	Turizm obyektləri 15 %			1,60	1,60
	Şəhər üzrə yekun	**58,0**		**11,90**	**13,40**

Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Şəhər üçün mərkəzləşdirilmiş kanalizasiya sisteminin inkişaf etdirilməsi nəzərdə tutulur.

Kanalizasiya sistemi tam ayrıcadır, nəticədə təsərrüfat-məişət xətləri axımların yaşayış və ictimai tikililərdən təmizləyici qurğularına ötürülməsi üçün salınır, yağış suların axımı yağış kanalizasiyasının təmizləyici qurğularına sərbəst xətlər üzrə keçir.

Ehtiyac olduqda kanalizasiya nasos stansiyaları (KNS) quraşdırılır, onların konkret növləri həm çirkab sularının daxil olma tezliyi və həcmi, həm də kollektor yatımı dərinliyi ilə müəyyən olunur. Germetik olaraq qapanan lyukla polipropilen tutumlu kanalizasiya nasos sisteminin tətbiqi mümkündür, bu halda bütün xoşagəlməz iylər konstruksiya içərisində etibarlı şəkildə bağlanacaq.

Şəhərin kanalizasiya təmizləyici qurğularının (KTQ) tikintisi Kür istiqamətində (Şəmkir su anbarına 1 km çatmamış) Bayraq Meydanından 15 km aralı yerləşən Qaranüy kəndi ərazisində nəzərdə tutulur.

KTQ-nin layihə məhsuldarlığı - 25,0 min m^3/sut. təşkil edir.

Baş plana əsasən təsərrüfat-məişət axımlarının həcmi 13,0 min m^3/sut. təşkil edir.

KTQ-dən sanitar-mühafizə zonası 300 m təşkil edir.

Ekoloji vəziyyəti yaxşılaşdırmaq və əhalinin abadlıq səviyyəsini artırmaq məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi lazımdır:

Hesablama müddəti ilə bağlı tədbirlər:

- hesablama dövründə yaşayış tikililəri əraziləri üçün küçə kanalizasiya xətlərinin (31,0 km) tikintisi;
- nasos stansiyalarının tikintisi (3 ədəd).

Birinci növbəli tədbirlər:

- təmizləyici qurğularının tikintisi (25 min m^3/s.);
- küçə kanalizasiya xətlərinin (17 km) və nasos stansiyalarının tikintisi (1 ədəd).

15.3. Yağış kanalizasiyası

Yerüstü axımlarının təşkili (yağış kanalizasiyası) «Yerüstü axımlarının təşkili» 14.2 bölməsində təhlil olunur.

15.4. İstilik təchizatı

Hal-hazırda Şəmkir şəhərinin mərkəzləşdirilmiş istiliklə təchiz olunması «Azəristiliktəchizat» ASC-nin 4 qazanxanasından biri fəaliyyət göstərir.

Cədvəl 15.7

Qazanxanaların siyahısı

№	Qazanxanaların adı	Ünvan	Vəziyyəti
1	Qazanxana №19-57/1	Kür qəs., Həzi Aslanov küç.	konservasiya
2	Qazanxana №57/4	Şəmkir, 4 №-li məktəb	konservasiya
3	Qazanxana №6-57/6	Sabirabad küç.(hamam)	konservasiya
4	Qazanxana № 57-M64/S	Sarıtəpə kəndi (kənd məktəbi)	işlək

Mənbə: Cədvəl "Azəristiliktəchizat" ASC-nin DŞAK-a ünvanlandığı məlumatların əsasında tərtib edilib. Bakı, 2015 il

İşlək sənaye obyektlərinin istilik təchizatı şəxsi qazanxanalardan fərdi şəkildə fəaliyyət göstərir. Fərdi tikililərin isitmə sistemi qazla işləyən sobalardır.

Nəticələr:

Mövcud 4 qazanxanadan yalnız biri işləyir.

Digər qazanxanalar mənəvi və fiziki köhnəldiyi üçün işə yararsız vəziyyətdədir və avadanlığın tamamilə müasir, qazla işləyən avadanlıqlarla əvəz olunmalıdır.

İstilik təchizatı sisteminin inkişafı

İstilik təchizatına təchizat xarakterli bütün növ planlaşdırılmış obyektlər – istilik sistemi, havalandırma, isti su təchizatı daxildir.

Baş planda, Şəmkir şəhəri ərazisində yeni orta mərtəbəli, azmərtəbəli və fərdi tikilmiş evlərin inşası üçün sahələrin yerləşdirilməsi nəzərdə tutulur.

Yeni tikinti sahələri və saxlanılan mövcud yaşayış fondunun sahələri üzrə hesabat müddətinin gözlənilən istilik sərfiyyatı aşağıdakı 2 cədvəldə göstərilmişdir.

Cədvəl 15.8

Növbə üzrə tikintidə mənzil-kommunal tikintinin (MKT) ehtiyacı üçün proqnozlaşdırılan istilik tələbatı

№	Meydançanın adı	Tikilib abadlaşdırılmış ərazinin növü	Əhali, min nəfər	Mənzil fondu, min m^2	İstilik sərfiyyatı, MVt			
					İsidilmə	Ventilyasiya	İsti su təchizatının orta qiyməti	Cəmi
I	**1-ci növbə (2015 – 2025 illər)**							
1	**Yeni tikinti**							
1.1	Cəyirçayın sol sahili							
	1(a) №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	1,86	36,0	2,59	-	0,70	3,29
	2(a) №-li meydança	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	1,97	55,2	2,78	0,35	0,74	3,87
1.2	Cəyirçayın sağ sahili							
	4 №-li meydança	Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	6,48	181,6	7,74	0,97	2,44	11,14
	Yeni tikini üzrə cəmi							
		Şəhər üzrə cəmi	10,31	272,8	13,11	1,32	3,88	18,30
2	**Saxlanılan fond**							
		Şəhər üzrə cəmi	40,20	1126,0	181,87	1,77	15,12	198,76
	1-ci dövr (2025-ci ilə qədər) üçün cəmi							
		Şəhər üzrə cəmi	50,51	1398,8	194,98	3,09	19,00	217,06
		Cəmi Qkal/saat			**186,64/ 158,06**			
II	**Hesablama dövrü (2015 – 2035 illər)**							
1	**Yeni tikini**							
1.1	Cəyirçayın sol sahili							
	1(a) №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	1,73	36,0	2,59	-	0,65	3,24
	1(b) №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	1,71	67,2	4,84	-	0,64	5,48
	2(a) №-li	Azmərtəbəli *(5*	1,84	55,2	2,78	0,35	0,69	3,82

№	Meydançanın adı	Tikilib abadlaşdırılmış ərazinin növü	Əhali, min nəfər	Mənzil fondu, min m^2	İstilik sərfiyyatı, MVt			
					İsidilmə	Ventilyasiya	İsti su təchizatının orta qiyməti	Cəmi
	meydança	*mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları						
	2(b) №-li meydança	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	0,64	19,2	0,97	0,12	0,24	1,33
	3 №-li meydança	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	0,42	12,6	0,64	0,08	0,16	0,88
1.2	Cəyirçayın sağ sahili							
	4 №-li meydança	Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	6,05	181,6	7,74	0,97	2,27	10,98
	5 №-li meydança	Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	3,89	116,8	4,98	0,62	1,46	7,06
1.3	Cəyirçayın sol sahili							
	6 №-li meydança	Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	1,84	55,2	2,35	0,29	0,69	3,33
	7 №-li meydança	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	0,80	24,0	1,21	0,15	0,30	1,66
	9 №-li meydança	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	2,02	60,6	3,05	0,38	0,76	4,19
	11 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	0,53	16,0	1,15	-	0,20	1,35
1.4	Şəhərin cənub hissəsi							
	13 №-li meydança	Həyətyanı torpaq sahələri olan fərdi	0,11	3,2	0,23	-	0,04	0,27

№	Meydançanın adı	Tikilib abadlaşdırılmış ərazinin növü	Əhali, min nəfər	Mənzil fondu, min m^2	İstilik sərfiyyatı, MVt			
					İsidilmə	Ventilyasiya	İsti su təchizatının orta qiyməti	Cəmi
		yaşayış evləri						
	Yeni tikinti üzrə cəmi							
		Şəhər üzrə cəmi	21,58	647,60	32,53	2,96	8,10	43,59
2	**Saxlanılan fond**							
		Şəhər üzrə cəmi	37,40	1122	181,23	1,77	14,06	197,06
	Hesablama dövrü (2035-ci ilə qədər) üçün cəmi							
		Şəhər üzrə cəmi	58,98	1769,6	213,76	4,73	22,16	240,65
		Cəmi, Qkal/saat			**206,92/ 162,84**			

Qeyd: məxrəcdəki göstərici (/) – o cümlədən, fərdi tikinti üçün göstəricilər.
Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Cədvəl 15.9

Illik istilik sərfiyyatı

№	Adı	Göstərici	Ölçü vahidi	Miqdar	
				1-ci növbə	Hesablama dövrü
1	Yeni tikinti	İstilik sərfiyyatı	min MVt	48,11/ 8,75	109,46/ 24,43
		Əvvəlki kimi	min Qkal	41,37/ 7,53	94,12/ 21,01
2	Saxlanılan fond	İstilik sərfiyyatı	min MVt	401,61/ 361,33	393,85/ 354,67
		Əvvəlki kimi	min Qkal	345,32/ 310,69	338,65/ 304,96
	Bütün mənzil fondu	**İstilik sərfiyyatı**	**min MVt**	**449,72/ 370,08**	**503,31/ 379,10**
		Əvvəlki kimi	**min Qkal**	**386,69/ 318,22**	**432,77/ 325,97**

Qeyd: məxrəcdəki göstərici (/) – o cümlədən, fərdi tikinti üçün göstəricilər.
Mənbə: Cədvəl hesablamalar nəticəsində tərtib edilmişdir.

Yeni tikintinin xüsusiyyətlərinin nəzərə alınması ilə şəhərin perspektiv istilik təchizatı ehtimal olunur:

- yeni qazanxanalardan - çoxmərtəbəli, orta mərtəbəli və azmərtəbəli binalar üçün;
- fərdi tikililər üçün – avtonom istilik mənbələrindən.

Saxlanılan mənzil fondunun istilik təchizatı bərpası başa çatdırıldıqdan sonra mövcud qazanxanalar vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur.

İstilik təchizatı sisteminin işinin fasiləsiz və etibarlı şəkildə təmin olunması üçün bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir:

Hesablama müddəti ilə bağlı tədbirlər

- Cəyirçay çayının sol sahilində yeni orta mərtəbəli və azmərtəbəli mənzil *tikintisi (6 və 7 №-li meydançalar)* üçün təqribi gücü 4,5 Qkal/saat olan 1 qazanxana tikintisi;
- Cəyirçay çayının sağ sahilində yeni orta mərtəbəli mənzil tikintisi *(5 №-li meydança)* üçün təqribi gücü 5,0 Qkal/st olan 1 qazanxana tikintisi;
- yeni azmərtəbəli mənzil tikintisi *(9 №-li meydança)* üçün Cəyirçayın sol sahilində təxmini gücü 4,0 Qkal/saat olan 1 qazanxananın tikintisi;
- avadanlığa müasir tələblərə cavab verən enerjiyə qənaət edən texnologiyaların tətbiq olunması və istilik enerjisindən istifadəni keyfiyyətli tənzimləmək üçün yoxlama cihazı.

Birinci növbəli tədbirlər

- 3 ədəd mövcud, lakin işlək olmayan qazanxanalarının müasir, qazla işləyən avadanlıqla tam əvəz etməklə bərpası;
- Cəyirçay çayının sol sahilində yeni azmərtəbəli mənzil tikintisi *(meydançalar № 2 və № 3)* üçün təqribi gücü 5,4 Qkal/saat olan 1 qazanxana tikintisi;
- Cəyirçay çayının sağ sahilində yeni orta mərtəbəli mənzil tikintisi *(meydança № 4)* üçün təqribi gücü 11,70 Qkal/saat olan 1 qazanxana tikintisi;
- təbii qazla işləyən, istifadəçilərin istilik təchizatı və isti su təchizatı tələbatlarını ödəyən müstəqil sənaye 2 funksiyalı istilik generatorlarının desentralizasiya olunmuş istilik təchizatı üçün istifadəsi.

15.5. Qaz təchizatı

Şəmkir şəhərinin qazla təmin olunması Şəmkir Qaz İstismarı İdarəsi tərəfindən həyata keçirilir.

Şəmkir şəhəri qazı 3 istiqamətdə 2 qaz paylayıcı qurğulardan alır: Şəmkir AQPS və Morul QTM.

Şəmkir şəhər ərazisinin cənub-qərb hissəsindən Gədəbəy rayonu *(Gədəbəy rayonunu bütövlükdə təbii qazla təmin edir)* istiqamətində 325 mm diametrli yüksək təzyiqli yeraltı qaz kəməri keçir.

Şəmkir şəhər ərazisinin şimal hüdudları boyunca magistral Qazıməmməd - Qazax (şəhər ərazisi boyunca, şəhərin şimal-qərb hüdudlarından təxminən 200 m aralı) qaz kəməri *(diametri 1020 mm)* xətləri keçir.

Şəmkir şəhərinin qaz təchizatı sistemi təzyiq üzrə ikipilləlidir *(orta-aşağı)*. AQPS-də reduksiya edilmiş qaz orta təzyiqli qaz kəmərlərlə şəhərə şkaflı qaz tənzimləyən məntəqələrə (QTM) qollarla daxil olur. Daha sonra QTM-dən istifadəçilərə daha aşağı təzyiqlə xətlər üzrə ötürülür.

Şəmkir şəhərini təbii qazla təchiz edən orta təzyiqli magistral və paylayıcı qaz kəmərlərinin təsviri aşağıdakı kimidir:

- Başlanğıcını Şəmkir AQPS-dən götürən yeraltı «polietilen» «Şəmkir-1» *(diametri 315 mm)* qaz kəməri H. Əliyev küçəsi ilə yuxarı (cənub istiqamətində) qalxır və şəhərin mərkəzi hissəsini qazla təchiz edir;
- Başlanğıcını Şəmkir AQPS–dən götürən yeraltı «Şəmkir-2» qaz kəməri *(diametri 273 mm)* Cəyirçay çayının məcrasından yuxarı keçir və şəhərin cənub-qərb hissəsini təbii qazla təchiz edir;

- Başlanğıcını Şəmkir AQPS-dən götürən orta təzyiqli qaz kəməri *(diametri 159 mm)* E. Allahverdiyev küçəsi ilə qalxır və Şəmkir şəhərinin şərq hissəsini qazla təchiz edir;
- Başlanğıcını Şəmkir AQPS–dən götürən orta təzyiqli «polietilen» qaz kəməri *(diametri 160 mm)* Heydər Əliyev prospekti boyunca qalxır və şəhərin mərkəzində yerləşən bir sıra sənaye müəssisələrini qazla təchiz edir;
- Başlanğıcını Morul QPS-dən götürən orta təzyiqli qaz kəməri *(diametri 159 mm)* Sərxan yaşayış massivini qazla təchiz edir *(bu torpaq islahatlarından sonra şəhər tərkibinə daxil edilən köhnə Sərxan kəndidir)*.

2014-cü ilin nəticələrinə əsasən Şəmkir şəhərinin ümumi qaz istehlakı 19 164 209 m^3/st *(ümumilikdə Şəmkir rayonu üzrə 123 333 345 m^3/s.)* təşkil etmişdir, əhali bundan 18 211 481 m^3/st istifadə etmişdir *(bu rəqəm Şəmkir rayonu üzrə ümumilikdə 85 227 672 m^3/s. təşkil etmişdi)*, 932 728 m^3/st *(Şəmkir rayonu üzrə 38 056 73m^3/s.)* isə - əhaliyə bilavasitə aid olmayan sənaye və digər ehtiyaclara sərf olunmuşdur.

Cədvəl 15.10

Şəmkir şəhəri ərazisindən keçən magistral qaz kəmərləri

№	Magistral qaz kəməri	Xarici diametr, mm	Faktiki uzunluğu, m			Layihə təzyiqi, kq/sm^2
			ümumi	yeraltı	yerüstü	
1	Şəmkir-Gədəbəy qol	325	20 000	20 000	-	55
2	Morul QTM qol	159	160	160	-	55
3	Şəmkir qol (AQPS qolu)	159	240	240	-	55

Mənbə: "Azəriqaz" İB-nin DŞAK-a ünvanlandığı rəsmi məlumatları əsasında tərtib edilib.Bakı, 2015

Cədvəl 15.11

Qazpaylayıcı stansiyaları (QPS)

№	Obyektlər	Sahə, m^2
1	Morul QTM	500
2	Şəmkir AQPS	850

Mənbə: Cədvəl "Azəriqaz" İB-nin DŞAK-a ünvanlandığı rəsmi məlumatları əsasında tərtib edilib.Bakı, 2015

Cədvəl 15.12

Şəmkir şəhərində qaz istehlakı (2014-cü il)

№	İstehlakçı qrupları	İstehlak, m^3
1.	Ümumi şəhər əhalisi:	18 210 481
	o cümlədən	
1.1	Şəhər əhalisi	16 198 542
1.2	Şəhər əhalisi (smart-kartlar)	2 012 939
2.	Sənaye və digər ehtiyaclar	952 728
	Cəmi:	19 164 209

Mənbə: Cədvəl Şəmkir Regional Qaz İstismar İdarəsi tərəfindən təqdim etdiyi məlumatlar əsasında tərtib edilib. Şəmkir, 2015.

2014-cü ilin nəticələrinə görə Şəmkir şəhərində qaz istehlakı 19 164 209 m^3/st (ümumilikdə Şəmkir rayonu üzrə 123 333 345 m^3/st) təşkil etmişdir, bu qazın əhali tərəfindən istifadə olunan hissəsi 18 211 481 m^3/st (ümumilikdə Şəmkir rayonu üzrə müvafiq göstərici 85 227 672 m^3/st), əhali ilə birbaşa bağlı olmayan – sənaye və digər təyinatlar üzrə qaz istehlakı isə 932 728 m^3/st (Şəmkir rayonu üzrə 38 056 73 m^3/st) təşkil etmişdir.

Nəticələr:

Təbii qaz xətlərindən istifadə edən əhali və sənaye istifadəçiləri etibarlı şəkildə qaz təchizatı ilə təchiz olunurlar.

Gələcəkdə qaz çəkilməyən ərazilərə və yeniləşdirilən qazanxanalara, eləcə də tikintinin yeni rayonlarına qaz çəkməklə şəhərin qaz təchizatı sistemini inkişaf etdirmək lazımdır. Həmçinin polietilen borular tətbiq etməklə qaz kəmərlərinin hissələrini bərpa etmə işlərinin aparılması zəruridir.

Qaz təchizatı sisteminin inkişafı

Baş planda Şəmkir şəhər ərazisinə yeni orta mərtəbəli, azmərtəbəli və fərdi tikinti meydançalarının yerləşdirilməsi nəzərdə tutulur.

Yeni tikinti meydançalarının qaz təchizatı mövcud qaz kəmərləri vasitəsilə nəzərdə tutulur.

Qaz istifadəsi istiqamətləri saxlanılır:

- əhalinin ehtiyacları (yemək hazırlamaq) orta mərtəbəli, azmərtəbəli və fərdi binalar üçün;
- kommunal-məişət və sənaye müəssisələrinin texnoloji və sanitar-texniki məqsədləri;
- fərdi yaşayış binaları üçün fərdi qaz qazanxanalarından isitmə sisteminə, isti su təchizatına.

Birinci növbə və hesablama dövründə yuvarlaqlaşdırılmış göstəricilərə əsaslanan yeni tikinti və saxlanılan mövcud yaşayış fondu üçün gözlənilən qaz xərcləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 15.13

MKT –nin ehtiyacları üçün proqnozlaşdıran təbii qaz tələbatı

№	Adı	İstehlakçı	Miqdarı, mln m^3/il	
			1-ci növbə	Hesablama dövrü
1	Saxlanılan fond	Əhali	10,67/ 10,25	10,21/ 9,54
		İstilik mənbələri	64,75/ 58,25	63,50/ 57,18
		Cəmi	75,42/ 68,50	73,71/ 66,72
2	Yeni tikinti	Əhali	1,57/ 0,56	3,32/ 1,22
		İstilik mənbələri	7,76/ 1,41	17,65/ 3,94
		Cəmi	9,33/ 1,97	20,97/ 5,16
	Cəmi	Əhali	12,24/ 10,81	13,53/ 10,76
		İstilik mənbələri	72,51/ 59,66	81,15/ 61,12
		Cəmi	**84,75/ 70,47**	**94,68/ 71,88**

Qeyd: məxrəcdəki göstərici (/) – o cümlədən, fərdi tikinti üçün göstəricilər.

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

Sabit və etibarlı qaz təchizatının təmin olunması üçün bir sıra mərhələli tədbirlərin həyata keçirilməsi zəruridir:

Hesablama müddəti ilə bağlı tədbirlər

- köhnəlmiş qaz kəmərlərinin polietilen borularla əvəzlənməsi yolu ilə bərpası;
- Cəyirçayın sol sahilində 2 yeni qazanxanaya və sağ sahilində 1 yeni qazanxanaya qaz kəmərlərinin çəkilməsi;
- yeni yaşayış tikililərinin meydançalarına qaz tənzimləyici məntəqələrlə (QTM) orta təzyiqli paylayıcı qaz kəmərlərinin tikintisi – 4,6 km.

Birinci növbəli tədbirlər

- köhnəlmiş qaz kəmərlərinin polietilen borularla əvəzlənməsi yolu ilə bərpası;
- qaz yanacağına keçirilən müasirləşdirilən qazanxanalara qaz kəmərlərinin çəkilməsi;
- Cəyirçay çayının sol və sağ sahilində 2 yeni qazanxanaya qaz kəmərlərinin tikintisi;
- yeni yaşayış tikinti meydançalarına QTM-lər ilə orta təzyiqli paylayıcı qaz kəmərlərinin tikintisi-3,2 km.

15.6. Elektrik təchizatı

Şəhər ərazisindəki istehlakçıların elektrik enerjisi təminatı 6-10-35 kV yüksək gərginlikli və 0,4 kV alçaq gərginlikli şəbəkə vasitəsilə həyata keçirilir:

3 ədəd 35/10 kV-luq və 1 ədəd 35/6 kV-luq yarımstansiya mövcuddur ki, bunlar 35/10 kV-luq "Şəmkir-1", "Şəmkir-2" ,"Şəmkir-3" və 35/6 kV-luq "Karxana" yarımstansiyalarıdır.

Cədvəl 15.14

Elektrik yarımstansiyalar

№	Yarımstansiyanın adı	Transformatorların sayı, ədəd	Transformatorların gücləri, MVA
1	"Şəmkir-1"	2	6,3 və 6,3
2	"Şəmkir-2"	2	6,3 və 10
3	"Şəmkir-3"	1	4
4	"Karxana"	1	4
Cəmi		**6**	**36,9**

Mənbə: Cədvəl AR Energitika Nazirliyinin məlumatları əsasında tərtib edilib.

Şəhər ərazisindəki elektrik xətlər haqqında məlumatlar aşağıdakı cədvəldə verilmişdir

Cədvəl 15.15

Elektrik verilişi hava xətləri

Xəttin gərginliyi, kV	Xəttin sayı, ədəd	Xəttin uzunluğu, km
35	5	26,00
10	18	140,52
6	1	4,80
0,4	441	138,00

Mənbə: Cədvəl AR Energitika Nazirliyinin məlumatları əsasında tərtib edilib..

Elektrik enerjisi təchizatı üçün istifadə olunan elektrik veriliş xətlərinin mühafizə zonaları mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müəyyən edilmişdir.

Şəmkir şəhər ərazisindəki istehlakçıların 2014-cü il üzrə ümumi elektrik enerjisi sərfiyyatı **77 955 922** kVtsaat olmuşdur ki, bunun da **31 182 368** kVtsaatı əhali, **46 773 554** kVtsaatı isə qeyri-əhali istehlakçı qrupunun payına düşür.

Nəticələr:

Şəhər elektrik enerjisi ilə tam şəkildə təmin olunmuşdur. İstehlakçıların etibarlı elektrik enerjisi ilə təmin olunması üçün mövcud 6-10 - 0,4 kV xətlərini və 6-10\0,4 kV transformator yarımstansiyasını bərpa etmək zəruridir

Elektrik təchizatı sisteminin inkişafı

Şəhər ərazisində orta mərtəbəli və azmərtəbəli yaşayış tikililərinin tikintisi nəzərdə tutulur.

Elektrik yükləmələri

Kommunal-məişət istehlakçılarının elektrik yükünün müəyyən olunması yaşayış evlərində qaz plitalarında yemək hazırlanması nəzərə alınmaqla əhəmiyyətli göstəricilər üzrə yerinə yetirilmişdir. Orta mənzil təminatı birinci növbədə adambaşına 25 m^2 və hesablama müddətində 30 m^2 təşkil edir.

Xüsusi çəki göstəriciləri yaşayış və ictimai binaları (inzibati, təhsil, elm, tibb, ticarət, tamaşa, idman), kommunal müəssisələri, nəqliyyat xidmətləri obyektləri (qarajlar və avtomobillərin saxlanması üçün açıq meydançalar), xarici işıqlandırmanı nəzərə alır.

Baş plan layihəsində aşağıdakı göstəricilər qəbul olunmuşdur:

- **birinci növbə**: adambaşı 0,45 kVt,
- **hesablama müddəti:** adambaşı 0,5 kVt.
- Şəhərin yeni tikinti meydançaları üzrə kommunal-məişət istehlakçıların elektrik yükünün yekunu Cədvəl № 15.16-də verilmişdi, şəhərin kommunal-məişət istehlakçıların yekun elektrik yükü isə aşağıdakı Cədvəl №15.17-də göstərilmişdir.

Cədvəl 15.16

Yeni şəhər tikintisi kommunal-məişət istehlakçılarının elektrik yükü

№	Adı	Əhali, min nəfər		Elektrik yükü MVt	
		1-ci növbə	Hesablama dövrü	1-ci növbə	Hesablama dövrü
I.	**Cəyirçayın sağ sahili**				
1.1	4 №-li meydança *(orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları)*	6,48	6,05	2,9	3,0
1.2	5 №-li meydança *(orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları)*	-	3,89	-	2,0
1.3	13 №-li meydança *(həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri)*	-	0,11		
II.	**Cəyirçayın sol sahili**				
2.1	1 №-li meydança *(həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri)*	1,86	3,44	0,84	1,72
2.2	2 №-li meydança *(azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları)*	1,97	2,48	0,89	1,24

2.3	3 №-li meydança *(azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları)*	-	0,42	-	0,21
2.4	6 №-li meydança *(orta mərtəbəli (5-8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları)*	-	1,84	-	0,92
2.5	7 №-li meydança *(azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları)*	-	0,8	-	0,4
2.6	9 №-li meydança *(azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları)*	-	2,02	-	1,01
2.7	11 №-li meydança *(həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri)*	-	0,53	-	0,27
	Sağ sahil üzrə cəmi	**6,48**	**10,05**	**2,9**	**5,0**
	Sağ sahil üzrə cəmi	**3,83**	**11,53**	**1,72**	**5,76**
	Şəhər üzrə cəmi	**10,31**	**21,58**	**4,62**	**10,76**

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

Cədvəl 15.17

Şəhərin kommunal-məişət istehlakçılarının yekun elektrik yükü

№	Adı	Əhali, min nəfər		Elektrik yükü, MVt	
		1-ci növbə	Hesablama dövrü	1-ci növbə	Hesablama dövrü
1	Mövcud saxlanılan mənzil fondu	40,2	37,4	18,1	18,7
2	Yeni tikinti	10,31	21,58	4,6	10,79
	Şəhər üzrə cəmi	**50,51**	**58,98**	**22,7**	**29,5**

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

Şəmkir şəhəri kommunal-məişət istifadəçilərinin yekun yükü: hesablama müddətinə - **29,5** MVt, birinci növbəyə - **22,7** MVt.

Şəhərin kommunal-məişət istifadəçilərinin elektrik enerjisi istehlakı:

- hesablama müddətinə il ərzində 101 500 min kVtsaat,

birinci növbədə il ərzində 74 250 min kVtsaat.

Layihələndirilən elektrik təchizatı

Şəhər istifadəçilərinin birinci növbədə və hesablama müddətində elektrik enerjisi ilə təchizatı 4 mövcud elektrik yarımstansiyasından həyata keçiriləcək: 35/10 kV «Şəmkir-1» gərginlikli YS, 35/10 kV –luq «Şəmkir-2» gərginlikli YS, 35/10 kV-luq «Şəmkir-3» gərginlikli YS və 35/6 kV-luq «Karxana» gərginlikli YS.

Həmçinin iqtisadi məqsədəuyğunluqlar nəzərə alınmaqla ayrıca istehlakçıların elektrik ilə təchizatı elektrik enerjisinin (günəş batareyaları və s.) alternativ enerji mənbələrindən istifadə olunmaqla həyata keçirilə bilər.

Yeni tikinti istehlakçılarının elektrik enerjisi ilə təchizatı 10/0,4 κV gərginlikli və 10 κV xətli yeni transformator yarımstansiyalarından 10 κV gərginlikdə həyata keçiriləcək.

Yeni tikinti istehlakçılarının elektrik enerjisi ilə təmin etmək üçün transformatorların gücünü artırmaqla mövcud 35κV-luq yarımstansiyaları bərpa etmək lazım olacaq.

Şəhərin yeni yaşayış tikinti istehlakçılarının elektrik enerjisi ilə təmin etmək üçün yeni 10 κV–luq paylayıcı məntəqə və 10/0,4 κV transformator yarımstansiyalarının tikintisi tələb olunacaq. 10 κV-luq paylayıcı məntəqələr və 10/0,4 κV-luq transformator yarımstansiyalarına qoşulan 10 κV –luq xətlər torpaq xəndəklərdə salınan kabellərlə yerinə yetirilməlidir.

Planlaşdırılan tikililərdə yüksək və aşağı gərginlikli kabel keçirməli tam zavod hazırlıqlı kompleks-blok istifadəli 10/0,4 κV gərginlikli ayrıca transformator yarımstansiyalarının tikintisini tətbiq etmək məsləhət görülür. Transformator yarımstansiyalarında müasir avadanlıqlar quraşdırılmalıdır.

Eyni zamanda mövcud paylayıcı 6-10 κV-luq məntəqələrini, 10/0,4 κV-luq transformator yarımstansiya avadanlıqlarını təkmilləşdirməklə bərpa etmə işlərinin aparmaq lazımdır. Mövcud 10 - 0,4 κV xətlərini bərpa edərkən izolyasiya olunmayan xətlə yerinə yetirilən hava xətlərini "SİP" markalı özü aparan izolyasiya edilmiş xətlə əvəzləmək lazımdır.

Şəhərin 10 kV-luq xətlərinin bərpası və təkmilləşdirilməsi üçün konkret tədbirlər Baş plana əsasən qəbul olunan « Şəhərin 6-10 kV xətlərinin inkişaf sxemi »nin hazırlanması zamanı nəzərdən keçirilməlidir.

Elektrik HX boyunca uzanan mühafizə zonaları bunlardır: xətlərin hər iki tərəfi ilə əyilməmiş qıraq naqillərdən 35 κV – 15 metr, 6-10 κV - 10 metr.

Planlaşdırılan **e**lektrik hava xətləri boyunca uzanan mühafizə zonaları xətlərin hər iki tərəfi ilə əyilməmiş izolyasiyasız 35 κV gərginlikli qıraq naqillərdən – 15 metr, 10 κV gərginlikli qıraq naqillərdən – 10 metr və izolyasiya edilmiş "SİP" markalı naqillərdən – 5 metr təşkil edir.

Şəhər istehlakçılarının etibarlı elektrik təchizatını təmin etmək üçün növbəti tədbirlərin həyata keçirilməsi tələb olunur:

Hesablama dövrü üçün tədbirlər

- Yeni tikinti ərazilərdə elektrik təchizatı istehlakçıları üçün 10 kV-luq paylayıcı məntəqələrin və 10/0,4 κV-luq transformator yarımstansiyaların və 10 kV-luq xətlərin tikintisi.
- Mövcud 6-10/0,4 κV-luq transformator yarımstansiyalarının bərpası.
- Kabel kəsimlərini artırmaqla və rayonlarda çoxmərtəbəli binalarda hava xətlərini kabellərə keçirməklə mövcud 6-0,4 kV-luq xətlərinin bərpası

Birinci növbə üçün tədbirlər

- Mövcud transformatorları böyük gücə malik trasnformatorla əvəz etməklə 35/10 κV «Şəmkir-1» və «Şəmkir-2» gərginlikli mövcud yarımstansiyaların bərpası.
- Yeni tikinti istehlakçılarının elektrik təchizatı üçün 10 κV paylayıcı məntəqələrin, 10/0,4 κV transformator yarımstansiyalarının və 10 κV xətlərin tikintisi.
- Mövcud 6-10/0,4 κV transformator yarımstansiyalarının bərpası.
- Kabel kəsişmələrini artırmaqla və çoxmərtəbəli binalar olan ərazilərdə hava xətlərini kabellərə keçirməklə mövcud 6-0,4 kV xətlərinin bərpası

15.7. Rabitə və telefonlaşdırma

Telefonlaşdırma

Şəhərdəki telefon abunəçilərinin sayı - 4 625.
Beynəlxalq əlaqələr TAE fiber-optik kabeli vasitəsilə həyata keçirilir. Şəmkirdə 7504 nömrə tutumlu 1 EATS vardır.
Şəhərdə mobil rabitə sistemi işləyir. Əhalinin 100 nəfərinə 103 mobil nömrə düşür.

TPP kabellərin fiber-optik kabellərlə əvəz olunma prosesi başlanmışdır.

Teleradio yayımı

Şəhərdə televiziya yayımı Şəmkir teleradio yayımı stansiyasından həyata keçirilir. Qüllənin hündürlüyü -50 m.
Retranslyasiya olunan TV kanalları:

- AzTV
- ANS
- Space
- Region TV (Gəncə)
- CBC Azərbaycan
- Azad Azərbaycan
- Ictimai TV
- Xəzər TV
- Mədəniyyət TV
- Inter Az
- Idman Az

Bundan başqa əhalinin 80% peyk televiziyasından istifadə edir.

Şəmkir şəhəri ərazisində 10 stansiya fəaliyyət göstərir: (Şəmkir RRS, Atabəy RTS, Dağ-Tatar RTS, Ələsgərli RTS, Seyfəli RTS, Tatarlı RTS, Çaykənd RTS, Yuxarı Seyfəli RTS, Çənlibel RTS, Dağ Cəyir RTS). Bu stansiyalar vasitəsilə Şəmkir əhalisi və kənar ərazilər dövlət radio-tele proqram verilişləri ilə *(AzTV, İTV, İdman Azərbaycan, Mədəniyyət, Respublika FM və İctimai FM)* və şəxsi kanallarla və xarici TRT-1 kanalı ilə təmin olunurlar.

Şəmkir şəhər ərazisində yerləşən Şəmkir RRS (radio-rele stansiysı), Atabəy RTS, Dağ-Tatar RTS, Ələsgərli RTS, Seyfəli RTS, Tatarlı RTS-lərdə 1 ötürücü (AzTV), Çaylond RTS stansiyasında, Yuxarı Seyfəli RTS, Çənlibel RTS, Dağ Cəyir RTS-lərdə 2 ötürücü (AzTV, DVB-T) istifadə olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 fevral №26 «Şəmkir rayon ərazisində DVB-T rəqəmsal sistemin tətbiqi və təkmilləşdirilməsi haqda» №26 Qərarına əsasən stansiyalarda quraşdırılan DVB-T ötürücülər vasitəsilə Çənlibel RTS, Dağ Cəyir RTS, Çaykənd RTS və Yuxarı Seyfəli RTS stansiyaları yayımlanır, 1-ci açıq paketin 10 proqram rəqəmsal yayımı təmin olunur.

Rabitə sistemlərinin, telefonlaşdırmanın və televiziya yayımının inkişafı

Baş plan layihəsində aşağıda adları sadalananlar da daxil olmaqla əsas elektrik əlaqələri və telekommunikasiya kompleksinin inkişafı nəzərdə tutulur:

- ümumi istifadə olunan telefon əlaqəsi;
- mobil radiotelefon əlaqə;
- rəqəmsal, kommunikasiya, informasiya xətləri və verilənlərin ötürülmə sistemi;
- televiziya yayımı.

Telefonlaşdırma

Hazırki Baş plana əsasən şəhərdə hesablama dövründə əhalinin sayı -58 min nəfər və birinci növbə üçün (2025 il) – 50 min nəfər proqnozlaşdırılır.

Baş planda hesablama dövründə əhalinin proqnozlaşdırılan sayına müvafiq olaraq şəhər əhalinin, müəssisələrin və təşkilatların 100% telefon əlaqəsi ilə təmin etdikdə ŞTS tutumu bir qayda olaraq 16,0 min abunəçi, eləcə də yeni tikinti rayonlarında - 6,5 min abunəçi təşkil edə bilər.

Birinci növbədə tikinti üçün ŞTS-in tutumu bir qayda olaraq 14,0 min nömrə, o cümlədən yeni tikinti şəhər ərazilərində 3,0 min təşkil edə bilər.

Şəhərin telefon şəbəkəsinin inkişafı yeni ATS-lərin açılması ilə ŞTS-nin nömrə tutumunun çoxaldılması və yeni tikinti ərazilərində müasir rəqəmsal avadanlıqlar əsasında rəqəmsal texnologiyaları istifadə edərək daşına bilən abunəçi modullarının quraşdırılması ilə nəzərdə tutulur.

Cədvəl 15.18

Yeni tikinti meydançaları üzrə telefon şəbəkəsi abonentlərinin paylanılması

№	Adı	Əhalinin sayı, min nəfər		Abonentlərin sayı, min nəfər	
		1-ci növbə	Hesablama dövrü	1-ci növbə	Hesablama dövrü
I.	**Cəyirçayın sağ sahili**				
1.1	4 №-li meydança *(orta mərtəbəli və çoxmənzilli yaşayış binaları)*	6,48	6,05	1,9	1,8
1.2	5 №-li meydança *(orta mərtəbəli və çoxmənzilli yaşayış binaları)*	-	3,89	-	1,2
II.	**Cəyirçayın sol sahili**				
2.1	1 №-li meydança ***(****həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri****)***	1,86	3,44	0,5	1,0
2.2	2 №-li meydança *(azmərtəbəli və çoxmənzilli yaşayış binaları)*	1,97	2,48	0,6	0,7
2.3	3 №-li meydança *(azmərtəbəli və çoxmənzilli yaşayış binaları)*	-	0,42	-	0,1
2.4	6 №-li meydança *(orta mərtəbəli və çoxmənzilli yaşayış binaları)*	-	1,84	-	0,5
2.5	7 №-li meydança *(azmərtəbəli və çoxmənzilli yaşayış binaları)*	-	0,8	-	0,3
2.6	9 №-li meydança *(azmərtəbəli və çoxmənzilli yaşayış binaları)*	-	2,02	-	0,7
2,7	11 №-li meydança ***(****həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri****)***	-	0,53	-	0,1
2.8	13 №-li meydança ***(****həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri****)***	-	0,11	-	0,1
	Sağ sahil üzrə cəmi	**6,48**	**9,94**	**1,9**	**3,0**
	Sol sahil üzrə cəmi	**3,5**	**1,1**	**11,64**	**3,83**
	Şəhər üzrə cəmi	**10,31**	**21,58**	**3,0**	**6,5**

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

Yeni tikinti şəhər ərazilərinin telefon əlaqəsini təmin etmək üçün fiber-optik kabellər üzrə şəhər xətlərinə qoşulan 3 yeni ATS-in açılması zəruridir.

Yeni ATS-in açılışı aşağıdakı ərazilərdə nəzərdə tutulur:

- 2 000 nömrə tutumlu 4 №-li meydança ərazisində (birinci növbə üçün);
- 4 000 nömrə tutumlu 6 №-li meydança ərazisində (hesablama dövründə);
- 1 000 nömrə tutumlu 9 №-li meydança ərazisində (hesablama dövründə).

Mövcud tikilib abadlaşdırılmış şəhər ərazilərinin abunəçilərini mövcud ATS-ə onun tutumunu 3 000-ə qaldırmaq şərtilə qoşmaq nəzərdə tutulur.

Müasir mərhələdə vacib məqam informasiya telekommunikasiya xətlərinin və məlumatın *(multiservis şəbəkəsi)* ötürülmə xətlərinin əhalini müxtəlif multimedia xidmətləri, eləcə də İnternetlə təmin edərək inkişafı hesab olunur.

Yeni ATS avadanlıqları müasir, rəqəmsal olmalıdır. Stansiyaların ŞTS-ə qoşulması qabaqcıl telekommunikasiya texnologiyalarını tətbiq etməklə fiber-optik xətlər üzrə həyata keçirilir. ATS-ın yerləşdirilməsi üçün bir qayda olaraq 20-40 m^2 yer ayırmaq lazımdır. ATS-in xidmət əhatə dairəsi 2,5-3 km artıq təşkil etməməlidir.

Hər bir məhəllədə, onun mərkəzində, 220 V xəttinə qoşulmaq imkanı olan telekommunikasiya avadanlıqları (şkafları) quraşdırmaq vacibdir.

Telefon kanalizasiyasında telekommunikasiya şkaflarına optik kabellər çəkilir.

Şəhərlərarası rabitə 7504 nömrə tutumlu EATS vasitəsilə həyata keçiriləcək.

Şəhərdə ümumi istifadədə olan telefon xətlərindən başqa GSM standartları əsasında - Azercell, Azerfon, Bakcell mobil radiotelefon rabitə operatorları işləyir.

Ümumi telefon istifadəsində əhəmiyyətli rəqabət təşkil etməyə başlayan bu rabitə növünün gələcək inkişafı, şəhər və onun ətrafındakı rayonların yeni texnologiyaların tətbiqi və keyfiyyətin artırılması vasitəsilə mobil rabitə ilə təmin olunması ilə həyata keçirilməlidir

Televiziya yayımı

Şəhərin bütün ərazisi respublika, regional və yerli yayımların televiziya proqramlarının dəqiq qəbulu zonasında yerləşir.

Gələcəkdə kabel televiziya sisteminin inkişafı nəzərdə tutulur, bu peyk kanallarının və televiziya yayımının keyfiyyətinin əhəmiyyətli dərəcədə artırılması hesabına kanalların artırılmasını təmin edəcək. Fiber-optik texnikadan istifadə etməklə kabel televiziya sisteminin inkişafı əhaliyə İnternet də daxil olmaqla müxtəlif multimedia xidmətlərinin verilməsinə imkan yaradacaq. Kabel televiziya siste

Hesablama dövründə nəzərdə tutulan tədbirlər

- rabitə və telekommunikasiyalarının yeni texnologiyalarının tətbiq edilməsi;
- meydançalarda yeni ATS-in və daşına bilən yarımstansiyaların açılışı:
  - Cənubi – 5 000 nömrə;
  - Qərbi – 10 000 nömrə;
- yeni tikinti meydançalarına və obyektlərinə xətti qurğularının tikintisi;
- fiber-optik rabitə xətlərində işləyən nəqliyyat xətlərinin inkişaf etdirilməsi;
- əhaliyə verilən multimedia xidmətlərinin genişləndirilməsi;
- televiziya və radio yayım proqramlarının artırılması və kabel televiziya sisteminin sonrakı inkişafı.

Birinci növbəli tədbirlər

- Şərq meydançasında 10000 nömrə tutumlu yeni ATS-in və Mərkəzi meydançalarında və bərpa olunan ərazilərdə daşına bilən yarımstansiyaların açılışı;
- meydançalara və yeni tikinti obyektlərinə xətti qurğularının tikintisi;
- televiziya və radio yayım proqramlarının artırılması və kabel televiziya sisteminin sonrakı inkişafı.

FƏSIL 16. ŞƏHƏR ƏRAZİNİN SANİTAR TƏMİZLƏNMƏSİ

Məişət və sənaye tullantılarının yaranması, zərərsizləşdirilməsi və emalı ilə bağlı problemlər Azərbaycan Respublikasının digər regionları kimi, Şəmkir üçün də aktualdır.

Bərk məişət tullantılarının mənbələri təşkilatlar və müəssisələr, şəhər əhalisi və infrastruktur obyektləri hesab olunur.

Hal hazırda yaranan tullantılar Şəmkirin cənub-şərq hissəsində bərk məişət tullantılarının ekoloji qanunvericiliyin tələblərinə cavab verməyən, təchiz edilməyən zibilxanalarında yığılır. Bu cür vəziyyət ətraf mühitin vəziyyətinə mənfi təsir göstərir. Şəhərdə sonradan preslənib və Bakı şəhərində bərk məişət tullantıları emal edən «Təmiz Şəhər» ASC-yə göndərilən kağız, polietilen və plasmas qəbul məntəqəsinin mövcud olmasına baxmayaraq, tullantıların ayrıca yığımının tamdəyərli sisteminin yaradılması məsələsinə baxmaq lazımdır.

Tullantılarla kompleks şəkildə rəftar, yerlərdə (konteyner meydançalarda) tullantıların çeşitlənməsini, tullantıların yaranma mənbələrindən daşınması, təkrar çeşitlənməsi və tullantıların preslənməsi; ixtisaslaşmış zavodlarda ayrıca seçilmiş fraksiyaların emalını, tullantıların qalan hissələrinin poliqonda basdırılmasını nəzərdə tutur.

Dünya təcrübəsində şəhərin sanitariya tələblərinə uyğun təmizlənməsi obyektlərinə yönəldilən BMT miqdarını azaldan strategiya ehtiyatların qənaətlə işlədilməsi proqramının gerçəklşdirilməsinə əsaslanır. Bu proqramlar BMT hissələrindən qiymətli komponentlərin çıxarılıb çeşidlənməsindən, onların poliqonlarda yığılmasına və ixtisaslaşmış zavodlarda zərərsizləşdirilməsinə qədər olan metodlarından istifadəni nəzərdə tutur. Bu zaman BMT-dan yalnız qiymətli deyil, həm də təhlükəli komponentlərin (basdırılma və yararsızlaşdırılma uçun göndərilən tullantıların xüsusiyyətlərinin yaxşılaşdırılması üçün) ayrılması nəzərdə tutula bilər.

Şəmkir şəhərində hesablama müddətinə tullantıların ümumi sayı bir qayda olaraq il ərzində 90 min m^3 təşkil edəcək. Baş plana əsasən şəhərin cənub-şərq hissəsində, 20 Yanvar küçəsində mövcud BMT zibilxanaların rekultivasiyası və Şəmkir – Abbaslı – Nərimanlı avtomobil yolunun yaxınlığında, quş fabrikindən aralı, bərk məişət tullantıları və müəssisələrin tullantılarının müasir poliqonunun tikintisi nəzərdə tutulub. Eyni zamanda rayonda, Şəmkir-Zəyəm-Düyərli avtomobil yoluna yaxın olan ərazidə sanitar normalara cavab verən tullantı çeşidləyən kompleksin qurulması nəzərdə tutulmuşdu.

İstifadə olunmuş lüminessensiya lampaları, akkumulyatorlar, batareyalar kimi təhlükəli tullantıların yığılması və daşınması nəzərə alınmalıdır. Bundan başqa əhalidən tullantıların çeşidlənərək yığılması üzrə proqramın genişləndirilməsi məsləhət görülür, bu çirklənməmiş makulatura, qablaşdırılmış tara, şüşə, plastik kütlə, metallar, toxuma mallar kimi təkrar emal oluna bilən qiymətli komponentlərin BMT-ə düşməsinin qarşısını alır.

Maye tullantıların yaşayış və ictimai şəhər ərazilərindən axıdılması təmizləyici qurğularına kanalizasiya sistemləri vasitəsilə nəzərdə tutulur.

Ərazinin sanitar təmizləmə sisteminin səmərəli təşkili üçün şəhərin sanitar təmizləmə sxemini hazırlamaq, bərk məişət və sənaye tullantılarının saxlanması üçün poliqonu avadanlıqla təchiz etmək, ayrıca zibil yığımını tətbiq etmək və zibil çeşitləyən kompleksi avadanlıqla təchiz etmək lazımdır.

FƏSİL 17. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

17.1. Ətraf mühitin müasir vəziyyəti

Ekoloji vəziyyətin qiymətləndirilməsi atmosfer havasının, torpaq örtüyünün və su obyektlərinin vəziyyətinin təhlili nəticəsində mümkün olur. Yalnız kompleks yanaşma şərtlərinə əsasən ətraf mühitdəki dəyişikliklərin xarakterini və bu dəyişikliklərin insana təsir dərəcəsini proqnozlaşdırmaq mümkündür.

Son illər ərzində atmosfer havasına atılan tullantıların sayı azalmışdır. üzrə stasionar mənbələrdən çirkləndirici maddələrin atmosfer havasına atılmasına görə Şəmkir rayonu Azərbaycan Respublikası üzrə çirkləndirici tullantıların ümumi sayının yalnızca 0,003%-ni təşkil edir. Şəhərdə atmosfer havasının çirklənməsinin əsas mənbəyi avtomobil nəqliyyatı hesab olunur.

Şəhərin su obyektlərinin qənaətbəxş olmayan vəziyyəti kanalizasiya xətlərinin qeyri-kafi vəziyyəti, kifayət qədər təmizlənməmiş çirkab suların suaxarlara tökülməsi ilə bağlıdır.

Əhaliyə verilən suyun keyfiyyəti heç də həmişə sanitar-gigiyena normativlərinə müvafiq olmur. Bundan başqa, su təchizatı sistemlərinin bərpa olunmağa ehtiyacı var, beləki, təkrar çirklənmə istisna olunmur.

Şəmkirdəki radiasiya şəraiti normativ qiymətləri keçmir.

17.2. Atmosfer hövzəsinin ekoloji vəziyyətinin təhlili

Atmosferin çirklənmə səviyyəsi bir sıra amillərlə müəyyən olunur:

- ərazinin iqlim xüsusiyyətləri ilə
- çirklənmənin stasionar mənbələrindən atmosfer havasına atılan çirkləndirici maddələrin xüsusiyyətləri və həcmi ilə
- zərərli nəqliyyat vasitələrinin tullantıları ilə

Şəhər ərazisində atmosfer havanı çirkləndirən nəhəng sənaye mənbələri yoxdur. Şəhər sənayesi kənd təsərrüfatı xammalı emal edən kiçik müəssisələrlə təmsil olunur. Şəmkirdə atmosfer havanı çirkləndirən əsas mənbə avtomobil nəqliyyatı hesab olunur.

Şəmkir ərazisində atmosfer havasının çirklənməsinə nəzarət həyata keçirilmir. Statistik məlumatlar bütövlükdə yalnız Şəmkir rayonu üçün mövcuddur. Atmosferə buraxilan zərərli tullantıların həcmi və strukturu aşağıdakı cədvəldə təqdim olunmuşdur.

Cədvəl 17.1

Stasionar mənbələrdən atmosfer havasına atılan çirkləndirici maddələr (min ton)

İqtisadi və inzibati rayon və şəhərlərin adları	2000	2005	2009	2010	2011	2012	2013	2014
Azərbaycan Respublikası	515,4	557,9	300,0	214,8	224,0	226,5	197,3	189,3
Bakı şəhəri	333,8	464,6	234,6	164,6	160,2	156,7	132,0	134,1
Gəncə-Qazax iqtisadi rayonu	17,2	7,7	2,9	2,1	2,7	1,9	2,0	2,1
Şəmkir rayonu	2,1	0,03	0,02	0,002	0,01	0,03	0,0	0,005

Mənbə: Azərbaycanda ətraf mühit, meşəçilik, balıqçılıq və ovçuluq təsərrüfatları. Statistik məcmuə. Bakı, 2015 il

Son 10 il ərzində stasionar mənbələrdən atmosfer havasına atılan çirkləndirici maddələr əhəmiyyətli dərəcədə azalmışdır. Birinci növbədə, bu istehsalatın bağlanması, eləcə də istehsal həcminin azaldılması ilə bağlıdır. Stasionar mənbələrdən olan çirkləndirici maddələrin ümumi sayına görə Şəmkir rayon tullantıları Azərbaycan Respublikası üzrə tullantıların sayının cəmi 0,003%-ni təşkil edir, halbuki, Bakıdakı stasionar mənbələr 70%-ni təşkil edir.

Cədvəl 17.2

2014-ci ildə inqrediyentlər üzrə ölkənin iqtisadi və inzibati rayon və şəhərlərinin atmosfer havasına stasionar mənbələrdən atılan çirkləndirici maddələr (ton).

İqtisadi və inzibati rayon və şəhərlərin adları	Atmosfer havasına atılan çirkləndirici maddələr - cəmi	o cümlədən:				
		bərk maddələr	qazaoxşar və maye maddələr	onlardan:		
				kükürd anhidridi (SO2)	karbon oksidi (CO)	azot oksidləri (NO2)
Azərbaycan Respublikası	189 259,2	8 952,4	180 306,8	1 560,3	32 172,5	19 504,9
Bakı şəhəri	134 058,4	6 326,0	127 732,4	879,2	10 644,3	9 658,0
Gəncə-Qazax iqtisadi rayonu - cəmi	2 133,1	976,7	1 156,4	195,5	248,0	251,7
Şəmkir rayonu	4,5	0,2	4,3	1,3	2,0	0,2

Mənbə: Azərbaycanda ətraf mühit, meşəçilik, balıqşılıq və ovçuluq təsərrüfatları (statistik məcmuə). Bakı, 2015

Şəmkirdə atmosferi çirkləndirən əsas mənbə avtomobil nəqliyyatı hesab olunur. Avtomobillərin sayı hər il artır. Bundan başqa, şəhərdə yanacağın keyfiyyətini yoxlayan vahid sistem yoxdur, küçə-yol xətləri kifayət qədər abadlaşdırılmamışdır.

Şəmkirdə atmosfer yalnızca yerli sənaye obyektlərinin və nəqliyyatın tullantıları ilə çirklənmir, eyni zamanda bu zonaya hava kütlələri Azərbaycan Respublikasının digər rayonlarından və Gürcüstandan zərərli maddələr gətirir.

17.3. Su hövzəsinin vəziyyətinin təhlili

Əhalinin təsərrüfat-içməli su təchizatı mənbələri kimi yeraltı və səth sularından istifadə olunur. Şəhər əhalisinin 40 %-i içməli su ilə desentralizasiya olunmuş su təchizatı sistemindən təmin olunur.

2011-ci ildən bəri "Şəmkir şəhəri su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması layihəsi" layihəsi çərçivəsində mərkəzi su təchizatı və kanalizasiya sisteminin yaradılması üzrə işlər həyata keçirilir. Aparılan tədbirlər su obyektlərinin sanitar vəziyyətinə və əhali tərəfindən istifadə olunan suyun keyfiyyətinə müsbət təsir göstərir.

Şəhərə verilən suyun fiziki-kimyəvi tərkibi üzrə statistik məlumatlar mövcud deyil. Suyun keyfiyyətinin ölçülməsi üçün müntəzəm olaraq suyun çirklənmə əmsalını müəyyən edən fiziki-kimyəvi xüsusiyyətlərin təhlilinin aparılması zəruridir.

Şəhər ərazisində səth və yeraltı suların əsas çirklənmə mənbələri su tutarlara təmizlənməmiş çirkab sularının tökülməsi, eləcə də məişət tullantılarının münasib olmayan ərazilərə yığılması hesab olunur. Bundan başqa, şəhər ərazisində səth sularının vəziyyətinə mənfi təsir göstərən yağış suları novlarının təmizlənməsi həyata keçirilmir.

Şəhərin xeyli hissəsi mərkəzləşdirilmiş kanalizasiya sistemi ilə əhatə olunmamışdır. Şəhərdə 203 km kanalizasiya xətlərinin tikintisi aparılır (hal hazırda 115 km tikilmişdir). Novların ayrılması toplanan rezervuarlarda kanalizasiya xətləri üzrə həyata keçirilir. Təmizləmə qurğuları mövcud deyil.

Yeraltı suların çirklənməsi daha aşağıda yerləşən qatlarda çirkləndirici maddələrin süzülməsi ilə əlaqədardır. Artezian su qatları suqəbuledici yerlərdə çirklənə bilər, ona görə də su təchizatı mənbələrinin sanitar mühafizə zonalarına riayət olunmalıdır (üç zolaq tərkibində).

17.4. Torpaq örtüyü vəziyyətinin analizi və qiymətləndirilməsi

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən Şəmkir ərazində torpaqların çirkləndirilməsi üzrə monitorinq işləri aparılmır.

Torpaqlar səthdə, müəssisələrin və avtonəqliyyatın tullantılarında, yağış sularının tullantılarında yığılan sənaye və məişət tullantılarından ibarət toksik maddələrin əsas toplayıcısı hesab olunur.

Yaşayış binaları ərazisində torpaqların çirklənməsinin əsas səbəbi aşağıdakılardır:

- tullantıların, o cümlədən civə tərkibli tullantıların seçilib yığılma və emalı sisteminin olmaması;
- planlı-müntəzəm təmizləmə xidmətləri ilə əhalinin natamam təmin olunması;
- əhalinin kanalizasiya sistemi ilə natamam təmin olunması;
- bərk məişət, eləcə də müasir ekoloji və sanitar-epidemioloji tələblərə cavab verən bərk məişət tullantıların yerləşdirilməsi üçün müasir poliqonun mövcud olmaması.

Tikinti daşı çıxarılan yerlərdə torpaq örtüyü pozulub. Karxana ərazilərinin rekultivasiyası aparılmayıb. Deqradasiya olunmuş (pozulmuş) torpaqlar üzrə dəqiq məlumatlar yoxdur.

17.5. Təsirin fiziki faktorları

Səs çirklənməsi

Səs-küyün əsas mənbəyi avtomobil nəqliyyatıdır. Şəhər küçələrində və ətraf ərazilərdəki səs səviyyəsi nəqliyyat axının intensivliyindən və strukturundan, yol şəraitindən, yaşıllaşdırma xüsusiyyətlərindən və tikintidən asılıdır.

Ekoloji amil kimi səs tez yorulmaya, zehni aktivliyinin zəifləməsinə, nevroza, ürək-damar xəstəliklərinin artmasına, mərkəzi sinir sisteminin həddindən artıq gərginləşdirilməsinə, görmə qabiliyyətinin pisləşməsinə və s. gətirib çıxarır. Səs narahatçılığını yüksək səs səviyyəsi olan (60 dBA-dən çox) antropogen mənbələr yaradır. Yaşayış əraziləri üçün yol verilən səs səviyyəsinin normaları gündəlik və gecə vaxtı üçün 60 və 50 dBA, yaşayış binalarının məhəllədaxili əraziləri üçün 55 və 45 dBA təşkil edir.

Elektromaqnit şüalanma

Şəhər ərazisində elektromaqnit şüalanma mənbələri enerjiyə qənaət obyektləri, radiotezlikli diapazon şüalanması olan obyektlər hesab olunur.

Elektromaqnit şüalanma mənbəyinin təsirinin intensivliyi işlək tezliklərin gücündən, diapazonundan və antenna sisteminin konstruktiv fərqliliklərindən asılıdır. Mənbənin təsiri üç səviyyədə qiymətləndirilir: antena asma səviyyəsində (bioloji cəhətdən yaranan təhlükəli zona), yuxarı mərtəbə hündürlüyündə - məhdud tikinti zonası, torpaqda - sanitar-mühafizə zonasında.

Radiotezlikli şüalanma mənbələrinin böyük hissəsi üçün tikinti məhdudiyyət zonası və sanitar-mühafizə zonasının təşkili nəzərdə tutulmur, belə ki, əhali üçün onların təhlükəsizliyi texniki vasitələrlə təmin olunmalıdır.

Radiasiya şüalanması

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata əsasən Şəmkir ərazisində radiasiya fonuna nəzarət gündəlik olaraq həyata keçirilir.

Şəhərdə gündəlik radiasiya fonunun dəyəri təbii fon daxilində dəyişir (6-15 mkR/st).

Şəmkirdə radiasiya vəziyyəti illərdən bəri stabil olaraq qalır və normativ dəyərləri keçmir.

17.6. Xüsusi təyinatlı yaşıllaşdırma

Xüsusi təyinatlı yaşıllaşdırmalar avtomobil yollarının kənarında əkilən bitkilər, sanitar-mühafizə zonalarının yaşıllaşdırılmış əraziləri ilə təmsil olunur. Təbii yaşıllaşdırmaya yol kənarlarında əkilən qazonlar, ağaclar və kollar aiddir. Qazonlar, çiçəkliklər və əkilmə bitkilər avtomagistralların yaxınlığında havanın tozlanmasını və qazlaşmasının azalmasına təsir edir və

şəhər küçələrinə səliqəli görünüş verir. Xüsusi təyinatlı yaşıllaşdırma ərazilərinə qəbirstanlıqlar da aiddir. Şəhər ərazisində 5 qəbirstanlıq vardir.

17.7. Ətraf mühitin mühafizəsi ilə bağlı Baş planda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər

Ekoloji vəziyyəti optimallaşdırma üzrə planlaşdırma tədbirləri kompleks xüsusiyyətə malikdir və ərazinin ekoloji cəhətdən əsaslandırılmış funksional zonalaşdırmanın quraşdırılması, mühəndis infrastrukturunun bərpası və inkişafı, nəqliyyat infrastrukturunun optimallaşdırılması ilə əlaqədardır. Layihə təklifləri ərazinin sabit və ekoloji baxımdan təhlükəsiz inkişafının təmin olunmasına, təbiətdən səmərəli istifadəyə, əhalinin həyat fəaliyyəti üçün əlverişli şəraitin formalaşdırılmasına yönəldilmişdir.

Layihədə şəhər ətraf mühit şəraitinin kompleks ekoloji-şəhərsalma analizi yerinə yetirilmişdir və əsas problem məsələləri üzə çıxarılmışdır: əhalinin sağlamlığına və ətraf mühitə zərərli təsirlərin mənbəyi müəyyən edilmişdir, ekoloji risk obyektləri aşkara çıxarılmışdır, sənaye-kommunal müəssisələrindən, nəqliyyat obyektlərindən və mühəndis infrastrukturundan olan sanitar- mühafizə zonaları müəyyən olunmuşdur.

Ümumilikdə, şəhər ərazisində əsas ekoloji problemlər su obyektlərinin və torpaq qatının çirklənməsi, ərazinin kifayət qədər təşkil olunmamış sanitar təmizlənməsi, atmosfer havasının avtonəqliyyatla çirklənməsi və rejimlərin pozulması və BMT zibilliklərindən və qəbirstanlıqlardan və sanitar-mühafizə zonalarının ölçüsü ilə əlaqədardır. Həmçinin əhaliyə keyfiyyətli içməli suyun verilməsi və səmərəli sudan istifadə, səth və yeraltı suların mühafizəsi problemləri də mövcuddur.

Layihədə şəhərin cənub-şərq hissəsində istehsal zonasında yeni sənaye müəssisələrinin layihələndirilməsi və tikintisi nəzərdə tutulur. Tikinti işi ekoloji normativlərə, sanitar-mühafizə zonalarına riayət olunmaqla aparılmalıdır.

Sanitar-mühafizə zonaları kimyəvi, bioloji və ya fiziki təsirlərin mənbəyi olan sənaye müəssisəsinin və obyektinin vacib elementi hesab olunur. Baş plana əsasən qazanxana və istehsal obyektlərinin bərpa olunması və müasir avadanlıqlarla təchiz olunması üzrə tədbirlərin həyata keçirilməsi təklif olunur.

Səməd Vurğun küçəsi boyunca keçmiş konyak zavodunun ərazisində ictimai və ticarət əhəmiyyətli zona ayrılmaqla ərazinin bərpa olunması təklif olunur.

Bərpa və rekultivasiya işlərinin aparılması üçün hal hazırda BMT zibillikləri saxlanan 20 Yanvar küçəsi boyunca uzanan keçmiş şərab zavodunun ərazisi nəzərdə tutulur.

Təmizlənməmiş yağış sularının suaxarlarına tökülməsi ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün birinci növbədə məqsəd kanalizasiya axınlarının təmizləyici qurğularının tikilməsi, eləcə də yeni kanalizasiya xətlərinin salınmasıdır.

Kanalizasiya xətlərinin və təmizləmə qurğularının tikintisindən başqa toplama və tullantılardan istifadə edilməsi sisteminin təkmilləşdirilməsi yolu ilə su obyektlərinin çirklənməsinin qarşısını almaqla, sonradan buraxılan suların təmizlənməsi ilə yağış kanalizasiyasının tikilməsi zəruridir. Bir sıra ayrıca tədbirlər su mühafizə zonalarının və sahil mühafizə zolaqlarının, su təchizatı mənbələrinin sanitar-mühafizə zonalarının rejimlərinə riayət etməklə bağlıdır.

Avtomobil yollarından olan səs təsirləri aktual məsələ hesab olunur. Bu məsələnin həlli, yol kənarlarında müxtəlif səviyyəli yaşıl mühafizə zolaqlarının əkilməsi, küçə-yol xətlərinin abadlaşdırılması, yol örtüyünün keyfiyyətinin yaxşılaşdırılması və s. yollarla mümkündür.

Təbiəti mühafizə fəaliyyətinin mühüm istiqaməti şəhər ərazisində daş karxanalarının fəaliyyəti nəticəsində pozulmuş torpaqların rekultivasiyası layihəsinin hazırlanması və həyata keçirilməsi sayılır.

Əhalinin yaşayışı üçün sağlam mühitin yaradılması birinci növbədə olan məsələ hesab olunur. Bunun üçün şəhərləşmiş ərazilərin, pozulan ərazilərin və təbii sahələrin balansını təmin etmək üçün bərpa etmə tədbirlərinin keçirilməsi, ərazinin abadlaşdırılma səviyyəsinin artırılması,

eləcə də müxtəlif növ yaşıllıqların və landşaft görünüşünün şəhər tikinti elementləri ilə uyğunlaşdırılması: idman meydançalarının təchiz olunması, çiçək ləklərinin əkilməsi, qaraj ərazilərinin quraşdırılması, oranjereyaların təşkil olunması və s. məsləhət görülür.

FƏSIL 18. BİRİNCİ NÖVBƏDƏ HƏYATA KEÇİRİLMƏLİ TƏDBİRLƏR

18.1 Birinci növbə üçün nəzərdə tutulan mənzil tikintisi.

Şəmkirdə Baş plana əsasən birinci növbə üçün ümumi sahəsi 272 min m^2 olan mənzil tikintisi planlaşdırılır. Birinci növbənin sonunda (2025 il) şəhərin mənzil fondu mövcud fondun hissələrinin azaldılması nəzərə alınmaqla ümumi sahəsi 1267 min m^2 qədər yüksələcək. Şəmkir şəhəri orta mənzil təminatı adambaşına 25,3 m^2-ə qədər yüksələcək. Birinci növbədə 80,5 ha ərazinin (yeni zonalar və bərpa işləri) mənimsənilməsi nəzərdə tutulur. Tikinti ərazilərinin çoxluğu ehtimal olunur. Yeni yaşayış evlərinin və bərpa olunacaq fondun bir hissəsinin istismarı 2025-ci ildən sonra tamamlanacaq.

Cədvəl 18.1

Birinci növbədə yeni mənzil tikintisi meydançaları (2025-ci il)

Meydançanın adı	Tikinti tipi	Sahə, ha	Yerləşdirilməsi mümkün olan mənzil fondu, ümumi sahəsi min m^2	Nəzərdə tutulan əhalinin sayı, min nəfər
1-ci növbə (2025 il)				
Cəyirçayın sol sahili				
Meydança №1	Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	43,0	55,9	2,24
Meydança №2	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	12,7	57,1	2,28
Meydança №3	Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	2,1	9,4	0,38
Cəyirçayın sağ sahili				
Meydança №4	Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	22,7	149,8	5,99
Cəmi: Birinci növbəyə, 2025-ci ilə qədər		80,5	272,2	10,89
Orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları		22,7	149,8	5,99
Azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları		14,8	66,5	2,66
Həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri		43,0	55,9	2,24

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

18.2. Birinci növbə üçün nəzərdə tutulan mədəni-məişət xidməti obyektlərinin tikintisi

Xidmət sahəsinin inkişafı və təkmilləşdirilməsi əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olan şəhər inkişafının vacib şərtidir. Birinci növbə üçün Baş planda

tələbatın xüsusi ilə hiss olunduğu xidmət müəssisələrində tikintinin aparılması təklif olunur. Bundan başqa, birinci növbə üçün şəhər ərazisinin kompleks mənimsənilməsi ehtiyacı olduğuna görə Baş plana əsasən ilk növbədə yeni tikintilərin meydançalarında obyektlərin yerləşdirilməsi planlaşdırılır.

Yeni tikintidən başqa Baş planın həyata keçirilməsinin birinci növbəsində mövcud obyektlərin bərpa olunmasına və müasirləşdirilməsinə böyük əhəmiyyət verilir. Bu bütün növ xidmət obyektlərinə münasibətdə ədalətlidir.

Aşağıdakı cədvəldə birinci növbə üçün Şəmkirdə Baş plana əsasən yerləşdirilməsi təklif olunan yeni böyük xidmət obyektlərinin siyahisi göstərilir.

Cədvəl 18.2

Baş planı tərəfindən birinci növbədə yerləşdirilməsini təklif edilən ən iri xidmət obyektlərinin siyahısı

№	Adı	Yerləşdirilmə ərazisi
	Təhsil müəssisələri	
1	Uşaq bağçaları	Mövcud tikilib abadlaşdırılmış ərazidə: tikilən uşaq bağçası (8 №-li) Yeni tikinti meydançalarında: 1 №-li, (200 yerə bir obyekt), 4 №-li (hərəsi 200-yerlik 2 obyekt)
2	Ümumi təhsil müəssisələri	Mövcud tikilib abadlaşdırılmış ərazidə: 4 №-li yeni tikinti meydançasında Nizami adına daşıyacaq tikilən məktəb (1 obyekt , 640 yer)
3	Məktəbdənkənar təhsil müəssisələri	Mövcud tikilib abadlaşdırılmış ərazidə: uşaq musiqi məktəbinin yeni binasının tikintisi. 4 №-li yeni tikinti meydançasında (1 obyekt, 200 şagird yeri)
4	İlk peşə-ixtisas təhsil müəssisələri	Keçmiş konyak zavodunun meydançasında yeni binanın tikintisi hesabına fəaliyyətdə olan 100 şagird üçün peşə liseyinin genişləndirilməsi (renovasiya)
	Səhiyyə müəssisələri	
1	Xəstəxana şəhərciyi	Yeni tikinti meydançasında: sağ sahil, respublika əhəmiyyətli avtomobil yolunun cənubunda
	Mədəniyyət müəssisələri	
1	Kütləvi kitabxanalar	Mövcud tikilib abadlaşdırılmış ərazidə: Şəmkir rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemin yeni binasının tikintisi
	İdman qurğuları	
1	Səthi qurğular	Mövcud tikilib abadlaşdırılmış ərazidə yerləşən məktəblərdə, həmçinin şəhərin mərkəzi hissəsindəki köhnə stadionun yerində stadion və müstəvi qurğularının yenidən qurulması (renovasiya)

Mənbə: Cədvəl hesablamalar əsasında tərtib edilib.

18.3. Birinci növbə üçün nəzərdə tutulan kənd təsərrüfatı, sənaye və anbar təsərrüfatı tikintisi

Sənaye inkişafı üzrə birinci növbə tədbirləri kimi aşağıda göstərilənlər nəzərdə tutulur:

- tikinti materialları istehsal edən müəssisələrin tikintisi (2025-ci ilə kimi 500 yeni iş yeri);
- xalça və örtüklərin (çexolların) istehsalının təşkili (2025-ci ilə qədər 250 yeni iş yeri);
- metal mebellər istehsal edən zavodun tikintisi;
- alüminium pəncərələr və qapı blokların, furnitur və mebellərin istehsalı üzrə zavodun tikilməsi;
- ət və ət məhsullarının istehsalı, qəhvə və çay qablaşdırılması və çəkilib qablara doldurulması, süd və dondurma istehsalı, tərəvəzlər və konserv istehsalı üzrə müəssisələrin (sexlərin) tikintisi;
- üzvi gübrələrin, yemlərin və bioəlavələrin (kənd təsərrüfatı istehsalının qalıqlarından) istehsalı və çəkilib qablara doldurulması üzrə sexlərin təşkil edilməsi;
- kənd təsərrüfatı istehsalında və meliorasiyada xidmətlərin təklif olunması üzrə müəssisələrin təşkil edilməsi.

Yeni sənaye müəssisələri şəhərin cənub-şərq hissəsində, quş fabrikinə və Yeni Həyat kəndinə gedən yolun üzərində prioritet istehsalat zonasında yerləşdiriləcək.

"Gəncə-Qazax iqtisadi rayonu üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırma sxemi"nin layihə təklifinə əsasən Şəmkir rayonunda kənd təsərrüfatının inkişafı istiqamətində Şəmkir rayonunda Dövlət Baytarlıq Nəzarəti Xidmətin binalarının (15 ədəd yerli bina) və Dövlət toxumçuluq və aqrokimyəvi laboratoriyaların tikintisi nəzərdə tutulur. Şəhər kənd təsərrüfatı üçün vacib idarə və xidmət funksiyalarını yerinə yetirməyə davam edəcək. Şəmkir rayonunda aşağıda sadalananların tikintisi planlaşdırılır:

- üzüm emalı üzrə yeni zavod;
- yun təmizlənməsi və emalı üzrə yeni müəssisə;
- əhalidən (istehlakçı korporativlər tərəfindən) aldıqdan sonra süd və ət məhsullarının saxlanılması və emal olunması üzrə istehsalat obyektləri;
- meyvə və tərəvəz emalı üzrə sexlər;
- kartof emalı üzrə zavod (kartof kraxmalı, çips və s. istehsalı).
- 500 ton gücündə meyvə, tərəvəz və bostan bitkilərinin qurudulması üzrə sex.

Bundan başqa təklif olunur:

- Tərəvəzçilik institutu filialının infrastrukturunun inkişafı;
- rayonun 62 kənd yaşayış məntəqələrində kənd təsərrüfatı istehsalçılarının texnika ilə təmin olunması;
- rayon sallaqxanalarının (ət sexi) tikintisi.

Birinci növbə üçün anbar və logistika təsərrüfatının inkişafının bir hissəsində kommunal-anbar zonasının yerləşməsinin saxlanılması nəzərdə tutulur, bu zonanın bazasında gələcəkdə tərəvəz və hazır məhsulların, meyvə və tərəvəz emal edilməsi, saxlanılması və paylaşdırılması üzrə kiçik logistik (paylayıcı) mərkəz yaratmaq imkanı yaranır. Sarıtəpədə anbar kompleksi saxlanılır və inkişaf etdirilir.

18.4. Birinci növbə üçün nəzərdə tutulan nəqliyyat və mühəndis təminatı obyektlərinin tikintisi

Küçə və yollar, süni yol qurğuları

Mövcud tikilib abadlaşdırılmış ərazinin sərhədləri çərçivəsində magistral küçə-yol şəbəkəsinin inkişafı aşağıdakı istiqamətlərin formalaşması hesabına planlaşdırılır:

▪ Zaur Sarıyev və Rəsul Rza küçələrini birləşdirən rayon əhəmiyyətli magistral küçənin tikintisi (1,1 km);

▪ Sevil Qazıyeva küçəsinin şəhərin Sol sahil hissəsinə davamı istiqamətində Cəyirçay çayı üzərindən körpü keçidinin tikintisi.

Layihədə birinci növbədə mənimsənilməsi planlaşdırılan ərazilərdə küçə-yol şəbəkəsinin inkişafı nəzərdə tutulur:

▪ Şəhərin şimal-şərq hissəsində M-2 Bakı - Qazax - Gürcüstan ilə sərhəd avtomobil yolu boyunca planlaşdırılan ortamərtəbəli tikinti kvartalında yerli əhəmiyyətli küçələrin çəkilməsi (ümumi uzunluğu 3,1 km);

▪ Şəhərin Sol sahil hissəsində Şəmkir-Şiştəpə-Dağ Tatar avtomobil yolu boyunca layihələşdirmə meydançaları sərhədlərində nəqliyyat əlaqələrini və ümumşəhər əhəmiyyətli magistral yollara çıxışları təmin edən rayon əhəmiyyətli magistral küçələrin (ümumi uzunluğu 1,8 km) çəkilməsi;

▪ Şəhərin Sol sahil hissəsində Şəmkir-Şiştəpə-Dağ Tatar avtomobil yolu boyunca tikilib abadlaşdırılmış yaşayış ərazidə lokal nəqliyyat və piyada əlaqələrini təmin edən yerli əhəmiyyətli küçə və yolların (ümumi uzunluğu 3,1 km) çəkilməsi.

Avtonəqliyyat vasitələrinə xidmət və onların saxlanması obyektləri

▪ M-2 Bakı - Qazax - Gürcüstan Respublikası ilə Dövlət sərhədi avtomobil yolu boyunca şəhərin girişində texniki xidmət stansiyasının tikintisi;

▪ Orta- və azmərtəbəli mənzil tikintisi layihləşdirilən meydançalarda fərdi minik avtomobillərinin daimi saxlanması üçün yerlərin təşkili

Birinci növbədə mühəndis infrastrukturunun inkişafı sahəsində şəhər ərazisinin mühəndis təminatının bütün istiqamətləri üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Su təchizatı

2025-ci ilə qədər köhnəlmiş su kəməri xətlərinin bərpası (3,0 km), küçə su kəməri xətlərinin tikintisi (23,0 km), su təchizatı mənbələrin sanitar-mühafizə zonaların layihələrinin hazırlanması, onların tətbiqi və SMZ-in abadlaşdırılması planlaşdırılır.

Təsərrüfat-məişət kanalizasiyası

2025-ci ilə kimi təmizləyici qurğularının tikintisi(25 min m^3/s.); küçə kanalizasiya xətlərinin (17,0 km) və nasos stansiyalarının (1 ədəd) tikintisi nəzərdə tutulur.

Yağış kanalizasiyası

Birinci növbədə uzunluğu 64 km olan yağış kanalizasiya xətlərinin və yağış axımlarının təmizlənməsi üçün 11 təmizləyici qurğusunun tikintisi zəruridir.

Istilik təchizatı

2025-ci ilə kimi 3 işlək vəziyyətdə olmayan mövcud qazanxanaların tamamilə avadanlıqlarının yenilənməsi ilə bərpası, Cəyirçay çayının sol sahilində yeni azmərtəbəli mənzil tikintisi *(meydançalar № 2 və № 3)* üçün 5,4 Qkal/saat təxmini gücə malik və Cəyirçay çayının sol sahilində yeni orta mərtəbəli tikinti *(meydança № 4)* üçün 11,7 Qkal/saat təxmini gücə malik 2 qazanxana tikintisi nəzərdə tutulur.

Qaz təchizatı

2025-ci ilə kimi polietilen boruların tətbiq olunması ilə həddindən artıq köhnəlmiş qaz kəmərlərinin bərpası, qaz yanacağına keçən müasir qazanxanalara qaz kəmərlərinin çəkilməsi, Cəyirçay çayının sol sahilində yeni azmərtəbəli mənzil tikintisi (meydança № 2 и № 3) və Cəyirçay çayının sağ sahilində yeni orta mərtəbəli tikinti (meydança № 4) üçün 2 qazanxanaya qoşulan qaz kəmərinin tikintisi, yeni mənzil tikinti meydançalarında qaz tənzimləyən məntəqələri olan orta təzyiqli paylayıcı qaz kəmərlərinin tikintisi (3,2 km) nəzərdə tutulur.

Elektrik təchizatı

2025-ci ilə kimi mövcud transformatorları böyük gücə malik olan transformatorlarla əvəz etməklə «Şəmkir-1» və «Şəmkir-2» 35/10 kV gərginlikli mövcud yarımstansiyaların bərpası, 10 kV paylayıcı məntəqələrin, 10/0,4 kV transformator yarımstansiyaların və yeni tikinti istifadəçilərinin elektrik təchizatı üçün 10 kV xətlərin tikintisi, enerjiyə qənaət edən texnologiyaları tətbiq etməklə mövcud 6-10/0,4 kV transformator yarımstansiyalarının bərpası, kabel kəsimlərini artırmaqla və şəhər ərazisində çoxmərtəbəli binaların hava xətlərini kabel xətlərinə keçirməklə mövcud 6-0,4 kV xətlərin bərpası nəzərdə tutulur.

Rabitə

2025-ci ilə kimi Şərq meydançasında 10 000 nömrə tutumlu yeni ATS-in və Mərkəzi meydançada və bərpa olunan ərazilərdə daşına bilən yarımstansiyaların açılması, yeni tikinti meydançalarına və obyektlərinə xətt qurğularının tikintisi, televiziya və radio yayım proqramlarının artırılması və kabel televiziyası sisteminin gələcək inkişafı nəzərdə tutulur.

FƏSİL 19. ƏSAS TEXNİKİ-İQTİSADİ GÖSTƏRİCİLƏR

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
1	2	3	4	5	6
1.	**Əhali,** o cümlədən	min nəfər	40,6	50,0	58,0
1.1.	***Daimi əhalinin yaş strukturu:***				
1.1.1.	əmək qabiliyyətli yaşlıdan kiçik	min nəfər	11,8	14,9	16,0
1.1.2.	əmək qabiliyyətli yaşında	min nəfər	23,1	27,5	31,6
1.1.3.	əmək qabiliyyətli yaşlıdan böyük	min nəfər	5,7	7,6	10,4
1.2.	***Daimi əhalinin cins tərkibi:***				
1.2.1	kişilər	min nəfər	20,3	25,0	29,0
1.2.2.	qadınlar	min nəfər	20,3	25,0	29,0
1.3.	***Daimi əhalinin sıxlığı:***	nəfər/ha	3,2	4,0	4,6
	yaşayış ərazisinin çərçivəsində	nəfər/ha	21,8	25,7	27,3
	tikilib –abadlaşdırıl-mış şəhər ərazisinin çərçivəsində	nəfər/ha	18,3	20,9	21,3
2.	**Ərazi**				
2.1.	***Planlaşdırılan ərazinin sahəsi – cəmi,***	ha	12 604,4	12 604,4	12 604,4
2.2.	***o cümlədən ərazi zonaları üzrə:***				
2.2.1.	yaşayış zonası, o cümlədən	ha	1 863,8	1 907,3	1971,8
2.2.1.1.	çoxmərtəbəli və çoxmənzilli yaşayış binaları	ha	0	0	0
2.2.1.2.	orta mərtəbəli və çoxmənzilli yaşayış binaları	ha	8,3	31,0	52,5
2.2.1.3.	azmərtəbəli və çoxmənzilli yaşayış binaları	ha	16,5	24,3	45,7

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
2.2.1.4.	mənzilyanı torpaq sahələri olan bloklaşdırılmış yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	ha	1 839,0	1 852,0	1 873,6
2.2.2.	ictimai-işgüzar zonası	ha	83,0	93,4	202,6
2.2.3.	rekreasiya zonası *(o cümlədən meşələr və su obyektləri)*	ha	37,1	37,1	109,6
2.2.4.	istehsalat zonası *(sənaye, elmi-istehsalat, kommunal-anbar)*	ha	362,7	362,7	413,1
2.2.5.	nəqliyyat infrastrukturu zonası	ha	8,1	8,1	11,9
2.2.6.	mühəndis infrastrukturu zonası	ha	7,5	7,5	10,4
2.2.7.	kənd təsərrüfatı zonası	ha	5 592,1	5 592,1	5 592,1
2.2.8.	Kiçik Qafqazın dağ yamacları zonası	ha	2 817,2	2 817,2	2 817,2
2.2.9.	xüsusi təyinatlı zona	ha	44,5	58,7	78,9
2.2.10.	hərbi və digər rejimli zonalar	ha	41,3	41,3	41,3
2.2.11.	xüsusi şərtlərlə istifadə olunan zonalar	ha	919,0	845,7	265,1
2.2.12.	xüsusi qorunan ərazilər	ha	0	0	0
2.2.13.	ehtiyat zonası	ha	m/y	m/y	215,9
	o cümlədən				
2.2.13.1	yaşayış	ha	—//—	—//—	176,0
2.2.13.2	ictimai-işgüzar	ha	—//—	—//—	11,9
2.2.13.3	rekreasiya	ha	—//—	—//—	28,0

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
2.3.	***Torpaqların mülkiyyət növlərinə görə bölgüsü:***				
2.3.1.	dövlət	ha (%)	851,68 (7%)	851,68 (7%)	851,68 (7%)
2.3.2.	bələdiyyə	ha (%)	8 661,73 (69%)	8 618,73 (68%)	8 489,83 (67%)
2.3.3.	xüsusi mülkiyyətdə olan	ha (%)	3 091,00 (24%)	3 134,0 (25%)	3 262,9 (26%)
2.4.	***Adambaşına düşən ümumi ərazi***	m^2	3 104	2 520	2 173
3.	**Mənzil fondu**				
3.1.	***mənzil fondunun ümumi sahəsi - cəmi, o cümlədən:***	min m^2	1 132,3	1 400,0	1 740,0
3.1.1.	çoxmərtəbəli *(9 və daha çox)* və çoxmənzilli yaşayış binaları	min m^2	0	0	0
3.1.2.	orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	min m^2	59,5	223,9	387,0
3.1.3.	azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	min m^2	46,3	95,1	203,2
3.1.4.	mənzil-istismar kontorunun balansında olan 1 mərtəbəli evlər	min m^2	29,7	29,7	29,7
3.1.5.	həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	min m^2	996,8	1 051,6	1 120,4
3.2.	***Sıradan çıxan (köhnəlmiş) mənzil fondu (70%-dən çox)***	min m^2	m/y	6,0	10,0
3.3.	***Yeni mənzil fondu – cəmi,***	min m^2	-	274,0	618,0

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
	çoxmərtəbəli *(9 və daha çox)* və çoxmənzilli yaşayış binaları	%	-	0	0
	orta mərtəbəli *(5-8 mərtəbəli)* və çoxmənzilli yaşayış binaları	%	-	60	53
	azmərtəbəli *(5 mərtəbəyə qədər)* və çoxmənzilli yaşayış binaları	%	-	20	27
	mənzilyanı torpaq sahələri olan bloklaşdırılmış yaşayış binaları	%	-	0	0
	həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri	%	-	20	20
3.3.1.	boş sahələrdə	min m^2	-	274,0	618,0
3.3.2.	bərpa olunan sahələrdə	min m^2	-	0	0
3.4.	***Əhalinin mənzil fondu ilə təminatı***	m^2/nəfər	27,9	28,0	30,0
4.	**Əhalinin sosial və mədəni-məişət xidmət müəssisələri ilə təminatı**				
4.1.	***məktəbəqədər təhsil müəssisələri*** – cəmi o cümlədən 1000 nəfər üçün	yer	650 (16)	1 550 (31)	3 500 (60,3)
4.2.	***ümumtəhsil müəssisələri*** – cəmi, o cümlədən 1000 nəfər üçün	şagird yeri	faktiki - 6 600 (162); layihə- – 4900 (121)	7 240 (145)	10 400 (179)
4.3.	***xəstəxanalar*** – cəmi, o cümlədən 1000 nəfər üçün	çarpayı	331 (8,1)	331 (6,6)	331 (5,7)
4.4.	***ambulator-poliklinika***	növbədə gələnlər	850 (20,9)	850 (17,0)	990 (17,0)

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
	müəssisələri – cəmi, o cümlədən 1000 nəfər üçün				
4.5.	***mədəniyyət müəssisələri*** – cəmi, o cümlədən 1000 nəfər üçün *(daimi əhali – bütün əhali, məcburi köçkünləri daxil olmaqla)*	yer	1030 (25,4)	4 000 (80,0)	4 600 (80,0)
4.6.	***kütləvi kitabxanalar*** – cəmi, o cümlədən 1000 nəfər daimi əhali üçün	min nüsxə	41,0 (1,0)	215,0 (4,3)	249,4 (4,3)
4.7.	***ticarət müəssisələri*** *(bazarlar daxil olmaqla)* – cəmi, o cümlədən 1000 nəfər üçün	ticarət sahəsi m^2	90 820 (2236)	100 000 (2000)	110 320 (1902)
4.8.	***iaşə müəssisələri*** – cəmi, o cümlədən 1000 nəfər üçün	oturacaq yeri	m/y[1] (48-40)	2 000 (40)	2 320 (40)
4.9.	***mehmanxana və mehmanxana tipli müəssisələr*** – cəmi, o cümlədən 1000 nəfər üçün	yer	164 (4,0)	364 (7,3)	564 (9,4)
4.10.	***məişət xidməti müəssisələri*** – cəmi, o cümlədən 1000 nəfər üçün	işçi yeri	m/y[2] (10,8-9,0)	450 (9,0)	522 (9,0)
4.11.	***bədən tərbiyəsi-idman qurğu kompleksləri:***				
4.11.1	bədən tərbiyəsi-idman qurğularının yerləşdirilməsi üçün sahələr *(ərazilər)* – cəmi, o cümlədən 1000 nəfər üçün	ha	7,8 (0,2)	40 (0,8)	46,4 (0,8)

[1] AzDTN 2.6–1-ə uyğun olaraq, normativ tələbat 4800 yer təşkil edir.
[2] AzDTN 2.6–1-ə uyğun olaraq, normativ tələbat 1080 iє yeri təşkil edir.

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
4.11.2.	ümumi istifadədə olan idman və trenajor zalları-cəmi, o cümlədən 1000 nəfər üçün	döşəmə sahəsi m^2	1 110 (27,4)	4 000 (80,0)	4 640 (80,0)
4.11.3.	üzgüçülük hovuzları-cəmi, o cümlədən 1000 nəfər üçün	güzgü sahəsi m^2	300 (7,4)	1 250 (25,0)	1 450 (25,0)
5.	**Nəqliyyat infrastrukturu**				
5.1.	***Magistral küçə və yolların uzunluğu***	km	54,1	68,3	89,0
5.2.	***Magistral küçə-yol şəbəkəsinin sıxlığı***	km/km^2	2,0	2,4	2,9
5.3.	***İctimai nəqliyyat şəbəkəsinin uzunluğu – cəmi, o cümlədən:***	km	21,2	40,8	49,8
5.3.1.	elektrikləşdirilmiş (elektrik qatarı, metropoliten, tramvay və trolleybus)	km	-	-	-
5.3.2.	avtobus	km	21,2	40,8	49,8
5.4.	***Körpülər, yolötürücülər, tunellər və yeraltı piyada keçidləri***	əd	4	5	6
5.5.	***1000 nəfərə düşən şəxsi minik avtomobilləri***	əd	100	150	200
6.	**Mühəndis-kommunikasiya təminatı**				
6.1.	***Elektrik enerjisinin sərfi***	min kVt ·saat/il	31 183	90 000	116 000
6.2.	***İstilik enerjisinin sərfi***	MVt/il	m/y	449 720	503 310
6.3.	***Təbii qazın sərfi***	min m^3/il	19 164	84 750	94 680
6.4.	***Suyun sərfi - cəmi, o cümlədən:***	min m^3/s.	7,0	15,1	17,4

Sıra №-si	Göstəricilərin adı	Ölçü vahidi	Mövcud vəziyyət, 2015-ci il	1-ci növbə, 2025-ci il	Hesablama dövrü, 2035-ci il
6.4.1.	içməli	min m^3/s.	m/y	13,2	15,2
6.4.2.	texniki	min m^3/s.	m/y	1,9	2,2
6.5.	***Çirkab suların həcmi - cəmi, o cümlədən:***	min m^3/s.	m/y	11,6	13,4
6.5.1.	məişət-təsərrüfat kanalizasiyası	min m^3/s.	m/y	9,7	11,2
6.5.2.	sənaye kanalizasiyası	min m^3/s.	m/y	1,9	2,2
6.6.	***Telefon şəbəkəsinin tutumu***	min nömrə	4,6	7,6	11,2
7.	**Ərazinin mühəndis hazırlığı və ətraf mühitin mühafizəsi**				
7.1.	***Səthi (yağış nəticəsində əmələ gələn) axın sularının təmizlənməsi üzrə qurğuların quraşdırılması***	əd.	0	12	13
7.2.	***Səthi suların ərazidən kənarlaşdırılması üzrə qurğuların (yağış kanalizasi-yasının) tikilməsi***	km	15,2	80,4	100,3
7.3.	***Cəyirçay məcrasının abadlaşdırılması və bərkidilməsiı***	km	m/y	20,6	20,6
7.4.	***Çuxurların (və ya çökəkliklərin) doldurulması***	ha/min m^3	m/y	82,1/165,7	35/71,4
7.5.	***Məişət zibilinin həcmi***	min m^3	62,5	77,0	89,3
7.6.	***Ümumi istifadədə olan ərazinin yaşıllaşdırılması***	%	0,17	0,64	0,64

Sıra №-si	**Göstəricilərin adı**	**Ölçü vahidi**	**Mövcud vəziyyət, 2015-ci il**	**1-ci növbə, 2025-ci il**	**Hesablama dövrü, 2035-ci il**
7.7.	***Ümumi istifadədə olan yaşıllıq əraziləri (park, meşə-park, bulvar, xiyaban, bağ və bağçalar) – cəmi:***	ha	22	81	81
7.7.1.	o cümlədən, adambaşına düşən	m^2	5,3	13,9	13,9